ISSN 2073-9249

MÜTƏRCÍM

ədəbi, elmi tərcümə jurnalı

№ 48 /2023

Jurnal
1996-cı ildən
nəşr olunur.

Təsisçilər:

Azərbaycan Yazıçılar Birliyi

"Mütərcim" Tərcümə Mərkəzi

Baş redaktor:
Telman Vəlixanlı

Redaktor:
Mətanət Qaraxanlı

Korrektor:
Aytəkin Sadıqova

Redaksiya heyəti

Akif Abbasov
Kamal Abdulla
Anar
Səlim Babullaoğlu
Nizami Cəfərov
Əsgər Əhməd
Ramiz Əkbər
İlyas Həmidov
Qorxmaz Quliyev
Məmməd Qocayev
Lidiya Qranovskaya
Rüstəm Kamal
Səfər Kəlbixanlı
Əlisa Nicat
Rafiq Novruzov
Ağarəhim Rəhimov
Sabir Rüstəmxanlı
Oqtay Səmədov
Fəxrəddin Yadigar
Cavanşir Yusifli

Redaksiyanın ünvanı:

Az 1014, Bakı şəh.,
Rəsul Rza küç., 125/39b.
Tel./faks: (994 12) **596 21 44**
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Lisenziya: AB 022058
Çapa imzalanıb: 31.11.2023.
Format: 84x108 1/16.
Tiraj: 300 nüsxə.

«Mütərcim»" Tərcümə Mərkəzində
yığılıb, səhifələnib və çap olunub.

Materiallardan istifadə edərkən jurnala istinad vacibdir.

© Mütərcim, 2023

BU SAYIMIZDA

BAŞ REDAKTORDAN

Yubileylərimizə ən gözəl hədiyyə
(“Mütərcim” Tərcümə Mərkəzinin 30, yaşımızın 60 ilinə) 4

DOST TƏBRİKİ

Telman Vəlixanlı (Cəfərov) – 60

Akif Abbasov. Professor Telman Vəlixanlının elmi, bədii və mənəvi dünyası 9

Akif Məmmədov – 70

T. Vəlixanlı. Unudulmaz dilçi və metodist-alimin “Seçilmiş əsərləri” işıq üzü görüb 15

Leyli Vəkilova – 100

А.Османзаде. 100-летию профессора Лейли Векиловой 17

QƏLƏBƏ QOXULU SƏTİRLƏR

Сабир Рустамханлы. Возвращение в Карабах (Отрывок из поэмы). *Пер. Надии Кафаровой* 20
Машаллах Мафтун. Шуша. *Пер. Гии Пачхаташвили* 22
Ширин Буньядова. Головы своей не склоняй… *Пер. Флоры Наджи* 23
Захид Халил. Дастан о Железном Кулаке. *Пер. Илахи Джарчиевой* 24
Эльчин Гусейнбейли. Ожидая выстрела в спину. *Пер. Таране Мамед* 27

AZƏRBAYCAN ƏDƏBİYYATINDAN YENİ TƏRCÜMƏLƏR

Вагиф Самедоглу. Стихи. *Пер. Надии Кафаровой* 31
Салам Гадирзаде. Усы. *Пер. Кямрана Гаджиева* 32

TƏRCÜMƏÇİNİN LABORATORİYASINDAN

Flora Nacinin tərcümələri

Ахмед Джавад. Гёйгёль. Не смолчу. **Рафаил Тагизаде.** Сомнение. **Адиля Незер.** Мир с лицом стихотворенья… **Эсьмира Мехигызы.** “Сейчас я – те места, где никогда не бывала…”. 42

DÜNYA ƏDƏBİYYATINDAN SEÇMƏLƏR

Mahir N.Qarayevin tərcümələrində

Alberto Moravia. Körpə. **Mario Benedetti.** Senyorita İriarte. **Oskar Yellinek.** Aktyor. **Kamilo Xose Sela.** Blanşar küçəsində sirli qətl. **Edqar Allan Po.** Amontilyado çəlləyi. **Marçello Venturi.** Heç zaman unutmayacağımız yay 47

ƏN YENİ RUS POEZİYASINDAN SEÇMƏLƏR

Səlim Babullaoğlunun təqdimat və tərcümələrində

Aleksandr Kuşner. Sergey Biryukov. Boris Rıji. İqor Melamed. Timur Kibirov. Maksim Amelin. Maksim Zamşev 70

KLASSİKLƏR VƏ MÜASİRLƏR

Из переводческого наследия Владимира Кафарова

Сулейман Рустам. Алиага Гюрчайлы 82

BU SAYIMIZDA

Современная азербайджанская поэзия

В переводах Надии Кафаровой

Ильхам Гахраман. Зарангиз Гайалы. Эльдаяг. Рабига Назимгызы 84

MÜASİR DRAMATURGİYA NÜMUNƏSİ

Yakov Ziskind. Uğurlu oturacaq. *Tərc. Akif Abbas* 87

JURNALIMIZDA TƏRCÜMƏÇİ DEBÜTÜ

Edson Qabriel Qarsiya. Bilokanın gündəliyi. *İspan dil. tərc. Nigar Ədalət* 94

TÜRKİYƏ TÜRKCƏSİNDƏ

Nilifer Uçar. Şeirlər 97

TƏRCÜMƏ MƏSƏLƏLƏRİ

Təvəkkül Şükürbəyli. Bir sahənin üç kitabı (Hüquq terminlərinin yeni lüğətləri) 99

Səlim Babullaoğlu. Rumın ədəbiyyatı və Mihay Emineskunun şeirləri Azərbaycan dilində 101

Turan Əkbərli. V.Skotun "Ayvənhəu" romanında köhnəlmiş sözlərin Azərbaycan dilinə tərcüməsi problemləri 108

ƏDƏBİYYAT MƏSƏLƏLƏRİ

Telman Vəlixanlı. "Naməlum" Qoqol və onun «Dostlarla yazışmadan seçilmiş yerlər» əsəri barədə. Əsərdən parçalarla 115

Т.Г. Джафаров (Велиханлы). К проблемам рецепции и трансформации русской литературы в Азербайджане в постсоветское время 119

TARİXİ OÇERKLƏR

Марк Верховский. Первый посол–женщина на Востоке 125

Правительница XII века – Момине хатун 128

ƏN YENİ ƏDƏBİYYATIMIZ XARİCDƏ

Danuta Xmielovska. Polşa ədəbiyyatşünaslığında Rəfail Tağızadə yaradıcılığı 131

TƏHSİL

Тельман Джафаров (Велиханлы). Ещё раз об одной актуальной проблеме образовательной системы Азербайджана 135

Тельман Джафаров. Основные принципы составления учебников по литературе для азербайджанских школ с русским языком обучения: законодательная база, опыт и традиции, дальнейшие перспективы 138

Telman Cəfərov (Vəlixanlı). Təhsil və ədəbiyyat 141

"MÜTƏRCİM" NƏŞRİYYATININ KİTAB ÇƏLƏNGİ 149

BAŞ REDAKTORDAN

Yubileylərimizə ən gözəl hədiyyə

("Mütərcim" Tərcümə Mərkəzinin 30, yaşımızın 60 ilinə)

Hər bir insanın həyat yolu onun mənsub olduğu xalqın, sosial təbəqənin, kollektivin, ailənin taleyinə qovuşur; sən öz hisslərinlə, yaşantılarınla, əməl və istəklərinlə bu Vətən torpağının, Vətən tarixinin, içərisində dünyaya gəlib tərbiyə aldığın, insan kimi formalaşdığın xalqın, camaatın bir parçasısan. Təki Allah bu duyğunu yaşamağa sənə qüdrət versin! Bir ovuc torpaq kimi Vətən torpağına qovuşduğun məqamda həm də ürəyindəki Vətən sevgisini özündən sonrakı nəsillərə, övladlarına, şagird və tələbələrinə ötürə biləsən!.. Bir müəllim və tərbiyəçi, elm adamı olaraq yetirmələrinə aşıladığın bilik, bacarıq və səriştənin özəyində, ilk növbədə, Vətən sevgisi dursun!

İnsan ömrü yaşanılan zamanın ruhunu, ab-havasını, çağırış və istəklərini özündə əxz etdirir. Bizə bəxş edilən bu ömür yolunun mənası və məramı, vaxtı Uca varlığın səxavət və mərhəmətindən asılı olsa da, hər kəsə ona ayrılmış bu məsafənin məğzini dərk etmək və öz taleyini yaratmaq qüdrətinin də verildiyi gizli deyil. Belə olmasaydı, tarixin tələtümlü, dəhşətli və ziddiyyətli dövlərindən və sınaqlarından keçən bəşəriyyət dünyaya böyük sivilizasiya və mədəniyyətlər, dahi şəxsiyyətlər, yeni-yeni kəşflər bəxş etməzdi. Bizə yaxın Yeni dövrdə baş vermiş Birinci və İkinci Dünya müharibələrindən çıxmış cəmiyyətlər yaşadığımız Ən yeni dövrün son iki-üç ilində Pandemiya və davam etməkdə olan, çoxlarının Üçüncü Dünya müharibəsi adlandırdığı Rusiya-Ukrayna (NATO və Avropa Birliyinin dəstəklədiyi) qarşıdurması ilə sınağa çəkildi. Arxasınca yeni-yeni fəlakətlər, müharibələr. Sonuncusu da İsrail-Fələstin qırğını. İnsanlıq yenə dünya müharibələrində olduğu kimi böyük insan tələfatı ilə üzləşdi. Son on ilə aid dünya hadisələri ("Ərəb baharı", "məxməri" və "narıncı" kimi tanınan inqilablar, nicat dalınca insanların Afrika və Asiyadan Avropaya axışması, sərhədlərin qapanması, dünyanın nüvə silahları ilə təhdidi, İKT-dəki sıçrayışlar, süni intellekt və insan qarşıdurması və s.) Yer kürəsini o qədər kiçiltdi ki, sanki hər şey sənin evinin içində baş verir, dünyanın istər qaynar nöqtəsinin problemi birbaşa sənin beynin və düşüncənlə əlaqələnir. İnternet, Facebook, Twitter, Whatsapp, Tik-Tok, İnstaqram, Threads və s. bizim bir-birimizlə, övladlarımızla, kitabxana və kitablarla, qəzet və jurnallarla ənənəvi ünsiyyətimizi sıxışdırmaqla bərabər, mövcud dəyərlər sisteminə, davranışlarımıza, düşüncə və yaşam tərzimizə, əxlaq və tərbiyə məsələlərinə, ünsiyyət mədəniyyətimizə, sosial-psixoloji mühitə, cəmiyyətlərin və fərdlərin, həyat axarının tempinə, hətta cavan və yaşlı nəsillərin əmək bazarında bir-birini əvəzetmə prosesinə öz möhürünü vurdu. Son illərdəki dəyişiklikləri, sarsıntıları və qaçhaqaçı həzm etməkdə böyük çətinlik yaşayan insanlar, deyəsən, yavaş-yavaş bu mühitin ab-havasına adaptasiya olmağa başlayıblar...

Bu son on il müstəqilliyinin üçüncü onilliyini yaşayan Azərbaycanımız üçün də ciddi sınaqlar dövrü kimi yadda qaldı. Təbii ki, dünyada baş vermiş bütün hadisələr bu və ya digər formada bizdə də özünü büruzə verdi. Lakin Qarabağ dərdi, tarix və mədəniyyətimizin ayrılmaz parçası olan bölgələrimizin, Şuşamızın düşmən əsarətində qalması, torpaqlarımızın zəhərlənməsi, murdarlanması, istismarı, yüzilliklər boyu böyük bir tarixi-mədəni arealda və coğrafi-iqtisadi rayonda formalaşmış sivilizasiyanın məqsədli şəkildə məhv edilməsi, Ermənistandan və bu

ərazilərdən qovulmuş bir milyon qaçqın dərdi cəmiyyətimizdə ruh düşkünlüyü yaratmış, böyük bir tarix, əsrlər boyu dövlətçilik təcrübəsi yaşamış xalqın qüdrətinə və gücünə inam hissi sarsılmışdı. Dünyanın "böyük gücləri" – böyük dövlətləri, dünya təşkilatları Sovetlər İttifaqının dağılması nəticəsində müstəqilliyini bərpa etmiş Azərbaycanı əsarətdə saxlamaq, sərvətlərinə şərik çıxmaq, böyük türk dünyası xəritəsində olduqca mühüm geostrateji mövqeyə malik respublikamızı sözəbaxımlı etmək niyyəti ilə ortaya atılmış "erməni-Dağlıq Qarabağ məsələsi"nin əsl mahiyyətini yaxşı anladıqları üçün xalqımıza qarşı haqsızlığa 30 ilə qədər bir müddətdə göz yumdular. Və hamı da 1991-1993-cü illərdə qonşu ölkələrin ciddi hərbi-siyasi və erməni diasporunun maliyyə dəstəyi ilə Azərbaycanın tarixi ərazilərinin zəbt edilmə prosesini və səbəbini gözəl anlayırdı. Məhz bu illərdə dövlətimizin və cəmiyyətimizin məqsədli siyasəti nəticəsində artıq dünya həqiqəti anlamağa, Xocalı soyqırımı kimi bir qəddarlığa imza atmış ermənilərin əsl simasının nə olduğuna inanmağa başlamışdı. Dünya təşkilatlarının və "böyük güclər"in ədalətinə və qətiyyətinə inamını itirən Azərbaycan dövləti və xalqı, ölkə rəhbəri inkişafımıza, özünəinamımıza, milli tərəqqiyə ciddi maneə olan "Qarabağ sindrom"unu qırmaq, "Qarabağ düyünü"nü açmaq gücünü özündə tapdı. Son illərin iqtisadi inkişafı ordumuzun güclənməsi, ən müasir hərbi texnika ilə təchiz olunması və ondan yüksək ustalıqla istifadə etməsi üçün təlimlərə imkan verdi. Hərbi qüdrətinə görə NATO-nun ikinci dövləti, qardaş Türkiyə Cümhuriyyəti 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycanın ədalətli mübarizəsini daha sıx şəkildə dəstəklədi, ona texniki köməyini əsirgəmədi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyə cəmiyyəti Ermənistanın Azərbaycana qarşı iddialarının kökündə əslində bütün türklərə, türk dünyasına qarşı nifrətin durduğunu yaxşı anlayırdılar. Bütün maneələrə, iftiralara, təhlükələrə rəğmən, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il 27 sentyabr tarixində Ermənistanın növbəti təxribatından sonra Qarabağın və ermənilər tərəfindən girov saxlanılan rayonlarımızın azad olunması uğrunda savaşın başlanılmasına qərar verdi. Bir ay yarım ərzində ordumuzun misilsiz qəhrəmanlığı, xalqımızın əzmi və döyüşkən ruhu, informasiya və diplomatiya cəbhəsində üstünlüyümüz nəticəsində

«MÜTƏRCİM» Nəşriyyat-Poliqrafiya Mərkəzi 1993-cü ildən fəaliyyət göstərən «Mütərcim» Tərcümə Mərkəzinin təsisçiliyi ilə yaradılmışdır. Azərbaycan Respublikasında yaradılan ilk özəl nəşriyyatlardandır. Əsasən tərcümə ədəbiyyatlarının, lüğətlərin, ali və orta ixtisas məktəbləri üçün dərslik və dərs vəsaitlərinin nəşri sahəsində ixtisaslaşmışdır. İldə orta hesabla 100-120 adda kitab nəşr edir. Nəşriyyatın yüksək ixtisaslı kadr potensialı və müasir tələblərə cavab verən maddi-texniki bazası vardır. Nəşriyyatın nəşr etdiyi kitablar öz məzmunu, oxucu auditoriyasını qiymətləndirmək, bədii tərtibat və nəfis çap baxımından həmişə yüksək qiymətləndirilmişdir.

Nəşriyyat 1999 və 2001-ci illərdə «İlin nəşriyyatı» adına layiq görülmüşdür. Bir sıra respublika və beynəlxalq kitab sərgilərinin nominantı olmuşdur. Müxtəlif kitab sərgi və yarmarkalarda nəşriyyatın çap etdiyi kitablardan A.Hacyevin «Renessansnıy mir «Xamse» Nizami Qyandjevi» — «Ən məzmunlu kitab», R.Əkbərovun «İlk tibbi yardım» kitabı – «Tibbi biliklərin təbliği», V.Yusiflinin «Tənqid də yaradıcılıqdır» kitabı – «Ən yaxşı tənqidi kitab», T.Cəfərovun «Тюрко-славянские связи в литературе древней Руси» kitabı – «Ən yaxşı ədəbiyyat tarixi kitabı», R.Əkbərovun «Povest və hekayələr» kitabı – «İlin satira kitabı», F.Dostoyevskinin «Karamazov qardaşları» romanı (tərcümə edəni Telman Vəlixanlı) – «İlin bədii tərcümə kitabı», «Dilçilik ensiklopediyası» – «İlin filoloji layihəsi», həmçinin «Mütərcim» jurnalı – «İlin tərcümə jurnalı» və s. nominasiyaların qalibi olmuşdur.

torpaqlarımızı azad etdik, Ermənistan sərhəddinə çıxdıq. Dağlıq Qarabağ deyilən düyündən birdəfəlik qurtulmaq, vaxtı ikən türk dünyasının coğrafi bütovlüyünün pozulması, Türkiyə və Cənubi Azərbaycanla sərhədlərimizi kəsmək niyyəti ilə böyük dünya dövlətlərinin razılığı ilə Sovet Rusiyası tərəfindən Azərbaycandan qoparılıb Ermənistana verilmiş torpaqlarımızı qaytarmaq kimi tarixi şans qazandıq. Lakin yenə də qarşımızı kəsdilər, Rusiya bölgəyə öz sülhməramlılarını yerləşdirdi və təcavüzkar Ermənistanı sonadək yerinə otuzdurmağa, qeyd-şərtsiz sərhədlərimizi tanımağına və bir daha Azərbaycana qarşı təxribatlara əl atmamasına imkan verilmədi. Bununla belə, Azərbaycan tarixinə 44 günlük Vətən müharibəsi kimi yazılmış savaş – Zəfər yürüşü tarixi ədalətsizliyi bərpa etdi, bizi Qarabağa, Şərqi Zəngəzura, Şuşaya qovuşdurdu... Keçən üç il Azərbaycanımız üçün ciddi sınaq dövrü oldu. 10 noyabr 2020-ci il üçtərəfli müqaviləsinə uyğun kapituliyasiya aktına imza atmış Ermənistan və Qarabağdakı qondarma rejim böyük sülh sazişinə cəhd göstərmədi, separatçılığa üstünlük verdilər. Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası məsələsi ciddi suallar yaratdı. Bu isə bütün dünyanın gözü qarşısında baş verirdi. Ölkə ərazisini silahlılardan və terrorçulardan təmizləmək məqsədilə Azərbaycan Prezidentinin qətiyyəti və ordumuzun şücaəti nəticəsində 19 sentyabr 2023-cü il tarixdə lokal antiterror əməliyyatına başlanıldı. Separatçı rejim və terrorçu dəstələr 24 saat ərzində ağ bayraq qaldırdılar və təslim oldular. Bu gün Azərbaycan rəhbərliyi Qarabağın erməni icmasının cəmiyyətimizə reinteqrasiyası, uzun illər ərzində izolyasiya və qorxu içində saxlanılmış, ideoloji cəhətdən zəhərlənmiş erməni əhalisinə humanitar yardım və dəstək verməyə çalışır. Lakin xislətinə və yaddaşına Zori Balayanlar tərəfindən yalnız düşmənçilik toxumları səpələnmiş ermənilərin bu humanist aksiyalara və çağırışlara adekvat reaksiyasına inamımız azdır... Azərbaycanın yardım və dəstəyinə, dinc əhalinin təhlükəsizliyinin təmin olunması, ölkə vətəndaşlarının malik olduqları bütün hüquqların erməni əsilli vətəndaşlarımıza da şamil ediləcəyi barədə bəyanatlara baxmayaraq, onların kütləvi şəkildə hələ ki Ermənistana köçü təəccüb doğurur. Bu torpaqları öz vətənin hesab edirsənsə, sənin bütün hüquqların tanınırsa, niyə köç edirsən? Niyyətiniz nədir? Cinayətkar deyilsənsə, nə üçün qaçırsan?

Nə qədər acı olsa da, Azərbaycanın böyük dostu, ən çətin günlərimizdə yanımızda gördüyümüz qazax şairi və publisisti, Turan avrasiyaçılığı nəzəri platformasının həmmüəllifi Oljas Süleymenovun 2019-cu ildə Bakı Kitab Mərkəzində səsləndirdiyi bir fikir Zəfər yürüşünə kimi qulaqlarımdan getmirdi. O, Azərbaycanın xalq şairləri və yazıçılarına, ziyalılarına üz tutaraq, söylədi ki, nə vaxtadək Azərbaycanın torpaqları erməni əsarəti altındadır, nə qədər ki siz bu problemi həll edə bilməmisiniz, mən azərbaycanlıların bir millət səviyyəsinə yüksəldiyini deyə bilmirəm. Bu, göz yaşı və ürək yanğısı ilə ifadə olunan fikir tədbirdə iştirak edən Anar müəllimi ayağa qaldırdı. O, dostunun narahatçılığını və qınağını anlasa da, türkçülük ideyalarını və ideallarını, milli mənlik anlayışını, Şərqdə ilk Demokratik Cümhuriyyəti türk dünyasına bəxş edən Əli Bəy Hüseynzadənin, Əhməd Bəy Ağaoğlunun, Məmməd Əmin Rəsulzadənin və digərlərinin adlarını çəkib, ermənilərlə savaşda on minlərlə qurbanlar verdiyimizi ona xatırlatdı. O.Süleymanovun dilə gətirdiyi hiss 2020-ci ilin sentyabrın sonuna və Zəfər gününədək heç bir vətənpərvər azərbaycanlının zehnindən çıxmırdı...

On il əvvəl fəaliyyətimizin hesabatını verərkən "Əlli yaşın işığında" kitabını tərtib etdik. Az-çox gördüyümüz işlərə nəzər saldıq, fikir və düşüncələrimizi, ideyalarımızı ifadə edən məqalə və müsahibələri oraya daxil etdik.

Bu gün növbəti on ilin hesabatını 60 illiyimizə həsr edilmiş "TƏHSİL və ZAMAN" məcmuəsi ilə (Telman Cəfərov (Vəlixanlı). Təhsil və zaman. – Bakı: Mütərcim, 2023, 440 səh, şək.) veririk. Oxuculara, dostlarımıza təqdim etdiyimiz bu məcmuə Azərbaycanın işğal olunmuş torpaqlarının, Qarabağın, Şuşanın geri qaytarılması, düşmən tərəfindən dağıdılmış kəndlərin, şəhərlərin, yolların, sənayə və kənd təsərrüfatı obyektlərinin, təhsil və mədəniyyət ocaqlarının, abidələrin yerində yenilərinin inşası reallığı içərisində olmağımızın sevinc və məsuliyyətindən yoğruldu. Burada ölkəmizin inkişafı yolunda təhsil sahəsində fəaliyyətimizə önəm verdik.

Yaradana şükürlər olsun ki, torpaqlarımızın azad və bərpa olunması günlərinə şahid olmaq xöşbəxtliyini bizə yaşatdı. Gün gələr, Qarabağda, Şuşada, Ağdamda və digər azad olunmuş şəhər və kəndlərimizdəki tədris müəssisələrində sinif otaqlarına və auditoriyalara girərik, elmi konfranslarda iştirak edərik...

Təəssüf ki, qocalı-cavanlı bədnam qonşularımızın düşüncəsi, təfəkkürü elə formalaşıb ki, bu xalq sülh içində yaşamaq yox, müharibə istəyir. Bu regiona necə gəldiklərini, Rusiyanın qəyyumluğu və himayədarlığı ilə əzəli Azərbaycan ərazilərinə hansı qəddarlıqlarla yerləşdirildiklərini unudurlar. Rusiya qarşısında xüsusi xidmətlər göstərdiklərini vurğulayıb, yenə də imdad diləyirlər ki, biz seçilmiş bir xalqıq, bu qədər xidmətlərimiz olub, bizi qorumalısınız. Qocasının da, cavanının da ağzından qan iyi gələn erməni xalqı özü-özünü ölümə məhkum edib. Dərd ondadır ki, özünü təcridə, ölümə məhkum etmiş ermənilərin qonşusu olan bir xalq, ölkə kimi biz bu xəstə təfəkkür, daimi düşmənçilik, qisasçılıq niyyətləri ilə üz-üzə dayanıb, inkişaf və tərəqqi, əməkdaşlıq, qarşılıqlı fayda yerinə həmişə müharibə şəraitində yaşamalıyıq. Bir ovuc qisasçını Qarabağda və Ermənistanda saxlayıb, türk dünyasını qıcıqlandırmaq, təhdid eləmək, Qafqazı və Qafqazyanı regionu özünün təsiri altında saxlamaq istəyən böyük dövlətlərin forpostu kimi öz maraqlarına xidmət etdirməyə çalışan dünya erməni icmasının məkrli niyyətlərinin əziyyətini çəkməliyik. Əsrlər və nəsillər dəyişir, ermənisə yenə də öz ermənliyində, düşmənçiliyində qalır, kötük olub Azərbaycanın sıçrayış və tərəqqi yoluna dığırlanıb...

Amma bu da bir reallıqdır ki, onu da yaşamalı, bütün fəaliyyətlərimizdə tədbirli olmalı, milli varlığımızı, dəyərlərimizi qorumalıyıq, beynəlmiləlləşmə pərdəsi altında əzilib assimilyasiya olunmamaq üçün dünyəvi və milli cəhətdən təkmil təhsil konsepsiyasına və modelinə yiyələnməliyik. Çünki hər şey təhsildən keçir. İndi insanın təhsil həyatı erkən inkişafdan – 2 yaşından başlayır və şəxsiyyət kimi onun bütün formalaşma və fəaliyyət dövrlərini əhatə edir.

Elə düşünürəm ki, bütün digər rəylərə və mövqelərə rəğmən, Azərbaycan cəmiyyəti, Azərbaycan ailəsi və məktəbi yenə də milli ruha, dünyəvi düşüncəyə, müasir çağırışlara və mövcud əmək bazarının tələbinə uyğun insan yetişdirməyə qabildir. Qonşularımızın iftiralarına, Vətən müharibəsindəki qələbəmizə kölgə salmaq niyyətlərinə baxmayaraq, Qarabağı, Şuşanı düşməndən Azərbaycan gənci, Azərbaycan əsgəri azad etdi ki, onu da yetişdirən məhz Azərbaycan məktəbi və Azərbaycan ailəsi, Vətən sevgisidir!

60 il ömrünü yaradıcı fəaliyyətə, elm və təhsilə, xüsusilə uşaq və gənclərin tərbiyəsinə, formalaşmasına, təhsil müəssisələri üçün mütəxəssis hazırlığına həsr etmiş insan üçün Yaradanın bəxş etdiyi böyük bir zaman kəsiyidir. Böyük tarix və görkəmli insanların bəşəriyyətə verdiyi misilsiz xidmətlər fonunda bir müəllim ömrü nə qədər kiçik görünsə də, hər kəs öz taleyini yaşayır və bu tale yüzlərlə insan talelərinə qovuşur. Hər bir insan və onun məxsus olduğu nəsil öz zamanının ömür salnaməsini yazır, özündənəvvəlki nəsillərin ona ötürdüyü yaddaşa öz ömür yolunun cizgilərini əlavə edib növbəti önilliklər, bu onilliklərin sakinləri olacaq nəsil və nəsillər üçün informator rolunu oynayır. Yaşanan tarixdi, yaşayan xalqdı, ötürülən dəyərlərdi, qalan sözdü, faydalı və xeyirxah

əməldi. Bu günün insanının, tərbiyəçisinin, söz adamının ən böyük məsuliyyəti özündən sonrakı – sabahkı insanın yetişdirilməsidir ki, o da insan sivilizasiyalarının bu günədək yaşatdığı dəyərləri məramında növbəti dövrlərə transformasiya edə bilsin. Görünən odur ki, bütün sahələrdə, cəbhələrdə müasir insan özü ilə məşğuldur, dünyamızdan çox özünü düşünür, öz rifahına, şöhrətinə, karyerasına aludədi. Bir tərəfdən də süni intellekt onun düşünmək qabiliyyətini azaldıb, hər şey onun əlindədir. İnsanı şəxsiyyət və fərd kimi təsdiqləyən, onun təxəyyülünü sərhədsiz edib qanadlandıran, sərbəstliyini təmin edən cəhətlər yoxa çıxmaqdadır...

Mövcud reallıq bu günün yüksəkliyindən insana nə qədər acı görünsə də, təsəllimiz ünsiyyətdə olduğumuz, məsləhətlər aldığımız, bir yerdə çalışdığımız və bölüşdüyümüz insanlar, məşğul olduğumuz fəaliyyətlərdir ki, ömrümüzə rəng qatır, onu mənalandırır. Ömrümüzün 60 ilinin 30-nu "Mütərcim" Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzi ilə birgə qeyd etmişik. Bu ünvan çox adamlar üçün iş, dostluq, əməkdaşlıq məkanı olub. Kiçik sayda da olsa, kollektivimiz bu günədək fəaliyyətini davam etdirir, nəşrlərimiz işıq üzü görür, insanlara öz xidmətlərimizi təklif edirik, ara-sıra da olsa, jurnalımızı buraxırıq. 30 il ərzində tərcümə, təhsil, nəşr sahələrində bizimlə əməkdaşlıq etmiş yaradıcı insanlarla ünsiyyətdə olmuşuq, müxtəlif təşkilatlarla birgə layihələr icra etmişik, bu gün də müştərək fəaliyyətlərimiz var.

Mövcudluğumuza dəstək olmuş dünyasını dəyişmiş insanlara Allahdan rəhmət diləyirəm! Bu gün bizimlə əməkdaşlıq edən yaradıcı şəxslərə – yazarlarımıza, tərcüməçilərimizə minnətdaram! Kollektivimizi təbrik edirəm!

Yubileylərimizə ən gözəl hədiyyə Ali Baş Komandan kimi Azərbaycan Respublikası Prezidentinin qətiyyəti sayəsində bayrağımızın Vətənimizin bütün guşələrində ucaldılması, Qarabağ torpaqlarının terror yuvalarından təmizlənməsi, dilindən, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, burada hər bir Azərbaycan vətəndaşı üçün rahat yaşama imkanın yaradılması oldu. İnşallah, Qarabağımız çiçəklənər, bu torpaqlarımız əbədi sülh məkanına çevrilər!

Şəhidlərimizin ruhu şad olsun!
Qarabağ Azərbaycandır!

DOST TƏBRİKİ

Telman Vəlixanlı (Cəfərov) – 60

Akif Abbasov

PROFESSOR TELMAN VƏLİXANLININ ELMİ, BƏDİİ VƏ MƏNƏVİ DÜNYASI

Aylar keçdi, illər dolandı, nəhayət, gəlib ömrünün altmışıncı baharına çatdın, əziz dostum! Ürəyinin təmizliyindəndir, xoş niyyətli olmağındandır ki, dostun, yoldaşın, yaxınların, uzaqların, ətrafındakılar sevincinə qatılır. Üzün həmişə gülür, dodaqlarından təbəssüm əskik olmur, özündən böyüklər də, kiçiklər də sənlə rastlaşanda, sənlə danışanda xoş ovqatda olur, təəssüratı yaxşılaşır, əhvalı yüksəlir.

Tanrım, qaytar məni uşaqlığıma

Eşidəndə ki, sənin altmış yaşın olacaq, uşaqlıq və gənclik illərindən oxuduğum, artıq müəllifini unutduğum şeirdən bir beyt yadıma düşdü:

İllərə nə var ki, illər tələsmir,
İllər nə bilir ki, ürək nə çəkir?!

Bəli, o dövrlərdə, valideynlərimizin himayəsində, qayğısı altında olduğumuz, dünyanı yalnız al-əlvan boyalarla gördüyümüz, işimizin-gücümüzün az olduğu günlərdə bizə elə gəlirdi ki, illər, aylar, günlər çox ləng gedir. Tez böyümək, yekə kişi olmaq, ali təhsili başa vurmaq, işləmək, bir vəzifə və ailə sahibi olmaq istəyirdik. İllər isə sanki yerində sayırdı.

Həmin hisslərlə sən də yaşamısan, əziz dost! 1963-cü il iyul ayının 22-də Yardımlı rayonunun Vəlixanlı kəndində dünyaya göz açmısan.

Sən Həmzağa kişinin sevimli övladısan. Boya-başa çatdığın bu kəndə, kəndin adamlarına son dərəcə bağlı olduğundan onun adını (Vəlixanlı) özünə təxəllüs götürmüsən.

Günləri, həftələri, ayları yola saldıqca uşaqlıq təəssüratları ilə görmüsən ki, illər nə isə ləng keçir. İllər ötdükcə sənin dünyan da genişlənib, dünyagörüşün də artıb. Arzuların çox olub, həmin arzuların qanadlarında şirinli-şəkərli uşaqlıq illərinə əlvida demisən!

Sevimli kənd müəllimlərini, indi dünyasını dəyişmiş Əhmədağa müəllimi, Mirzə müəllimi həmişə hörmət və məhəbbətlə yada salırsan. İlk müəllimin Şamil Məmmədova baş çəkməyi özünə borc bilirsən. Bizə qələm tutmağı, oxuyub-yazmağı, sinifdə, məktəbdə, ictimai yerlərdə davranmağı öyrədən ilk müəllimlərimiz unudulmazdırlar. Mənim də ilk müəllimim, Əməkdar müəllim Nəsibə Qurbanovaya böyük məhəbbətim, hörmətim olub və olacaq da. Yaxınlarda "Azərbaycan müəllimi" qəzetində onun xatirəsinə həsr etdiyim "Mənim ilk müəllimim" adlı yazını çap etdirmişəm...

"Düşdük yolların ağına, baxtımızın sorağına"
(Ramiz Rövşən demişkən)

Kənd məktəbini bitirib, Bakıya ali təhsil almağa gələndə arzuların aşıb-daşırdı. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutuna (hazırda Bakı Slavyan Universiteti) qəbul oldun. O zamanlar indiki kimi deyildi. Ali təhsil müəssisələri barmaqla sayılırdı. İnstitutlara qəbul olmaq çətin idi. İndi dövlət ali təhsil müəssisələri də, qeyri-dövlət təhsil ocaqları da çoxdur, qəbul planı da kifayət qədər. O vaxtlar Bakıya qəbul imtahanlarına gələnlər kənd camaatının, rayon (şəhər) sakinlərinin böyük hissəsininin diqqət mərkəzində idi. Tez bir zamanda qəbul olan da, imtahanlardan kəsilənlər də məlum olurdu. Kənd məktəbinin məzunu ola-ola sən "Rus ədəbiyyatı" və "Tarix" fənləri üzrə şifahi imtahalardan "əla" qiymətlər aldın, instituta qəbul edildin. Rus dilini mükəmməl öyrənmək, dil-danışıq mühitindən bəhrələnmək üçün tələbə mübadiləsi xətti ilə 1983-1984-cü tədris ilində Həştərxan Pedaqoji İnstitutunun (indiki Həştərxan Dövlət Universitetin) filologiya fakültəsində də təhsil aldın, institutu fərqlənmə diplomu ilə bitirdin. 29 il sonra hazırki Həştərxan Dövlət Universiteti sənin "Drevnyaya Rus i tyurki: v literaturnıx pamyatnikax XII-XVII vv." monoqrafiyanı çap etdi.

Ali təhsil illərində akademik Teymur Bünyadovdan, professorlar Məmməd Qocayev, Yusif Rüstəmov və Bela Musayevadan, dosentlər Zemfira Mehdizadədən, Sevil Məmmədovadan, Validə Əliyevadan və başqalarından dərs aldın. Onları da həmişə minnətdarlıqla xatırlayırsan.

"Müəllimlik – qaranlıqları aydınlığa çıxaranların peşəsəsi"

Ən böyük arzularından biri təhsil aldığın Vəlixanlı kənd məktəbində müəllim işləmək idi. Bu arzuna qovuşdun. Üç il burada rus dilini və ədəbiyyatını tədris etdin.

O zamanlar SSRİ deyilən bir imperiyanın caynağında olduğumuzdan rus dili az qala ana dilimiz səviyyəsində idi. Rus dilini yaxşı bilənlərə vəzifə verilirdi. Rayonda işlərkən (1985-1988) sənə məktəb direktoru, rayon komsomol komitəsinin birinci katibi və s. vəzifələr, ovaxtkı Sovetlər İttifaqının Dövlət Təhlükəsizlik Komitəsinin aspiranturasında təhsil təklif olundu. Sən isə M.F.Axundov adına APRDƏİ-nin əyani aspiranturasını seçdin. Orduda xidmət etməli oldun. O vaxtlar Qarabağ hadisələri başlamışdı. Hərbi xidmətdə olduğun Pskov və Minskdəki hərbi hissələrdə Qarabağ tarixi, Azərbaycan-Ermənistan qarşıdurması barədə mühazirələr oxumağa və azərbaycanlılardan ibarət musiqi qrupunun çıxışlarına nail oldun. Elmi rəhbərin, Əməkdar Elm xadimi, professor Murtuz Sadıxlının dəyərli tövsiyələri hesabına artıq hərbi xidmət dövründə namizədlik işi üzrə materiallar toplayıb sistemləşdirməyə və ordudan geri dönən kimi işi müzakirəyə təqdim etməyə nail oldun. Vaxtından əvvəl işi («M.Y. Lermontovun nəsr əsərləri Azərbaycan ədəbiyyatşünaslığı və tərcümələrində») yekunlaşdırdığına və müdafiəyə təqdim etdiyinə görə Təhsil Nazirliyinin pul mükafatını aldın.

"Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir"
(Həzrəti Muhammməd peyğəmbər demişkən)

Telman müəllim, sən həmişə irəliyə baxmısan. Elmin enişli, yoxuşlu yolları səni özünə elə bağlamışdı ki, elmi araşdırmalarını davam etdirməyə başladın. Özünü yaxşı müəllim kimi tanıtdın. Müstəsna hal kimi institutun rektoru, mərhum professor Firudin Hüseynov kafedra müdirinə səni müəllimlikdən birbaşa dosent vəzifəsinə keçirməyi təklif etdi. Doktorluq dissertasiyası mövzun təsdiq olundu. Qədim rus ədəbiyyatı abidələrində səni maraqlandıran slavyan-türk əlaqələri mövzusu idi. Mövzun səni Moskva, Sankt-Peterburq kitabxanalarına üz tutmağa, slavyan ölkələrində kitab və məqalələr çap etdirməyə istiqamətləndirdi. Bakıda monoqrafiyaların nəşr olundu. Nəhayət, 2004-cü ildə "Qədim rus ədəbiyyatında slavyan-türk əlaqələri" adlı doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru elmi dərəcəsi, bir müddət sonra professor elmi adı aldın. Dissertasiyanın müdafiəsi ilə bağlı aparıcı təşkilat Rusiya Elmlər Akademiyasının M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu (Qədim slavyan ədəbiyyatları şöbəsi, şöbə müdiri A.S.Dyomin); rəsmi opponentlər A.Puşkin adına Rus Dili İnsti-

tutunun dünya ədəbiyyatı kafedrasının müdiri professor S.N.Travnikov və professor M.Q.Qocayev olmuşdur. Doktorluq dissertasiyasının müdafiəsi yüksək səviyyədə keçmiş, istər aparıcı təşkilat, istər rəsmi opponentlər, istərsə də çıxış edən dissertasiya şurası üzvləri əsərin elmi dəyəri, aktuallığı, alınan nəticələrin etibarlığı və mötəbərliyi haqqında müsbət fikirlər səsləndirmişlər. Təbii ki, mövzunun xarakteri nüfuzlu rus alimlərinin opponentliyinə qarşı ciddi elmi səviyyə və hazırlıq tələb edirdi.

Dissertasiyada X-XVII əsrlərə aid rus ədəbi abidələrində türk və slavyan xalqlarının əlaqələri, onların hərbi-siyasi, mədəni, iqtisadi, dini-etik və sadəcə insani münasibətləri geniş şəkildə araşdırılmış, eyni tarixi-mədəni areala məxsus bu etnos və xalqların ortaq tarixinin və birgəyaşayışının məhsulu olan müştərək maddi və mənəvi dəyərlərə münasibət bildirilmişdir. Burada "Ötən illərin hekayəti", "İqor polku haqqında söyləmə", "Məhmət sultan hekayəti", "Topal Teymur haqqında povest", "Kazan tarixi" və sair əsərlərdə türk motivləri və mövzuları geniş və dərin şəkildə təhlil edilmişdir. Sonradan bu ədəbi abidələrin sizin tərəfinizdən dilimizə tərcüməsi həm də "Qədim rus ədəbiyyatı", "Rus ədəbiyyatı tarixi" dərsliklərinin yazılmasına imkan verdi.

Geniş elmi maraq dairən, elmi-pedaqoji fəaliyyətin, şəxsi təşəbbüsünlə təşkil olunan yaradıcı təşkilat və mətbuat orqanlarında işin, layihələrin sənə müxtəlif illərdə Türkiyə, Macarıstan, Rusiya, İngiltərə, Almaniya, Serbiya, Gürcüstan, Moldova, Qazaxstan və başqa ölkələrdə keçirilən bir çox treninq və təlimlərdə, konfrans və simpoziumlarda iştirak və çıxış etmək fürsəti yaratdı.

TƏHSİLDƏ İNNOVATİV FƏALİYYƏT, TƏSİSÇİLİK, TƏHSİL TƏŞKİLATÇISI

"Ağıl-kamal verdi sənə yaradan,
Çalışıb hər sirri öyrən hər zaman"
(Əvhədi Marağayi demişkən)

Telman müəllim, sən işgüzar və innovativ fəailiyyəti ilə seçilən təhsil təşkilatçısısan. Hələ 1993-cü ildə ölkədə təşkil olunan ilk özəl Tərcümə və Tədris mərkəzlərindən birini təsis etdin, sonra isə 1994-cü ildə ilk özəl – "Mütərcim" nəşriyyatını yaratdın. Məktəb sevgisi Sizi ölkədə ilk yeni tipli orta təhsil müəssisələrindən birini – "Turan" liseyini təsis etməyə gətirib çıxardı. Ölkə prezidentinin istedadlı və qabiliyyətli şagirdlərə qayğının artırılması ilə bağlı sərəncamına uyğun olaraq, bu liseyin və Bakı şəhəri 15 saylı məktəbin bazasında Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksinin təşkilinə, onun maddi-tədris bazasını yaratmağa, ilk dəfə dövlət orta təhsil müəssisəsində təsərrüfathesablı xidmətlərin göstərilməsinə nail oldun...

1991-ci ildən bu günədək rus ədəbiyyatının tarixi kafedrasında laborant, baş laborant, müəllim və dosent vəzifələrində çalışmısan. 2014-2022-ci illərdə universitetin tədris işləri üzrə prorektoru olmusan. Bakı Slavyan Universitetində ali təhsilin yüksək səviyyədə təşkilində, pedaqoji kadrların hazırlanmasında səmərəli fəaliyyət göstərmisən. Hazırda rus ədəbiyyatı tarixi kafedrasının professorusan. Uzunmüddətli səmərəli fəaliyyətinizə görə "Əməkdar müəllim" Fəxri adına layiq görülmüsən.

2017-ci ildə Sənin təşəbbüsünlə *Tədris və İnnovasiya Mərkəzi* yaradılmışdır. Bu gün həmin mərkəz bütün təhsil pillələri və səviyyələrində təhsilalanlar üçün müxtəlif təhsil xidmətləri həyata keçirir. Ölkəmizdə bütün təhsil pillə və səviyyələrində, xüsusilə təlim qeyri-dövlət dillərində aparılan məktəb və siniflərdə bilinqval və polilinqval təlim modelinin geniş tətbiqi ideyasının tərəfdarı kimi zəruri təhsil proqramları (standartları) və planları işləyib müvafiq icra orqanına təqdim etmisən. Xaricdə və respublikada keçirilən konfranslarda bu mövzuda çıxışlar edirsən. Rusiyada yaşayan türkdilli uşaqlar üçün rus dili üzrə tədris vəsaitiniz (I-IV siniflər, həmmüəllif dosent Mədinə Qiyasbəyli) Moskvada nəşr olunub.

Sən rus dilinin orta və ali məktəblərimizdə təlim dili kimi səmərəli tədrisi məqsədilə Beynəlxalq metodiki seminarların, konfransların təşkilatçısısan. Layihə rəhbərliyin və həmmüəllifliyinlə hazırlanan "Rus dili xarici dil kimi" dərslik vəsaiti Bakı Slavyan Universitetində ixtisas üzrə əsas tədris vəsaiti kimi istifadə olunur. Üçcildlik tədris vəsaiti kimi nəzərdə tutulmuş "Rus ədəbiy-

yatı tarixi"nin birinci cildi də ikidilli tədris vəsaiti kimi çox faydalıdır.

TƏLİM QEYRİ-DÖVLƏT DİLLƏRİNDƏ APARILAN SİNİFLƏR ÜÇÜN BİLİNQVAL VƏ POLİLİNQVAL TƏLİMMODELİNƏ KEÇİD BARƏDƏ

"Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis, Puşkini rus, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun».
(Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev)

Belə bir fikirdəsən ki, ölkədə yaranmış təhsil situasiyasına (təlim Azərbaycan dilində aparılan məktəb və siniflərlə yanaşı, rus, ingilis və fransız dillərində təlimin təşkili nəzərdə tutulur) uyğun olaraq, təxirə salınmadan 1) məktəbəqədər təhsilin məzmun və standartlarına yenidən baxılmalı, müəyyən olunmuş kurslar və maraqlar üzrə kurikulumlar (tədris proqramları), tədris vəsaitləri hazırlanmalı; 2) orta təhsili əcnəbi dillərdən birində alması nəzərdə tutulan uşaqlara dövlət dilinin mənimsədilməsi, məhz məktəbəqədərki təhsil dövründə onlara ana dili üzrə müvafiq nitq vərdişlərinin aşılanması üçün xüsusi tədris proqramı işlənilməli; 3) uşaqların yaş psixologiyasının xüsusiyyətlərindən, müasir linqvodidaktikanın gəldiyi nəticələrdən, dövlət və qeyri-dövlət dillər üzrə dil-danışıq vərdiş və bacarıqlarının 7 yaşadək dövrdə və 8-12 yaş arasında daha intensiv mənimsənilməsinin mümkünlüyündən çıxış edərək, məktəbəqədər təlim-tərbiyənin və ibtidai təhsilin dillərin, məntiqi təfəkkürün və həyati biliklərin inkişafı yönümlü olması üçün I-IV siniflərdə tədris planları, təhsil standartları, fənn kurikulumları, dərsliklər yenidən nəzərdən keçirilməli; 4) 5-6-cı siniflərdə texniki və təbiət fənlərinə ayrılmış saatların azaldılması hesabına xarici dillərin tədrisi üzrə saatlar artırılmalı; 5) hazırda təlim rus dilində aparılan siniflərdə bilinqval təhsil modelinin tətbiqi və bu zaman dövlət dilində və rus dilində fənlərin yanaşı tədrisinə tədricən keçməklə 8-9-cu siniflərdə tam paritetə (biri dövlət dili olmaqla iki təlim dilində tədrisə) nail olunmalı və bu zaman ana (dövlət) dilində təlimin ana dili və ədəbiyyat, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, musiqi və s. fənləri əhatə edilməli; 6) 7-9-cu siniflərdə tədrisin təmayüllər üzrə aparılması məqsədilə dərs saatları maraqlar əsasında bölüşdürülməli və göstərilən siniflərdə xarici dil yarımqruplara bölünməklə 3 saat həcmində aparılmalı; 7) təmayül və profil üzrə fənlərin dərindən mənimsədilməsi üçün 10-11-ci siniflərdə həftəlik dərs yükünün 26-28 saatadək azaldılması, yuxarı sinif şagirdlərinin sərbəst, yaradıcı və layihəyönümlü fəaliyyəti dəstəklənməli; 8) bəzi ölkələrin təcrübəsindən çıxış edərək, geniş eksperiment şəklində tam orta təhsil pilləsində təmayüllər üzrə (10-11-ci siniflərdə) tədrisin yalnız ingilis dilində təşkili və sair kimi məsələlərin həlli bu gün bir vəzifə olaraq təhsil sistemimizin qarşısında durmalıdır.

Qeyd olunan müddəalar respublikamızda təkcə bilinqval yox, həm də eksperiment şəklində multilinqval tədris modelinin tətbiqinin mümkünlüyünü gündəmə gətirir...

Bu düşüncədəsən ki, qloballaşma dövründə bilinqval və multilinqval təhsil modellərinin qaçılmazlığı qabaqcıl təhsil sistemlərinə malik ölkələr üçün artıq normaya çevrilməkdədir. Bu təkliflərində Amerikada Kanadanın, Avropada Almaniya və Finlandiyanın, Asiyada Sinqapur və Malayziyanın, MDB-də Qazaxstanın bu sahədə təcrübəsinə əsaslanırsan...

NAŞİR, TƏRCÜMƏÇİ, JURNALİST FƏALİYYƏTİ

"İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır"
(Məmməd Səid Ordubadi demişkən)

1996-cı ildə "Mütərcim" ədəbi-bədii və tərcümə jurnalını, 1997-ci ildə "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsini təsis etməklə ədəbiyyatımıza, dilçilik, ədəbiyyatşünaslıq, pedaqoji və psixoloji elmi istiqamətlərimizə öz töhfəni verirsən. "Mütərcim" jurnalı uzun müddət Azərbaycan Yazıçılar Birliyi və Bakı Slavyan Universitetinin həmtəsisçiliyi ilə nəşr olunub. "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" ali məktəblərarası elmi məcmuəsi isə

buraxılmağa başladığı zamandan Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi nəşrlərin siyahısındadır.

2009-2013-cü illərdə Moskvada nəşr olunan "Literaturnaya qazeta"da və onun "Yevraziyskaya muza" əlavəsində Azərbaycanın təmsilçisi kimi ədəbiyyatımızla bağlı materillarla mütəmadi olaraq çıxış etmisən. Müəllifi olduğun "Ən yeni Azərbaycan ədəbiyyatı" fəsli Almatıda rus dilində çap olunmuş "Ən yeni xarici ədəbiyyat" məcmuəsinə (2011) daxil edilmişdir. MAPRYAL-ın Azərbaycan üzrə koordinatoru (2006-cı ildən), respublikamızda və xaricdə nəşr edilən bir sıra elmi və elmi-metodik nəşrlərin redaksiya heyətinin üzvüsən.

TƏRCÜMƏÇİLİK FƏALİYYƏTİ

"Ehtiyac əməyi, əmək biliyi doğurmuşdur"
(Onore de Balzak demişkən)

Tərcüməçilik Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi fəaliyyətinin əsas istiqamətlərindəndir.

Fikirləşirəm: bu qədər işləri necə çatdırırsan? Bəli, illər uşaqlıq və gənclik illərimizdə olduğu kimi "tısbağa yerişi" ilə getmir. Əksinə, elə sürətlə ötüb-keçir ki, gecəmizi gündüzümüzə qatmağımızın da xeyri olmur.

Sən müxtəlif illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə latın qrafikası ilə buraxılmış 10-dan çox kitabın, o cümlədən antologiyaların tərtibçisi və ön sözün müəllifisən. Sənin təşəbbüsün və ön sözün ilə 2014-cü ildə ikicildlik "Ən yeni rus ədəbiyyatı" antologiyası Azərbaycan, ikicildlik "Noveyşaya azerbaydjanskaya literatura" antologiyası isə rus dilində nəşr olunmuşdur. M.Y. Lermontov və A.S. Puşkinin (2 cilddə) "Seçilmiş əsərləri"ni tərtib etmiş, M.A. Şoloxovun "Sakit Don" romanını nəşrə hazırlamısan.

Əziz Telman müəllim! Sən qibtədoğuracaq tərcüməçilik qabiliyyətinə maliksən! Qədim və XVIII əsr rus ədəbiyyatı nümunələrini, L.N. Tolstoyun, F.M. Dostoyevskinin, V.Voynoviçin, B.Yevseyevin, V.Kupryanovun, A.Jiqulinin ayrı-ayrı əsərlərini dilimizə çevirmisən. F.M. Dostoyevskinin "Karamazov qardaşları" romanını dilimizə tərcümə etmiş (2010), iki cilddə nəşrinə nail olmusunuz. Həmin uğurlu tərcüməyə görə Beynəlxalq Tərcümə Assosiasiyası və Rusiya Elmlər Akademiyasının Puşkin İnstitutunun Beynəlxalq Tərcümə mükafatına, Azərbaycan Yazıçılar Birliyinin Tofiq Bayram adına, Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatlarına və s. layiq görülmüsən.

"Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq lazımdır"
(Onore de Balzak demişkən)

Telman müəllim, sən 30-dan çox kitabın (dərslik, monoqrafiya, lüğət, tədris proqramları və s.), 300-dək məqalənin müəllifisən. Bu sırada məktəb dərsliklərinin hazırlanmasına xüsusi əhəmiyyət verirsən.

Təlimi rus dilində aparan məktəblərin VII, VIII, XI sinifləri üçün "Literatura" dərsliklərinin (2006-2017-ci illərdə) həmmüəllifi, 2016-cı ildə Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə sifariş edilmiş və icrası davam edən yeni məzmun və

tərtibatda "Literatura" dərslik kompleksləri seriyasının (V, VI, VII, VIII siniflər) layihə rəhbəri və həmmüəllifisən.

Telman müəllim, sən Azərbaycanda rus ədəbiyyatının yeni resepsiyası və uzun dövr milli ədəbiyyatımızla sıx yaradıcılıq əlaqəsi olmuş həmin ədəbiyyatla bağlı təsəvvürlərin transformasiyası, bu baxışların ümumtəhsil və ali təhsil müəssisələri üçün dərsliklərə gətirilməsi məsələləri ilə məşğulsan.

Davam edən "Literatura" dərslik kompleksləri seriyasında milli ədəbiyyatımızın dominantlığı təmin olunmaqla bərabər, tarixi-xronoloji prinsip əsasında həm də şagirdlərdə rus və dünya ədəbiyyatı barədə dolğun və sistemli təsəvvürün yaradılmasına nail olmusuz. Sənin məqalə və çıxışlarında təlimi dövlət və qeyri-dövlət dillərində aparan məktəblər üçün "Ədəbiyyat" fənn kurikulumunun yenilənməsinin, vahid fənn kurikulumunun yaradılmasının, şeir parçalarının və sair ədəbiyyat nümunələrinin yadda saxlanılması tələbinin altstandartlara daxil edilməsinin tərəfdarı kimi təkliflərin maraq doğurur.

AVRASİYAÇI-ALİM

Sən həm də avrasiyaçı alim kimi slavyan-türk xalqlarının müştərək tarixi dəyərləri, eyni tarixi-mədəni arealı bölüşdürmə faktlarından bəhs edən bir sıra avrasiyaçılıq tədqiqatlarını Azərbaycan oxucusuna təqdim edirsən. Bu mövzu ilə bağlı Straxov, Danilevski, Trubeskoy, Savitski, L.Qumilyov, Pletnyova, Erencan Xara-Davan, Nosovski və Fomenko, eləcə də bir sıra Türkiyə və Avropa tədqiqatçılarının əsərlərini tərcümə və təhlil edərək, "Avrasiyaçılıq ideyalarına Azərbaycandan baxış" adı altında nəşr etdirib (2010, 2018) Türk Dövlətləri Birliyi ideyasına, tarixi-mədəni tip kimi türklərin dünya sivilizasiyana verdiyi töhfələri və bu sahədə perspektiv tədqiqatları gündəmə gətirirsən.

Sənin "XV-XVII əsrlər rus ədəbiyyatında türklər" adlı kitabın 2002-ci ildə Moskvada, sonralar isə Ankarada işıq üzü görmüşdür. Həmin əsər Türkiyə türkcəsində Beynəlxalq Türksoy mükafatına təqdim olunmuşdur (2010).

Əziz Telman müəllim, ədəbiyyatşünas və avrasiyaçı-alim, naşir, tərcüməçi, təhsil təşkilatçısı kimi bütün fəaliyyətlərinin fövqündə duran sənin müəllimlik peşəsinə vurğunluğun və tutduğun vəzifələrdən asılı olmayaraq, təhsilimizin təəssübkeşliyi müqəddəs missiyandır. Aparılan islahatlara, yeni məzmunlu təhsil proqramlarının və tədris resurslarının yaradılmasına verdiyin töhfədir. Bütün fəaliyyətlərində sənə uğurlar arzulayıram!

Telman Vəlixanlı

UNUDULMAZ DİLÇİ VƏ METODİST-ALİMİN "SEÇİLMİŞ ƏSƏRLƏRİ" İŞIQ ÜZÜ GÖRÜB

Yaşasaydı, bu il pedaqogika üzrə fəlsəfə doktoru, dosent Akif Məmmədovun 70 illiyini onun öz iştirakı ilə qeyd edərdik. Çox böyük arzuları, elmi, elmi-metodiki planları var idi. Uzun sürən xəstəlikdən bezsə belə, nə universitetdəki elmi-pedaqoji, nə də liseydəki müəllimlik fəaliyyətindən yorulmamışdı. Daim axtarışda, ünsiyyətdə, müzakirələrdə idi. Hər hansı bir dialoqda yönəldici tərəf olurdu. Akif müəllim güclü nəzəri hazırlığı, məntiqi, məsələlərə sərbəst və ayıq yanaşması, emosional və eyni zamanda professional müdaxiləsi ilə yönəldici, izah və şərhedici tərəf təəssüratı bağışlayırdı. 20 ilə yaxın bir müddətdə daim müalicə və məhdudiyyətlər içərisində olsa belə, ömür-gün yoldaşı, tələbəçilikdən həmfikri, sirdaşı, eyni zamnda, opponenti olmuş Sədaqət xanımın, övladları Fuad və Nihadın qayğısı və mənəvi dəstəyi hesabına dilçiliyimizə, ana dilimizin tədrisi metodikasına, məktəbşünaslığa, Azərbaycan dili və ədəbiyyat müəllimləri hazırlığına ciddi töhfələr verə bildi.

Təqdim olunan kitabda yaradıcı müəllim, pedaqoq-alim Akif Məmmədovun məqalə və sair publikasiyalarının bir qismi yer alıb. Onun yaradıcılıq və pedaqoji fəaliyyəti barədə müəyyən təsəvvür formalaşdıran bu yazılarda diqqəti iki cəhət cəlb edir. Bu yazılar, elmi metodiki məqalələr, pedaqoji mülahizələr, tövsiyələr, ayrı-ayrı dilçilik etüdləri, lüğət materialları, müsahibələr, elmi-pedaqoji və müəllimlik fəaliyyətinin qaynar səhifələri sanki Akif müəllimin tərcümeyi-halıdır. Vtnjlbcn və dilçi alimin ömür və yaradıcılıq yolunun mərhələləri bu yazılardan, kitablarından götürülmüş parçalardan keçir. Biləsüvar (əvvəlki Puşkin adına) rayon Xırmandalı kənd məktəbindən tutmuş, "Turan" liseyi, indiki Bakı Slavyan Universiteti, internat məktəb, Bakı Şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutu, "Azadlıq" qəzeti, "Azərbaycan dili və ədəbiyyatının tədrisi" jurnalınadək ayrı-ayrı maraqlı, rəngarəng, kreativ və diskursiv mühitlər. Akif müəllim bu iş yerlərini özü tapmamışdı. Onu axtarıb sadalanan bu iş yerlərinə, yaradıcılıq və tədris müəssisələrinə dəvət etmişdilər ki, orada işin əsasını qoysun, ona yeni bir məzmun gətirsin, ətrafına mahir pedaqoqlar, mütəxəssislər toplasın, lazımi rəy formalaşdırsın. İkincisi, onun elmi-pe-



daqoji irsi və praktik pedaqoq kimi düşüncələri bu gün də öz aktuallığı itirmir, dil və ədəbiyyat müəllimləri üçün metodiki tövsiyə və istinad yeri kimi əhəmiyyətli görünür. Ona görə də ciddi elmi-pedaqoji hazırlığa və bazaya malik müəllif kimi Akif müəllimin istər elmi-metodiki məqalələrinin, istər lüğət materiallarının, istərsə də test tapşırıqlarının müəllim, tələbə və şagirdlərin yeni nəsillərinin istifadəsinə verilməsi əhəmiyyətlidir.

Öz təcrübəmdən bir misal. Filologiya fakültəsində yeni – "Azərbaycan-rus ədəbi əlaqələri" – kursu üzrə bu ildən mühazirələr oxuyuram. Orta əsrlər Azərbaycan, ümumiyyətlə, Şərq poeziyasında sufilik və xürufilik motivlərinin rus ədəbiyyatına təsirini ("İ.Nəsimi və Q.R.Derjavin") araşdırarkən Akif müəllimin "Nədən İ.Nəsimi "ənəlhəq" dedi" məqaləsi mənə və tələbələrimə bələdçi oldu. Təəssüf ki, bu yazını A.Məmmədovun kitabı çıxandan sonra görə bildik.

Bu cəhətdən Akif Məmmədovun "Ana sözü", "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalları, "Azadlıq" qəzeti səhifələrində tədris məsələləri ilə bağlı məqalələri, publisistik qeydləri böyük maraq doğurur. Onun moderatorluğu ilə 1993-cü ildə böyük dilçi-alimlərimiz və pedaqoqlarımız Əziz Əfəndizadənin, Bəşir Əhmədovun və başqalarının iştirakı ilə "Ana sözü" jurnalının redaksiyasında "Günahkar kimdir və ya dilimizi niyə öyrədə bilmirik?" adı altında təşkil olunmuş müzakirələrə verdiyi girişdə səslənən fikirlər (ön söz) bu gün də aktuallığını itirməyib: "Yolum Bakı məktəblərinin birinə düşmüşdü. Rus bölməsinin XI sinifində Azərbaycan dili dərsini müşahidə etməli oldum. Şagirdlərin dərsə laqeyd münasibəti, milliyyətcə azərbaycanlı olanların belə doğma (doğrudanmı doğma) dildə sözlərin qol-qabırğasını sındıra-sındıra danışması məni kədərləndirdi. Məsələnin mənəvi tərəfini bir qırağa qoyub, qeyri-ixtiyari olaraq özlüyümdə belə bir statistik hesablama apardım: axı bu şagirdlər sinifdən asılı olaraq həftədə iki və ya üç saat Azərbaycan dili dərsi keçirlər. Deməli, orta məktəbdəki təhsil illərində nə az, nə çox hər uşağın düz 800-850 saat vaxtı birbaşa dərs saatına gedir. Hələ ev tapşırıqlarının icrasına, sinifdənxaric tədbirlərin keçirilməsinə ayrılan, sərf olunan saatları demirəm. Bu qədər vaxt niyə havaya sovrulur? Günah kimdədir? Yaşadığı respublikanın dövlət dilinə barmaqarası baxan şagirddəmi? Fənnin tədrisində istənilən səviyyəyə nail ola bilməyən müəllimdəmi? Evdə, ailədə uşaqlarına Azərbaycan dilində danışmağı qadağan eləyən valideynlərdəmi? Radioda, televiziyada "gözəl" nitqi ilə balalarımıza şəxsi nümunə olan millət başbilənləri – əmilər, xalalardamı?.."

Akif müəllim böyük məktəb keçmişdi. Bəxti gətirmişdi ki, Bakıya alimlik dalınca gəldikdə, professor Bəşir Əhmədovun yetirməsi olmaq xöşbəxtliyi ona nəsib olmuş, 90-cı illərin sonu – 2000-ci illərin əvvəllərində "Azərbaycan dili və ədəbiyyat tədrisi" kimi müəllimlər üçün vacib bir elmi-metodiki kürsünün əsas yükünü çiyinlərinə götürmüşdü. O, ömrünün sonunadək çalışdığı kafedraya (hazırki adı: BSU-nun Müasir dilçilik kafedrası) da yeni nəfəs gətirə bilmişdi. Burada sonradan professor Bəşir Əhmədovun, dosent Şəhla Əhmədovanın müəllif-tərtibatçılığı ilə işıq üzü görəcək "Etimoloji etüdlər"in, "Azərbaycan dilinin etimoloji lüğəti"in materiallarına, illyustrasiyalara, etimoloji lüğət ideyasına mən ilk dəfə Akif müəllimin yazılarında rast gəlmişdim.

Sonda onu da qeyd etmək istəyirəm ki, bu səmimi və doğma insanla aramızda xüsusi bir bağlılıq və mehribançılıq var idi. Bizi mərhum professor, prinsipial mövqeyi və nüfuzlu alim-pedaqoq rəyi ilə tanınan Bəşir Əhmədov tanış eləmişdi. Hətta qohum çıxdıq, bizi o taylı ellərlə bağlayan tellər, xasiyyət, şəxsi və ailəvi dostluq, yaradıcılıq əlaqələri yaxınlaşdırdı. Son günədək təşkilinin ilk vaxtlarından yanımda olduğu liseylə (məktəb-lisey), "Mütərcim" nəşriyyatı və jurnalı ilə əlaqəni kəsmədi, məktəb-liseydə dil-ədəbiyyat müəllimlərinə hamilik elədi, şux zarafatları, qayğıkeş və xeyirxah münasibəti ilə həmkarlarının yaddaşında qaldı. Əzizləri, dostları, müəllim yoldaşları, şagird və tələbələri, on minlərlə oxucusu bu gün də təhsilimizi, dilçilik və pedaqogika elmimizi vaxtsız tərk etmiş pedaqogika üzrə fəlsəfə doktoru, dosent, gözəl insan Akif Məmmədovu işıqlı xatirələrlə yad edir.

Kitabı çapa hazırlayan ailəsinə və övladlarına dostları və həmkarları adından minnətdarlığımızı çatdırıram.

Алимэ Османзаде
доктор педагогических наук,
профессор кафедры иностранных языков АзУАС

100-ЛЕТИЮ ПРОФЕССОРА ЛЕЙЛИ ВЕКИЛОВОЙ

17 ноября 2023 года исполняется 100 лет одному из старейших и самых известных русистов Азербайджана, доктору педагогических наук, профессору, лауреату Государственной премии СССР, депутату Верховного Совета Азербайджанской ССР четвёртого созыва, отличнику народного образования Лейли Галибовне Векиловой. Она не дожила до своего юбилея всего семь месяцев.

– Стой!.. Остановись. – Я пружиной вскочил с места. Мастер от неожиданности отпрыгнул назад.

– Что случилось?

Я посмотрел в зеркало и пришел в ужас. Я весь покрылся потом. Ровно половины моих усов не было!

– Что еще может случиться? Ты мне сделал такую подлость!..

– Я, что, случайно порезал где-то бритвой?

– Лучше бы ты мне голову отрезал! Слушай, где твои мысли, о чем ты думаешь, разве я не говорил быть осторожным?

– Ведь... Захид муаллим, что я сделал такого? Крови то совсем нет нигде?

– Где половина моих усов?!

– Я сбрил... Ты сам этого не говорил разве...

– Мне больше нечего тебе сказать!

Остальные мастера оставили свою работу и окружили меня. Сколько же глаз было приковано к моему лицу. Каждый считал своим долгом что-то сказать:

– Слушай, ну ничего же страшного не случилось!

– Лишние волосы да на лице…

– Не понимаю я, почему эти люди носят усы?

Я повысил голос:

– Это вас абсолютно не касается!

Выйдя из своей комнаты, расположенной в другом конце коридора, заведующий парикмахерской вмешался в разговор.

– Почему вы кричите? Что хотите, товарищ?

– «Книгу жалоб».

Мастер стал оправдываться:

– Клянусь своим здоровьем, он сам сказал, что ему не идут усы, и чтобы я сбрил их!

Заведующий тоже встал на сторону мастера:

– Во-первых, он наш лучший мастер. Во-вторых, допустим, что он как-то виноват. Стоит ли из-за такой мелочи портить людям кровь? В-третьих, если на то пошло, мы выполняем план не за счет волос, а за счет людей. И, в-четвертых, забирай, я дарю тебе свои усы.

– Пожалуйста, дайте мне «Книгу жалоб»!

– Не дам!

– Почему? С какой стати?

– Потому что, даже если мастер и виноват, усы не стоят того, чтобы писать жалобу. Пятьдесят процентов усов сбриты, осталась лишь половина.

– Ну, ничего!.. Я буду жаловаться в высшие инстанции и найду управу на вас! – сказал я и сердито сел в кресло. Потом взял бритву и

протянул мастеру. – Держи, побрей и вторую половину!

– Нет. Этого я не смогу сделать.

Заведующий тоже предупредил мастера:

– Слушай, Гафар, не глупи! У него другая цель.

Я почувствовал, как кровь поступает в мозг:

– А мне в таком виде на улицу выходить прикажете?

Кто-то пробормотал сзади меня:

– Чем совсем без усов, лучше хоть что-то. Подумают, что это новая мода. – После всего услышанного, я твердо решил для себя – пойду прямо в управление, которому подчиняются все парикмахерские. Я не собирался останавливаться, пока не добьюсь выговора мастеру и заведующему. Иначе мне не избежать скандала с Джамилей. Она снова скажет, что я сбрил усы из-за Зулейхи. Теперь она имела полное право подозревать меня... Я взял бритву и, не намылив лицо, сбрил оставшиеся пятьдесят процентов усов. От этого у меня даже слезы появились на глазах.

– Сколько я должен?!

Словно курица, пьющая воду, мастер откинул голову назад, посмотрел в потолок и стал подсчитывать:

– Значит… Одно лицо… Одна голова… Еще половина усов… Одеколоном не побрызгал я тебе?

– Нет…

– Побрызгать?

– Не надо!

Заплатив мастеру, я в гневе покинул салон.

***

Я разузнал, что начальником управления бытового обслуживания был Мурад Мурадович. Однако рабочие между собой называли его Мур-Мур. Когда подошла моя очередь, я открыл дверь кабинета и спросил:

– Можно?

– Заходи.

Я вошел в кабинет. Мур-Мур сидел развалившись в мягком кресле за большим столом. Голова, лицо и усы этого шестидесяти – шестидесятипятилетнего мужчины крупного телосложения и с большим лицом были выбриты бритвой. Даже бровей и ресниц не было видно. Как будо парикмахерские, которыми он руководил, сбрили все под корень только потому, что для него это было бесплатно.

Мур-Мур скрестил руки на груди и закрыл глаза.

Вероятно, это был его способ приема посетителей.

– Слушаю, – сказал он.

– Я пришел к вам из-за одного…

– Понятно... У нас есть три вакансии, дорогой, кассир в бане, работа в прачечной и мастер маникюра в женском салоне. Выбирай, что тебе по душе, я сейчас же подпишу приказ.

– Извините... Я пришел жаловаться.

Он открыл один глаз и посмотрел на меня косо сверху вниз, а затем снова закрыл.

– На кого?

Я подробно описал ему ситуацию. Сонным голосом он спросил:

– Когда случилось это?

– Сегодня.

– Во сколько?

– Сорок минут назад. В час дня.

– В какой парикмахерской?

Я объяснил, где находится та злополучная парикмахерская.

– А где ты сам живешь?

Я сказал свой адрес.

– Если ты правильный человек, то почему не идешь в парикмахерские в своем районе, а ташишься в такую даль?!

– Привык я как-то. Это близко к моей работе. И всегда...

– Где ты работаешь?

– В БАКГОРФИЛФАБРИЗГФОСИЗДАЗКОМПРОИЗТОВЛЕГПРОМе.

На этот раз Мур-Мур открыл оба глаза. Он поправил пиджак и выпрямился:

– Что? Что?

– В Бакинском городском филиале фабрики по изготовлению фосфорных изделий Азербайджанского комбината по производству товаров легкой промышленности.

– Вы там директор?

– Нет… повор в столовой для рабочих.

Голова Мур-Мура спокойненько опустилась на грудь, шея его сморщилась складками, глаза снова закрылись. Он смачно зевнул и сказал:

– Эх... Если бы вечер, поспал бы вдоволь... – Потом он стал меня допрашивать.

– Скажи-ка, двенадцать часов дня... Самая горячая пора работы... Кто тебе в такое время разрешил идти в парикмахерскую?!

– Я в отпуске, товарищь Мур…

– Даа. Ну, тогда понятно… Говоришь у тебя были усы, да?

– Да.

– Хорошие были?

– Плохие.

– Я знаю этого мастера. Гафар Гардашов. Если бы это были хорошие усы, он в жизни бы их не сбрил. Наверное, подумал, что ты работаешь поваром, и не дай Бог, в еду пападет твой волос... Ну, ладно... Чего ты теперь хочешь?

Я громко сказал:

– Я хочу, чтобы вы наказали этого мастера, если посчитаете нужным, накажите и заведующего парикмахерской! Я не оставлю это дело так. Я пойду до конца!

Мур-Мур потер лицо обеими руками и поджал губы:

– Эх... Если бы сейчас был вечер, поспал бы вдоволь... Тогда ты вот как поступи… Во-первых, напиши жалобу на мое имя. Потом принеси мне справку о том, что ты действительно работаешь шеф-поваром ресторана в упомянутом заведении. Тогда у нас не останутся сомнения, что вы побрились в парикмахерской, находящейся в одном районе с вашей работой. И что между вами и мастером нет никакой вражды. Другими словами, всё это не было специально организовано вами для того, чтобы насолить мастеру. Потом будем принимать нужные меры. Всё понятно?

– Да…

– Всего хорошего.

***

Написав и подготовив заявление, я поехал на работу за справкой. Сегодня уже я точно не смогу выехать в Шамаху. Как я мог предстать перед Джамилей без усов? Если мастеру объявят выговор, я смогу хоть как-то оправдаться. Ситуация была весьма сложной.

На работе нужную справку дали мне с большим трудом. Ближе к концу рабочего дня я, запыхавшись, зашел в кабинет Мур-Мура.

– Пожалуйста! Это мое заявление, а это справка, которую вы требовали.

Я быстро положил бумаги на стол. Он снова заговорил, скрестив руки на груди и закрыв глаза:

– У нас три вакансии, дорогой: кассир в бане, работа в прачечной и мастер маникюра в женском салоне. Выбирай, что тебе по душе, я сейчас же подпишу приказ.

– Товарищ Мурадов, я недавно был у вас с жалобой...

– Да... Я вспомнил… Насчет проблемы с усами?

– Да, да…

Мур-Мур лениво приподнял ресницы, потер глаза своими огромными кулаками и потянулся:

– Эх... Если бы вечер… поспал бы вдоволь, – сказал он. Затем потянул бумаги к себе и неохотно начал читать. – Хорошо, а почему справку подписал не директор, а его заместитель?

От неожиданности у меня аж в горле высохло.

– Какая разница... Я не смог найти директора.

– Ооо... О чем вы говорите? Есть большая разница. Я сам лично подписываю все документы. Кто знает, может быть, ваш руководитель даже не знает, что вы там работаете поваром?

Мур-Мур вернул мне справку. Он положил мое заявление в новую папку и плотно закрыл ее.

– Понятно?

– Да.

– Всего хорошего!

На следующее утро, когда я зашел к нашему директору и протянул ему справку на подпись, он взял её и недовольно покачал головой:

– Посмотри, на что ты тратишь свой отпуск! – пробурчал он.

– Поезжай к жене, детям, отдохни как следует.

– Эх... Если бы вы знали... Куда мне ехать в таком виде?

– Не понял… А что случилось-то?

– Да ничего… Это длинная история.

Около полудня я стоял у двери кабинета Мур-Мура. Через час я смог попасть на прием.

– У нас три вакансии, дорогой: кассир в бане...

Я не дал ему договорить до конца:

– Работа в прачечной и мастер маникюра в женском салоне. Только, товарищ Мурадов, я…

Он открыл глаза.

– Да. Понятно. Это снова вы… Проблема усов.

– Да.

– Ну, что там?

– Начальник подписал справку.

– Мдаа…, – сказал он, нахмурившись и глядя на справку. – А где же печать этого документа?

Я наклонился вперед и быстро ответил:

– Ведь штамп стоит там, товарищ Мур…

– Нет… Нет…Так не годиться.

Он вернул мне справку и добавил:

– Нужна печать и обязательно круглая. Понятно?

– Всего хорошего!

***

Я побежал на работу. Как назло директора не было на месте, его куда-то вызвали. Я пошел в столовую, хотел посмотреть, как там на кухне. Зулейха, чьи щеки рдели от пара котлов, улыбнулась, увидев меня.

– Здравствуйте… Как вы, Азим муаллим?

– Спасибо. Не плохо!

– Но вы какой-то… Вы другой сегодня... Случайно не заболели за эти два дня? – вдруг спросила Зулейха. – Вот же... Вы опять сбрили усы? Я же говорю, почему вы не похожи сами на себя?!

Другие девушки, работающие на кухне, тоже смотрели на меня издалека и хихикали. Как я мог убедить Зулейху, что она – виновница всех моих проблем. Её вина в том, что я вынужден был уйти в отпуск, что сильно изменился за эти два дня, и, что без машины бегаю между двумя конторами. Вдруг, будто я проснулся.

Я подумал, что будет, если Джамиля узнает, что я сбрил усы и пришел сюда... Она перевернет весь мир...

– Как ваши дела тут без меня? – спросил я.

– Пока ещё никто не жаловался на наши блюда.

– Тогда досвидания. Я пойду.

… Я смог поставить печать на справку только на следующий день. Тогда же наш директор подозрительно посмотрел на меня и спросил:

– Как себя чувствуешь, Азим?

– Вот видите да..., – сказал я и показал на место сбритых усов. – Я этого так не оставлю!

Я взял справку и помчался на прием к другому начальнику.

... Еще немного, и рабочее время закончилось бы. Мур-Мура я поймал, когда тот выходил из кабинета.

– Пожалуйста. Вот и печать.

– Может… оставим на потом… Устал я что-то. Ну? Все равно делать вам нечего, и к тому же находитесь в отпуске.

– Я вас прошу, давайте, сейчас…

Честно говоря, сердце у этого мужчины оказалось доброе. Он вернулся в кабинет и, не сняв пальто, сел в кресло, открыл ящик стола. Взяв справку и тщательно проверив, он положил её рядом с моим заявлением в новую специально выделенную для меня папку.

– Послушайте... А бумагу от начальника ЖЭКа не принесли?

– Нет. Какую бумагу?

Он покачал головой:

– Слушай, странные люди на свете есть! – сказал он. – Вы пишете заявление и жалуетесь нам, мы его рассматриваем. Так должны же мы знать, в конце концов, кто вы, где живете?

– Я – гражданин. Вот мой паспорт.

Я засунул руку в карман.

– Остановитесь... У всех нас есть это. – Мур-Мур повысил голос и постучал по лежащей перед ним папке. – Нужна ли нам бумажка, чтобы подшить к этому делу, или нет?

– Может быть, и нужна. Но… Вы ничего мне об этом не говорили.

– Я не говорил, так сейчас говорю!.. Ну, идите и принесите. Давайте, покончим с этим делом побыстрее. Ваши усы стали для нас всех большой проблемой!

Бог свидетель, через что мне пришлось пройти, пока я получил справку от начальника ЖЭКа. Даже свой кулинарный диплом я получал не с таким трудом.

– Где ты работаешь? – спросил начальник ЖЭКа.

– В БАКГОРФИЛФАБРИЗГФОСИЗДАЗКОМПРОИЗТОВЛЕГПРОМе.

– Что это за предприятие?

Я начал объяснять ему подробно.

– Ты действительно живешь по указанному адресу?

– Да.

– Вместе с женой и детьми?

– А как же? Конечно, живу.

– Хорошо, я дам тебе эту справку, но вы все только и делаете, что мучаете людей...

– Ну, почему вы так говорите? Это ваш долг.

Начальник ЖЭКа пробормотал себе под нос:

– А какой же ваш долг? Что, это тоже мне надо сказать?

Взяв справку, я посмотрел на печать, штамп и подпись. Похоже, все было в порядке. И я побежал к «Мур-Муру.

– Вот. Пожалуйста, возмите. Справка из ЖЭКа.

Он взял справку, перевернул её и осмотрел со всех сторон.

– Завтра во второй половине дня зайдите ко мне.

– Хорошо. Непременно.

– Всего хорошего!

Уже стемнело. Когда я уже доходил до дома, почувствовал, что ноги почти не слушаются меня. Интересно, когда я работал, то никогда не уставал. Эти два дня я был не в себе. Совсем потерял голову. Сегодня вечером Джамиля должна была снова позвонить. Я не знал, что ей сказать. Вчера я придумал себе оправдание: «Когда ты снимала ротор машины, то что-то повредила. Поэтому она не заводится», – упрекнул я ее. «Утром вызову мастера, чтобы он починил её».

Я не мог никак уснуть, потому что всю ночь телефон молчал. На Джамилю особо надеяться было нельзя.

Если бы у неё появилось хоть малейшее сомнение или подозрение, она приехала бы домой несмотря ни на что – день ли сейчас или ночь. Ничто её не остановило бы. В чем я еще мог провиниться? Меня пугало только лишь отсутствие усов. Эх... поскорей бы объявили выговор этому мастеру. Я бы успокоился, взял ответ на свое заявление-жалобу, написанное Мур-Муру, и показал бы его Джамиле. Тогда бы она поверила, что я не сбрил усы из-за Зулейхи, а стал случайной жертвой одного безответственного парикмахера!

Мне определенно нужна была эта «реабилитационная» бумага, чтобы очистить свою совесть.

Мое сердце не выдержало. Уже поздно ночью я позвонил теще, попросил разбудить Джамилю и позвал её к телефону.

Она раньше меня заговорила:

– Ну что, завелась?

– Что?

– Что-что?! Машина.

– Да, исправили.

Обмануть Джамилю на два дня одним предлогом было сложно.

– Ты выехал из гаража, покатался?

– Нет, нет…

– Я все равно узнаю. Я смотрела на спидометр. Написала, какой там километраж. Почему ты не приехал?

Я закрыл нос платком и изменил голос.

– Упаси тебя Всевышний от всех недуг, я что-то сильно захворал…

Она на секунду замолчала, потом резко сказала:

– Приезжай и продолжай болеть здесь!

– Ведь... у меня температура высокая!

– Смотри у меня… Если не поправишься через два дня, пеняй на себя. Постарайся не заразить эту обезьяну Зулейху. Ты понял, о чем я говорю?!

– Ой!.. Ты опять начала... Как там моя теща, как дети?

– Плохо!

Кажется, она резко бросила трубку. Разговор внезапно прервался.

Я не жалел, что позвонил. У меня в запасе было еще два дня. За это время мастеру, оставившему меня без усов, можно было трижды объявить выговор. Но, если честно, мне вовсе не хотелось, чтобы этого рассеянного парикмахера даже поругали. На самом деле, в чем был

виновен этот бедолага? Ведь он без анестезии, без боли, без крови сбрил эту ненужную вещь вроде аппендикса. На самом деле, он заслужил благодарность, а не выговор. Однако в сложившейся ситуации я не мог поступить иначе. В эти дни моя судьба висела на волоске этих усов. Чтобы не попасть на несправедливый и нечестный суд Джамили, всеми правдами и неправдами мне нужно было добиться, чтобы парикмахеру объявили выговор, пусть даже временно, на несколько дней! Вот почему я снова пришел по уже известному адресу.

– Можно?

– Заходи-ка.

Вчера вы сказали, чтобы я защел во второй половине дня…

– Да… Я понял. У нас три вакансии, дорогой…

– Мне не нужна работа!

Веки Мур-Мура пришли в полуоткрытое положение.

– Да… Я узнал… Разве не закончилось дело усов?

– Нет. Я как раз пришел за ответом на мою жалобу.

Он долго копался в своих ящиках, затем достал мою папку и начал читать бумаги, которые находились там.

– Азим Атаев... Ты обращался в милицию с жалобой?

– Нет.

– Почему?!

– Я не счел нужным. Какой смысл раздувать это дело? Достаточно будет, если вы сами примите необходимые меры.

– А что мне делать с ним?

– Это уже ваше дело!

– Знаешь, дорогой, – Мур-Мур закрыл папку и облокотился на неё, – если слишком сильно надавить на мастера, он скажет, что у клиента и вовсе не было усов. Вызовет пять-шесть свидетелей из числа своих коллег, чтобы они свидетельствовали в его пользу. Тогда докажи, что они лгут, а я прав...

Мур-Мур был абсолютно прав.

– Я верю вам. А что же делать тогда?

– Ты сейчас напиши свое заявление и отнеси его в милицию. Тогда меня официально обяжут наказать парикмахера и сообщить им результат. Это будет для меня основанием. Я вызову этого мастера и влеплю ему выговор, как пощечину. И вы останетесь довольны, и он не посмеет пикнуть. Понятно?

– Да.

– Всего хорошего!!!

Когда я выходил из его кабинета, услышал за спиной голос Мур-Мура:

– Эх... Если бы сейчас был вечер, поспал бы…

***

... Заявление в отделение милиции я написал следующего содержания:

«Я, Азим Атаев, 2 января этого года зашел в парикмахерскую номер восемь постричься и побриться. Был час дня. Когда мастер Гафар Гардашов брил мне лицо, сбрил и усы, хотя до этого я его предупреждал, чтобы он не трогал их. Прошу в самое ближайшее время повлиять на районное управление бытовой службы для принятия мер по этому вопросу».

Когда подавал заявление, спросил у начальника отделения:

– Когда вы пришлете ответ?

– Будьте спокойны. Мы оперативно работаем, – ответил он. – В крайнем случае, через три дня.

В назначенное время я был уже у Мур-Мура. Как всегда, он дремал в своем кресле.

– Письмо из отделения милиции не пришло?

Он открыл папку и посмотрел.

– Пришло.

Я очень обрадовался.

– Сейчас посмотрим, что они там написали, – сказал он.

Мур-Мур надел очки и стал читать:

«... 2 января текущего года гражданин Азим Атаев обратился в районную парикмахерскую №8. Мастер Гафар Кардашов бритвой порезал ему карман и взял часы. Сообщаем вам, что если карманные часы потерпевшего не будут найдены и возвращены ему в ближайшее время, мы будем вынуждены возбудить уголовное дело...».

У меня пересохло в горле. Сердитые глаза Мур-Мура уставились на меня поверх очков.

– Как вам не стыдно! Почему ты клевещешь на безвинных людей? Ты говорил мне,

что мастер сбрил тебе усы, а пошел и пожаловался в милицию, что он порезал тебе карман и украл часы!

– Я не так написал...

Мур-Мур был сильно зол. Он снял очки и бросил их на стол.

– А что вы написали?

– Я писал, что он сбрил мне усы.

– Усы?!

– Да.

– Сбрил?

– Да.

– Почему вы врете? Как вам не стыдно? Вы же вроcлый мужчина!

Мур-Мур встал, схватил меня за руку и подвел к зеркалу шкафа, стоявшего в углу.

– Откройте глаза и хорошенько посмотрите! Вот эти волосы у вас под носом – разве не усы? Что тогда?

Я посмотрел в зеркало. Уже несколько дней я не трогал усы, когда брился. Сейчас они здорово отросли.

– Но ведь…

– Что это такое? Вы уже почти неделю свели всех с ума. Я потрудился и сказал написать заявление, собрал целую папку бумаг для вас: с места работы, милиции, ЖЭКа. Вы десять раз были у меня на приеме. Сколько часов драгоценного времени вы у меня отняли... И вот тебе спасибо!..

Когда он размахивал руками и кричал с пеной у рта, его подбородок двигался из столроны в сторону.

– Когда я увидел вас в первый раз, то подумал, что вы умный человек. Я смотрел: шляпа, галстук – вроде все на месте, все в порядке. Оказывается, у вас с головой не все в порядке! Теперь я уверен, что ни усов у вас не было, ни часы никто не воровал. Всё это вранье...

– Товарищ Мур…

Он не дал мне даже открыть рот.

– Всё. Закончили разговор!!! Здесь не сумасшедший дом!.. Всего хорошего!

***

Наш директор позвонил домой и попросил меня приехать к нему. Кажется, ты хочешь что-то сказать мне... Он начал разговор с шутки:

– Поздравляю тебя с усами…

Я промолчал.

– Как себя чувствуешь?

– Так сильно устал, – сказал я.

Он встал из-за стола и сел рядом со мной.

– Хочешь, выделим тебе путёвку, поезжай в санаторий... Нервы у тебя расшатанные...

– Как вы узнали?

– Мне вчера звонили из управления бытового обслуживания. Сказали, что якобы...

– Якобы что?

– Ничего…

– Что я сошел с ума?

– Слушай, не бери в голову, полечишься, и все пройдет. Который час? Я приподнял чуток рукав пиджака и посмотрел.

– Без трех минут шесть.

– Наверное, пять без трех…

– Да. Верно. Без трех минут пять.

Потом только я понял – он проверял меня. Вероятно, Мур-Мур сказал, что я даже написал заявление в милицию о краже часов парикмахером.

– Разрешите, я пойду.

– Пожалуйста, дорогой. Ты подумай ещё, посоветуйся с врачом. Куда надо будет, мы попросим местком выделить путевку.

Директор погладил меня по шее, словно кошку, и проводил к выходу.

– Будь осторожен и береги себя от автомобилей, трамвая, – заботливо скомандовал он вдогонку. – И иди прямо домой...

... Когда я открыл дверь и вошел домой, я почувствовал, что мне действительно плохо. Все тело ломило, я еле держался на ногах, к тому же сильно болела голова. Я разделся и лег в кровать. Только я заснул, как, вздрогнув, проснулся от шума. Это приехала Джамиля с детьми.

Я радовался, что она увидит меня в постели.

Моя ложь оказалась правдой. И хорошо, что все было так, как она оставила. И усы мои тоже.

На следующее утро несколько человек с работы пришли меня проведать. А Джамиля уже поставила мне свой диагноз... Она всем говорила:

– Я знаю, он сошел с ума из-за Зулейхи!

Tərçüməçinin laboratoriyasından

Flora Nacinin tərcümələri

Əhməd CAVAD

GÖYGÖL

Dumanlı dağların yaşıl qoynunda
Bulmuş gözəllikdə kamalı Göygöl.
Yaşıl gərdənbəndi gözəl boynunda:
Əks etmiş dağların camalı Göygöl!

Yayılmış şöhrəti Şərqə, Şimala,
Şairlər heyrandır səndəki hala.
Dumanlı dağlara gələn suala
Bir cavab almamış soralı Göygöl!

Sənin gözəlliyin gəlməz ki, saya
Qoynunda yer vardır, ulduza, aya.
Oldun sən onlara mehriban daya,
Fələk busatını quralı Göygöl!

Bulunmaz dünyada bənzərin bəlkə,
Zəvvarın olmuşdur bu böyük ölkə.
Olaydı könlümdə bir yaşıl kölgə
Düşəydi sinənə yaralı Göygöl!

Kəsin eyşi-nuşi, gələnlər, susun!
Dumandan yorğanı, döşəyi yosun.
Bir yorğun pəri var: bir az uyusun.
Uyusun dağların maralı Göygöl!

Zümrüd gözlərini görsünlər deyə,
Şamlar boy atmışdır, uzanmış göyə.

Ахмед ДЖАВАД

ГЁЙГЁЛЬ

В объятиях зелёных гор туманных,
На лоне красоты нашёл приют Гёйгёль.
С зелёным ожерельем вокруг шеи
Гор красоту отобразил в себе Гёйгёль!

Восток и Север тебя прославляют,
Поэты в стихах тебя воспевают,
Но на то, о чём горы вопрошают,
Не получил ещё ответа ты, Гёйгёль!

Все красоты твои перечесть нельзя,
Тебя украшают луна и звезда,
Ты лоном им стал, дал приют навсегда,
По воле творца судьбы ты вершишь, Гёйгёль!

Тебе подобных нет, хоть обойди весь свет,
Паломникам твоим конца и края нет,
Тенью зелёною стать – дали мы обет,
Чтобы от всего тебя уберечь, Гёйгёль!

Те, кто пришёл, хватит шума и гама,
На мягком ложе, укрывшись туманом,
Пери лежит, охвачена сном усталым,
Пусть же отдохнёт краса этих гор, Гёйгёль!

В изумрудные твои чтоб заглянуть глаза,
Ели устремились высоко к небесам,

Keçmişdir onlara qəzəbin niyə,
Düşmüşlərdir səndən aralı Göygöl!

Dolanır başına göydə buludlar,
Öpər ayağından qurbanlar, otlar,
Bəzənmiş eşqinlə çiçəklər, otlar,
Ayrılıq könlünü qıralı Göygöl!

Bir sözün varmıdır əsən yellərə?-
Sifariş etməyə uzaq ellərə...
Yayılmış şöhrətin bütün dillərə,
Olursa, olsun qoy haralı Göygöl!

От того ли разгневался на них ты сам,
Что от тебя они отдалились, Гёйгёль!

Над тобою кружат с неба облака,
У ног твоих – овнов жертвенных стада,
От любви к тебе зеленеют луга,
Но от разлуки душа твоя болит, Гёйгёль!

Что хочешь ты сказать дующим ветрам,
Может, передать что-то дальним берегам?
Знай, слава о тебе известна и там,
Не важно, где ты и откуда ты, Гёйгёль!

Əhməd CAVAD

SUSMARAM

Mən bir qulam, yük altında əzilmişəm, qardaşım,
Sevinc bilməz bir məhkumam,
ahu-zardır sirdaşım...
Damğa vurub, zəncirləyib tullamışlar zindana,
Qarlı-buzlu cəhənnəmlər
məskən olmuşdur mana...

Mənə «dinmə, sus!» – deyirsən,
nə vaxtacan susacam?
Böhranların, hicranların məhbəsində qalacam?!
Niyə susum, danışmayım, insanlıqda payım var,
Mənim ana Vətənimdir talan olan bu diyar!

Niyə susum, danışmayım, türk yurdudur
bu torpaq!
Oğuzların, Elxanların Vətənində kimdir bax!
Susmayacam!!! Qoy atsınlar yük altında ölüncə,
Təhqirlərə dözə-dözə düşmən mənə gülüncə...

Süd verərkən doğma anam belə demişdir mənə:
Səni qurban bəsləyirəm türk yurduna – Vətənə!
Bu dünyada azadlığı şan-şöhrətdən üstün tut,
Alçaqlığı, yaltaqlığı, rəzilliyi sən unut!

Ахмед ДЖАВАД

НЕ СМОЛЧУ

Я раб, которого под тяжким гнётом жизнь
ломает,
Я пленник, что, живя в печали,
радости не знает…
Клейменный, в цепи заключенный,
теперь в темнице я,
И этот ад холодный теперь стал домом
для меня.

Мне говорят – «молчи!», но сколько
мне ещё молчать?
И сколько меня будут в разлуки узнице держать?!
Зачем молчать, если говорить имею право я,
Ведь земля, которую так грабят, Родина моя!

Как же молчать, не говорить,
что это тюркская земля?!
Смотрите, кто сегодня этой земли хозяева!
Я не смолчу!!! Пусть убивают, я смерти не боюсь,
Пусть надо мной смеются,
я их насмешек не страшусь…

Ещё ребёнком слова впитал я матери моей:
«Не пожалей ты жизни во имя Родины своей!
А высшим благом этой жизни свободу
ты считай,
Низких, недостойных поступков себе
не позволяй!

Sənin sevgin Vətən olsun, millət olsun,
mən olum,
Südüm sənə haram olsun xəyanət etsən, oğlum!
Necə susum, danışmayım, mən eləyim xəyanət?
Hanı sevgi, hanı Vətən, de harda qaldı millət?!

Mən bir qulam, yerim altun, suyum gümüş,
özüm ac...
Atam məhkum, anam salih, elim hər şeyə
möhtac!
Dil yaranıb danışmağa, mən danışa bilmirəm,
Aç qəlbimi, yar sinəmi ciyər vərəmdir-vərəm...

Koramal tək sürünməkdə denən varmıdır məna?
Nə vaxtacan çörək üçün girək hər alçaq dona?
Mən Türk övladıyam, dərin əqlim, zəkam var,
Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?

Nə qədər ki, hakimlik var, məhkumluq var,
mən varam!
Zülmə qarşı üsyankaram, əzilsəm də
SUSMARAM!!!

Как мать ты любишь, так Родину
и свой народ люби,
Не будешь верен им, благословения не жди!»
Как же молчать, не говорить, это ведь значит
предать?!
Как перед Родиной и народом мне ответ
держать?!

Я раб, что в голоде живёт на золотой земле,
Отец в неволе, мать горюет, весь мой народ
в нужде!
Язык нам дан, чтоб говорить, я вынужден
молчать,
Ты в душу загляни мою, в ней горестей печать.

Скажи мне, имеет ли смысл нам ужом
извиваться?
Хлеба насущного ради пред всеми унижаться?
Я Тюрка сын, и ум глубокий дан мне, слава богу,
Сколько ещё будут все отнимать у нас свободу?!

И пока власти свой суд вершат, молчать
я не хочу,
Я против гнёта восстаю, раздавлен буду,
НЕ СМОЛЧУ!!!

Rafail TAĞIZADƏ

TƏRƏDDÜD

Gecənin bu sakit, hüznlü vaxtı,
ürəklə qapımı kim olar döyən?
Doğmamı, özgəmi bu qəfil gələn?
Kimlərin yadına düşmüşəm görən?
Bu əski qapılı, əski qıfıllı
bu kasıb komamı kimdi tanıyan,
kimdi gecə vaxtı məni arayan?
Adamın ağlına min güman gəlir,
başımda min xəyal dolaşır, gəzir.
Çoxdan unutmuşam qonaq-qaranı,
Tanrımı göndərib gələn qonağı?

Qaranlıq gecəyə Ay doğan kimi,
qapının ağzında gecə qonağı.

Рафаил ТАГИЗАДЕ

СОМНЕНИЕ

Кто в это время, в тишине ночной,
Так упорно в дверь мою стучится?
Кто он, этот гость, свой или чужой?
Кто меня вспомнил, что могло случиться?
Кто знает о бедном жилище моём,
Со старой дверью и старым замком,
Кому я вдруг понадобиться мог?
Тысячи мыслей в голове роЯтся,
Сомненья тучей на душу ложатся.
Я же так давно гостей не встречал,
Может, гостя этого сам Бог послал?

Как Луна, что ночью небо освещает,
Перед дверью моей гость ночной ожидает.

Bir əlim dəstəkdə, biri cəftədə.
Açım, ya açmayım?
Bilmirəm hələ...

Схватилась за дверной замок моя рука,
Открывать или нет?
Не знаю пока…

Adilə NƏZƏR

ŞEİR ÜZLÜ DÜNYA...

İçimdə min şeir var,
Min-min çiçəyə-gülə,
Min-min dosta-tanışa.
Ürəyimin diliylə,
Hər misrası danışan.
Üzləri üzüm kimi,
Gözləri gözüm kimi…
İçimdə min şeir var,
Alovlarla oynayan.
Dənizlərlə qabaran.
Məni mənə gətirən,
Məni məndən aparan.
Mən bu şeirlərimlə
Zamanı unuduram.
Mən bu şeirlərimlə,
Batabatın, Göygölün,
Əlincənin, Kəpəzin
Havasını uduram.
Ayrılır heca-heca,
Ayrılır misra-misra
Ayrılır ürəyimdən
Ayrılır şeirlərim -
Neçə qola ayrılır,
Neçə cığıra-izə,
Neçə yola ayrılır.
Qalmır məndə mənəmlik
Qopur heçim köçümdən..
Şeirlər qatar kimi
Gəlib-keçir içimdən.
Mən öz şeirlərimdə,
Büllür buz bulaqları,
Axar çayı sevirəm,
Qarlı qışı sevirə,
Qızmar yayı sevirməm.
Qızıl saçlı Günəşi

Адиля НЕЗЕР

МИР С ЛИЦОМ СТИХОТВОРЕНЬЯ...

Тысячи стихов во мне звучат,
Они о тысячах цветов,
О тысячах знакомых и друзей
Словами сердца моего
Своею каждой строчкой говорят.
Тысячи стихов во мне звучат,
И все они похожи на меня,
Так же, как я, они на мир глядят…
Порой с огнём играют не боясь,
Порой же с моря волнами борясь.
Они меня к себе самой приводят,
А то и от себя самой уводят.
Когда под власть их попадаю,
Часто про время забываю,
Стихами я Родины моей
Полной грудью воздух вдыхаю.
В рифмы сплетаются,
В строки вмещаются,
От сердца отрываясь,
От меня удаляются…
Затем на множество путей,
На сотни разных дорог
Стихи мои разбегаются.
Ничего во мне не оставляя,
Стихи, как вагонов вереница,
Забирая всю любовь и печаль,
Сквозь сердце моё уносятся вдаль.
Стихами своими я
К миру любовь выражаю,
Родников хрустальных,
Рек полноводных,
Зим морозных,
Лета дней знойных,
Золотого Солнца,
И бледной Луны

Solğun Ayı sevirəm.
.. İçimdəki səmada
Ulduzlar yanır-sönür.
Bügün də bir şeirlə
Dönürəm,
dünya dönür…

Красоту воспеваю.
…На души моей небосводе
Вдруг звёзд мерцанье начинается.
Значит, сегодня я вновь…
К стихам возвращаюсь,
И мир ко мне возвращается.

Esmira MƏHİQIZI

***

getmədiyim hər yerəm,
yetmədiyim hər şeyəm indi..
təpədən dırnağa həsrət toplusuyam-
demədiyim söz,
yazmadığım şeir,
çatmadığım arzuyam
və geridə qoyduğum o qızam
səsini qısdığım nəğmələrin kədəriyəm, indi,
səsini aldığım sözlərin ahı
və bu qədər səslərin səssizliyi iliyimə işləyir,
bumbuz.
və bu qədər səssizlikdə ölmək nə qədər zor,
qalmaq nə qədər imkansız.
hər gün bütün pəncərələrin qaranlığına düşürəm,
bütün qapıların aralığına
bütün gedişlərin ayrılığına
sanki..varı da,
yoxu da bir araya sığışdırıram
amma.. heç bir var yoxu xatırlatmır,
amma.. bütün yox-lar var-ı xatırladır

Эсьмира МЕХИГЫЗЫ

***

сейчас я – те места, где никогда не бывала,
я – то, чего никогда не достигала…
с головы до ног я – сплошное ожидание,
я – не сказанное мною слово,
не написанное стихотворение.
я – несбывшаяся мечта
и всё ещё та девочка, которая осталась позади.
сейчас я – грусть тех песен, звук которых постоянно убавляла,
я – мольба в словах, которую заглушала.
эта беззвучность звуков проникает в меня и леденит,
в такой беззвучности умирать трудно,
но оставаться жить тоже невозможно.
каждый день я попадаю в черноту всех окон,
в проём всех дверей,
на перекрёсток всех путей
словно …
пытаюсь соединить существующее и несуществующее
но …ни одно существующее не напоминает
о несуществующем,
но …всё несуществующее напоминает существующее.

Dünya ədəbiyyatından seçmələr

Mahir N. Qarayevin tərcüməsində



Alberto MORAVİA
(İtaliya)

KÖRPƏ

Dünyaya nə səbəbdən bu qədər uşaq gətirdiyimizi "Kasıblara yardım cəmiyyəti" adından bizə maddi yardım göstərən xeyirxah sinyora da soruşmuşdu.

Tərslikdən həmin gün arvadım bir az dilxor idi və məlum həqiqəti ağına-bozuna baxmadan bütün çılpaqlığı ilə ortaya qoymuşdu. «Pulumuz olsaydı, axşamlar kinoya gedərdik, – demişdi. – Pul yoxdusa, daha neyləyək, yatağa girib başlayırıq uşaq düzəltməyə».

Bu köntöy cavabdan sinyora bərk incimiş, sağollaşmadan çıxıb getmişdi. Mən də arvadımı bəs deyincə danlayıb, abrını bükmüşdüm ətəyinə ki, sözü deməyin bir təhəri var; lap həqiqət də olsa, bax gör kiminlə danışırsan və o həqiqəti kimə deyirsən.

Subaylığın sultanlıq olduğu cavan vaxtlarımda yerli qəzetlərin «Roma xronikası»nı tez-tez oxuyurdum. Orda adamların başına gələn hər cür bədbəxt hadisələrdən söz açılırdı: oğurluq, qarət, qətl, intihar, küçə əhvalatları. Onda mənə inanılmaz görünürdü və heç ağlıma da gəlməzdi ki, qəzetdən oxuduğum bu müsibətlərdən haçansa özümə də pay düşə bilər. «Acınacaqlı fakt» – yəni insan o dərəcədə bədbəxtdir ki, başına bir iş gəlmədən, heç bir müsibət-filan olmadan, təkcə elə öz mövcudluğuyla yazıqlıq hissi doğurur.

Hə, onda çox cavan idim və bilmirdim ki, böyük ailəni dolandırmaq nə olan şeydir. İndi isə yavaş-yavaş «acınacaqlı fakta» çevrildiyimi görüb dəhşətə gəlirəm. Misal üçün, qəzetdə yazılır: *«Onlar ağır ehtiyac içində yaşayırlar»*. Baxıb görürəm ki, ən ağır ehtiyac içində yaşayan elə özüməm. Yaxud yazırlar: *«Onların sığındığı evə əslində ev demək düzgün olmaz»*. Amma elə biz də Tormarançoda[1] yaşayırıq; arvadım və altı uşağımla birgə döşəklərin arasında ayaq qoymağa yer olmayan balaca bir otağa sığınmışıq. Yağış yağanda daxmanın içindən su elə axır ki, elə bil bura otaq yox, Ripetta sahil küçəsidir. Ya da məsələn: *«Hamilə qaldığından xəbər tutan zavallı qadın öz ciyərparasından xilas yolunu cinayətkar qərara əl atmaqda gördü»*. Yeddinci uşağımızın doğula-

[1] *Tormarançoda – Roma ətrafında taxtalardan tikilmiş gecəqondu*

cağını biləndə elə biz də arvadımla həmin yola əl atdıq: qərara gəldik ki, havalar imkan verən kimi körpəni aparıb hansısa kilsənin qabağına qoyaq, onu birinci görəcək insaf yiyəsinin ümidinə buraxaq.

Uşağı dünyaya gətirmək üçün həmin o xeyirxah sinyorların köməyi ilə arvadım xəstəxanaya qəbul edildi; özünə gələndən sonra təzə doğulmuş körpəsiylə yenidən Tormarançoya qayıtdı. Otaga girəndə yazığın birinci sözü nə olsa yaxşıdır:

– Xəstəxanada ürəkaçan bir şey olmasa da, mən orda qalmağa canla-başla hazır idim, təki bura qayıtmayım.

Körpə sanki onun nə dediyini başa düşdü: qulaqbatırıcı səslə ağlamağa başladı. Çox qəşəng uşaq idi, maşallah, həm də canı möhkəmdi. Səsinə isə söz ola bilməzdi: gecələr yuxudan oyanıb çığıranda hamını yataqdan dik qaldırar, heç kəsə dinclik verməzdi.

May ayı gəldi, havalar isindi, artıq küçəyə paltosuz çıxmaq mümkün oldu. Biz də Tormarançodan birbaşa Romaya yollandıq. Arvadım körpəni sinəsinə sıxmışdı, özü də uşağı altdan-üstdən o qədər əski-üsküyə, cır-cındaya bükmüşdü ki, elə bil onu qarlı düzənliyə aparıb qoyacaqdı. Şəhərə gəlib çatanacan, çox güman ki, dərdini, müsibətini boğmaqdan ötrü nəfəsi darala-darala, gözləri hədəqəsindən çıxmış halda bir an ara vermədən, kirimək bilmədən nədən gəldi danışırdı…

Əvvəlcə körpəni qoya biləcəyimiz müxtəlif kilsələrdən söz salıb zorla izah eləməyə başladı ki, bəs varlıların baş çəkdiyi kilsələrdən birini seçmək lazımdır, çünki uşağı bizim kimi bir kasıbın tapmağındansa elə özümüzdə qalması yaxşıdır. Sonra dedi ki, yaxşısı budur, Madonna kilsəsi olsun, axı Məryəmin də oğlu olub, Məryəm ana hamısını anlayar, niyyətimizi də çin edər. Düzü, bu söhbətlərdən təngə gəlmişdim, içimdə qıcıq yaranmışdı: axı heç öz halım da onunkundan yaxşı deyildi; bu işə qol qoymaq istəmirdim. Amma özümə aşılayırdım ki, təmkini itirmək olmaz, sakitləşmək lazımdır, üstəlik, arvada da ürək-dirək verməliyəm. Bu qədər çənə döyməsinin qarşısını almaq üçün ona candərdi etirazımı bildirdim, təklif elədim ki, gəl uşağı Müqəddəs Pyotr kilsəsinin qabağına qoyaq.

– Yox, – dedi, – ora ayaqaltı yerdir, uşağı görməyə bilərlər… yaxşısı budur, via Kondottidəki balaca kilsələri sınaqdan keçirək, orda bahalı mağazaların sayı-hesabı yoxdur, bütün günü küçədən varlı adamlar keçir, münasib yerdir...

Avtobusa mindik. Adamların arasında arvadım naəlac qalıb ağzını yummalı oldu. Əvəzində uşağı ədyala daha bərk-bərk bürüdü, hərdən də ehtiyatla üzünü açıb tamaşa eləyirdi. Körpə isə çəhrayı sifətini cındaya basıb möhkəmcə yatırdı. O da, bizim kimi, pis geyimdə idi, yalnız yun əlcəyi babat görünürdü, özü də elə hey əllərini çölə çıxartmaq, sanki mavi əlcəklərini adamlara göstərmək istəyirdi.

Qoldoni teatrının yaxınlığında avtobusdan düşdük, düşən kimi də arvadım yenə ağzını açıb gözünü yumdu. Zərgər dükanıının yanından ötəndə ayaq saxlayıb qırmızı məxmərdə vitrinə qoyulmuş zinət əşyalarını göstərə-göstərə dedi:

– Sən bir cah-cəlala bax, gör nə qiyamətdir! Elə adamlar da bu bahalı şeylərə pul xərcləməkçün bura gəlir… Burda kasıb-kusubun işi yoxdur, hamısı varlı-hallı adamlardı. Hə, gəlib buralarda alış-veriş edirlər, arada da dua üçün kilsəyə baş çəkirlər. Kefləri kök olur, uşağı görüb götürərlər...

O, bu sözləri brilyantlara baxa-baxa deyirdi və uşağı sinəsinə sıxaraq sanki öz-özüylə müzakirə edirdi; hədəqəsindən çıxmış gözləri isə elə amansızlaşmışdı ki, ona söz deməyə ürək eləmirdim.

İçəri girdik. Bir neçə hücrəsi və mehrabı olan kilsənin hər tərəfi sarı rənglə boyanmış, ucuz mərmərlə döşənmişdi. Arvadım dedi ki, kilsə bayırdan başqa cür görünürdü, indi isə çox da ürəyinə yatmır. Bununla belə, barmağını müqəddəs suya batırıb xaç çəkdi. Sonra yenə körpəni sinəsinə sıxıb içərini narazı baxışlarla süzə-süzə ağır addımlarla tələsmədən gəzməyə başladı. Günbəzdən, üst pəncərədən parlaq işığın soyuq şöləsi süzülürdü. O, bir hücrədən o birinə adlayıb, kilsənin içində vargəl edir, skamyaları, mehrabları, divardakı rəsmləri diqqətlə gözdən keçirirdi; sanki yoxlayırdı ki, görsün uşağı bura qoymağa dəyər, ya yox. Mən bir neçə addım arxada gəlirdim, bir gözüm də giriş qapısında idi. Bu vaxt gördüm ki, sarışın saçları qızıl kimi parlaq olan qırmızı geyimli ucaboy bir sinyorina içəri girdi. Dar yubkası əyninə yapışmış qız tezbazar dua elədi, sonra tələsik xaç çəkib bizə tərəf baxmadan kilsədən çıxdı.

Bunu görən arvadımın dili açıldı:

– Yox, burda alınmaz… Bura bunun kimi cavanlar gəlir, bunların işi-peşəsi əylənməkdir, mağazalarda vaxt keçirməkdir. Gedək burdan.

Bunu deyə-deyə kilsədən çıxdı.

Korsoya qədər bir xeyli getdik. Yeyin addımlayırdıq: arvadım qabaqda, mən arxada. Venesiya meydanı yaxınlığında başqa kilsəyə girdik. Bu kilsə əvvəlkindən xeyli böyük idi, bahalı, qızılı pərdələri vardı, divardakı tutqun şüşənin altında gümüşü ürəklər par-par parıldayırdı. İçəri adamla doluydu, əksəriyyəti də şlyapalı xanımlar, yaxşı geyinmiş kişilər. Görkəmindən həqiqətən də hamısı varlıya oxşayırdı. Keşiş minbərdə dua oxuyurdu, hamı da yönünü ona çevirmişdi. Fikirləşdim ki, əcəb girəvədir, bizi heç kəs görməz. Arvadıma yavaşdan pıçıldadım:

– Gəlsənə burda sınaqdan keçirək.

Başını razılıqla tərpətdi və biz yandakı hücrəyə keçdik. Orda, deyəsən, heç kəs gözə dəymirdi, üstəlik, içəri qaranlıq idi, bir-birimizi zorla seçirdik. Arvadım ədyalın qırağıyla uşağın üzünü örtüb, qollarını yormuş namünasib bağlama kimi onu skamyanın üstünə qoydu. Sonra diz çökdü, üzünü əlləriylə qapayıb uzun-uzadı dua elədi. Mənsə bekarçılıqdan hücrənin divarlarından asılmış ürəkşəkilli gümüş ikonalara baxırdım. İri-li-xırdalı yüzlərlə gümüş ikona. Nəhayət, arvadım dikəlib ayağa qalxdı; sifəti xalis ölü sifətiydi. Xaç çəkib kirimişcə hücrədən çıxdı, mən də onun dalınca getdim. Bu vaxt keşiş oxuyurdu:

– Və İsa Məsih dedi: «Yolun haradır, Pyotr?»

Birdən mənə elə gəldi ki, keşiş bunu məndən soruşur.

Arvadım artıq girişdən bayıra çıxmaqdaydı ki, kimsə onu arxadan səslədi; hər ikimiz eyni vaxtda diksindik.

– Sinyora, sizin bağlamanız skamyada qaldı.

Baxanda gördük ki, təpədən dırnağa qara geyinmiş qadındır – bütün gün gah kilsədə, gah tövbə kürsüsünün böyründə dolaşanlardan biri.

– İşə bax ey, – arvadım özünə gəldi, – sağ olun, tamam unutmuşdum.

Tez "bağlamanı" götürüb kilsədən çıxdıq: nə ölüydük, nə diri.

Küçədə arvadım yaxşı qazanca hesablanmış, intəhası bazarda malına heç kəsin həvəs göstərmədiyi satıcı kimi dil-boğaza qoymurdu.

– Bədbəxt balam, heç kim yiyə durmaq istəmir, heç kimə lazım deyil…

İndi o yenə nimdaş paltarında tövşüyə-tövşüyə irəli səkir, ayaqları sanki özü onu dartıb aparırdı. Müqəddəs Həvarilər meydanına çatanda kilsənin qapısı hələ açıq idi. İçərinin geniş olduğunu gördük, işıq da az idi.

Arvadımın pıçıltısını eşitdim:

– Əsl münasib yerdir.

Qəti addımlarla yan hücrələrdən birinə keçib uşağı skamyanın üstünə qoydu, bu dəfə dua etmədən, xaç çəkmədən tələsik çıxışa cumdu, sanki yer ayağının altında yanırdı. Heç uşağın alnından da öpmədi. Amma bir-iki addım atmışdı ki, qəfil bağırtı səsi kilsəni başına götürdü. Uşağın yemlənmək vaxtı çatmışdı; öz vaxtını yaxşı bilən körpə də oyanıb acından ağlamağa başlamışdı. Bu çığırtıdan arvadım lap başını itirdi: qaça-qaça əvvəl qapıya cumdu, sonra geri atıldı, harda olduğunu düşünmədən skamyada oturub körpəni qucağına aldı, yaxasını da açdı ki, uşağı əmizdirsin. Körpə hər iki əliylə çılpaq döşdən yapışıb xalis canavar balası kimi əmməyə başladı, elə həmin dəqiqə də kobud, qaba səs eşidildi:

– Allahın evində belə iş tutmurlar… Durun çıxın burdan, haydı küçəyə!

Bu, ağ saqqallı qoca ponomar idi; səsi özündən təpərliydi. Arvadım ayağa qalxdı, yaxasını düymələyib uşağın başını örtdü, amma dilini dinc qoymadı:

– Bəs şəkillərdəki Madonna… o ki həmişə uşaq əmizdirir.

Ponomar cavabında nə desə yaxşıdır:

– Həyasız qadın, indi sən özünü Madonnaya tay tutacaqsan?

Bir sözlə, kilsədən çıxıb özümüzü Venesiyadakı balaca bağa verdik. Orda arvadım yenə uşağa döş verdi, o da doyunca əmib yatdı.

Yavaş-yavaş axşam düşür, hava qaralırdı. Kilsələr bağlanırdı, bizsə yorulub əldən düşmüşdük. Elə yerimizdəcə oturub qalmışdıq, ağlımıza fərli şey gəlmirdi. Fikirləşirdim ki, gör lazımsız və mənasız işə biz nə qədər vaxt sərf etmişik. Belə düşündükcə lap ümidsizliyə qapılırdım. Axırda arvadıma üz tutmalı oldum.

– Qulaq as, artıq gecdir, mən daha bacarmıram, bir qərara gəlmək lazımdır.

– Bu sənin balan, sənin qanındır, – arvadım özündən çıxdı, – indi neyləmək istəyirsən, onu itpişik yemi kimi bir küncəmi ataq?!

– Yox ey, mən elə demirəm. Amma belə şeyi ya gərək heç nə düşünmədən, gözünü yumub dərhal edəsən, ya da heç etməyəsən.

– Yox, sən sadəcə qorxursan. Qorxursan ki, birdən mən fikrimdən daşınıb onu təzədən evə apararam… Siz kişilər hamınız qorxaqsınız!

Görəndə ki ona bu dəqiqə söz deyiləsi deyil, məcbur qalıb səsimin yumşaq yerinə saldım:

– Səni yaxşı başa düşürəm, narahat olma. Amma sən də başa düş: uşağımızın başına lap nə iş də gəlsə, yenə ona Tormarançoda, bizim mətbəxsiz komamızda böyüməkdən yaxşı olacaq. Bundan arxayın ol. O xarabada qışda qurdların, yayda miilçəklərin əlindən tərpənmək olmur.

Bu dəfə heç nə demədi.

Hara getdiyimizi özümüz də bilmədən via Nasionalla üzüyuxarı, Neron qülləsinə doğru irəlilədik. Qüllənin arxa tərəfində, bir az aralıda tamamilə adamsız olan bir küçə var. Görəndə ki darvazaların birinin qabağında boz rəngli boş maşın dayanıb, beynim dərhal işə düşdü: maşına yaxınlaşıb dəstəyi burdum, qapı açıldı.

– Tez ol, münasib məqamdır, qoy onu arxa oturacağa, – arvadıma dedim.

Sözümə qulaq asdı – uşağı oturacağa qoydu; mən də tez qapını örtdüm. İşin hamısını bircə dəqiqənin içində gördük. Sonra arvadımın qolundan yapışdım və biz Kvirinal[1] meydanına tərəf qaçdıq.

Meydan boş və qaranlıq idi. Yalnız sarayda bir neçə fənər yanır, məhəccərin arxasından isə Romanın sayrışan işıqları görsənirdi. Arvadım fəvvarənin yanındakı skamyada oturdu. Büsbütün qıvrılıb yumağa dönmüşdü. Üzünü yana tutub birdən elə hönkürdü ki, gəl görəsən!

Soruşanda ki noldu axı, nədi səni qəfildən ağladan, nə desə yaxşıdır:

– Körpəni ora qoyandan elə bil boş qalmışam, nəyimsə çatmır... qucağımda, sinəmdəki yerində nəsə çatışmır...

– Aydındır, əlbəttə, səni başa düşürəm... Amma keçib gedəcək.

Çiyinlərini çəkib ağlamağa davam elədi, amma birdən-birə göz yaşı qurudu; necə ki külək-də daş küçənin yağışı quruyar, bax o cür. Qəfil yerindən sıçradı, barmağını saraya tuşlayıb çığırdı:

– İndi gedərəm ora, kralın yanına keçib hamısını ona deyərəm!

– Dayan görüm ey, – tez qolundan yapışdım. – Bəyəm orda kral var? Başına hava gəlib sənin?.. Bilmirsən, kral nə vaxtdandı yoxdur?

– Mənə nə dəxli… Kralın yerində kim oturubsa, ona deyərəm. Orda kimsə var da! Kimsə olacaq da!

Bir sözlə, əlimdən çıxıb darvazaya cumdu. Yaxşı ki arxasınca ümidsizcəsinə olsa da qışqırdım; qışqırmasaydım hökmən bir qalmaqal yaradacaqdı.

– Qulaq as, mən fikrimi dəyişdim! Gəl gedək maşının yanına, uşağı götürüb özümüzə saxlayaq. Nə fərqi var: bir uşaq az, bir uşaq çox...

Görünür, bu fikir bayaqdan başında fırlanırmış, çünki kralla görüş barədəki təzə xəyalını dərhal beynindən sıxışdırıb çıxartdı.

– Görəsən hələ ordadır?

Bunu deyib boz maşının dayandığı küçəyə tərəf cumdu.

– Niyə olmur kı?! Hələ heç beş dəqiqə keçməyib.

Doğrudan da, maşın yerində idi. İntəhası arvadım maşının qapısını açanda sifətindən müştəbehlik yağan orta yaşlı harın bir kişi darvazadan bayıra çıxdı və işi belə görcək qışqırdı:

– Dayan! Dayan görüm! Mənim maşınımda nə işiniz var?

– Mənim işim özümünküylədir, – arvadım kişiyə tərəf dönmədən cavab verdi və uşağı oturacaqdan götürmək üçün aşağı əyildi.

Ancaq kişi səsini kəsmədi:

– Siz orda neyləyirsinz, nə götürürsünüz? Maşın mənim maşınımdır… Başa düşürsünüz? Mənimkidir!

Gərək bu yerdə arvadımı görəydiniz! O, dikəlib kişinin üstünə atıldı:

– Səndən kim nə götürür ki? Qorxma, səndən heç nə oğurlayan yoxdur, sənin maşınına isə tüpürməyim gəlir. Bax belə…

Və doğrudan da qapıya tüpürdü.

– Bəs o bağlama nədir? – kişi çaşqın halda soruşdu.

[1] *Keçmiş Kral sarayının yerləşdiyi meydan*

– Bağlama deyil, öz oğlumdur... Baxa bilərsən!

Və uşağın üzünü açıb kişiyə göstərdi, ardınca yenə gözünü yumub ağzını açdı:

– Belə qəşəng oğlanı sən öz arvadınla heç vaxt düzəldə bilməzsən, lap dünyaya təzədən gəlsən də… Özün də məni tutub saxlamağı ağlına gətirmə, yoxsa qışqırıb polis çağıraram, deyərəm uşağımı oğurlamaq istəyirdin.

Bir sözlə, kişinin üstünə elə düşmüşdü ki, yazığın ağzı açıla qalmışdı, sifəti pörtüb qızarmışdı – az qalmışdı o dünyalıq olsun. Nəhayət, arvadım kiridi, geri dönüb kişinin böyründən sakitcə ötüb keçdi və yol ayrıcında gəlib mənə çatdı.

Mario BENEDETTİ
(Uruqvay)

SENYORİTA İRİARTE

Bizim şefə beş qadın zəng vururdu. Səhər növbətçiliyi zamanı mən həmişə telefonun böyründə olurdum və zəng vuran beş qadının beşini də səsindən tanıyırdım.

Başa düşürdük ki, onların hər birinin arxasında şefin əyləncəsi gizlənir; hərdən səs yiyələrinin necəliyi barədə öz aramızda müzakirə də aparırdıq.

Misal üçün, mən özlüyümdə senyorita Kalvonu dodaqlarına qalın boya çəkən kök və abırsız bir qadın kimi təsəvvür edirdim; senyorita Rusi buruq telləri gözünün üstünə düşən nazqəmzəli bir qadın olmalıydı, senyorita Duran isə, yorğun ziyalı təsiri bağışlasa da, yəqin ki, arıq, cılız və düşüncəsiz qadın idi. O ki qaldı Salqadoya – mənim aləmimdə bu arvad qalın dodaqlı yekəpər və sırtıq dişidən başqa bir şey deyildi.

Telefonda özünü İriarte kimi təqdim edən beşinci qadın isə tam başqaydı; yalnız onun səsi ideal qadın səsi idi. Mən bu şən, mehriban, ürəyəyatımlı səsi yüz səsin içindən seçə bilərdim. Mənim təsəvvürümdə senyorita İriarte nə çox kök idi, nə çox inadkar, nə çox itaətkar – onda hər şey əndazəsində olmalıydı (ölçü hissi təbiətin hərdən insana bəxş etdiyi ən yaxşı nemətdir). Bir sözlə, senyorita İriarte mənim düşüncəmə əsl qadın, əsl şəxsiyyət kimi həkk olunmuşdu. Onu məhz bu cür təsəvvür edirdim. Ürəkdən gələn səmimi və sirayətedici gülüşü də mənə yaxşı tanış idi. Artıq onun bütün jestlərini, hətta susmağını da təsəvvürümə gətirə bilir, bu incə və gözəl qadının qara, düşüncəli gözləri xəyalımda çox aydın canlanırdı.

Səsindən tanıdığımız bu beş qadın barədə hərəmizin öz təsəvvürü vardı.

Məsələn, Elisalde senyorita Salqadonu heç bir iddiası olmayan bəstəboy qadın kimi təsəvvür edirdi. Rossi belə düşünürdü ki, senyorita Kalvo turp kimi yumru və toppuşdur, senyorita Ruis isə hətta Korreanın özüylə də hər hansı macəradan, hoqqa çıxartmaqdan çəkinməzdi.

Təkcə senyorita İriartenin barəsində hamı eyni mehribanlıqla danışır, onun heyranedici, füsunkar bir qadın olduğunu bildirirdilər. Ən qəribəsi bu idi ki, senyorita İriartenin səsinə əsasən, demək olar, hamımız eyni obrazı yaratmışdıq. Yüz faiz əmin idik ki, günlərin bir günü bu qadın dodağındakı xoş təbəssümlə kontorun qapısında görünsə, heç ağzını açmağa da ehtiyac qalmaz – həmin dəqiqə onu tanıyardıq, çünki senyorita İriarte üçün uydurduğumuz təbəssümü başqa heç bir qadının təbəssümüylə qarışıq sala bilməzdik.

Tabeçiliyindəki adamlara münasibətdə ağına-bozuna baxmayan, heç nəyi vecinə almayan

şef söhbət o beş qadından gedəndə dərhal özünü yığışdırır, ciddi və təmkinli görkəm alırdı. Bu barədə uzun danışmağı xoşlamır, söhbətin davamına bəhanə vermirdi. Bizim rolumuz ondan ibarət olurdu ki, dəstəyi qaldırıb düyməni basaq və kabinetdən zəngin səsini eşidəndə şefə qısaca məruzə edək: dəstəkdə senyorita Salqadodur, yaxud senyorita Kalvo sizinlə danışmaq istəyir. Şef də qısa cavab verirdi: "Birləşdirin", yaxud "Mən yoxam, qoy bir saatdan sonra zəng vursun". Əlavə heç bir söz demirdi, heç zarafat da eləmirdi. Hərçənd yaxşı bilirdi ki, bizə etibar etmək olar.

Bircə onu başa düşmürdüm ki, niyə senyorita İriarte o birilərdən az, bəzən yarım ayda cəmi bir dəfə zəng edir. Aydındır ki, senyorita İriarte zəng vuranda "məşğul" göstərən qırmızı işıq azından on beş dəqiqə sönmürdü. Mənimçünsə bu o demək idi ki, heyran olduğum bu incə və məlahətli səsi düz on beş dəqiqə eşidə bilərəm!

Bir dəfə ürəyimdən keçdi ki, bu gözəl, bu inamlı səsin sahibinə nəsə deyim. Dedim də. Nə dediyim və senyorita İriartenin mənə nə cavab verdiyi indi yadımda deyil, amma o gün mənimçün unudulmaz bir gün oldu! O vaxtdan ürəyim gedirdi ki, kaş bu xanımla bir az danışa biləydim, hələ ona da ümid eləyirdim ki, mən onun səsini tanıdığım kimi, o da mənim səsimi tanıyar.

Bir səhər ağlıma gəldi ki, xanıma belə deyim: "Dəstəkdə bir dəqiqə gözləyə bilərsinizmi sizi şeflə calaşdırım?" Senyorita İriartenin cavabı belə oldu: "Əlbəttə, gözləyərəm, axı siz o bir dəqiqəlik gözləntini adama xoş etməyə çalışırsınız".

Etiraf edim ki, günümün yarısı korlandı, çünki söz tapa bilmədim, yalnız havadan və yaxın günlərdə iş saatının dəyişəcəyindən danışdım. Amma növbəti dəfə özümü toparladım və biz ümumi mövzularda xeyli söhbətləşdik. O vaxtdan senyorita İriarte səsimi tanıyır və mənimlə həmişə salamlaşırdı: "İşlər necə gedir, katib?" Bu sözlərin təsirindən, az qala, başım hərlənirdi.

Bir neçə aydan sonra dincəlmək üçün dəniz kənarına getdim.

Artıq neçə ildi ki, ən böyük ümidim dəniz kənarında keçən məzuniyyətlə bağlı idi. Mənə həmişə elə gəlirdi ki, öz idealıma – bütün varlığımla sevəcəyim, ürəyimin bütün hərarətini verəcyim qıza günlərin bir xoş günü məhz dəniz kənarında rast gələcəm. Axı mahiyyətcə çox sentimental adamam. Hərdən buna görə özümü qınayıram da. Bilirəm ki, indi belə hisslərə tüpürən yoxdur, hamı xudbinləri xoşlayır, hər şeyin hesabını aparan işgüzarlara üstünlük verir – amma nə xeyri, heç nə mənə dərs olmur. Hərdən kinoya gedəndə, qanundankənar uşaqlardan, yaxud bədbəxt qocalardan bəhs edən hansısa ucuz meksikan həbini udanda, bilirəm ki, bunların hamısı boş, mənasız şeylərdir, di gəl, özümü saxlaya bilmirəm, istər-istəməz, boğazım qəhərlənir.

Hə, deməli dəniz kənarında rastlaşacağım ürəyəyatan qadın və o qədər də sentimental görünməyən başqa şeylər barəsində çox fikirləşmişdim. Axı dünyada hər şeydən həzz almaq istəyən, deyib-gülməyə, sevinməyə, şənlənməyə hazır olan yaxşıca dincəlmiş təravətli qadınları yalnız dəniz kənarında görmək olar. Əlbəttə, Montevideoda da təmiz qadınlar yox deyil. Amma o yazıqlar həmişə yorğun və qəmgin görünürlər. Neyləsinlər axı, bütün gün ayaqlarını sıxan dikdaban tuflilər, pilləkənlər, avtobuslar bizim qadınları bu kökə salır.

Qadın sevincinin nə olduğunu şəhərdə görə bilməzsən. Bu isə, əslində, cox vacib məsələdir. Məsələn, mənə elə gəlir ki, dişimi dişimə sıxıb, qadınların istənilən pis ovqatına – onların hönkürtüsünə, çığırtısına, isterikasına dözməyi bacararam. O ki qaldı üzlərindəki sevinc ifadəsinə, bax burda mən çox həssas, çox tələbkaram. Düzünü desəm, bir çox qadınların gülüşünü heç cür həzm edə bilmirəm. Elə ona görə də kurortda olarkən onların səhər erkəndən çimərlikdə eşidilən gülüşlərinin kazinodan büdrəyə-büdrəyə çıxdıqları axşamadək uzandığını görəndə, hər birinin kimliyi, hansı gülüşün pis, hansının ədəbli olduğu aydınca bilinir.

Sinyorita İriartenin səsini yenidən məhz kurortda eşitdim.

Heç kəsə maneçilik törətmədən verandadakı masaların arasında, ay işığının altında bir qadınla rəqs edirdim, heç kəsin də mənimlə işi yox idi. Sağ əlimlə qadının günorta istisinin hələ tam çəkilmədiyi gündən qaralmış belindən yapışmışdım. Etiraf edim ki, qadının gülüşü ürəyimə yatırdı. İmkan düşəndə qulağının qırağındakı narın, şəffaf tüklərə baxır, nə gizlədim, bir qədər həyəcanlanırdım. Az danışırdı, amma ağzını açanda mütləq səfehləyirdi;

elə bil qəsdən belə eləyirdi ki, susmağını daha çox qiymətləndirim.

Belə xoş məqamların birində çox aydın söylənmiş, sanki xüsusən mənim üçün nəzərdə tutulan bir ifadə eşitdim: "Bəs sizin xoşladığınız limonad hansıdır?" Heç bir əhəmiyyət kəsb etməyən bu ifadəni sözbəsöz yadda saxladım. Tanqonun ağır səsi aramla ətrafa yayılırdı. Həmin ifadə lap yaxınlığımda səslənmişdi, amma heç cür müəyyən edə bilmirdim ki, məhz kimin ağzından çıxıb.

İki gündən sonra kazinoda doxsan peso uduzdum, birdən-birə qərara gəldim ki, axırıncı əlli pesomu da ortaya qoyum: uduzsam təcili şəkildə Monyevideoya qayıtmaq lazım gələcək. Bəxtimdən 32 çıxdı, həmin nömrəyə qoyduğum səkkiz çəhrayı fişkanı qabağıma çəkəndə özümü tamamilə xoşbəxt hiss edirdim. Bu vaxt kimsə, lap elə bil telefondakı kimi, qulağıma pıçıldadı: "Yalnız belə oynamaq, risk etmək lazımdır".

Sakitcə geri qanrılanda kimi görəcəyimi artıq bilirdim – yanımda oturmuş senyorita İriarte həmkarlarımla birgə səsinə əsasən təsəvvürümüzdə yaratdığım xəyali surəti qədər gözəl idi. Ardı isə çətin olmadı – öz sözündəncə yapışıb, risk nəzəriyyəsini genişləndirmək, yəni senyorita İriarteni risk edərək əvvəlcə mənimlə danışması, sonra rəqs etməsi üçün dilə tutmaq, axırda da ertəsi gün onunla çimərlikdə görüşmək çox asan başa gəldi.

Həmin vaxtdan həmişə, hər yerdə birgə olurduq. Demişdi ki, adı Dorisdir. Doris Freyre.

Bu, dəqiq beləydi (heç bilmirəm niyə mənə öz vəsiqəsini göstərdi) və tamamilə anlaşılan idi; çoxdan bilirdim ki, həmin o şərti soyadlar telefon danışıqları üçündür. İlk gündən bu səssiz razılığı qəbul elədim: onun şeflə hansısa münasibətlərinin olduğu gizli deyildi, orası da aydındı ki, bu mənim heysiyyətimə toxunurdu; amma (xahiş edirəm, bu "amma"ya fikir verəsiniz) Doris indiyəcən tanıdığım qadınların ən cazibədarı idi və indi xoş təsadüf bu qadını rastıma çıxartdığı bir məqamda həddən ziyadə xırdaçılığa getsəydim, onu həmişəlik itirməklə risk etmiş olardım.

Bir məsələ də vardı: bir halda ki, mən onun səsini tanımışdım, bəs o mənim səsimi niyə tanımırdı? Əlbəttə, senyorita İriarte mənimçün həmişə qeyri-adi, əlçatmaz varlıq olmuşdu, mənsə onun dünyasına indi-indi daxil olurdum. Odur ki, bir səhər ona zarafatla "İşlər necə gedir, katib?" deyəndə, zərbəni həmin dəqiqə qəbul eləsə də, özünü o yerə qoymadı, hətta gülə-gülə mənə əl uzadıb zarafatı zarafatla qarşıladı. Amma narahatlığı nəzərimdən yayınmadı, sanki ürəyinə xal düşmüşdü.

Düzdür, sonradan mənə elə göründü ki, şefə zəng edərkən dəstəyi məhz mənim götürməyimə anlaşıqlı yanaşır. Və indi mənimlə danışarkən səsində hiss etdiyim əminlik, hər şeyi doğru anladığından xəbər verən düşüncəli baxışları qəlbimə ümid toxumları səpirdi. Çox güman ki, onun yanında şefdən bir kəlmə də danışmadığımı, üstəlik, bu barədə özündən heç nə soruşmadığımı qiymətləndirir və yəqin, bu incə yestimi şefdən tezliklə ayrilması ilə mükafatlandırmağa hazırlaşırdı. Belə fikirləşirdim, hərçənd buna tam əminliyim yox idi. Adamın necə adam olduğunu mən həmişə baxışlarından oxumuşam; Dorisin baxışları isə səmimi idi.

İşə qayıtdım. Yenə bir gündən bir səhərlər telefonda növbətçilik edirdim. Senyorita İriartedən, əlbəttə ki, bir daha zəng gəlmədi.

Demək olar, hər gün işdən sonra Dorislə görüşürdüm. Qız prokurorluqda işləyirdi, yaxşı məvacib alırdı, işlədiyi şöbənin böyüyü idi, işdə hamı ona hörmət edirdi.

Doris məndən heç nəyi gizlətmirdi. Onun hazırkı həyatı tamamilə şəffaf və təmiz idi. Bəs keçmiş həyatı? Ürəyimin dərinliyində başa düşürdüm və qəbul edirdim ki, məni aldatmırsa, elə bu özü də kifayətdir. Onun şeflə məhəbbət macərası (ya adına başqa necə deyirlər?), əlbəttə ki, xoşbəxtliyimə ləkə salmalı deyil. Bir halda ki, senyorita İriarte daha zəng vurmurdu, onda Dorisdən başqa nə tələb edə bilərdim? Deməli, məni ondan üstün bilmişdi və hər bir cavan qızın həyatında olduğu kimi, tezliklə şef də Doris üçün uzaq, xoşagəlməz bir xatirəyə çevriləcəkdi.

İndi yadımda olmayan nəsə bir bəhanə uydurub, Dorisə tapşırmışdım ki, mənə iş yerimə zəng vurmasın. Düzünü desəm, risk eləmək istəmirdim, qorxurdum birdən telefonu Elisalde, Rossi, yaxud Korrea götürər, səsini tanıyıb nəsə xoruz buraxarlar. Çox həlim, qərəzsiz, üzüyola bir qız olan Doris etiraz etməmişdi. Yasaq mövzulara aid hər şeyə münasibətdə belə anlaşıqlı davranması

xoşuma gəlirdi və ona minnətdar idim ki, məni son nəticədə hər şeyi korlamağa, bütün xoş niyyətləri puça çıxarmağa qabil olan kədərli və uzun izahatlara məcbur etmirdi.

Anasıyla tanış olmağım üçün Doris bir gün məni öz evlərinə dəvət elədi. Yaşlı, yorğun anası mənə nəcib bir qadın təsiri bağışladı. Ərini on iki il qabaq itirsə də, indiyəcən özünə gələ bilmirdi. Bizə göz dolusu sakit məmnunluqla baxırdı. Amma hərdən gözləri yaşla dolur, yəqin, senyor Freyre ilə nişanlı olduğu zamanlar yadına düşürdü.

Həftədə üç dəfə saat on birə qədər onlarda qalırdım. Hər şeyin yerini bilən Dorisin anası saat onda "gecəniz xeyrə qalsın" deyib, sakitcə çıxıb gedirdi. Doyunca öpüşmək, gələcək həyatımız barədə danışmaq, işlədəcəyimiz mələfələrin sayını və qiymətini hesablamaq üçün Dorislə bir saat vaxtımız qalırdı. Biz də, bütün ölkəyə səpələnmiş minlərlə başqa cütlüklər kimi eyni planlar qurur, eyni nəvazişlərə rəvac verirdik. Dorisin anası nə şefin, nə də bir başqasının adını heç vaxt xatırlatmırdı. Mənə hər bir nəcib ailədə qızın ilk adaxlısına göstərilən ləyaqətli münasibət vardı və mən bu münasibəti qəbul edirdim.

Hərdən idbar məmnuniyyət hissindən qopa bilmirdim ki, bəs mənim (özü də tək mənim!) bəxtimə yalnız nazirlərin, ictimai xadimlərin, nüfuzlu məmurların malik ola biləcəyi əlçatmaz qadınlardan biri düşüb; fikirləşirdim ki, bu cür qeyri-adi qadının məhz mənim kimi sadə bir qulluqçuya qismət olması xalis möcüzədir.

Ədalət naminə demək lazımdır ki, Doris gündən-günə lap gözəlləşirdi. Bu gözəllik sözlə təsvirə gəlməz. Boynumu nəvazişlə qıdıqlayır, boğazımdan öpür, qulağıma elə şirin sözlər pıçıldayırdı ki, onun yanından xoşbəxtcəsinə ayrılanda, nəyini gizlədim, ehtirasdan başım fırlanırdı. Subaylıq həyatı keçirdiyim evimdə tək qalanda gözümə yuxu getmir, bir qədər ağrıyla fikirləşirdim ki, bu dərəcədə zərif qılığı Doris yalnız kiminsə köməyi ilə əxz edə bilərdi. Bütün bu şeylərdən sonra (yaxşımı, pismi?) mütləq şefi yada salırdım. Lakin şef o dərəcədə sakit və mülayim, abırlı və ləyaqətli bir adam idi ki, onu idbar müəllim rolunda heç cür təsəvvür edə bilmirdim. Bəlkə Dorisin həyatında başqaları da olub? Neçə nəfər? Qıza bu cür öpüşməyi, görəsən, hansı öyrədib? Onda yadıma salırdım ki, biz orta əsrlərdə yox, 1946-cı ildə yaşayırıq və Dorisdən ötrü yalnız mən varam. Bundan sonra balışı hər iki əlimlə qucaqlayıb, öz planlarıma uyğun şəkildə təsəvvür etdiyim ağuşda birtəhər yuxuya gedirdim.

Noyabrın 23-nə qədər hər şey öz axarıyla, həm də birbaşa toya doğru gedirdi. Toy labüd idi, heç bir maneə-filan yoxdu. Yalnız mənim istədiyim mənzili tapmaq qalırdı: gözəl havası, bol işığı olan geniş pəncərəli otaq arzulayırdım. Bir neçə bazar gününü mənzil axtarışına sərf elədik, amma istəyimizə nisbətən uyğun gələn münasib ev tapanda ya qiyməti çox baha olurdu, ya mərkəzlə əlaqələri bizə əl vermirdi, ya da həmin rayon çox aralıda yerləşdiyindən, Doris deyirdi buranın sakitliyindən adamın ürəyi sıxılar.

Noyabrın 23-də səhər tezdən növbətçi idim. Şef dörd gündü işə çıxmırdı, harasa getmişdi, ona görə arxayınca oturub qəzet oxuya-oxuya siqaret çəkirdim. Birdən qapının açıldığını hiss elədim, tələsmədən arxaya çevriləndə Dorisin sualedici nəzərlə kürəyimə zillənmiş gözlərini, qəşəng üzünü gördüm. O, bir az günahkar görkəmlə, sıxıla-sıxıla içəri girib dedi ki, məni hirsləndirəcəyindən qorxduğu üçün xəbərsiz gəlib; gəlişinin səbəbi isə o idi ki, bizim istəyimizə uyğun mənzil, nəhayət ki, tapılmışdı. Sonra kağızın üzərində geniş, ətraflı plan cızıb, onu məmnum görkəmlə mənə göstərdi. Belinin incəliyini büruzə verən enli qurşaqlı nazik, yüngül paltarda bu gün o lap məlahətli görünürdü. İkimiz idik, ona görə mənim yerimdə oturub ayağını ayağının üstünə aşırmışdı, özü də Rossinin, Korreanın, Elisaldenin harda oturduqları ilə maraqlanırdı. Doris onların heç biri ilə tanış deyildi, amma mənim məzəli təsvirlərimə əsasən hamısını yaxşı təsəvvür edirdi.

Qızın əlini əlimə almışdım, o da mənim siqaretimi çəkirdi. Birdən telefon zəng çaldı, mən tez dəstəyi qaldırıb "Alo!" dedim. Cavabında nə eşitsəm yaxşıdır: *"İşlər necə gedir, katib?.."*

Zahirən hər şey əvvəlki kimi idi. Amma söhbətin davam etdiyi müddətdə birtəhər özümə gəlib qeyri-iradi soruşdum: "Bəs nə baş vermişdi, niyə neçə vaxtdı zəng vurmurdunuz?" Senyorita İriarte cavab verəndə ki: *"Çiliyə getmişdim..."* – mənimçün hər şey bir andaca dəyişdi, gözümün qarşısında hər şey baş-ayaq oldu.

Batan adamın həyatının son anlarındakı kimi, başımda dağınıq fikirlər yanıb-sönürdü. "Deməli,

şeflə Dorisin arasında heç nə olmayıb" – ağlıma gələn bu birinci fikir, əlbəttə ki, heysiyyətimin təntənəsi idi. Amma elə həmin andaca ikinci fikir peyda oldu. Təxminən bu cür: "Ancaq elədə Doris..." Sonra tamamilə aydın görünən üçüncü fikir özünü yetirdi: "Mən bu səsi necə səhv sala bilərdim?"

Zəng vuran qadına izah elədim ki, şef yerində yoxdur və "xudahafiz" deyib dəstəyi yerinə qoydum. Dorisin əli hələ də əlimdə idi. Başımı qaldırıb qızın üzünə baxanda nə görəcəyimi qabaqcadan bilirdim. Siqareti damağına qoyub şəstlə mənim yerimdə əyləşən Doris, istənilən işvəkar qız kimi, bu anda öz səfeh planlarına qərq olub gülümsəyirdi.

Əlbəttə ki, onun təbəssümü yüzlərlə təbəssümə bənzəyən mənasız, ifadəsiz təbəssüm idi və bu andan başlayaraq məni ömrüm boyu bezdirməklə təhdid edirdi. Sonradan çalışıb bir izah tapacaqdım, amma indi şüurumun ən uzaq küncündə artıq bu anlaşılmazlığa nöqtə qoymuşdum. Axı mən, əslində, senyorita İriarteyə vurulmuşdum.

Oskar Yellinek
(Avstriya)

AKTYOR

Gənc aktyor Ernst Lüdviq anasının ağır xəstəliyi barədə teleqramı təzə rolun mətni ilə eyni vaxtda aldı; mətni və teatrın ünvanına göndərilən teleqramı ona kuryer təqdim eləmişdi.

Lüdviq çox da ləngitmədi, elə axşam qatarı ilə yola düşdü. Ancaq getməzdən qabaqkı bir neçə saatı teatrda keçirməli oldu: direktordan icazə istədi, kostyumunu qaydaya saldı, tanınmış həmkarı Lavini tapıb, birgə yoxlama məşqini ayrı vaxta keçirmək barədə onunla razılığa gəldi. Direktorun qərara gəlməsi bir qədər çəkdi və bu müddətdə Lüdviq təzə pyesin mətninə ötəri də olsa nəzər saldı. Sonra isə aydın məsələdir ki, qaygıkeş sorğular hədəfinə çevrildi...

Ancaq o nə əlavə eləyə bilərdi? Yeznəsinin göndərdiyi teleqram özlüyündə kifayət deyildimi: «Anan ağır xəstədir, özünü yetir».

Ernst Lüdviq teleqramın aşıladığı ağır təəssürat altında qalan işlərini də tələsik, başdansovdu görüb, fikri dagınıq halda yola düşdü. Bir neçə saatdan sonra qatar onu əyalət şəhərinə – doğma yurda yetirəcəkdi. Ernst yol uzunu anasına hansı bədbəxtliyin ürcah ola biləcəyi barədə düşünsə də, bir şey çıxmırdı və dağınıq fikirləri təzədən öz adi, maraqsız günlərinə qayıdırdı: bu yeknəsəq günlərdən onu məhz bugünkü teleqram ayırmışdı.

Ernst anasını çox istəyirdi. Atası erkən öldüyündən onu anası böyütmüşdü və düz yeddi ildi Ernst Lüdviq aktyorluqla məşğul olurdu. İndi bu yeddi ilin anasına yalnız qüssə və məyusluq gətirdiyini düşünüb əzab çəkirdi.

Şöhrət! Bu, yeganə məlhəm idi ki, anasının bütün həyəcanlarını biryolluq yox etməyə qadirdi, di gəl, şöhrət gənc aktyoru heç yuxuda da tapmırdı. Düzdür, əyalət teatrında bir neçə il qabıq qoyandan sonra müqavilə ilə Vyana teatrında işə düzələ bilmişdi, ancaq Ernst burada yalnız xırda rollar oynayır, anasını öyündürə bilmirdi. Hər dəfə anası ilə görüşəndə biçarə qadını inandırmaq istəyirdi ki, aktyorluq sənəti başqa sənətlərdən heç də pis deyil və anası çox nahaq yerə bütün bunları ürəyinə salır; intəhası arvad ipə-sapa yatmır, oğlunun sözlərini yarımçıq kəsib, keçmiş aktyorların taleyini misal çəkirdi. Ernst də and-aman eləyirdi ki, bəs başqa sahədə ömürlük bədbəxt ola bilər. Və həqiqətən də ümidini itirmirdi: günlərin bir günü o nəinki anasına, həm də bütün dünyaya adi adam

olmadığını sübut edəcək, nəyə qadir olduğunu göstərəcəkdi. Elə ona görə verilən hər bir rolu çılğın ümidlə, sonsuz həyəcanla qəbul edirdi. Bu gün də yola çıxmazdan qabaq təzəcə aldığı mətnə əlüstü göz yetirmişdi: «Romeo və Cülyetta»da qraf Parisin rolu. Əsəri oxumuşdu, ancaq rolu bir o qədər əhəmiyyətli saymırdı.

Qatar doğma şəhərə çatanda hava artıq qaralmışdı. Əsl qorxunu da Ernst elə qatardan düşəndə hiss elədi: bir-birinin əlini sıxan kimi yeznəsi anasının öldüyünü ona dedi. Ernst qışqırdı. Yarıqaranlıq küçə ilə evə sarı addımlayarkən qulaqlarında hələ də öz çığırtısı səslənirdi: elə ötən məşqdəcə rejissor onu məhz səsinin bu cür bərk çıxması üzündən danlamamışdımı? Şlyapasını çıxarıb əli ilə alnının tərini sildi, daxilində nəsə xoşagəlməz bir hiss, bir heyrət duydu. Amma əlbəttə ki, bütün günahlar həmin repetitsiyanı xatırladan yarıqaranlıq küçədə idi...

Bu da ona uşaqlıqdan tanış olan doğma ev. Bura anasının qonaq otağı olsa da, Ernst həmişə bu geniş zalda işləyərdi. Içəri qorxa-qorxa keçdi, qorxu isə əslində bitmişdi. Ağlamaqdan gözləri şişib qızarmış bacısı onu görcək irəli yeridi, bir-birinə sarıldılar.

Çarpayı camaxatanda qoyulmuşdu. Pərdəni çəkib anasının işığa qərq olmuş arıq əllərinə baxdı. Sonra çarpayının qırağında diz çökdü, anasının əllərini öpüb, alnını çarpayının taxtasına söykədi.

Ernst nədənsə öz hərəkətlərinə nəzarət edir, kürəyində isə adamların həris baxışlarını duyurdu. Eyni zamanda, bu hissdən qurtulmaq, özünü büsbütün anasına həsr etmək istəyirdi. Ancaq oynadığı saysız rolların təəssüratı – cənazə qarşısında, çarpayı önündə «səssiz ehtiramla», «dərin sükutla» diz çökdüyü anlar onu asudə buraxmır, öz hökmündə saxlayırdı. Bəli, hansı pyesdəsə vəziyyət eynən bu cür idi: aktyor alnını çarpayının qırağına söykəyirdi...

– Bu sənin anandır, – zorla eşidiləcək səslə pıçıldadı, – doğmaca anan...

Dəhşət içində ayağa qalxdı, dişlərini qıcayıb yumruqlarını düyünlədi, özünə sübut eləməyə çalışdı ki, guya həqiqətən əzab çəkir, sevdiyi əvəzsiz varlığın acısını bütün varlığı ilə yaşayır. Alnına düşən bir cəngə teli geriyə atıb ağlamaq istədi: ağlaya bilsəydi, gözündən bircə damcı yaş çıxsaydı, bu əsl sübut olardı. Axı ola bilməzdi ki, teatr onu duyğusuz bir marionetə çevirsin.

Təzədən diz çökdü, di gəl, nə illah eləsə də ağlaya bilmədi. Elə bu dəmdə rejissorun səsi qulaqlarında cingildədi: «Yaxşısı budur, göz yaşlarını biryolluq unudasız, uşaqlar, bu sizi pis vəziyyətdə qoyar. Səhnədə ağlamaq yalnız dahilərə müyəssər olan bir şeydir...»

Ayağa qalxdı...

Bütün gecəni yerində qurcalandı. Özünü tanıya bilmir, tamamilə gərəksiz, yararsız bir adam olduğunu düşünürdü. Çoxdan unutduğu uşaqlıq qayğılarını xatırladı. Xatırladıqca da özünə daha günahkar görünürdü. Axırda təskinliyi onda tapdı ki, bəs günahın bir qismi də tamaşaçıların payına düşür...

Ana divarın o üzündə tək-tənha idi, indi Ernstə heç kəs mane ola bilməzdi. Bu gümanla yataqdan qalxıb xalatını çiyninə atdı, sakitcə yan otağa keçdi. Dərhal da bütün ümidləri alt-üst oldu – ölüm yatağına keşik çəkən qarı Ernsti görcək saxta təbəssümlə ayağa qalxanda eynilə teatrda kostyumçu işləyən qırmızısifət arvadı xatırlatdı…

Ernst tələsik geri qayıtdı, çarpayıda oturub bir xeylaq düşündü, sonra da yerinə uzanıb yuxuladı.

Sübh ertədən cənazəni meyitxanaya aparmışdılar, indi Ernst də ora tələsirdi. Istəyirdi anasını itirmiş bir övlad kimi onunla təkbətək qalsın. Odur ki, qəbristana çatan kimi xidmətçi ilə birgə meyitxanaya getdi. Qara örtüyün altında iki cənazə vardı: xidmətçi sağ tərəfdəki cənazəni göstərib çıxdı.

– Ürəkli ol, ürəkli ol...

Ernst bu sözləri çox astadan pıçıldayır, eyni zamanda özünü Kapulettilərin sərdabasına enən əli qılınclı gənc kimi təsəvvür edirdi. Rolun sözləri isə qeyri-ixtiyari beynində səslənirdi: *«Mən sənin toy yatağını bu çiçəklərlə bəzəyəcəyəm, ey çiçək! Səni ətirli sularla yuyub, atəşin göz yaşlarımla yenidən göməcəyəm!..»*

Özünü bayıra atdı: buna dözmək mümkün deyildi.

Dəfn ertəsi günə təyin edilmişdi. Ernst anasının məzarı önündə dayanarkən daha heç nəyə ümid bəsləmirdi. Daha heç bir şübhəsi yox idi ki, dəfnlə bağlı hər hansı mərasim ondan ötrü yalnız adicə roldur və o, həmin rolu da başqa rollar kimi

oynamaq məcburiyyətindədir. Eləcə camaatın nəzərləri altında məzara yaxınlaşdı, cənazəyə bir ovuc torpaq atıb kənara çəkildi və kiminsə «Oğludur» sözünü eşidib acı kinayə ilə dodaqaltı mızıldandı:

– Bəli, oğludur, cənab Lüdviqdir. Rol üçün qiyamət tapılıb!..

Axşam qatarı ilə şəhərə qayıdacaqdı. Bacısı yola o qədər yemək hazırlamışdı ki, azından bir həftəyə çatardı. Ürək ağrısıyla bacısına baxdı: eynən anasıydı ki durmuşdu! Ernst onu qucaqlayıb bağrına basdı, təşəkkür elədi. Bacısı ah çəkdi: «Axır ki, bir xoş sözünü eşitdik…»

Söz, bəli, söz gərəkdir! – Ernst sanki axtardığını tapmışdı; qəfildən ağlına gəldi ki, gərək hökmən anasıyla danışsın.

Qaş qaralırdı. Anasının qəbrinə qaranlıq çökmüşdü. Ernst məzara yaxınlaşıb durdu. Deməli belə: bu təzə qəbirdə, bu qara torpağın altında onun anası yatırdı, bir də heç zaman geri qayıtmayacaq doğmaca anası! Ola bilməzdi ki, doğmaca oğul doğmaca ananı oxşayıb çağıra bilməsin.

– Anacan!

Səsi qulağını oxşadı. Bu səsdə həzin bir melodiya vardı və o bir aktyor həssaslığı ilə bunu qiymətləndirdi.

– Anacan, ana...

Astadan, bacardıqca ürəkdən çağırdı. Bu sözlər roldakı sözlərdən bir az fərqlənirdi. Bu sözləri Ernst bir vaxtlar anasına söyləyərdi, indi də sözlərin saflgını, təmizliyini qaytarmağa, diriltməyə çalışırdı. Ancaq elə canfəşanlığın ucbatından səmimilik itib gedir, aktyor daha artıq maskalanmış olurdu.

Bərk hiddətləndi: aktyorluq peşəsi onun daxilindəki insanı məhv etmiş, düşüncələrini damğalamış, hələ söylənməmiş ən məhrəm sözlərinə belə süni rəng qatmışdı. Qəlbindəki ağrı dörd tərəfdən buxovlanmış, göz yaşlarının çağlar bulağı ömürlük qurumuşdu.

Gecəyarısı Ernst artıq Vyanada idi.

Masa üzərindəki kağız ona sabahkı məşqdən xəbər verirdi. Mətni gözdən keçirsə də, yorğun olduğundan dəftəri qatlayıb masanın üstünə, anasının portreti ilə yanaşı qoydu.

Bütün həftəni teatrda oldu. Ancaq əslində təzə rolu ilə candərdi məşğul idi, «Romeo-Cülyetta»nın məşqləri onu çox da cəlb eləmirdi. Lap düzünə qalanda, kinoşirkətlə müqavilə bağladığından məşqləri tez-tez buraxmalı olurdu.

Tamaşaya az qalmış istər-istəməz rol üzərində ciddi işə başladı: son yoxlama məşqində rejissorun məzəmmətini eşitməyə həvəsi yox idi. Bütün gecəni işlədi, yalnız ertəsi gün nahardan sonra dincəldi. Yuxu onu bir qədər yüngülləşdirmişdi. Yorğunluqdan bənizi ağarsa da, belədə qraf Parisə daha çox oxşayırdı.

Güzgü qarşısında ilk iki səhnəni təzəcə bitirmişdi ki, saat altını vurdu, son səhnəni – qəbirüstü ağı səhnəsini oynamağa vaxtı çatmadı. Birdən güzgüdə anasının şəklini gördü: qadının saçları dümağ idi, tutqun gözləri ciddi bir qüssə ilə oğluna zillənmişdi.

«Bu çiçəklərlə sənin toy yatağını bəzəyəcəyəm, ey çiçək...»

Dəftər titrək barmaqları arasından sürüşüb yerə düşdü, gözləri yaşla doldu, özü ilə bacarmayıb geriyə sıçradı, portreti qapıb bir xeylaq baxdı, axırda anasının şəəklini dodaqlarına yaxınlaşdırdı. Ancaq getmək vaxtı idi. Ürəyi daxilində çoxdan buxovlanıb qalmış və hər an kükrəməyə hazır olan ağrıdan çatlasa da, tələsirdi...

Kapuletti və Cülyetta ilə olan epizodlarda Ernstin ifası izaholunmaz kədərlə, dərin hüznlə dolmuşdu. Hiss olunurdu ki, aktyor göz yaşlarını güclə saxlayır... Budur, o, Kapulettinin sərdabasına enib paja tələsik tapşırıqlar verir, sanki ağı səhnəsini tezləşdirməyə can atırdı. Birdən Ernstə elə gəldi ki, səhnədə yox, meyitxanada – anasının cənazəsi önündədir. Və əlindəki solğun çiçəkləri cənazənin üstünə səpib qraf Parisin Cülyettaya ağı söylədiyi səhnəni ifa eləyəndə artıq onun bütün varlığı doğma anasının qüssəsinə bələnmişdi; içindəki sonsuz kədər çılğın misraların kövrəkliyinə qarışıb getdikcə qatılaşır, qatılaşdıqca da ürəyini sarmış həyəcan dalğası qabarıb hər şeyi üstələyirdi. Son sözləri söylərkən, aktyor çarəsiz halda, dərin sarsıntı içində yerə çöküb hönkürməyə başladı, qəlbinin dərinliyində isə baxışları ona zillənmiş yüzlərlə adam gördü. Anasının qəbri üstündə ağlaya bilməyən Ernstin qəhətə çıxmış göz yaşları indi onun qrimlənmiş sifəti boyunca süzülüb səhnənin taxta döşəməsinə tökülürdü...

Zal heyrət içində quruyub qalmışdı. Tamaşaçıların aramsız alqışları baş rolun if-

açıları ilə birgə ömründə ilk dəfə Ernst Lüdviqi də səhnəyə çağırırdı.

Hələ bu harasıdır, qələmindən çoxlarının zəncir çeynədiyi məşhur teatr tənqidçisi ertəsi gün belə yazmışdı: «Cənab Lavin yenə öz gözəl Romeosunu nümayiş etdirdi, ancaq tamaşanın əsas uğuru bu dəfə o deyildi. Ernst Lüdviq öz gözlənilməz oyunu ilə hamını mat qoydu. Məhz onun gerçək iztirabları, ürəkdən gələn təbii göz yaşları, adətən, kölgədə qalmağa vərdiş eləmiş qraf obrazına canlı həyat bəxş elədi. Hələ çox gənc olan bu aktyorun simasında, heç şübhəsiz, dahi bir sənətkar yetişməkdədir...»

Başını itirmiş Lüdviq ertəsi gün evdən çıxmadı, qəzetləri gözdən keçirə-keçirə telefon təbriklərinə cavab verməli oldu. Bir xeyli müddət anasının portreti önündə lal-dinməz durub qaldı. Şöhrətə doğru aparan yol indi öz ayağıylaca gəlib qarşısında müntəzir dayanmış, ümidlər gerçəkləşməyə başlamışdı. Di gəl ki, axşam yaxınlaşdıqca bərk tələş keçirir, səhnəyə çıxmağa ürək eləmirdi. Görəsən, yenə dünənki kimi ağlayıb hönkürə biləcəkdimi? Çətin. Çətin ki bu bir də mümkün olaydı. Lüdviq burasını çox gözəl anlayırdı. Axırda naəlac qalıb özünü xəstəliyə vurdu. İntəhası sonrakı günlərdə də qorxu yaxasından əl çəkmədi.

Teatrın direktoru da, rejissoru da yanına gedib Lüdviqi yola gətirməyə, inandırmağa çalışdılar. Ancaq əbəs yerə...

Lap axırda həkim işə qarışası oldu və yalnız bundan sonra onu birtəhər dilə tuta bildilər. Amma axşamüstü həkim teatra aparmaq üçün aktyorun arxasınca gələndə Ernst Lüdviq hərəkətsiz oturub gözünü məchul bir nöqtəyə dikmişdi və əlində bərk-bərk tutduğu portretdən başqa heç nəyə əhəmiyyət vermirdi. Onun güclə eşidiləcək pıçıltısı inilti kimi səslənirdi:

– Mən ağlaya bilmirəm... mən bacarmıram... bacarmıram...

…Aktyorun batıq çöhrəsi boyunca süzülən göz yaşları isə bir-birini qova-qova diyirlənib əlində tutduğu portretin üstünə düşürdü...



Kamilo XOSE SELA
(İspaniya)

BLANŞAR KÜÇƏSİNDƏ SİRLİ QƏTL

Taxta qıçından canlı şam ağacıtək sarımtıl və bulanıq qatran süzülən Joaken Bonom içəri keçib, arxasınca qapını çəkdi.

– Bir şey tapdın?

– Yox.

Şüşə gözündən qabaqlar olduğu kimi sarımtıl və bulanıq maye süzülən arvadı Mençu Agirresabala əməlli-başlı hirsləndi; arvadın gözünü doğmaca qardaşı Fermin hələ Bordoda ispanka epidemiyası günlərində vurub çıxartmışdı.

...Qış mövsümləri Tuluzanı büsbütün qaramat basır. Hava tez qaraldığından qaz fanarları elə axşamdanca yandırılır; uzaqlardan adamın qulağına atılmış uşaqların zığıltısını andıran şarmanka səsləri gəlir; kafelərin pəncərəsinə qırçınlı pərdələr çəkilir; fədakar qadınlarsa artıq heç nəyə yaramayan köhnə-kürüş məişət əşyalarını toplamaqçün dəridən-qabıqdan çıxırlar. Bir daha xatırladaq ki, Tuluza çox kədərli, çox cansıxıcı yerdi; belə yerlərdə isə, aydın məsələdir ki, adamın fikri də dağınıq olur – bir də gördün basıb əzdilər.

Joaken Bonom xeyli peşə dəyişmişdi: şaxtaçı, qrimçi, aptek firmasının ticarət agenti, piyada qoşunu serjantı, monarxist, bank quluqçusu, vergiyığan olmuşdu, hətta Arkaşonada jandarm da işləmişdi. Bütün bu işlərdə bir neçə min frank yığandan sonra belə qərara gəlmişdi ki, evlənsin. Amma qərar verməzdən qabaq

yaxşı-yaxşı fikirləşmişdi (kəbin ciddi məsələdir!), xeyli düşünüb-daşınmışdı, öz ağlına çox da bel bağlamayıb, hətta özgələrlə də məsləhətləşmişdi. Və yalnız bundan sonra, el arasında deyildiyi kimi, şeytanın qıçını qırmışdı.

Xalis ifritə olan Mençu çox yöndəmsiz, yekəpər, yekəburun, keçəl, qırmızısifət bir arvaddı, həm də elə müzürdü ki, hətta bir dəfə öz doğmaca qardaşı (əsla ifritəyə-filana bənzəməyən!) Fermin hirsindən onun bir gözünü vurub tökmüşdü.

Ağıllarına həmişə səfeh şeylər gətirən mənzil sahibləri axır vaxtlar Ferminin uşaqbazlığından şübhələnib, onu gözümçıxdıya salmışdılar, cahıl oğlan da bu dedi-qoduların ucbatından axırda Aspetiyanı tərk etməyə məcbur olmuşdu. O vaxt Ferminin on doqquz yaşı vardı. İki il keçəndən, bacısının gözünü tökəndən sonra isə, Bordodakı balaca «Müzett» yeməkxanasında məşhur bir aktrisanı təqlid etmişdi. Fermin həmişə xarici araq içir, *«L'amouret le printemps»*[1] mahnısını zümzümə edir, qaşlarını da aldırırdı.

Ömrü boyu heç bir bəd təsadüfdən gileylənməyən Joaken ayağını toydan az sonra, çox səfeh şəkildə itirmişdi – Bayonnadan gedərkən qatarın altına düşmüşdü. Düzdür, Joaken and-aman eləyirdi ki, guya qatarın altına onu arvadı itələyib salıb, amma çox güman ki, elə özü yıxılmışdı, çünki həmin gün bərk kefliydi. Hər necə olsa, o gündən Joaken ayaqsız qaldı və şam ağacından ayaq hazırlanana qədər yazıq az əziyyət çəkmədi.

Arvadını Joaken lap hamının gözü qabağında da günahkar çıxarırdı və tamamilə gözlənilən idi ki, nə vaxtsa dalından təpik ilişdirib biryolluq evdən qovsun. Təpik məsələsini xəyalında çox düşünmüşdü, di gəl, bu işin onu ciddi narahat edən bir əmması vardı – qorxurdu ki, təpik elə xam xəyal olaraq qalsın. «Bu nə kişilikdir axı, – yazıq heç cür toxtamaq bilmirdi, – arvada təpik ilişdirmək üçün gərək yanında həmişə bir cüt stul hərləyəsən!..»

Mençu ərinin şikəstliyini lağa qoyub, kişini açıq-aşkar ələ salırdı, Yoaken isə arvadını qarğıya-qarğıya axırda hirsindən hətta ayağının ağrısını da unudurdu. Özü də o ayaq ki, olsa-olsa, aparıb zibilliyə tullamışdılar. Bu neçə vaxtda Joaken nə illah eləsə də, ha cəhd göstərsə də, ayağının hara yox olduğunu öyrənə bilmədi.

– Axı, onu neylədilər?

Zibillikdə bir parça şəxsi ətə göz yummaq göründüyü qədər də asan məsələ deyil – Fransa mədəni ölkədir, ola bilsin jandarmlar ayağı tapmış və xəstə bir tifil kimi əskiyə büküb prefekturaya aparmışdılar. Komissar da dişqurdalayanı ağzından çıxarıb, xidməti kürsünün kəlləçarxında qərar tutan mötəbər zatlara məxsus bir təbəssümlə tələsmədən bığlarını tumarlamış, sonra masanın siyirməsindən lupanı götürüb (lupada isə napnazik tük belə məftil yoğunluğunda görsənir!) gəmi kimi qaltaq, ev qulluqçuları kimi burunlarını hər yerə soxmağı xoşlayan jandarmlarına üz tutaraq mənalı-mənalı demişdi:

– Aydındır, uşaqlar, aydındır…

Jandarmlar isə, heç şübhəsiz, bu etimaddan xoşallanaraq bir-birinin üzünə baxmışdılar. Dəhşət! Bəzi fikirlər sadiq tulalar kimi əl-ayağımıza dolaşıb bizdən əl çəkmir, bəzi fikirlər də əcaib kabuslar kimi canımıza daraşıb bizə olmazın əzab verirlər. Belə şeylərin dərinliyinə varanda adam özünü istər-istəməz narahat hiss edir.

Jandarmlara nəzər salaq.

Jandarm heç də Roma papası deyil; bəzən o da səhvə, yanlışlığa yol verə bilər. Bax, onda bizim işlərimiz fırıqdır. Jandarm bizi komissarın yanına çəkib gətirər, ancaq komissar da axı Roma papası deyil! Və bu minvalla axırda biz barmaqlıqlar arxasında, qızdırmanın tüğyan elədiyi dəmir qəfəsdə peyda ola bilərik.

Yeri gəlmişkən, yoldan ötənlərdən od istəməyi jandarmlara öz vicdanları qadağan eləyir. Bizim nələr çəkdiyimizi onlar çox yaxşı bilir, çox həssaslıqla duyurlar; ancaq neyləsinlər, vicdan məsuliyyəti buna rəvac vermir. Jandarmların dediyindən belə çıxır ki, guya qanunda belə bir şey yoxdur, ona görə də...

Ən pisi – adamın öz gərəksizliyinə tədricən inanmasıdır. Əgər adam öz gərəksizliyinə, yararsızlığına dərhal inanırsa, elədə heç bir qorxusu yoxdur – demək, dərhal da unudacaq; yox, əgər bu fikrə tədricən gəlib çıxırsa, onda işlər xarabdır. Daha heç kim bu fikri onun beynindən çıxara bilməz; bundan sonra günbəgün üzülməyə, sınıxmağa başlayacaq, cinayətkarların qənimi olan yuxusuzluq

[1] *Məhəbbət və bahar (fransızca).*

ona aman verməyəcək, axırına çıxacaqdır. Bir sözlə, hesab elə ki, beləsinin işi artıq bitib.

Joaken Bonom bu cür ağır fikirlərdən xilas olmaq istəyirdi. Daha doğrusu, bəzən istəyirdi, bəzən də taxta ayağını nəvazişlə sığallaya-sığallaya və cib bıcağını çıxarıb üzərində öz inisialını cıza-cıza fikrini dağıdırdı.

– Lənət sənə, kor şeytan! Ayağın olmaya, amma yenə kişi sayılasan! – deyib özünü inandırmağa çalışır, sanki burasını daha dərindən anlamaq istəyirdi. Sonra da düşünürdü: bax, Ferminin hər iki ayağı salamatdı, amma nə fayda?

Estrada artisti olan qaynından Joaken çox da xoşlanmırdı: onun fikrincə, bədbəxt o adamdı ki, nə kişi kimi kişidir, nə arvad kimi arvad. Fermin Tuluzaya gələrkən, Joaken gecələmək üçün ona öz evində yer versə də, qaynı ilə çox saymazyana davranır, bəzən lap açıq-aşkar ədəbsizlik edirdi. Növbəti iyrənclik Ferminin qulağına çatanda o, qəzəbindən fısıldamağa başladı və yeznəsi barədə düşündüklərini onun gözünün içinə söyləməkdən özünü güclə saxladı. Bacısı isə hikkəsni qətiyyən ört-basdır eləmədi və bildirdi ki, guya gözü öz-özünə çıxıb düşüb.

Mençu qardaşına xüsusi rəğbət göstərirdi: hər axşam dalına düşüb onun ardınca «Xo-xo» kafesinə yollanır, Ferminin çıxartdığı bütün oyunlara olmazın həvəslə, ləzzətlə tamaşa eləyirdi; qonşu arvadların qabağında öz artist qardaşıyla əməlli-başlı qürrələnir, hər axşam göbələkdən növbənöv xörəklər hazırlayırdı ki, bunları da Fermin çox xoşlayırdı.

– Siz heç görmüsüz Rakeli o necə yamsılayır? Görmüsüz Pavlovanı necə yamsılayır? Mistengettin, Arxentinanın oyununu qardaşım necə çıxarır, görmüsüz?

Qonşu arvadlar heç vaxt heç nə görməmişdilər (çölə tökülməmişdi ki!) və ağızlarını ayırıb həsədlə Mençuya baxır, düşünür-dülər ki, kaş bizimkilər də artist olaydı. Sonra da hərəsi özlüyündə utana-utana fikirləşirdi: mənim Raulum yanğınsöndürəndir... mənim Pyerim cənab Lafenetin prikazçikidir... Etyen neçə ildir madmazel d'Alasın atlarını qavoşlayır... Yox bir! Bircə səhnələri çatışmırdı; bircə o qalmışdı ki, səhnəyə çıxıb camaatın qabağında özlərini rüsvay etsinlər! Və Raulun «Cənab Petronun rayoku»nda necə süzməsini, Pyerin «Petruşka» baletində ildırım kimi fırlanmasını, Etyenin isə – ölən qu quşunun! – barmaqlarının ucunda nə cür rəqs etməsini təsəvvürlərində canlandırıb xəyalən gülümsünürdülər...

Yöndəmsizlər!

Borclu qalmasınlar deyə, hərdən qonşular deyirdilər ki, bəs guya Fermini (afişalarda onun adı *«Garçon Basque»*[1] kimi gedirdi) görüblər, bununla da başlarına iş açırdılar: Mençu dərhal arvadların üstünə şığıyıb onları bir küncə qısnayır, sorğu-suala tutur, karıxmış arvadlar Ferminin dahi olduğunu söyləməyincə onlardan əl çəkmirdi. Joaken isə, əksinə, Garçon'a xüsusi rəğbət bəsləmirdi, Mençuya da tez-tez eşitdirirdi ki, indən belə öz çardağında onun artist qardaşına yer vermək fikrində deyil.

– Mənim evim kasıb, ancaq namuslu evdir. O gədənin burda yaşaması dedi-qoduya səbəb olacaq, görərsən!

...Mençu ipə-sapa yatmır, dil-boğaza qoymadan dönə-dönə deyirdi ki, bəs qonşular onun heç vecinə də deyil; öz yanında qardaşına sığınacaq verməyə isə hər bir bacının tam ixtiyarı var, üstəlik də otaqları kifayət qədər genişdir və Ferminə yer gen-bol çatır.

Ancaq bu axırıncı sözlər ağ yalan idi, çünki otaqda genişlik dediyin şeydən əsər-əlamət yox idi. Mençu isə (sevgidənmi, ya başqa səbəbdənmi) öz fikirlərini əsl xristian səbri ilə aydınlaşdıran ərinə zərrəcə məhəl qoymur, sözlərini eşitmək belə istəmirdi.

Əslinə qalsa, Blanşar küçəsində qonaq saxlamağa bircə dənə də münasib mənzil tapmazsan. Küçə ensiz, balaca, çirkli və darısqaldı; küçəni hər iki tərəfindən sıx-sıx əhatə edən evlərsə divarlarında yalnız illərin və axıdılmış qanların izini saxlayan boz təbəqə ilə örtülmüşdü. Joakenin qərar tutduğu on yeddi nömrəli üçmərtəbə evin hər qatında iki otaq vardı; çardaqda isə, daha doğrusu, çardağın qənşər tərəfində (arxa tərəfə köhnə-kürüş şeylər atılırdı) bədbəxt Bonomlar yerləşmişdi.

Alt mərtəbənin soldakı otağında – istefada olan poçt məmuru L'Epinar və onun ər üzü görməyən, heç kəsə qoşulub qaçmayan, kilsəyə

[1] *Basklı oğlan (fransızca*

ayaq basmayan, heç yerdə işləməyən on bir qızı; sağdakı otağında isə – işi-peşəsi bilinməyən şişman Düran cənablarıyla həmişə pilləkəndə durub qonşuların üzünə gülümsəyən və qanlı bəlğəm tüpürən yüngül qadın İvett məskunlaşmışdı.

İkinci qatın sol tərəfdəki otağında – hardansa topladığı pişik və tutuquşuların əhatəsində gün keçirən cənab Fruatan; sağ tərəfdəki otağında isə – üst-başından kükürd iyi gələn və alver edilməsi mümkün olan hər şeylə, bəzən hətta mümkün olmayan şeylərlə də alver edən cənab Qaston Oliv Levi qalırdı.

Üst qatın sol mənzilində – musiqi müəllimi cənab Jan-Lui Lopes yaşayırdı; sağ mənzilin sakini isə – həmişə ləçək bağlayan, həmişə ərindən dəm vuran (deməsinə görə, guya əri artilleriya mayoru idi) və həmişə fəsillərdən, bahaçılıqdan, bir də əliəyri ev qulluqçularından gileylənən madam de Berjerak-Monsuri idi.

Və nəhayət, az öncə qeyd etdiyimiz kimi, evin çardağını Mençu Agirresabala ilə onun şikəst əri Joaken Bonom tutmuşdu; ər-arvad birtəhər çardağın qənşər tərəfinə yerləşmişdilər. Onlar yeməyi plitədə bişirir, plitəni isə yonqarla qızdırırdılar, belə ki, tüstüdən həmişə gözləri yaşarırdı. Çardağın qapısı çox alçaq – adam boyundan da aşağı idi və içəri girmək üçün bir az əyilmək lazım gəlirdi. Joaken qapıdan girib-çıxarkən öz yeganə ayağının üzərində elə incə tərzdə aşağı əyilirdi ki, adam gülməkdən özünü güclə saxlayırdı. Və indi, artıq bizə məlum olduğu kimi, o içəri keçib arxasınca qapını çəkdi.

– Bir şey tapdın?

– Yox.

Hər iki ayağının salamat olduğu əyyamlarda Joaken çoxlu peşələr dəyişmişdi; indi isə, iki ayağından birinin qaldığı və işləmək hava-su kimi zərurətə çevrildiyi bir vaxtda bekar qalmışdı, özü də hər dəqiqə gözlənilən idi ki, arvadı və şey-şüyləriylə birgə küçəyə atılsın.

Joaken hər gün iş axtarışına çıxırdı, amma hamısı da əbəs yerə; bütün zəhməti hədər gedirdi. Düz iyirmi beş gün qabaq onu nimdaş mallar dükanına hesabdar götürmüşdülər, di gəl, Joaken dükanda vur-tut ikicə gün işləmişdi – bütün ömrünü özgələrin cır-cındası içində qurdalanmaqla keçirən, görünür elə bu səbəbdən də qəlbinin dərinliklərində mənəvi ehtiyaclara bir tikə həssaslığı qalmayan dükan sahibi cənab Bertelemi, necə olmuşdusa, şeir quraşdırdığı yerdə qəfildən Joakenin üstünə gəlib çıxmış, dərhal da onu işdən qovmuşdu.

Joaken bu gün də, əvvəlki günlərdə olduğu kimi, çardağa əliboş, üstəlik həmişəkindən daha acıqlı qayıtmışdı. Və artıq bizə məlum olduğu kimi, arvadı da əməlli-başlı hirslənmişdi.

Komissar dəniz ilbizitək darıxır və gileylənirdi:

– Tuluzada hadisə baş vermir!

Və heç də yalan demirdi – Tuluzada həqiqətən tam sakitlik hökm sürürdü. Bəyəm oğurlanmış pul kisəsi və bir cüt qotur toyuq haqqında iş araşdırmaq rəsmi qulluğun otuz yeddinci sənəsində ona yaraşardımı?

– Tfu, səni! Bircə tikə də maraq qalmayıb! Bu lənətə gəlmiş Tuluzada hadisə baş vermir ki, vermir!

Bayırda narın yağış çisələyir, ətrafın qəmginliyi adamda elə təəssürat yaradırdı ki, elə bil bütün şəhər yuxusuzluğa mübtəla olub. Bəlli məsələdir ki, cansıxıcı yerlərdə fikirlər də kədərli və dağınıq olur – bir də gördün basıb əzdilər.

Qara müşəmbə plaşlı jandarmlar həmişəki qayda ilə küçədə o baş-bu başa gedib-gəlir, narın yağış damcıları yenə onların qalın bığlarının ucunda xırdaca muncuq dənələritək yanıb-sönürdü. Gör neçə vaxtdı komissarın xoş sədası qulaqlarını oxşamırdı:

– Aydındır, uşaqlar, aydındır!

Bu sözlərsiz isə, gəmilər qədər köhnə, ev qulluqçularıtək hər şeylə maraqlanan jandarmlar sınıxırdılar.

Elə bu zaman, ikicə məhəllə yuxarıda (dünya burun dəsmalı qədər kiçikdir!), Blanşar küçəsindəki on yeddi nömrəli üçmərtəbə evin çardağında vaxtilə xeyli peşələr dəyişmiş, hazırda isə həm ayaqsız, həm də işsiz qalmış Joaken Banomla onun keçəl, müzür, yekəpər, şüşəgöz arvadı Mençu Agirresabala bərk çəkişir, Fermin də onlara baxa-baxa papirosunu sümürürdü.

– İşdən qorxursan, vəssalam! Ona görə iş tapmırsan...

Joaken səbrini basıb dillənmədi. Mençu təzədən qızışdı:

– Tapanda da ikicə gündən sonra mitilini atırlar bayıra! Bu yaşda, üstəlik qoltuqağacıyla işdən qovulmaq! Özü də gör nə üstündə, məktəb uşağı kimi şeir üstündə qovulursan!

Belə hallarda Joaken öz əqidəsinə sadiq qalaraq susur və heç vaxt mübahisəyə girişmirdi. O, adətən canı boğazına yığılana qədər dözür, axırda bir cüt stul götürüb təpik ilişdirməyə hazırlaşırdı. Bəzən təpik sadəcə olaraq zərurətə çevrilirdi; Mençu tədricən səsini qısır və pəsdən deyinə-deyinə çardağın bir küncünə çəkilib zarımağa başlayırdı.

Fermin bir neçə dəfə istəmişdi ki, qalxıb araya girsin, təpiyin qarşısını alsın, ancaq sonra fikrindən daşınmışdı və belə qərara gəlmişdi ki, özgə işinə qarışmaq hər halda yaxşı hərəkət deyil.

Joaken hələ yerindən tərpənməmişdi, Mençu isə ağlasığmaz dərəcədə qızışıb özündən çıxmışdı; arvadın şüşə gözündən ispanka epidemiyası zamanı Bordoda itirdiyi xalis gözündən axan kimi sarımtıl və bulanıq maye süzülürdü, özü də həmişəkindən fərqli olaraq, bu damcılar bir qədər çəhrayıya çalırdı (kim bilir, bəlkə ora qan damcıları qarışmışdı?!). Fermin qorxudan əsə-əsə eləcə oturub işin gedişatına baxsa da, qarışmağa cürət eləmirdi, neyçün ki, Mençunun qəzəbi artıq öz həddini keçmişdi. Qorxudan sapsarı saralmış estrada artisti həmin an başqa bir evdə olmaqdan ötrü lap nə istəsəydin verməyə hazırdı.

Komissarın heç ağlına da gəlməzdi ki, bir neçə dəqiqədən sonra Tuluzada ömür-billah görünməmiş (amma ona yamanca ehtiyac duyulan!) bir hadisə baş verəcək. Uzaqbaşı, o indi ya pivə içir, ya şahmat oynayır, ya da doktor Sent-Rozali ilə siyasətdən gap edirdi; ancaq qətiyyən düşünmür, xəyalından belə keçirmirdi ki, heç bir hadisə baş verməyən və bu səbəbdən də son dərəcə maraqsız keçən bu Tuluzada lap elə indicə – rəsmi xidmətin otuz yeddinci ilində! – onun zəkasına layiq əsl iş başlanacaq.

Joaken son həddə çatıb yaralı canavar kimi güc-bəla ayağa qalxdı (baxanda adamın ürəyi qana dönürdü!), stullardan yapışıb yırğalandı və – taraq! – arvada təpik ilişdirdi. Göz qırpımındaca zərblə divara çırpılan Mençunun şüşə gözündən qarmağa oxşar nəsə qopub düşdü; deyəsən təpik arvadın düz hülqumundan tutmuşdu...

Mençunun tək ayaq üstdə nə cür fırlandığını görən Joaken əməlli-başlı xoflandı, stulları buraxıb səntirlədi və peysəri üstə guppultuyla yerə sərildi. Garcon Basque də bərk qorxmuş halda darısqal otaqda vurnuxmağa başladı; nəhayət qapını tapıb özünü bayıra atdı və üzüaşağı götürüldü. Birinci mərtəbənin pilləkənində rastlaşdığı İvett onun üzünə gülümsəyə-gülümsəyə:

– Au revoir, Garcon Basque,[1] – dedi.

Fermin kandarı hoppanıb keçərkən cənab L'Epinarın heç vaxt ər üzü görməyən, heç kəsə qoşulub qaçmayan, kilsəyə ayaq basmayan, heç yerdə işləməyən və heç kəsə xeyri dəyməyən iki gözəlçəsi də bir ağızdan İvettin sözlərini təkrarladılar:

– Au revoir, Garcon Basque.

Garcon Basque nəfəsi qarala-qarala var gücüylə hara gəldi qaçırdı. Roma papası olmayan və səhv etmələri tamamilə mümkün görünən jandarmlar onu tutub saxlayanda narın yağış hələ də yağmağında idi...

"La Poste de Toulous" qəzetinin axşam buraxılışı yağlı bir başlıqla bəzədilmişdi: BLANŞAR KÜÇƏSİNDƏ SİRLİ QƏTL!

Roma papası olmayan və səhvə yolvermə ehtimalı tamamilə mümkün sayıla biləcək komissar gülümsündü:

– Blanşar küçəsində sirli qətl!

Və etinasızcasına əlavə etdi:

– Eh, jurnalistlər, jurnalistlər!

Sevincdən jandarmların üzü işım-işım işıldayırdı; komissar yenidən onlara üz tutmuşdu:

– Aydındır, uşaqlar, aydındır! Bu da estrada artistləri! Tövbələtmə olsun deyə, mən onların hamısını dama basardım!

...Dəmir barmaqlıqlar arxasındakı qəfəsdə qızdırma tüğyan edir, Garcon Basque isə buna heç cürə öyrəşə bilmirdi. O, çamadanın üstündə oturub saatları, günləri, həftələri, ayları bir-bir yola salırdı. Ancaq ilin necə ötdüyünü görə bilmədi...

[1] *Xudahafiz, basklı oğlan (fransızca)*

Edqar ALLAN PO
(Amerika)

AMONTİLYADO ÇƏLLƏYİ

Fortunatonun min cür haqsızlığına dözmüşəm. Bacardığım qədər dözdüm, təhqirə keçməyə cürət edəndə isə qisas alacağıma and içdim. Lakin siz – məni yaxşı tanıyanlar, xasiyyətimə bələd olanlar – nə düşündüyümü, ağlımdan nə keçdiyini əlbəttə ki, fərz edə bilməzsiniz. Gec-tez mənim qisasım alınmalıydı; bu məsələdə qərarım qəti idi idi, intəhası qətiyyətin özü risq fikrini istisna edirdi. Mən təkcə cəzalandırmalı deyildim, həm də cəzasız şəkildə cəzalandırmalıydım. Əgər qisasçı özü də qisasın qurbanına çevrilirsə, deməli qisas baş tutmayıb. Yəni əgər qisasçı şəri törədənə intiqamı məhz özünün aldığını duydura bilmirsə, deməli qisas lazımi şəkildə alınmayıb.

Bilməlisiniz ki, hər hansı hərəkətimlə, hətta bircə sözümlə belə Fortunatoya xoş niyyətimdən, xeyirxah münasibətimdən şübhələnməyə əsas verməmişdim. Görüşəndə həmişəki kimi üzünə gülümsəməyə davam edirdim və heç ağlına da gəlmirdi ki, indi bu təbəssüm onu məhv etmək fikrindən doğur.

Fortunatonun bir zəif cəhəti vardı, hərçənd başqa münasibətlərinə görə hörmətə layiq idi; hətta ondan çəkinmək lazım gəlirdi. O, şərabdan yaxşı baş çıxarmasıyla qürrələnirdi. Dünyada az italyan tapılar ki, nəyinsə xiridarı sayılsın, belə bir qabiliyyətə malik olsun. Onların marağı əksər halda hansısa britaniyalı, yaxud avstriyalı milyonçunu hərifləmək üçün münasib şəraitə, məlum məqama uyğunlaşıb. O ki qaldı rəsm əsərləri və bahalı daş-qaşa, öz həmvətənləri kimi Fortunato da xalis şarlatan idi, ancaq məsələ köhnə şərablara çatanda tam səmimi olur, saxtakarlıq etmirdi. Bu cəhətdən heç özüm də ondan dala qalmırdım; yerli italyan şərablarını tanımaqda xeyli təcrübə toplamışdım, əlimə düşən ilk fürsətdəcə əməlli-başlı alış-veriş edir, şansı qaçırmırdım.

Bir axşam hava qaralanda, karnavalın qızğın çağında dostumla rastlaşdım. Məni ürəkdən salamladı, deyəsən yaxşıca gillətmişdi. Təlxək paltarında idi: əynində yarısınacan zolaqlı kostyum vardı, başına da zınqırovlu qalpaq qoymuşdu. Onu görməyimə yamanca sevindim! Mənə elə gəldi ki, bərk-bərk sıxdığım əlini silkələməkdən heç vaxt yorulmaram.

«Mənim əziz Fortunatom, – dedim, – nə xoş təsadüf! Nə yaxşı görüşdük! Siz bu gün qiyamət görünürsünüz. Bir çəllək şərab almışam, guya amontilyadodur, amma nəsə şübhəm var».

– Necə?! – o dedi. – Amontilyado?! Özü də bir çəllək?! Ola bilməz! Karnavalın bu şıdırğı vaxtında?!

– Hə, amma nəsə şübhəm var. Səfehlik elədim, sizinlə məsləhətləşmədən düz bir çəlləyin haqqını ödədim. Sizi heç yerdə tapmaq mümkün deyildi, qorxdum ki, şansı əlimdən buraxım.

– Amontilyado!

– Elədir, amma əmin deyiləm.

– Amontilyado!

– Mən bu şübhənin axırına çıxmalıyam.

– Amontilyado!

– Bir halda ki, siz harasa dəvətlisiniz, qoy gedim Lukezini axtarım. Şərabdan başı çıxan bir adam varsa – o da Lukezidir. Yoxlayıb mənə deyər…

– Lukezi amontilyadonu xeresdən ayıra bilmir.

– Nə danışırsınız?! Bəzi ağzıgöyçəklər deyir ki, guya onun zövqü sizinkinin eynidir.

– Yaxşı, getdik!

– Hara?

– Sizin zirzəmiyə.

– Yox, dostum, mən sizin comərdliyinizdən sui-istifadə etmək istəmirəm. Görürəm ki, harasa dəvətlisiniz. Lukezi…

– Mən heç yerə dəvətli deyiləm, gedək!

– Yox, dostum. Lap dəvətli olmasanız da, görürəm bərk üşüyürsünüz. Bizim zirzəmidə dəhşətli nəmişlik var. Hər yerinə şora döşənib.

– Boş şeydir, gedək! Soyuğa fikir verməyə dəyməz. Amontilyado! Sizi hərifləyiblər. Qaldı ki Lukezi, o bədbəxt xeresi amontilyadodan ayıra bilmir.

Bu cür danışa-danışa Fortunato əlimi əlinə keçirtdi. Mən əynimə kip oturan plaşa bürünüb qara ipək maska taxdım, onu həvəsləndirib imkan verdim ki, məni sarayıma aparsın.

Qulluqçulardan heç biri evdə yox idi, karnavalı yaxşıca bayram etmək üçün hərəsi bir yerə getmişdi. Demişdim sübh erkəndən tez qayıtmayacam, özlərinə də bərk-bərk tapşırmışdım ki, evdən aralanmasınlar. Yaxşı bilirdim ki, bu göstərişlər tam yetərli olacaq: ayağımı qapıdan bayıra qoyan kimi hamısı aradan çıxacaq.

Qəndildən iki məşəl çıxarıb birini Fortunatoya verdim, sonra anfiladadan keçirib onu zirzəmiyə aparan otağın çıxışına yönəltdim. Özüm qabağa düşüb uzun, dolama pilləkənlə gedirdim, arada geri qanrılıb deyirdim ehtiyatlı olsun. Nəhayət, axırıncı pilləyə çatdıq; indi biz Montrezor ailəsinin katakombasında, yaş torpağın üstündə dayanmışdıq.

Dostum inamsız yeriyirdi, addım atdıqca qalpağındakı zınqırovun cingiltisi eşidilirdi.

– Bəs çəllək hardadı? – soruşdu.

– İrəlidədir, – dedim, – siz hələ divarlardakı ağ naxışlara fikir verin…

Fortunato mənə tərəf dönüb, sərxoşluqdan dumanlanmış süzgün gözləri ilə üzümə baxdı.

– Şoradır? – soruşdu.

– Hə, şoradır. Siz çoxdan belə öskürürsünüz?

– E! e! e! – e! e! e! – e! e! e! – e! e! e!

Yazıq öskürəyin şiddətindən bir neçə dəqiqə cavab verə bilmədi. Handan-hana özünü toparlayıb dilləndi:

– Eybi yoxdur, keçib gedər.

– Yox, – qətiyyətlə bildirdim, – yaxşısı budur, geri qayıdaq. Sağlamlığınız daha vacibdir. Varlısınız, qarşınızda baş əyir, təzim edir, sizə hörmət qoyurlar. Sizi hamı sevir. Bəxtəvər adamsınız, bir vaxtlar mən eləydim. Sizi itirmək böyük itki olardı. Mən – başqa məsələ. Geri qayıdaq, yoxsa naxoşlayarsınız. Şəxsən mən belə bir məsuliyyətin altına girə bilmərəm. Həm də, axı Lukezi…

– Di yaxşı, kifayətdir! Öskürək boş şeydir. Qorxma, məni öldürməz.

– Orası elədir. Düzü, sizi boş yerə narahat etmək niyyətində deyildim. Amma gərək ehtiyat tədbirləri görəydiniz. Bax bu, baldan çəkilib, bircə qurtum kifayətdir ki, özünüzü rütubətdən qoruyasınız.

Nəm torpağın üstündə uzun sırayla düzülmüş butulkalardan birinin qapağını açıb ona uzatdım.

– İçin!

Fortunato mənə çəpəki nəzər salıb içkini dodaqlarına yaxınlaşdırdı. Sonra tələsmədən dostyana başını yellədi, bu vaxt zınqrovun cingiltisi eşidildi.

– İçirəm burda uyuyan ölülərin şərəfinə!

– Mənsə sizə uzun ömür arzulayıram!

Yenə əlimdən yapışdı və biz yolumuza davam eləyib qabağa yeridik.

– Nəhəng zirzəmidir, – Fortunato dedi.

Cavab verdim ki, Montrezorlar böyük nəsil olub.

– Amma gerbinizi unutmuşam, – dedi.

– Mavi fonda dişlərini dabana sancmış qıvrım ilanı tapdalayan ayaq; qızıldan tökülmüş nəhəng insan ayağı.

– Bəs deviz?

– *«Nemo te impune lacessit»*[1]

– Əladır, söz ola bilməz!

İçki gözlərini parıldatdı, başındakı qalpaqdan asılmış zınqırov cingildədi. Elə mənim düşüncələrim də canlanıb dirçəldi: bal arağı öz təsirini göstərirdi. İrili-xırdalı çəlləklərin arasıyla qabağa addmladıq, sümük qalaqlarının, divarların yanından keçə-keçə katakombanın axırına gəlib çatdıq. Burda yenə ayaq saxladım və cürət edib Fortunatonun biləyindən yapışdım.

– Baxın, – dedim, – şora getdikcə çoxalır. Mamır kimi hər yeri basıb. Biz indi çaylağın altın-

[1] *Məni təhqir edən heç kəs cəzasız qalmaz*

dayıq. Sümüklərin arasından nəmişlik sızır. Gəlin qayıdaq, nə qədər gec deyil, geri dönək. Sizin öskürəyiniz…

– Öskürək boş şeydir, – Fortunato dediyindən dönmədi. – Haydı, getdik irəli! Amma əvvəlcə bir qurtum da içək. Hardadır sizin o bal arağınız?

Bu dəfə *Vin de Graves* götürdüm, qapağını qırıb ona uzatdım. Fortunato butulkanı başına çəkib axıracan birnəfəsə içdi. Gözlərində qığılcımlar parıldadı. Qəhqəhə çəkib boş şüşəni mənasını anlamadığım xüsusi jestlə yuxarı tulladı.

Ona təəccüblə baxırdım, Fortunato isə məzəli hərəkətini təkrar edirdi.

– Siz bunu başa düşmürsünüz? – soruşdu.

– Yox, – dedim.

– Demək siz qardaşlığa mənsub deyilsiniz?

– Necə?

– Soruşuram ki, mason deyilsiniz?

– Hə, hə, – tez dilləndim. – Hə, hə!

– Doğrudan?! Ola bilməz! Siz masonsunuz?

– Masonam, – cavab verdim.

– İşarə! – o dedi.

– Bu da işarə! – deyib, plaşımın altından balaca bir kürək çıxardım.

– Deyəsən, zarafat edirsiniz! – bir neçə addım geri çəkildi. – Yaxşı, göstərin görək öz amontilyadonuzu.

– Olsun!

Balaca kürəyi plaşın altına soxub yenə əlimi ona uzatdım. Fortunato bütün ağırlığını qoluma saldı, beləcə amontilyadonun axtarışıyla yolumuza davam elədik. Alçaq tağların uzun cərgəsini keçib aşağı endik, daha bir neçə addım atıb yenə aşağı düşdük. Dərin sərdabanın yanına çatanda buranın natəmiz havasından məşəllərimiz közərib qalmışdı, zorla işıq salırdı.

Xeyli aralıda bundan kiçik olan başqa sərdaba görünürdü. Divarları tağa qədər cəsəd qalaqlarıyla doluydu. Parisin nəhəng katakombalarını xatırladan bu sərdabanın üç tərəfi beləydi, dördüncü tərəfdə isə sümüklər ora-bura səpələnmiş, torpağın üstünə səliqəsiz halda töküldüyündən hətta bir yerdə təpəcik əmələ gəlmişdi. Sümüklərdən təmizlənmiş divarda dərinliyi dörd, eni üç, hündürlüyü altı-yeddi fut olan daha bir çuxur gördük. Görünür, hansısa xüsusi tələbat üçün nəzərdə tutulmamışdı, sadəcə, katakombaların tağlarını saxlayan iki nəhəng dirək arasında aralıq idi və sərt qranitdən tikilmiş əsas divarlardan birinə birləşirdi.

Zorla közərən məşəlini yuxarı qaldırıb çuxurun dərinliyinə baxmağa çalışan Fortunatonun cəhdləri əbəs idi: zəif işıq quyunun dibini görməyə imkan vermirdi.

– Gəlin gedək, – dedim, – amontilyado burdadır! O ki qaldı Lukeziyə…

– Lukezi qanmazın yekəsidir, – inamsız addımlarla irəli getməyə can atan dostum sözümü kəsdi, bu vaxt mən onunla dabanbasma gedirdim. Dəliyin axırına çatanda qəfildən divara toxunub çaşqın halda ayaq saxladı. Daha bir an – və mən onu sıxıb qranitə yapışdırdım. Divarın yuxarısına bir-birindən iki futluq məsafədə bir cüt dəmir həlqə bənd olunmuşdu: birindən zəncir sallanırdı, o birindən asma qıfıl. Zəncıri Fortunatonun belinə dolayıb həlqələrə keçirmək bir neçə saniyənin işi idi. Fortunato elə bir heyrət içindəydi ki, müqavi-

mət göstərməyə heç imkan da tapmadı. Mən açarı çıxarıb bir neçə addım geri atdım.

– Əlinizi divara sürtsəniz, soranın necəliyini biləcəksiniz, – dedim, – mümkün deyil ki, bunu hiss etməyəsiniz. Doğrudan, bura çox nəmişlikdir. İcazə verin, geri qayıtmağınızı bir daha xahiş edim. Yox? Onda məcburam ki, sizi burda qoyum. Ancaq əvvəlcə sizə bacardığım bütün diqqəti göstərməliyəm.

– Amontilyado! – dostum heyrətdən xilas olmağa macal tapmamış qışqırdı.

– Elədir, – dedim, – amontilyado.

Bunu deyib, haqqında qabaqcadan danışdığım sümük topasına girişdim; hərəsini bir tərəfə tullayıb qumdaşı və əhəng məhlulunun üstünü açdım, onların, həmçinin kürəyin köməyi ilə divardakı oyuğun girişini bağlamağa başladım.

Daş hörgünün birinci cərgəsini təzəcə bitirmişdim ki, gördüm Fortunatonun sərxoşluğu xeyli azalıb. Bunun ilk əlaməti çuxurun dərinliyindən yayılan boğuq, acizanə qışqırıq oldu: bu, sərxoş adamın çığırtısı deyildi. Sonra uzun, israrlı bir sükut çökdü. İşimə davam eləyib daşın ikinci cərgəsini düzdüm, sonra üçüncü, dördüncü cərgəni hördüm. Bu vaxt zəncirin bərk-bərk, dəlicəsinə silkələnməsini eşitdim. Səs bir neçə dəqiqə davam etdi, mən isə onu məmnunluqla dinləmək üçün işimə bir müddət ara verib sümük topasının üstündə oturdum. Nəhayət, kəskin cingiltilər səngidi, kürəyi təzədən əlimə alıb beşinci, altıncı və yeddinci cərgəni hörüb qurtardım. Divar artıq sinəmlə tən idi. Yenə işə ara verdim, məşəli daş tikilinin üzərinə qaldırıb içəridə məhkum edilmiş fiqurun üzərinə bir neçə dəfə zəif işıq şüası saldım.

Zəncirlənmiş kabusun boğazından qəfil qopub çıxan güclü, kəskin qışqırıq məni dəhşətli bir həmlə ilə geri atdı. Bir anlığa tərəddüd keçirdim – həyəcan içimi bürümüşdü. Şpaqanı çıxarıb dərinliyi yoxladım, əlimi katakombanın sərt divarının üstünə qoyub əsl məmnuniyyət duydum. Sonra hördüyüm hasara yaxınlaşıb qışqırıqçının vayşivəninə cavab verdim. Mən xalis əks-səda kimi idim – dostumun ağzını əyirdim; mən onu gücdə də, hönkürtünün davamlılığında da üstələdim. Hə, məhz bu cür elədim, onu bu cür yendim, axırda qışqırıqçı susdu.

Artıq gecənin yarısıydı, işim sona yaxınlaşırdı. Səkkizinci, doqquzuncu, onuncu cərgəni hörüb qurtardım. Sonra on birinci cərgənin əsas hissəsini, axırda da sonuncu cərgəni tam başa çatdırdım, qalırdı yalnız axırıncı daşı yerinə bərkidib suvamaq. Daşı çətinliklə qaldırsam da, yerinə düz oturtdum. Bu vaxt quyunun dibindən başımın tüklərini biz-biz edən dəhşətli gülüş, ardınca da səs eşidildi – bu qəmgin səsin Fortunatonunku olduğuna inanmaq çətin idi. Səs deyirdi:

– Xa! xa! xe! xe! Yaxşı zarafatdır, həqiqətən əladır. Palatsoya qayıdanda biz buna yaxşıca gülərik. Hə! Hə! Əla şərabdır! Hə! Hə!

– Amontilyado! – dedim.

– Xe! xe! xe! Hə, amontilyado! Necə düşünürsünüz, gec deyil? Bizi palatsoda gözləyirlər. Sinyora Fortunato indi ordadır, o biri dostlar da gözləyir. Gedək!

– Hə, – dedim, – gedək.

– Allah eşqinə, Montrezor!

– Elədir, – dedim, – Allah eşqinə!

Əbəs yerə cavab gözləyirdim; səs gəlmədi. Hövsələm tükənmişdi, səbirsizlik bütün varlığıma hakim kəsilmişdi. Var gücümlə bərkdən çağırdım:

– Fortunato!

Yenə cavab gəlmədi. Bir də səslədim:

– Fortunato!

Heç bir cavab gəlmədi. Məşəlin birini açıq qalmış yarıqdan içəri soxdum və onu çuxurun dərinliyinə atdım. Oradan yalnız zınqırovun səsi eşidildi. Ürəyim sıxıldı – katakombanın havası çox boğanaq idi. İşimi başa çatdırmağa tələsdim. Axırıncı daşı yerinə bərkidib suvağını vurdum. Təzə hörgünün qarşısında köhnə sümüklərin divarını ucaltdım. Yarım əsr ötüb keçsə də, bir Allah bəndəsi onları narahat etmədi. *In pace reauiescat!*[1]

[1] *Yerin rahat olsun (lat.)*

Marçello VENTURİ
(İtaliya)

HEÇ ZAMAN UNUTMAYACAĞIMIZ YAY

Əsgər şəhadət barmağını irəli uzadıb soruşdu:

– Bu senin uşak?

– Hə, – kəndli cavab verdi.

– Bu da arvat?

– Hə.

– Men uşakları çok sevar...

...Yay fəsli idi. Günəş zəmilərdə taxılı, meşələrdə küknar ağaclarını yandırıb yaxır, Pistoyi dağlarının yamaclarına sığınmış kəndli daxmalarının çızdağını çıxardırdı...

– Evda menim çoklu uşak var, – əsgər sözünə davam elədi. O, əlindəki sumbata kağızıyla öz yük avtomobilinin qara kamerini sürtüb təmizləyir, heç yana tələsənə oxşamırdı. Alnı büsbütün tər içində idi; qırx dördün yayı heç dözüləsi deyildi.

– Men uşakları çok sevar...

O, kameri sürtə-sürtə samanlığa tərəf gedib əncir ağacının kölgəsində oturdu, yerini rahatlayıb su istədi. Kəndli bir vedrə su gətirib onun böyrünə qoydu, sonra çəkilib evin kandarında dayandı. Kəndlinin arvadı, körpə də qucağında, ərinin arxasına qısılıb əsgərin bütün hərəkətlərinə oğrun-oğrun göz qoyurdu.

...Yay fəsli idi. Belə bürkü, belə quraqlıq qabaqlar heç vaxt görünməmişdi. Həmin yay dəhşətli dərəcədə isti, üstəlik də, qanla suvarıldığından qırmızıydı, qıpqırmızı! Yay. Heç zaman unutmayacağımız yay. Qırx dördün yayı. O il zəmilərin torpağı quruyub qaxaca dönmüş, susuz dodaqlar kimi çat-çat olmuşdu...

– Men Almaniya gedar. Kaput, her şey kaput, men da Almaniya gedar.

"Kaput" – kəndli düşündü. Sonra arvadına sarı döndü:

– Keç evə!

...O günlər Modenə gedən şose yoluyla yük maşınlarının uzun qatarı ötüb keçirdi və tez-tez bu maşınlardan biri dayanır, sarısaç alman əsgərləri həyət-bacalara doluşub əllərinə keçəni acgözlüklə qamarlayıb aparırdılar. "Heç nəyim yoxdu" – kəndli arvadının qucağındakı uşağı göstərmişdi, almanlarsa çığırışa-çığırışa samanlığın altını üstünə çevirmişdilər; paltarlarına bənd edilən pulemyot lentlərini onlar elə bir zövqlə hiss etdirirdilər ki, heç bayrama hazırlaşan qadınlar da öz krujevalarıyla bu cür öyünə bilməzdilər...

...Günəş taxıl zəmilərini yandırıb-yaxır, sanki onlara divan tuturdu. Qırx dördüncü ilin taxılı da qırmızıydı, sarı deyildi. Meşələrdə küknar ağacları bürküdən qarsıyır, yamaclara səpələnmiş kəndli daxmaları od tutub yanırdı. Kəndlilər yorğun addımlarla düzəngaha enirdilər. Onlar öz ev-eşiklərini yığıb-yığışdırıb balaca boxçaya düyünləmişdilər və bu balaca boxçaları ağacların ucuna keçirib çiyinlərinə atmışdılar. Evlər. Qara boxçalara yerləşdirilən, ağacların uclarında yellənən evlər...

– Men Almaniya gedar, – əsgər dedi. – Davada yakşı şey yok.

Kəndli səsini çıxartmadı.

– Men yemak ister.

Əsgər tərli-tərli gülümsünüb kameri otun üstünə tulladı və əllərini vedrəyə soxdu. Sonra maşına tərəf gedib oturacağın altından əski götürdü, əllərini silə-silə kəndliyə yaxınlaşdı. Əs-

gərin üzü büsbütün tər içindəydi; tər damcıları alnından sürüşüb yanaqları boyunca aşağı süzülür, boynuna tökülürdü. Əlini alnına çəkib yenə gülümsədi.

– Çok isti. Guneş batanda men gedar.

...Dostlar, qırx dördüncü ilin o qızmar yayı bizim ölüncə yadımızdan çıxmaz. Elə o boxçalar da. O boxçalarda ev vardı, qəbristandakı məzar vardı. Od tutub yanan küknarlar! Onlar bizimkiydi. Taxıl da bizim taxılımız idi. Ağacların yoğun budaqlarından sallanan uzun boğazlı cavanlar da öz qardaşlarımız idi...

Əsgər kəndli ilə üzbəüz durub soruşdu:

– Senin yumurta var? Senin sut var?

Kəndli başını aşağı salıb öz yalın ayaqlarına, yamaqlı şalvarına baxdı.

– Mənim heç nəyim yoxdu.

– Yokdu?

Əsgərin sifəti tutuldu və daş kimi sərtləşdi.

– İtalyanlar yok deyar. İtalyanlar her zaman yox deyar.

Kəndli əllərini də köməyə çağırıb qandırmağa çalışdı:

– Sənin dostların inəyimi apardılar. Mən onlara dedim ki, evdə körpə uşaq var. Dedim ki, inəyi aparsanız, bu günahsız tifil acından öləcək. Onlarsa dedilər: biz heç nə başa düşməz. Dedilər biz döyüşürük, savaşırıq, biz sizin torpaqları qoruyuruq, buna görə də siz bizi yemləməlisiz! Bax, sənin dostların mənə belə dedilər.

– Men başa duşmez.

– Sən başa düşmürsən, mənsə nə dediyimi yaxşı bilirəm.

– Men başa duşmez, – əsgər təkrar elədi.

– Çörək, – kəndli sanki indicə yadına düşübmüş kimi qəfildən dilləndi, – sənə təkcə çörək verə bilərəm.

– Çurek?

– Hə, çörək. Olanım təkcə çörəkdir.

– Men ev ister. Bura çok isti.

– Evdənsə əncir ağacının kölgəsi sərin olar.

– Yok, – əsgər razılaşmadı və kəndlini kənara itələyib yenə öz dediyini dedi: – Men ev ister.

...Qırx dörduncü ilin yayında bizim evlərimizə soxulan əhlikef alman əsgərləri nə qədər olub?! Kəndli əsgərin arxasınca düşdü. Biz hamımız bu cür candərdi addımlarla onların arxasınca düşmüşük və baxmışıq ki, görək bu əhlikeflər bizim evlərimizdə necə ağalıq edəcəklər...

– Sən yuxarı qalx! – kəndli arvadına bozardı.

Qadın qucağındakı uşağın arxasından qəribə tərzdə gülümsündü. Bu təbəssüm adi təbəssüm deyildi, yox, qırx dördüncü ilin təbəssümü idi. Əsgərsə qadının nərdivanla yuxarı qalxmağa hazırlaşdığını görüb təəccübləndi:

– Niye? Qorkursan?

Və kəndliyə sarı dönüb onu qandırdı ki, qoy arvadını qalmağa məcbur eləsin.

– Menim Almaniyada çoklu uşak var. Arvat da. Qorkma.

Qadın neyləmək lazım gəldiyini bilmədiyindən eləcə ürkək nəzərlə ərinin gözlərini aradı və elə nərdivanın yanındaca quruyub qaldı. Otaqda bir masa, bir neçə stul vardı. Əsgər stullardan bir-

ini altına çəkdi, cibindən dəsmalını çıxarıb yanağı boyunca sel kimi axan təri silməyə başladı.

– Men çurek ister.

Bu sözləri sanki nərdivanın yanında quruyub qalan qadını sakitləşdirmək xatirinə söylədi. Sonra uşağı göstərib:

– Yaş neça? – soruşdu.

– Üç, – qadın cavab verdi.

– Balaca, çok balaca. Bes senin?

Qadın təzədən ərinin üzünə baxdı.

– Senin yaş neça?

– İyirmi beş, – qadın cavab verdi və yalvarıcı nəzərlə ərinin üzünə baxdı. Neyləmək lazım gəldiyini yazıq heç cürə kəsdirə bilmirdi; bilmirdi ərinin dediyinə əməl eləyib yuxarı qalxsın, yoxsa əsgərin buyurduğu kimi elə bu otaqdaca qalsın. Ona görə də qəhərdən gözləri yaşarmışdı və göz yaşını qucağındakı uşağın arxasında gizlətməyə çalışırdı.

– Sen yakşı xanım. Sen qorkma. Mən burda oturar, çunki maşın çok isti. Men geca gedar.

...O ilin yayında istidən nəfəs almaq olmurdu. Biz bürküdən və alman əsgərlərinin odsaçan silahlarından boğulurduq. Ağaclarımız şam kimi tutaşmışdı. Arvadlı-kişili hamı qoyun kimi bir-birinə qarışıb sərsəm-sərsəm düzəngaha enirdi. Amma onlar qoyun deyildilər, onlar hamısı insan idi, xalis insan; hərəsinin də çiyninə balaca bir boxça – bütün ev-eşikləri yüklənmişdi...

Əsgər papiros alışdırdı.

– Menim Almaniyada arvat var. Menim arvat qozel. Amma sen çok qozel.

Qadın gözlərinin yaşını silmək üçün uşağa lap bərk qısıldı. Onun boğazı qurumuşdu, ürəyi isə qorxudan bərk-bərk çırpınırdı.

– Bas çurek? – əsgər kəndliyə sarı dönüb soruşdu.

Kəndli elə bil min ilin yuxusundan ayıldı və ağır addımlarla şkafa yaxınlaşdı. Şkafdan bütöv bir çörək götürüb bıçaqla birgə masanın üstünə, əsgərin qabağına qoydu. Sonra yenə bayaqkı yerinə keçib divara söykəndi, əllərini cibinə soxub küt nəzərlərlə düz qənşərinə baxmağa başladı. Göz yaşını qucağındakı uşağın arxasında gizlətməyə çalışan cavan arvadı isə hələ də nərdivanın yanında durmuşdu. Əsgər çörəkdən bir dilim kəsib:

– Men encir ister, – dedi.

Kəndli əlini həyətə tərəf uzatdı:

– Əncir ordadı.

– Get getir.

Ancaq kəndli yerindən tərpənmədi.

– Mən gedərəm, – qadın nərdivanın böyründən bir-iki addım aralanıb qapıya yönəlmək istədi, ancaq əsgər cəld yerindən qalxıb onun qarşısını kəsdi və şəhadət barmağını hökmlə kəndliyə sarı uzadıb amiranə tərzdə dedi:

– O!

Kəndli qapıya tərəf yönəlib kandarda ayaq saxladı və bayırda tüğyan eləyən bürküyə, əncir ağacının altına atılmış kamerə baxdı. Sonra dönüb arvadına sərt bir nəzər saldı. Qadın uşağın arxasından ərinin gözlərinə baxdı, sonra da onun günəş şüalarından qarsayıb ağarmış samanlığa doğru hansı hikkəylə getdiyini gördü. Qadının ürəyi az qala ağzından çıxacaqdı.

– Çok isti, – əsgər qadını diqqətlə gözdən keçirib tələsmədən qapıya yaxınlaşdı, cəftəni keçirib qadınla üzbəüz dayandı və düz gözlərinin içinə baxıb soruşdu:

– Ad neca?

Qadın bir şey anlamadı. O yalnız qucağındakı uşaqla döşləri arasına hansı bir əlinsə soxulduğunu hiss elədi.

– Aç! – kəndli qapnın o üzündən bağırdı. – Aç, alman, səni əcəl girləyir, aç!

Qadın əsgərin tapancanı qoburdan necə çıxartdığını, alnının tərini silib hazır tapanca ilə qapıya tərəf nə təhər getdiyini gördü və... gözləri yumuldu...

...Qırx dördüncü ilin yayı idi. Bu – həmin yay idi. O kəndli də mən idim, sən idin, biz idik. Və bizim əlimizdə silah vardı. Biz o silahı quru otların altında gizlətmişdik. Biz o silahı samanlıqdan götürmüşdük. Yay idi. Qırx dördüncü ilin yayı. O yay ki, heç vaxt heç birimizin yadından çıxan deyil. O yay ki, biz onu heç zaman unuda bilməyəcəyik. Və məhz o zaman, həmin o yay fəslində biz də atmağı, öldürməyi öyrəndik...

Ən yeni rus poeziyasından seçmələr

Səlim Babullaoğlunun təqdimat və tərcümələrində

Aleksandr KUŞNER

1936-cı ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində anadan olub. A.Gertsen adına Leninqrad Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində təhsil alıb, orta məktəbdə rus dili və ədəbiyyatını tədris edib. "Tutqun ulduzda" (1994), " Kol" (2002), " Tavriya bağçası" (2008), "Yerin cazibəsi" (2015), "Payız teatrı" (2020) adlı şeir , klassik və müasir rus ədəbiyyatı ilə bağlı beş esse və məqalə kitablarının müəllifidir.

Рай –это место, где Пушкин читает Толстого

Cənnətdir Tolstoyu Puşkin oxuduğu yer.
Bu əbədi bahardan şübhəsiz maraqlıdır,
Mümkünsə, xəyal eylə, xəyalında elə seyr
Çəmən necə gül açır, ağaclar yaşıllaşır.

Sulu meşəgilası, ya da koppuş yaməmən
Mənə az maraqlıdır günorta bürküsündən,
Ya da yay axşamının qaraşın kölgəsindən.
Yada sal itburnunu, sözümə "yox" deməzsən.

Qonaqlar toplaşdılar bağa. Bir yoldan ötən
Gördü sahil boyunca ard-arda faytonları.
Bütün xoşbəxt ailələr bənzərdimi görəsən?
Bəlkə də heç deyillər, tanımıram onları...

А бабочка стихи Державина читает

Derjavinin şeirini oxuyur bir kəpənək,
Sevinir, düşünür ki, o böcəkdi, bir Tanrı!
Enir naxışlı kətan, enir o güllü örpək,
Salır qanadlarını qəfildən o zavallı.

Dəqiqdir, qüssə üçün, qürur üçün var haqqı,
Onun bizdən daha çox əsası, öz gerçəyi.
Güvə və yelkənqanad. Qalxır, enir aşağı,
Yığılır, parıldayır tovuzquşu bəbəyi.

Tanrıyla bu yaxınlıq elə gəlir ki, hərdən
Ona verilib, çünki qohumluğa böcəklə
Biz daha çox layiqik, nəinki bu küsəyən,
Xəz qanadlı eybəcər, ipək donlu gözəlçə.

Разговор
Söhbət

–Necə yaşayırsınız? – zəng edib soruşurlar.
–Arvadım işə gedib. Oğlum da ki, baxçada.
Heç nə fikirləşmirəm. Gözləyirəm zəng olar.
Eləcə oturmuşam, bürünmüşəm xalata.

Bəs sizdə ? Sodomdumu? Yenədəmi mərəkə?
– Bizdə də, – söyləyir o, – yaxşılıqdı əvvəla.
Ərim gedibdi. – Hara? – Bu dəfə üzü Şərqə.
Mən isə oturmuşam, bürünmüşəm dəsmala.
– Nədəndisə, evləri qızdırmırlar son vaxtı.

Qənaət eləyirlər ya da bayramqabağı.
Elə bil qarğıyıblar bu ömürü, bu baxtı,
Nədəndisə gülmürəm, açılmır qaş-qabağım.

– Biz də eləyik, – deyir, – heç qırışıq açılmır.
Ya ömür elə buymuş, axıb gedir göz görə.
Ya da başqa səbəb var. Baş çəkərdim...alınmır...
Sonrası pis olacaq. – Buna görə öpürəm.

***

Sergey BİRYUKOV

1950-ci ildə Tambov vilayətinin Torbeyevka kəndində anadan olub. Sonradan dərs dediyi və ədəbi studiyaya rəhbərlik etdiyi Tambov Pedaqoji Universtitetinin Filologiya fakültəsində təhsil alıb. Filologiya elmləri namizədi, kulturologiya üzrə fəlsəfə doktorudur. Vizual və sonor poeziya nəzəriyyəçisi, XVII-XXI əsrlər rus poeziyasının tədqiqatçısı, poetik avanqard və qeyri-ənənəvi rus şeir formaları tarixçisi və araşdırıcısıdır. Beynəlxalq Ağıllılar Assosiasiyasının qurucusudur. İyirmiyə yaxın şeir kitabının müəllifidir. Kitabları Rusiya ilə yanaşı Almaniya, İspaniya və ABŞ-də dərc olunub. "Dinozavrın uçuşu" (2011), "Yarıqdakı adam" (2010), "Səslənməlik" (2013) kimi şeir toplularının, üç nəzəri kitabın müəllifidir. "Universum" seçmə şeirləri 2022-ci ildə nəş olunub. "Özgə yarımkürə" poetik avanqard şeir jurnalının həmredaktorudur.

Новые сведения о Петрарке и Лауре
Petrarka və Laura barədə yeni gerçəklər

Məktub yazır hər səhər Laura Petrarkaya
"Times New Roman"la internet-dəftərçədə
hərflər aşiq kimi keçir arxa-arxaya
yoxa çıxır məktublar

Sonet yazır Petrarka hər axşam Lauraya
əli dəymir az qala bəyaz klaviaturaya
yoxa çıxır məktublar

Lauranın donuna ələnir bax ləçəyi-
hərflərin göyçəyi
Bu an ayırd eləmək
gerçəyi çətin, çətin.
uzatsan toxunacaq
ən kiçiyi son əlin -
çeçələni deyirəm -
onun biləklərinə.

Скифы
Skiflər

zillən
hardasa Krım küləklərinin
yandırdığı
kəsik-kəsik etdiyi
mürgülü Altayda
qırov vurmuş
skifli simasını
bəli-bəli simasını
istər-istəməz görəcəksən
özü də necə.

bax
gör
illərin dərinliyindən
payızın güzgüsündən
yayın kölgəsindən
qarların altından
velosiped təkərləri üzərində
hansı ağlasığmaz sürətlə
bizə doğru yol gəlir

hansı başgicəlləndirən sürətlə
salto-mortaleyə
dolama hərəkətə
sıçrayışa hazır
və başqalaşır bədən.

asta-asta və sürətlə
zamanlar əvəzlənir
öz yolundakı
təşviş və şəhərləri silib süpürür
coğrafi xəritələrin bütün səthini
təpələrlə örtür

ilk baxışda
sən o ulu nənəmizi
o daş qadını
tanımaya bilərsən

amma o almaz kimi bəmbərk
həqiqi göz yaşları tökəcək
qəbri üstə Velimirin

Полёт динозавра
Dinozavrın uçuşu

alimlərin müşahidəsinə görə
siçanlar ac olanda çox yaşayırlar.
elə belə də yazarıq
sən demə, dinozavrlar uçurmuşlar
alimlərin müşahidəsinə görə
alimlər veb-kameralarla
bunu qeydə alıbmışlar
bizə də göstərə bilərmişlər

amma alimlərin nəzarətində
siçan kimi yaşamaq istəməyən
ac dinozavrlar
onları udub
surətini isə
ayrıca fayllarla göndəribmişlər

beləcə
nizamlı sistem
gözlənilməz şəkildə
dəyişib
xaosa çevrilibmiş ki
Priqojinə görə
bu da yeni mərhələdi

dinozavr plan qurdu
plan uğursuzdu
dinozavr uduzdu

alimlərsə səhvlərini
qismən etiraf da elədilər

kimi zəhər içdi
kimi şərab

hamı öldü
kimsə qalmadı

dinozavrlar
yeni planetləri axtarmağa başladılar

***

Boris RIJİ

1974-cü ildə Çelyabinsk şəhərində anadan olub. Ural Dağ-Mədən Akademiyasının Geofizika-geoekologiya fakültəsində oxuyub və sonradan kuçik elmi işçi kimi çalışdığı REA Ural Geofizika İnstitutunun aspiranturasında təhsil alıb. Yekaterinburqda "Ural" jurnalında çalışıb. 1996-cı ildən əvvəlcə Ural, sonradan Sankt-Peterburq və Moskva ədəbi mətbuatında çap olunmağa başlayıb. Rotterdam Poeziya Festivalında iştirak edib. Sağlığında "Və belə şeylər..." (2000) adlı bir şeir kitabı çap olunub. "Soyuq küləkdə" (2001) adlı ikinci kitabı ölümündən sonra nəşr edilib.

Над домами, домами, домами

Damların, damların, damların üstündə
asılıb masmavi buludlar –
tək onlar qalacaq, qoy yüz il ötsün də,
umud var, umud var, umud var.

O buxar qalacaq yalnız, o ağ iz
daşdan, qəmbərdən yuxarı.
Ölmərik, itmərik, möhkəmdir qəlbimiz,
həm də ki mərmərdən yuxadı.

Eybi yox, dağılsın qoy evim-ocağım,
pozulsun bu fani həndəsə.
Buraxma əlimi heç vədə, dodağım
quruyub, versənə bir busə.

İşdir ayrılsaq, sevgilim, sən apar
qanadın üstündə buludu.
Qoy uçsun mavidə o ağ iz, o buxar,
qoy qalsın sənlə umudum.

Я на крыше паровоза ехал в город Уфалей

Ufaleyə getmişəm paravozun damında,
iki əllə qucmuşam dostlarımı mən onda -
Tısbağanı, Vudaşı, qıyıb uşaq gözümü
burnumdan, qulağımdan yan ötən göy üzünü
uzanıb seyr etmişəm, nəmli gözlə baxmışam
bu sonsuz açıqlığa – bəzən olub uçmuşam:
sağ meşə, sol laləzar, maşınlar, traktorlar,
avaralar, işçilər lap obaşdan durublar.

Əldə səbət nənələr, göbələkbaz uşaqlar,
çayda motorlarıyla o kələkbaz qoçaqlar.
İlıq mehin altında uzanıb düşünürsən,
bəlkə, bu yerlərdən heç bir yana getməyəsən.
Bəlkə, boşuna gedir bu südəmər, bu səfeh
Paravozun damında, mənzil başı Ufaley!
Sverdlovsk cibgirləri, kefli, azad yolçular
Sümürür "Prima"nı hər vaqonda nəyi var.

Где обрывается память, начинается старая фильма

Yaddaş pozulan yerdən başlayır əski bir film,
əski bir musiqiylə yayılır çərən-pərən.
Parkda yağış dayanıb, söz aciz, necə deyim,
nə gözəl ətir saçır bu yaz günü yaşəmən.

10 saylı tramvaya min, düş tağlı küçədə –
Stalin zamanından qalıb necə var elə.
Gəzdiriblər əl üstə, gəzmişəm tutub əldən,
burda yay kinosunda filmə baxmışam hələ.

Həmin hisslər barədə o film bəhs eləyirdi,
həmin o park barədə, qucaqdakı oğlandan.
Sonsuz keçmişin tutqun əksi bəs eləyirdi
gələcəyi vurmaqçün umudlu qanadından.

Xiffətdən ya sərxoşluq, ya sefehlik eləyib
şamlığın üzərindən düz qalxasan səmaya,
fələklərdən aşağı baxasan, heç bilməyib,
soruşasan bitibmi, bəlkə, olmayıb dava?!

Hər şey ağ-qara rəngdə – uşaqlar və analar,
qələbə ədasıyla sözlər, nasaz radio.
Necə uzandı ömür... gözyaşları, anılar,
tələşlar xatırlana, bir də hisslər...adı yox...

Городок, что я выдумал и заселил человеками

Şəhərcik ki, uydurdum, adamlarla doldurdum,
şəhərcik ki, göyündən asdım mən buludları,
batıb gedir, nədən ki, sakinləri qudurdu,
çünki hesab etdilər ömür yaman qısadır.

Ha çalışır ifaçı, yenə kəsilir nəğmə.
İşıqçı qaqaş söyür, fənər yanmır ki, yanmır.
Aynada göz görəsi solur o qız, gözəlçə.
şəhərcik batır, batır.

Bağışlayın cənablar, gözləmirdim, nə bilək,
gorbagor oldu hər şey, o ki qaldı özümə,
xəzanlı bağçadayam, əsir, fit çalır külək,
yarpaqlar da burulub toxunur kürəyimə.

Мальчишкой в серой кепочке остаться

Həmin oğlan olasan, bozumtul kepka başda,
uzun sözün qısası, öz-özünlə qalasan.
Gerçəklə xəyalların arasında çaş-başda –
uçsun sarı yarpaqlar, payıza boylanasan.

Oturacaq seçəsən gəzdiyin xiyabanda,
vurnuxub seçəsən sən həmin o bircəciyi.
O yeri seçəsən ki, dönəndə, qayıdanda
görüşəcək o yerdə keçmişlə gələcəyin.

Necə də çox sevirdim hüzünlüykən təsvirlər,
can üstə son baharın cizgisi qızılıydı.
Moruq parıltısıyla doluydu gölməçələr,
şeirlər də o vaxtlar yarıdan yazılırdı.

Çünki şeirin əvvəli səslənmişdi, olmuşdu,
amma əzbərə bir şey qoymamışdı yadigar...
Sanki navalçaları səs ilə doldurmuşdu,
amma yerə enməyib yağmamışdı yağışlar...

Oğlan varıydı amma, qoy danışım əvvəldən,
ovcuyla yanağını dirsəklənib tuturdu,
şeiri dəftərçəyə yazırdı o dinmədən,
sətirlər öz sonuna qatar-qatar uçurdu.

Молодость мне много обещала

İyirmi idi bir zamanlar yaş onda,
cavanlığın vədi yaman çox idi.
Deməzdilər gözün üstə qaşın var,
ağılsızdım, amma bu sirr deyildi.

İstəyirdim şair olum mən ağa,
hərçənd, düzü, ürəyimcə deyildi,
pulum çatmaz bilirdim gül almağa,
gün-güzəran çətin olar, bilirdim.

Bax, beləcə oldum dağ mühəndisi,
diplomu da qıpqırmızı qazandım.
Bölüşmədim nə şeiri, nə hissi,
nə payızda veyilləndim, dolandım.

Mavi tüstü dolu bir restoranda
mavi kaman ustasını dinlədim,
pul da bitməz ha saysan o toranda,
çiyin çəkib paraları çinlədim

Bundan sonra çətin bir şey alına,
şair kimi məndən yarımadılar.
Hə, cənablar nə sözünüz var buna?
Cənablar da içirlər, ağlayırlar.

Ağlayırlar içib, qucub qızları,
yenə içib sükuta daraşırlar.
Sərbəst isə açılır ağızları,
heca ilə yellənirlər, aşırlar.

...Врывается, перебивая Баха

Soxulur içimə, susdurur Baxı,
günahkar deyil ki, qəlbim tənikdi.
Qədeş musiqisi tanımaz qorxu,
yaxşı hər nə varsa ona təpikdi -
dəlisov, həyasız, ölümü bilməz,
sırtıq qız tək gözü bir cüt sıfırdı.
Brandenburq konserti eynimə gəlməz,
ömrüm açarı yox paslı qıfıldı.

Приобретут всеевропейский лоск

Bir transasiyalı yad şairin sözləri
tapanda Avropada gözlənilməz şöhrəti,
silinəcək nağıl tək Sverdlovskun izləri,
bir də məktəb həyatı uzaq Vtorçermetin.

Bilmirəm ki, hayanda soyuyacaq azarım,
bürkülü Parisdəmi, ya ayazlı Londonda.
Bu zavallı nəşimi siz hökməndi basdırın
Sverdlovskun bir adsız, ucqar məzarlığında.

Yox, demirəm ki, uyğun deyil dəbdəbə mərdə,
ya təmtəraq, ya da ki ustad şair üslubu.
Dövrəsində qızılgül, şəkilləri mərmərdə
orda qaqaşlar yatır, dostlarım var, uyuyur.

Sakini qarı mavi, kükürdlü, bərk torpağın
“Fəhlə-Gənclər” məzunu o üç almış uşaqlar,
başlarında qurğuşun, susublar “aşkarlığın”
qoçaq döyüşçüləri, yenə dərsdən qaçıblar.

Vtorçermet borusu qoy yenə də səs salsın,
Plastikpolimer də fit versin hirslə, kinlə.
Albomu açsın mənim olmayan qoy o qadın,
siqaret alışdırsın susqun-susqun, təmkinlə.

Açıb mavi albomu çevirsin vərəqləri,
qoy görsün ki, doludur ümid ilə simamız.
Ən alçaq zir-zibili bu amansız yerlərin
sair və quldurlardı...və diriyik hamımız.

Я помню всё, хоть многое забыл

Hər şey yadımdadı, bir az qaçaraq –
məktəb illərinin şuluq dəstəsi,
Bir mayçün çəkilən bulanıq araq,
tənəkə tuluqdan içmək həvəsim.

Yadımdadı bizə dəyən təpiklər
pezilik üstündə, nümayişçilər,
musiqi, al rəngli bantlar, çəpiklər...
Eh, vaxtlar var idi, yaşayan bilər.

Üzlərdə təbəssüm, o xoşluq hanı,
közərən papiros, yaralı əlim?..
Sverdlovsk meydanında uzanıb hamı,
nə vaxtsa duracaq burda heykəlim.

***

İqor MELAMED

1961-ci ildə Ukraynada, Lvov şəhərində anadan olub. Çernovitski Universitetinin Filologiya fakültəsində və M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. "Yunost" jurnalının tənqid şöbəsində redaktor və Peredelkinodakı Boris Pasternak Muzeyində elmi işçi kimi fəaliyyət göstərib. Onurğası zədələndikdən sonra müstəqil hərəkət etmək qabiliyyətini itirib. Xəstəlik illərində aktiv blogerlik edib, saxta şair və tənqidçilərin «ədəbi maskalarını yırtıb". "Yuxusuzluq" (1994), "Qara cənnətdə" (1998) , "Əvəz" (2010) adlı şeir kitablarının müəllifidir. "Moskovskiy sçyot", beynəlxalq "Voloşin" və "Qorki" ədəbiyyat mükafatlarına layiq görülüb. 2014-cü ildə vəfat edib. Ölümündən sonra üç cilddə şeir və esseləri, «Ədəbi maskalar» adlı yazıları nəşr olunub.

В полночный час средь мёртвой тишины

Zülmətdə alışırdı, yanırdı yenə bürclər,
ölüm dolu sükutdu, artıq gecəyarıydı,
yenə də titrədirdi ruhumu qorxunc güclər,
elə bil ki, İshaqın, Yəqubun zamanıydı.

Yenə də ləçəklənib açılırdı qızılgül,
o gözü nəm üfüqdə yenə göyqurşağıydı.
Eşq nədir, sevgi nədir- nə desələr, yalnız gül! -
Vespasion zamanı, çünki Neron çağıydı.

Qəm-qüssəylə dolursa, işdir dolub daşırsa,
bir körpə ürəyitək aciz, çarəsiz qəlbin
sıxılıb üzülürsə, olursa parça-parça -
bil ki, gəlib zamanı Daranın, Kserksin.

Храни, моя радость, до худших времён

A.R.

Qoru, mənim sevincim, qara günlərə qədər
noyabr səhərinin şaxtalı dan yerini,
yenilmiş bayraqların ipəyində nəmi var,
xəstə yataqlarının laxtalı qan yerini,

buzlu üşütməsini sən ayrılıq dəminin,
qulaq ver son qatarın ləngərinə, səsinə.
Mənim dualarımı o xilas gəmisinin
nə qədər sel gəlməyib, götür göyərtəsinə,

götür, uğur gətirər tutub əlindən sənin -
qeybin prelüdüdü, dilsiz nəğmədir, inci,
sərin yelidir, gülüm, sirli bir yelçəkənin,
götür, karına gələr, götür, mənim sevincim.

На львовском базаре помешанный старый скрипач

Lvovun bazarında ağılsız bir qoca var,
gülərək, ağlayaraq guya ki, kaman çalar.

O xəyali kamanda nəğmələr çalar səssiz,
bir oğlana arabir nəzər salar səbəbsiz.

Bu yerlərdə qocanı səfeh zənn edir hamı,
onu bu vaxta qədər kamanla görən hanı?

Tezliklə yox olacaq, amma qırx ildən sonra
həmin sirli kamanda oğlan üçün çalacaq.

Uşaqlıq yuxusundan ayılıb qoca bildi,
nə nəğmə var, nə kaman yeni dünyada indi.

Amma getmir: bu dünya deyil onun vecinə,
o görünməz bir şeyi alıbdı sol çiyininə.

***

Timur KİBİROV

1955-ci ildə Ukraynada, Xmelnitski vilayətinin Şepetovka şəhərində anadan olub. Moskva Vilayəti Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsini bitirib. Şeirləri "Samizdat"da nəşr olunub. "Adasakinov küçəsi" (2000), "Lirik qəhrəmanın yubileyi" (2000), "Amor, exil" (2000), " Kim hara, mən-Rusiyaya" (2001), "Şaltay-baltay" (2002), "Şeirlər" (2005), "Kara-baras" (2006), "Üç poema" (2008), "Sevgi şeirləri" (2009), "Bax.: yuxarıya" (2014), "Musdramteatr"(2014), "Günəşli səhər" (2020), "Kiçik formalar. 1978-2015" (2020) və başqa bütövlükdə iyirmi yeddi poetik toplunun, iki nəsr kitabının müəllifidir.

Yaradıcılığı boyu Alfred Tepfer Fondunun (Almaniya) "Puşkin" mükafatına, müstəqil "Antibuker", "Bunin", "Antologiya" mükafatlarına, "Şair" milli mükafatına, RF Hökümətinin mədəniyyət mükafatına, Şimali Osetiyanın K.L.Xetaqurov adına Dövlət mükafatına layiq görülüb. Moskvada yaşayır.

Ars poetica
Гляди! Во все глаза гляди, читатель мой!..

Bax, gözünü açıb sən, dördgözlə bax, oxucum!
Heç olmasa şərəf ver, heç olmasa gözucu!

Eybi yox, çəpəki bax! Bax amma ki sən bura!
Mənə yox e, ay səfeh, bax yuxarı, bax ora!

Sözümə istəyirsən sən diqqət eləmə heç!
Amma o uzaqdakı nuru, işığı sən seç!

Yox, canım, nə parıltı, nə görkəm, bunu boşla!
Bulud…buluda bax sən, yaxşı, əl çək Blokdan!

Bax buluda, gör necə boyalıdır azacıq,
Gör necə də gözəldir, nədir, baxmısan artıq?!

Hə, düşdümü yadına, bax, bax, hə-hə, onlardı.
Bütün bu söhbətlərin yalnız bir məğzi vardı.

Gör necə də alışır, yanır onlar qürubda!
Razısansa dur indi, qalxıb məni alqışla!

Хорошо бы сложить стихи

Nolacaq, şeiri, qəzəli
yazasan e, boş, məzəli,
eləcə gülməli, cəfəng,
qələtlə, ağ-qara, birəng.

Bozumtul naqis söz ilə
(elə hər şeyi söz elə!) –
elə bil xoşbəxt dəlinin
sözüdür, sən də göz elə!

Dəlibaş Xarmsa şübhəylə
çırpmadan şeiri şüşəyə –
yazasan, nurdu elə bil,
ya yeldir o axır dil-dil

və dəlir sanki şüadır,
qara buludu dağıdır,
sonra da qalxıb ozona
enir şəhərin tozuna.

Признание
Etiraf

Sənə demək istəyirəm ki,
sənə deyiləsi sözüm var .
Və mən sənə demək istəyirəm
ki, deyiləsi bir söz deməliyəm
sənə ki, deyiləsi sözüm var mənim
və sənə demək istəyirəm ki,
istəyirəm!

Как Набоков и Байрон скитаться

Nabokov, Bayron kimi gəzəsən, dolanasan,
Kimsədən və heç nədən heç zaman qorxmayasan,
Həmişə də hamıya lağ eləyib güləsən, -
Bir zamanlar könlümdən belə olmaq keçirdi.
Yenə də dingildəyir arabir içim indi.
Amma kobudluq məni indi çox qorxudur, çox,
Kütbeyinlik təbəssüm yaratmır sifətimdə.
Qatarların nəğməsi, məncə boşunadır, boş.
Heç hara getməyəcəm bu xiffətin əlindən.
Artıq illər keçibdir, əsrlər ötüşübdür,
Artıq öyrəncəliyəm özümlə barışığa,
Artıq öyrənmişəm mən, ram etmişəm özümü,
Unutmuşam nifrəti, tərgitmişəm lap düzü.
Görünür, haqlı imiş o davakar tənqidçi,
Mənə yaxşı ad verib – qoca, dişsiz Lenski.

***

Maksim AMELİN

1970-ci ildə Kursk şəhərində anadan olub. Kommersiya kollecini bitirib, A.M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. 1995-ci ildən naşirlik fəaliyyəti ilə məşğul olur. "Soyuq mədhlər" (1996), "Dubia" (1999), "Qorqonanın atı"(2003) şeir kitablarının, "Qıvrılmış nitq" (2011) esse və şeir, müxtəlif janrlı əsərlərin toplandığı "Qeyri şeirlərin kitabı" (2021) toplularının müəllifidir. "OQİ" nəşriyyatının və "Rusiya xalqlarının müasir ədəbiyyatı" layihəsinin baş redaktorudur. "Rusiya xalqları birliyinin möhkəmlənməsinə töhfələrinə görə" RF Prezidenti mükafatına layiq görülüb. RF Prezidenti yanında Rus Dili Şurasının üzvüdür.

Долго ты пролежала в земле, праздная

Yatıb qaldın torpaqda xeyli vaxtdı boşuna,
lazımsız, amma yetişəndə zaman,
oyandın yuxudan, qaldırdın başını
ağır-ağır, düzəltdin süst düşmüş belini,

şaqqıldadı, xırçıldadı onurğan-şaxıdı
şimşəklər, fani gerçəklər kimi inildədi,
qürurlu göylər diksindi qəfildən,
dolu səpələdi yumru, daş-daş,

əzildilər, uzunsov damcı kimi endilər,
itiləndilər uçuşda, cücərmək arzusuyla,
buğda kimi, harda, necə – fərq etməz –
bitmək istədilər zümrüdü çəmən kimi,

şabalıdı meşə, lap olsun addımbaşı
kol kimi. – Sən xeyli vaxtdı uzanıb qaldın
torpaqda boş-boşuna, lazımsız, amma
vəfayla kimisə gözlədin – zamanımı ? –

bəlkə, ən yaxşısı fanidən iyrənərək yerdə
yatmaqdı
daş kimi, dinməzcə əldən verməkdi bu imkanı,
yoxsa ki, qaranlıqda qorxaq addımlarla
yürüyərdin, nahamar küçədə əl havasına,
arabir büdrəyərdin, şaqraq-şaqraq gülərdin –
" Hər şey əladı!" – mahnı oxuyardın sevincək,
ona görə də səni həqiqi adını bilmədən belə
çağırırlar – ey bolsulu irmaq, nitq və danışmaq...

Поспешим

Tələsək,
kasıb masanı bəzəyək
qırmızı pomidorla,
qıvrımsaç cəfəri və şüyüdlə,

sarımsaqla,
ətirli istiotla, soğanla,
xallı-qabarlı xiyarla,
qarpız dilimiylə. – Ooy kərə yağı

kəhrəba kimi
göz qamaşdırsın işıqlı nəzərləri
altında Günəşin. – Doğrayaq
qara çörəyi, dolduraq ağappaq duzla

xəsislik etmədən
şüşə düzqabını ağzınacan. –
Yerinə düşər bir şüşə
şərab da. – Əgər aclığı-suzuzluğu

belə ləzzətlə
yatırmaq mümkündürsə, demək,
növbəti payızın rəhminə
nə ehtiyac, heç vaxt, heç vaxt

təslim olmarıq. –
Hər şeyin sahibi Yaradana
şıltaq aşiq və məşuq
kinli bədxahlardan daha əzizdir.

Каждый божий день, кроме выходных и праздничных

Allahın hər verən günü, bazar və bayramları çıxsaq,
heç bir xüsusi səbəb və ehtiyac olmadan,
evdən mərkəzə doğru yolçuluğa başlayırsan,
qulaq pərdəsini cırmaqlayan, dəlib keçən
dözülməz qıcırtı, xırçıltı, xırıltı, cırıltı və

dəhşətli cingiltiylə, ağlasığmaz bir sürətlə
yeraltı qatar adəti üzrə "Avtozavod" və
"Peveletski" arasındakı həmin yerdən keçib gedir,
çox yaxın olmayan tanışını xatırlayırsan –
sakit adamdı, ailəliydi, bir sözlə, aləmdi,

yaxşı badə yoldaşıydı, kitabsevərdi,
halal zəhmətlə qazanmamışdı bir qəpik belə –
Borya Qelibteri deyirəm (Allah bağışlasın!) –
İsanın mövludundan iki min dörd il sonra,
fevralda, altısında, partlayışda parçalanmışdı,

cüməydi, səkkizi otuz iki dəqiqə keçmiş,
səhərin basabas, tıxac vaxtı işə gedirmiş,
bədbəxtin ağlına gəlməzdi ki, qırx üç yaşına
əlli dörd gün qalmış hadisənin düz mərkəzində
olacaqmış, qaçılmazlıq (ah, mənasız təsadüf!),

mənimsə ağlıma gələn gah lənət və qarğışdır:
"Bu qorxunc əmri verənlərə və nə etdiyini
anlayanlara, bilənlərə nə o dünyada,
nə bu dünyada, nə soyuq məzarlarda, nə də
isti yataqlarda bir an rahatlıq olmasın,

bədənlərini, qəlblərini qoy əzab haqlasın!" –
amma fələklərin gizli sirrini, niyyətini
insanın dar ağlı bilməz və ona fənanın
gözüylə baxmaq, anlamaq mənasızdır, çünki
fani bəndənin doğuluşu da, həyatı və

ölümü də sevdiyini özünə götürən
Rəbbin əlindədir: " Xeyir-duam onlarladır! ;
gah da səksəkəli ehtimal ki, "Ümumi iş"in
düşünəri haqlıymışsa və Axirətin
vaxtı üçün dəqiq rəqəmlər lazımsa, onu

burdan əxz etmək olar ; və başqa düşünərin
təkzib edərək acı sözlərini mümkündür:
Osvensimdən, QULAQ-dan, qanlı inqilablardan,
savaşlardan, Xirosima, Bağdad və Nyu Yorkdan
sonra şeir yaranacaqmı? – necə? – yəqin elə beləcə.

Насыщение, а не вкус

Doymaq deyil, ləzzətdən
dörd əsrdi vurur dəm
yorulmadan fransız,
dil qoymadan boğaza,
ac qarına, ağıza
hikmət ölüdür, cansız!

Kasad yeməyi görməz,
kasıb hər şeyi yeməz-
onunku bol-bol sıyıq-
qoy yesin, kəssin qarnı
səsini, ağrısını;
xoşbəxtlik-dolu tuluq!

Söz ustası o kəsdir
qarnı dolu, əbəsdir,
qalan dəyməz quruşa;
nə çıxsa qoy ortaya–
qurban olum sobaya,
rusu gətirir cuşa!

***

Maksim ZAMŞEV

1972-ci ildə Moskvada anadan olub. Qnesinlər adına Musiqi Məktəbini, M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.
"İndi üçün xiffət" (1999), "Ovucdakı zaman" (2003), "Patriarşadan Arbatacan" (2014), "Tövbə vaxtı" (2019) və başqa 7 şeir toplusunun, 5 romanın müəllifidir.
Müasir Belarus, rumın və serb şairlərini rus dilinə tərcümə edib. Öz şeirləri müxtəlif dillərə, həmçinin, Azərbaycan, bolqar, yunan, makedon, rumın və serb dillərinə çevrilərək toplu halında çap olunub.
"Sehrlənmiş qərib", "Xalis kitab" ödüllərinə, "Lermontov", "Fazil İskəndər" ədəbiyyat mükafatlarına layiq görülüb.

Меня дыханьем не согрели

Qolu üstə polad əsrin
Nəfəs ilə qızınmadım,
Salyerinin nəsibini
Biganələrə qısqandım.

Yoxluq kimi bəyaz sapla
Bərkidib solğun çələngi,
Fəhm dolu bir insafla
Duydum suçsuz səsi, rəngi.

Səpələnib çölə-düzə
Çiçəklərdə tapır arı,
Axşamüstü çıxır üzə
O ecazkar mahnıları.

Can üşüdən tamburlardı,
Tənha, kiçik stansiyalar,
Dostum qədim kitablardı,
Yaşayıram asta-asta.

Gözüyaşlı qonaq gəlir
Uzaqlardan bir səhəri,
Köşkdə tünd pivə gillədir
İxtiyar, qozbel Salyeri.

Полковник в отставке сверкнул золотыми зубами

İstefadakı polkovnik zər dişiylə bərq vurdu,
Keçmiş cərrah süfrəyə aşırtdı stəkanı.
İştahalı bir qonaq göbələklə bərk vurdu,
Rəfiqələr də coşub oynadılar «kankan»ı.

«Nacins burjuy» dedilər birinə arsız-arsız,
Səbəbkar unuduldu – məclisin gəldi sonu.
Məşhur artist öz labüd iflasından xəbərsiz
Yan evdə yorğun-yorğun soyunurdu paltonu.

İstefadakı polkovnik Fransada kapraldı,
Cərrahla artist mahud satardılar Marseldə.
Di gəl anlat onlara: yuxuda generaldı
Pəncərə altda yatan kirli miskin səfil də.

Под вялый листопад и шум однообразный

Ləng yarpaq tökümüylə yekrəng küyün içindən,
Kaman üçüncü qatdan nə deyib səslənirdi?
Küçələri gəzirdi yöndəmsiz geyimində
Heç kimin duymadığı bənzərsiz şair indi...

Rastlaşırdı hər dəfə özündən razı gənclə –
Səfeh rəfiqəsiylə, dəli eşqi başında.
Çəməndə gizləyəntək şeirində güvənclə
Həkk eləyib onları saxlardı yaddaşında.

Trubnikdə o məşhur dükana baş çəkirdi,
Orda satıcı Lena oxuyurdu gözləri.
Maraqlı bir əhvalat doğulurdı, bitirdi,
Bəyaz, saf məktubların məlhəm cücərtiləri.

Heç bir əfv diləmirdi sarı xəzan yarpağı,
Ayaq altda xışıltı salıb gülümsəyirdi.
Qəm hərifi şairə belə az darıxmağı,
Bozluğu, uzunluğu ömrünün ar gəlirdi.

Oyuncaqdı tikanı bu qorxu oyuncağın,
Az əvvəl dillənirdi yalan avazla kaman.
Qaraqabaq Moskva Monomaxın papağı,
Noyabr havasında boşdu, ağırdı yaman.

Это слишком уныло - рассказывать что-то заново

Yaman üzücü şeydi – təzədən nağıl etmək.
Boş söhbətdi. Özü də kəsibdi qış qapını.
Az qalıb, ikicə gün, bəyaz pərdə enəcək
Tanış-bilişin üstə, ağacların, damların.

Yaman kədərli şeydi – toy olan qəsəbədə
Rastlaşasan o qızla – barmağında yad üzük.
Öz evini yıxasan saxta qürurla qəsdən,
Oymalı artırmada əlindən sürüşə yük.

Yaman təsirli şeydi – yanaqdakı qızartı,
Qürubdakı qırmızı – qəzəbdən və həyayla.
Əlüstü sahmanlanan otaqdakı beş-altı
Unudulmuş əşyaya bir yer də tapılmaya.

Падает мелкий снег

Qar atır narın, aram,
Astaca dolur barı.
Bapbalaca bir adam,
Bir də Qoqol bulvarı.
Əbədi tünlük yenə,
Yenə əbədi gənclik
Xanım gedir təkcənə,
Adamı yox hələlik!
Bapbalaca bir adam,
Və balaca məhəbbət.
Əsr də sərtdi yaman,
Verməz kimsəyə fürsət.

Gərək deyil ki, şinel,
Bir baxış bəs eləyər.
Onunku yalnız "Şanel"
Və bahalı geyimlər.
Qar atır narın, aram:
Qənd ağı, süd buxarı.
Bapbalaca bir adam,
Bir də Qoqol bulvarı.

Видишь, золотая оса

Görürsən, qızıl arı
Yazı doldurur zəng-zəng.
Göylər çəkir qızları,
Oğlanları savaş, cəng.

Yer üzündə bərabər
Bölərik güzəranı.
Şüşədəki təzə-tər
Adın – eşqin davamı.

Əllərində yüz illər,
Gözündə yüz-yüz yuxu.
Mənə özünü göstər –
Sözdür sözün yoxluğu.

Xoş müjdə həvəsilə
Arılar uçur aram,
Keçmiş eşqin əlindən
Məni səni oğurlaram.

Səmada qanad gərib
Bir uçarıq ikimiz,
Bax nə boş, nə də qərib
Yaşadıq, yaşarıq biz.

Опять мне снилась армия

Yenə girdi yuxuma
Ordu, qar, bir də meydan.
Orda öldüm boşuna,
Əbədiyə varmadan.
Sonsuz idi orda qar-
Göylərin bəxşiş payı.
Cırıltı, mis truba,
Son yüz ilin ah-vayı.
Neyçündü hesab dərsi,
Saymaq nəyə gərəkdi
Anamın hədiyyəsi
Oyuncaq əsgərləri?
Hərf-hərf pozuq yazılar,
Bax, bir gizir bağırır:
"Vətən və xalq yox olar,
Yox olarıq hamımız".
Qurtuldu Xalq və Vətən,
Bəxti nakamlar oldu.
Uzaq düşdük cənnətdən,
Ruhumuz hara qondu?
Durdum. Bitməyib yuxu.
Hər yan yenə cəhənnəm.
Zəng çalınır və qorxu,
Çalınır görünmədən.

Я так долго живу, никого не любя

Bir kimsəni sevmədən elə uzun yaşadım
Unuduram səhvini özgələrin, özümün.
Sənincün dəryaları yara-yara aşardım,
Uşaq əyləncəsiyçün, təsadüfi gülüşçün.

– Ümidsiz eşq nədir ki, – qaçıb soruşum deyə
Öz arxama düşürəm bu payız xəzanında.
Tən ortadan bölərdim mən ömrümü ikiyə,
Mümkün deyilsə necə, necə yaşayım onda?

Мы в Париж на рассвете прибудем

Çatarıq Parisə obaşdan, səhər,
Pıçıldarsan nəvazişlə: "Tələsmə!"
Klişi bulvarında küçük zingildər
Bizim şənimizə nadinc həvəslə.
Böyük yalanları udmuş o çayda
Suya düşər yaraşığın, əks olar.
O gecikmiş sözlərimdən nə fayda,
Osman bulvarında itər, sovular.
Bir can olduğumuz o özgə yerdə,
Uçar çaşqın eşq də damların üstə:
-Tanışsız, görmüşəm sizi güzgüdə!-
Səma dəftərinə yazar heyrətlə.

Сколько ты будешь помнить меня?

Tramvay nə qədər körpüdə dursa,
Uçuşda nə qədər şahin qıy vursa,
Zirehi nə qədər tankın bərkdirsə,
Həyat hər nə qədər ömr etməkdirsə,
Qürublar nə qədər damdan axırsa,
Sevənlər nə qədər fala baxırsa,
Yadımda o qədər qalacaqsan sən,
Yadında o qədər qalacağam mən.
Tramvay nə qədər çıxmasa xətdən,
Xatırlar o qədər bizi sən və mən!

Прости мне титанический закат

Çox görmə sən mənə azman qürubu,
ağrı dolu qaratoyuq səsini,
çəpər aşan güllərin buruğunu,
yaşılını, boylanmaq həvəsini.

Axşamların dəli dilsizliyini,
Nabokovun həmin qaranquşunu,
qoltuğunda şairin bir cildini –
sözlər açıb ona öz ağuşunu.

Hər şey kimi saxta olan sobada
oynaqlayan son günəş şüasını,
siyənəyi – çörəyin arasında,
bir az soğan- unutmayım dadını.

Naxışlı fincanda acı qəhvəni,
bircə tütün çatmır, qəhət olubdu,
London yazındakı bu gec səhnəni –
naməlum təşvişlə gözüm dolubdu.

Güzəranın müftə, xoş dincliyini -
hamı elə danışır öz bağından,
Brut kimi suçlayıram özümü
mərhum qardaş, tək sənin qabağında.

Сказал –и тут же пожалел.

Söylədim, peşiman oldum o saat,
Qaytara bilməzsən keçmiş nağılı.
Mən sevgi umurdum, amma ki, heyhat
Şəfqət əvəzinə məzəmmət aldım.
Sonra pəncərədən baxdım həyətə.
Sonra qab yumağa qarışdı başım.
Sonra da düşündüm: yox de həyata,
Sonra da düşündüm: boş ver də, yaxşı...

Sonra da sobada qazı buraxdım,
güzgüyə zilləndim (qaydasız döyüş!),
sonra da son dəfə özümə baxdım,
amma dəf elədim özüm özümü.

Нынче в парке, посмотри, буколики

Bir ora bax, əsl kənd həyatıdır:
meydançada o kasıb restoranın
masaları elə bil bayatıdır,
səslənirlər quşluq vaxtı sabahın.

Bir ora bax, gör necə dingildəyir,
sahibiylə oynayan sarı küçük.
Həyatından kimsə narazı deyil,
öz-özündən kimsə deyil ki, incik.

Bir ora bax, aprel, günəşli hava,
bircə sənsən narahat və tədirgin.
Rodionla Sonya gedir qol-qola,
boşla, canım, səfeh özünüdərki.

Bu mənasız məntiqi boşla, burax,
bir azca sus, dik dur, üzündə təmkin,
iç qəhvəni, masanı döy taqqataq,
məna tapmaq bil ki, mümkündü, mümkün.

Какая тишь после дождя!

Yağışdan sonrakı bu nə sükutdu?
Şair uşaq kimi tökdü göz yaşı.
Gözü yuxuluydu, sanki unutdu,
durdu, yenə yağdı, hönkürdü yağış.
Yəqin qismət deyil, beləymiş tale,
bir də görüşmərik səninlə artıq.
Mənim dilim yanır...hər şeyi sən de...
Yağış... Bir də mənim bayquş ulartım.

Klassiklər və müasirlər

Из переводческого наследия Владимира Кафарова

Сулейман РУСТАМ

ПЕРВАЯ ЛЮБОВЬ

Кто испытал ее, те знают сами
Какой бывает первая любовь
Воспоминаний, что милей с годами,
Не обрывает первая любовь.

Не жалуюсь, мне это не пристало,
Каких бы испытаний ни послала,
Воистину влюбленному всё мало -
Обуревает первая любовь.

Любовь уйдет, навек остынет сердце,
Окажется под стать пустыне сердце.
То обжигает и поныне сердце,
То согревает первая любовь.

Соединить мы не успели руки,
Как протянулась к нам рука разлуки
Какой же врач унять сумеет муки,
Что открывает первая любовь!

Я полюбил ее весною ранней,
Она меня оставила в буране.
Зажить дано любой на свете ране
Не заживает первая любовь.

***

Пусть будет на моем столе
и белый виноград, и черный,
Чтоб я пред гостем дорогим
предстал ничем не омраченный.

Пусть много лет пройдет вот так –
писать мне хочется, писать,
И полночь в полдень превращу,
я, замыслом разгоряченный.

Мой край священен для меня,
где б ни был я, к нему влекусь,
С ним разлученный иногда,
но никогда не отреченный.

Пусть не пустеет ни на миг
в груди сокровищница слов,
Я должен высказать свое,
слова чужие – груз никчемный.

Порой бывая обожжен,
от боли вскрикнуть, Сулейман,
Не смей и жди, пока спадет
огонь, тобою прирученный.

ПО ВЕЧЕРАМ

Что-то странное в себе
нахожу по вечерам,
Имя светлое твое
я твержу по вечерам.

Как два Каспия глаза,
если я не вижу их,
Солнце горестней идет
к рубежу по вечерам.

Если нет тебя со мной,
счастье зыбкое мое
Отдаляется под стать
миражу по вечерам.

Алиага КЮРЧАЙЛЫ

***

Я повстречал в пути рассвет,
Не позабыть мгновенье это.
В себя вобрали первый свет
Мои глаза, как два рассвета.

Покинув тихо вышину,
Редела россыпь звезд обильных,
Лишь нарушало тишину
Шуршанье шин автомобильных.

И солнце первый луч хитро
Во мрак ущелья опустило,
Как золотистое перо
В густые, темные чернила.

И горы – видел я воочью -
Свои расправили хребты…
Я побывал меж днем и ночью –
У пограничной их черты.

Я б шел годами всё упрямей,
Я б шел, покуда мог идти,
Чтоб только любоваться вами,
Ночь, завершенная в пути,
И день, начавшийся в пути!

***

Мне кажется, что море – человек.
Есть голос человека в синем хоре.
Как море, бьется в горе человек,
Как в споре человек, вскипает море.

Волненья моря, с бурями родство
И неприязнь к застою и покою –
Прямые доказательства того,
Что суть морская сходственна с людскою.

«Как человек бушует!» – говорим,
Когда на море штормовое смотрим,
И человека, что неукротим,
Не потому ли сравниваем с морем?

ИСПОВЕДЬ

На эту встречу, как на смерть,
Я шел.
Меня щадить не надо,
Но так, как смотришь ты,
Смотреть
Не надо –
Я прошу –
Не надо.

Того, что было,
Не вернешь.
Моя дорога – бездорожье.
Я принимал за правду ложь,
А правда мне казалась ложью.

Шутя,
Я исподволь грустил,
Грустя,
Смеялся для показу.
Чтоб мир постичь,
Не тратил сил,
Да и себя постиг не сразу.

Теперь тоскою дни полны
И по ночам берет досада.
Я не забыл своей вины.
Напоминать о ней не надо.

Современная
азербайджанская поэзия

В переводах Надии Кафаровой

Ильхам ГАХРАМАН

Когда меня не станет…

В день, когда меня не станет,
Вихрь чувств мятежных канет,
Помяни меня…
Не к лицу тебе страданья,
Лишь сомкни глаза.
Не по мне, по нашим чувствам,
Пусть блеснет слеза…
Дни былые вспоминая,
Боль свою утешь,
И прошу – за нас обоих –
Дважды веки смежь.

Ручей и море

Ты подобна морю,
Я – твой ручеек.
Ты – мой свет призывный,
Я – твой мотылек.
Позабыв тревоги,
Я спешу к тебе,
Не свернуть с дороги,
Ни тебе, ни мне.

Задушевный разговор

Разлука, друг мой, –
Сметенный потоком мост,
Что оставил тебя на распутье,
То ль вернуться,
в кипящую бездну нырнув с головою,
то ль сидеть отрешенно,
Внимая безумству стихии…
Выбирай, там посмотрим,
Силен ли ты духом, иль душою ведом…

Без тебя

Счастлив тот на белом свете,
Кто способен позабыть.
Как небесный свод без тверди
Без тебя не в силах быть.

Зарангиз ГАЙАЛЫ

***
Здравствуй, Родина моя! -
Мой целительный исток.
Здравствуй каждый колосок
И зеленый лепесток.
И журчащая вода,
И чинара у пруда,
Воркованье голубей
Благовестник светлых дней.
Изумрудные поля
Вдохновляют соловья
Трель разносится, звеня
Для тебя и для меня!
Рану туже затяну,
Песню дружно затяну.
Я в родимой стороне -
Горевать негоже мне.
Над моею головой,
В дымке сизо-голубой
Гордо реет, сердце греет
Флаг Отчизны дорогой.
Солнце выйдет из-за круч
И подарит теплый луч.
Если тюрки все сплотятся
Будет наш союз могуч!
Станем мы сильней плотины,
Как сольемся воедино.
И склонятся перед нами
Непокорные вершины!

***
Вершины Газаха искрятся в лучах,
Пологие склоны алеют в цветах.
И соколы в мареве плавно кружат,
В просторах твоих, величавый Газах!

Бегут, ускользая дорог серпантины,
Журчат родники, серебрятся равнины,
Проведаю, есть ли какая кручина,
Чего поутих, величавый Газах!

Укутаюсь шалью цветочных полей,
И речи польются, как горный ручей,
Тебя Зарангиз воспевает, ей-ей,
Не смолкнет мой стих, величавый Газах!

ЭЛЬДАЯГ

Влекомый мечтами…

Влекомый мечтами,
Витаю тайком,
В тех далях,
Где счастье
Манит за окном.
Туда, где свобода,
Я в мыслях летал,
В бескрайнем раздолье
Себя представлял.
Однажды надумал
Крылами взмахнуть,
К пьянящей свободе
Душою прильнуть.
Но крылья в оковах…
Поникли без сил
Любовью
Я крылья свои опалил.
И, если однажды,
Сорвав кандалы,
К мечте воспарю
Сквозь пылинки золы,
Как быть с моим сердцем,
Забывшим покой,
Трепещущим сердцем
Плененном тобой…

***
По берегу морскому
Я под руку с мечтой,
Иду… И вторит волнам
Раскатистый прибой.
Понятливо кивают
Фонарные столбы
Над бездною склоняя
Железные горбы.
Причудливые всплески
Развеют грусть-печаль
И тягостные мысли
Умчат в седую даль…

Я в плену своих грёз и мечтаний

В этом омуте глаз,
Будто пепел угас
Вихрь грёз моих и мечтаний…
Я тобою пленен,
Жребий мой предрешен,
Сердце больше не жаждет скитаний!
Но не сетую я,
Чувства пестую я,
О побеге и не помышляя,
Я тобою пленен,
Я тобой опьянен,
Ты – предел моих грёз и мечтаний!

Рабига НАЗИМГЫЗЫ

***

Кто ведает, сколько отмерено мне...
Кто ведает, сколько отмерено мне...
Когда припаду к вековечной земле?!
Песчинкою стану и в ней растворюсь,
Дождем обернусь и слезами прольюсь...
Мне знать не дано, что судьбой суждено,
Не знаю, мой друг, в чем же промысел божий
И как мне стихами воздать в его честь
И строки прочесть, что с молитвою схожи...
Да видно, Всевышний молитвам не внял,
И наши с тобою пути разметал,
Тебя не взлюбил, иль меня взревновал,
Кто знает, зачем его гнев обуял?!
Лицо мое, точно, вуалью накрыл
И глас твой призывный вдали заглушил.
Искать тебя где – ни павести, ни вести...
Жестокий наш жребий, сурово возмездье...
За косноязычье судьбину кляня
Ты все же сумел обнаружить меня...
Но знать не дано, что отмерено мне
Когда припаду к вековечной земле?!
Песчинкою стану и в ней растворюсь,
Дождем обернусь и слезами прольюсь...
Но если удержишь, единственный мой,
Протянешь мне руку и станешь судьбой,
Я замок из строк для тебя сколочу,
В стихи, как в объятья, тебя заключу.

Ты…

Будто острые иголки
В сердце стрелы ты вонзил,
Разлетевшись на осколки
Плоть мою изрешетил.
Как хирург, с уменьем дела
Извлеку осколки я.
Раны, что покрыли тело,
Вскрою, вызволив тебя.
На ладонях по крупицам
Соберу тебя, поди,
Хватит хныкать и томиться
Ждать недолго, погоди.

Müasir dramaturgiya nümunəsi

UĞURLU OTURACAQ

(BİR PƏRDƏLİ KOMEDİYA)

Tərcümə edən: Akif ABBASOV

Yakov Markoviç Ziskind 1912-ci il dekabrın 31 də Volınski quberniyasının Xodorkov kəndində anadan olub, 1989-cu il martın 17-də Moskva şəhərində dünyasını dəyişib. Sovet yazıçısı, dramaturqu və ssenaristidir. Odessa Bədii İnstitutunda təhsil alıb. 1936-cı ildən etibarən Odessa kinostudiyasında fəaliyyət göstərib. "Xoşbəxt oturacaq", "Xoşbəxt reys", " "Toydan sonra", "Sirk işıqları yandırır", "Əlvida, Neapol", "Allo, Varşava", " Cənnətdə bir ay", "Anonim məktub", " "Əsgəri gözlə", "Bazardan alınmış qız", "Duz-çörəklə qarşılanarıq", "Hay küylü toy" və s. pyeslərin; "Bir yeməkxanada", "Söz gəlinciklərə verilir", "Bizim sevimli həkimimiz". " "Allo, Varşava", "Sirk işıqları yandırır" və s. bədii filmlərin ssenari müəllifi idi.

İŞTIRAK EDƏN ŞƏXSLƏR
Kostya
Alloçka
Ana
Ata
Xanım
Milis starşinası

Hadisələrin baş vermə vaxtı – bizim günlər.

Ön səhnənin sol tərəfində oturacaq görünür. Belə oturacaqlar, adətən bulvarlarda olur. Sağ tərəfdə – səhnənin dərinliyində Sinitsinlərin mənzilində yemək otağı: stol, stullar, kursu, televizor. İyirmi yaşlarında əynində alabəzək köynək və cins şalvar olan gənc oğlan – Kostya Sinitsin ön səhnəyə çıxır. O, oturacağa sarı gedir və tamaşaçılara müraciət edir.

KOSTYA. Salam! Bu oturacağı görürsünüz? O, uğurludur. Yox, necə deyərlər, hamı üçün yox, mənim üçün uğurludur. Çoxdan belədir. Bəs nə üçün uğurludur? Danışaram. Lakin, hər şeydən əvvəl icazə verin, özünü təqdim edim: Konstantin Sinitsin, üçüncü kurs tələbəsi. Çox xoşdur *(baş əyir)*. Baxın, o evdə yaşayıram,

buradan yüz əlli metr aralıda. Yaz ayları idi! Mən uğursuz axırıncı məqlulları verirdim. Evdə oturub nələri isə beynimə yeridir və hiss edirdim ki, başım partlayır. Bunu görüb konspektlərimi götürdüm və bulvara qaçdım. Tez öz oturacağımda əyləşdim. Bu oturacaqda yer alıb məqlullara hazırlaşmağım özü bir aləmdir. Doğru sözümdür. Neçə dəfə oturacaqda əyləşib hazırlaşmışamsa həmişə də "əla" qiymət almışam. Hə – ə, yaxınlarda yenə uğurlu oturacağa əyləşib riyaziyyatdan məqlullara hazırlaşırdım, birdən... hə-hə, birdən! Bizim həyatımızdakı ən mühüm hadisələr "birdən" sözü ilə başlanır. Səhnəyə südəmər uşaqla haradasa iyirmi yaşlarında, böyük təsərrüfat çantası ağzına kimi dolu Alloçka daxil olur. O, oturacağa yaxınlaşır, uşağı və çanatnı oturacağın üstünə qoyub əyləşir. Kostya hissedilmədən Alloçkanı müşahidə edir. O isə cibindən kağız çıxarıb uşağa müraciətlə deyir:

ALLOÇKA. Hə, Veroçka, gəl yoxlayaq görək, hər şeyi aldıq. Kələm aldıq, balıq aldıq, kartof və çuğundur aldıq (*əllərini yellədir*). Dədə vay! Bəs çörək, çörək yadımızdan çıxıb (*Kostyaya*). Mane olduğuma görə üzr istəyirəm... Ən yaxın çörəkçixana haradadır?

KOSTYA. Buradan yüz metr aralıda, bax orada, solda.

ALLOÇKA. Qulaq as, bir xahişim var. Siz burada onsuz da dərslərinizi hazırlayırsınız... Veroçkaya baxın, mənim də bir ayağım burada, bir ayağım orada olacaq. Beş dəqiqəyə gəlirəm!

KOSTYA. A?

ALLOÇKA. Siz narahat olmayın! Veroçka siçan kimi sakitdir! O heç qımıldanmayacaq da. Siz sadəcə göz qoyun ki, o, yerə yıxılmasın (*bazar zənbilini qamarlayıb qaçır*).

KOSTYA. Hə, salam, Veroçka, salam! Mənim adım Kostikdir. Bəs sənin adın nədir? Nənə? Qığıldayırsan? Yaxşı, aydındır. Çox təəssüf ki, sənlə bir dost kimi danışa bilmirəm (öz söhbətini davam etdirərək tamaşaçılara). Birdən yağış yağmağa başladı. Yağış nədir, leysan idi, tut ucundan, çıx göyə. Mənim vəziyyətimi təsəvvür edirsiniz? Yarım dəqiqə belə keçməmişdi, Veroçka islandı, mənim konspektlərim islandı, mən su içində oldum. Nə etməli, bilmirəm. Belə leysanın altında oturmaq da olmazdı... Bir sözlə, qoy nə olur olsun, Veroçkam qolların arasına aldım. O, səsini güc verdi. Özümü ən yaxın giriş qapısına sarı atdım (özünü gölməçələrdən tullanaraq keçən göstərir, iki dəfə bu minvalla səhnəni dolaşır, nəhayət, dərindən nəfəs alıb səhnənin bir tərəfində dayanır). Fu-fu, bax buna deyərəm leysan! Amma yaman surət götürdüm.

Veroçka ağlayır.

Sakit ol, Veroçka, sakit ol! Niyə belə ağlyırsan? Nə edim? (*sıradan çıxmış zəngli saatı silkələyəm kimi Veroçkanı yelləyir*) Di sakit ol! Sakit! Ətrafda adamlar var, sən isə... Di, xahiş edirəm, sus...

Piştavda gözlərində çeşmək zabitəli bir qadın görünür.

XANIM. Uşağı bəri ver.

KOSTYA. Nə üçün?

XANIM (*uşağı götürür*). Uşağın ağlamağında qeyri-adi heç nə yoxdur: o, büsbütün suyun içindədir.

KOSTYA. Yağışdandır.

XANIM. Məsələ təkcə bunda deyil. Yəqin ki, sizdə quru bələk var.

KOSTYA. Nə?

XANIM. Quru əski.

KOSTYA. Yox, yoxdur.

XANIM. Bax budur. Belə adamların uşaqları olur! Anası hardadır?

KOSTYA. Çörək dükanına getdi.

XANIM. Əlbəttə! Hər işi yazıq qadınlar görməlidirlər! Çörək dükanına siz gedə bilməzdiniz?! Sənə ayıb deyil?

KOSTYA. Bilirsiniz mən...

XANIM. Budur, öz günahımızı yumaq üçün indi axmaq bir səbəb tapacaqsınız! Vəhşi heyvanlar da öz balalarına sizdən yaxşı baxır. Belə gözəl oğlan uşağına da bu cür yanaşarlar?

KOSTYA. O – qızdır.

XANIM. Kim?

KOSTYA. Bu oğlan. Yəni uşaq.

XANIM. Heç başa düşürsünüz ki, uşaq soyuqlaya bilər? Onu təcili evə aparmaq, əynini dəyişmək lazımdır.

KOSTYA (*sevincək*). Bax, bu, düzgün qərardır. Sağ olun! Bu saat onu evə apararam. Kostya Veroçkanı sinəsinə sıxıb, təxəyyülündə canlandırdığı gölməçələri aşaraq, səhnə boyu qaçır.

XANIM (*onun ardınca baxaraq*). Görəsən niyə belə insanlar dünyaya uşaq gətirirlər?

Səhnə qaranlıqlaşır.

Kostya qucağında Veroçka piştağın qarşı tərəfində dayanır, təxəyyülündə canlandırdığı zəngin düyməsini basır. Ev xalatında təxminən 45 yaşlarında bir qadın – Kotyanın anası zəngin səsini eşidib qapını açmağa tələsir.

ANA. Kimdir?

KOSTYA. Mənəm – Kostya.

ANA (*qapını açaraq*). Mən artıq narahat olurdum. Belə bir leysanda... *(qorxu içərisində)*. Aman Allah, bu kimdir?

KOSTYA. Veroçka?

ANA. Hansı Veroçka?

KOSTYA (*şən*). Bilirsən, mən bulvarda oturub konspektlərə baxırdım...

ANA. Onun neçə yaşı var?

KOSTYA. Bilmirəm. Mən bulvarda oturub konspektlərimi oxuyurdum.

ANA. Bir buna bax! Uşağın neçə yaşda olduğundan da xəbərsizdir!

KOSTYA. Mən haradan bilim? Bax izah edirəm: mən bulvarda oturub konspektimə baxırdım...

Ana və Kostya yemək otağına keçirlər. Veroçkanın qışqırıq səsini eşidib ata gəlir. O, təxminən əlli yaşlarındadır. Ata pijamadadır.

ATA. Nə olub? Bu nə qışqırıqdır?

ANA. Əzizim, səni təbrik edirəm! Mən başa düşəni, sən baba olmusan. Onun adı Veroçkadır. Təəssüf ki, bildiyim elə budur...

KOSTYA. Sən nə danışırsan, ana? Ana, axı sənə deyirəm ki...

ANA. Mənə nə deyirsən? Krılovun təmsilini...

KOSTYA. Təmsil niyə? Mən həqiqətən bulvarda oturub konspektə baxırdım...

ANA (*sərt*). Uşağı bura ver! Əskisi dəyişilməyəncə o, sakitləşməyəcək. Yeri gəlmişkən, sən özün də belə idin.

Ana stola yaxınlaşır və uşağın bələyini dəyişir.

KOSTYA. Bilirsən, ata, mən bulvarda oturub konspektimə baxırdım ki...

ATA. Başa düşürəm... Nə etmək olar? Olur! Əlbəttə, bizim dövrümüzdə belə şeylər nadir hadisə idi, indi başqa zaman, başqa havadır! Eybi yox, Kostya, kişi ol! Çıxılmaz vəziyyət olmur, bir şey fikirləşərik...

KOSTYA (*səsini başına atır*). Yoldaşlar! Sizə nə olub, dəli olmusunuz? Niyə mənə inanmırsınız? Hansı əsasla siz... Lənətə gələsiniz...

ANA. Bu dəqiqə mumla! Sən uşağı qorxudursan! Heç olmasa, bu Veroçkanın anası ilə tanışıq?

KOSTYA. Yox.

ANA. Mən elə belə də fikirləşirdim.

KOSTYA. Mən artıq yüzüncü dəfədir deyirəm: bu, mənim uşağım deyil! Mənim uşağım deyil! Mən də onun anası ilə tanış deyiləm.

ANA. Sakit ol! Xahiş edirəm, sakitliyi gözlə!

KOSTYA (*pıçıltı ilə*). Lənətə gələsiniz! Siz nə üçün mənə inanmırsınız? Mən bulvarda oturub...

ATA. ..Konspekt oxuyurdun...

KOSTYA. Riyaziyyat konspektini... Bu vaxt bir qadın mənə yaxınlaşıb xahiş etdi ki, o, çörək alıb-gəlincə uşağa baxım.

ANA. Di?

KOSTYA. O, çörək dükanına getdi, bu vaxt leysan başladı. Nə etməli?

ANA. Bu, doğrudur?

KOSTYA. And içirəm.

ANA (*inamla*). Hər şey aydındır! O, uşağı atıb!

KOSTYA VƏ ATA (*xorla*). Heçə atıb?

ANA. Cavan oğlansan. Nəcib ailədən olduğunü görüb, uşağı atıb. Bilib ki, uşaq yaxşı əllərə düşəcək.

KOSTYA. Bəs nəcib ailədən olduğumu haradan bilib?

ANA. Bu, məhəlləmizdən bəllidir. Abırlıdır. Özün də geyimli-keçimli, yaxşı bəslənmiş. Saçlarını da qaydaya salmısan.

ATA. Belə zənn edirsən?

ANA. Əminəm! İndiki cavanlar öz uşaqlarını nənələrinin öhdəsinə buraxırlar!

KOSTYA. Bir dayan. Niyə sən inanmaq istəmirsən ki, o, çörək dükanına getdiyi üçün uşağı mənim yanımda qoyub?

ANA. Belə uşağı başqasına tapşırmırlar!

KOSTYA. Yox, ana. Bu, ola bilməz. Sən bir onu görəydin...

ATA. Kimi?

KOSTYA. Veroçkanın anasını. Elə xoşbəxt... elə gəşəng idi ki...

ANA. Kostya, oğul, xarici görünüş aldadıcı olur. Yaramazların əksəriyyətinin gözəl sir-sifəti var.

KOSTYA. Yox-yox, ömründə inanmaram!

ATA (*qeyri-müəyyən*). Hə, sözün düzü, mən də bir elə inanmaram, amma...

ANA. Hm! Şübhə edirsiniz? Xahiş edirəm özünüz əmin olun: leysan kəsəndə o uğursuz oturacağa yaxınlaşın və onu gözləyin. Amma buterburod və içərisində çay olan termos götürün.

KOSTYA. Bu nə üçündür?

ANA. Çünki onu gözləməkdən gözünüzün kökü saralacaq.

KOSTYA.Veroçkanı mənə ver.

ANA. Neyləyirsən? Qoy uşaq bizimlə qalsın. O, küçədə soyuqlayar. Gedin, gedin.

KOSTYA. Atam nə üçün? Mən özüm gedərəm.

ATA. Kostya, burada nə var ki? Əynimi dəyişim...

KOSTYA. Lazım deyil. Mən özüm...

Kostya qaçır. Fasilə.

ATA. Demək istəyirəm ki, çox gözəl uşaqdır!

ANA. Bu, həqiqətdir. Qulaq as, bəlkə bu Veroçka heç atılmış uşaq deyil, elə Kostyanın öz qızıdır.

ATA. Kostyanın qızı?

ANA. Çox sadəcə. Heç fikir vermisən ki, o, Qazaxıstana getmək üçün əldən-ayaqdan gedir?

ATA. Nə olsun?

ANA. Keçən il Kostya orada olub. Tələbə inşaat dəstəsi ilə.

ATA. Nə olsun?

ANA. Yəni ağlına bir şey gəlmir? Ötən il o, Veroçkanın anası ilə rastlaşıb. Onlar valideynlərdən gizlicə evləniblər.

ATA. Ola bilməz.

ANA. Amma mən əminəm.

ATA. Yaxşı, bəs Veroçka necə Kostyaya rast gəlib? Axı onu poçtla göndərməyiblər.

ANA. Necə də sadəlövhsən! Kostikin gəlişini gözləməyə qadının səbri çatmayıb. Odur ki, özü Qazaxıstandan Moskvaya gəlib.

ATA. Bəs nə üçün Kostik onu evə gətirməyib?

ANA. Qorxub. Ya da qadın gəlmək istəməyib.

ATA. Bilmirəm. Məncə, bu variant son dərəcə fantastikdir

ANA. Sən müasir gəncləri tanımırsan.

ATA. Mən başa düşmürəm ki, sən nə üçün bizim gənclik barədə belə bədbin danışırsan.

Sənin oğlun Kostik də gəncdir. Onun nəyi pisdir? Əlaçıdır, işləməkdən qorxmur. Kartof yığımına da gedir, tikintidə işləməyə də. Özü də mahnı oxuya-oxuya!

ANA. Hər cavan oğlan Kostyanın tayı deyil.

ATA. Hamısı da olmasa, əksəriyyəti onun kimidir. Bax bu uşaqla bağlı xəyalından keçənləri həqiqət kimi qələmə verirsən...

ANA. Xəyalımdan keçənləri? Fikirləşirsən ki, mən istəyirəm ki...

ATA. Öz aramızdır, niyə də yox? Kostik iki ildən sonra mühəndis olacaq. İndi erkən nikahlar dəbdədir...

ANA. Yox, elə deyil. Erkən nikah daha tez boşanma deməkdir!

ATA. Sənə nə deyilsə, cavabı hazırdır. Mən belə hesab edirəm ki, əgər o, yaxşı qıza rast gəlibsə...

ANA. Yaxşı! Ha-ha-ha!

ATA. Niyə ha-ha-ha? Veroçka sadəcə gözəllik mücəssəməsidir! Görünür anasına oxşayıb. Əgər bu hadisə baş veribsə, nə etməli, necə lazımdırsa – qəbul edək. Taleyin qisməti kimi!

ANA. Yox, Leonid, mən bilməliyəm ki, o qadın kimdir və məqsədi nədir. Mən anayam, oğlunun taleyi öz şəxsi həyatımdan daha qiymətlidir!

ATA. Ah, Lüdmila, gəl mühafizəkar olmayaq. Həyat həyat olaraq qalır! O, diqqət tələb edir... Əgər yaddaşım korlaşmayıbsa , sənin valideynlərin bizim nikaha qarşı idilər...

ANA (*etiraz edərək*). Lenya!

ATA. Hə, hə, etiraz edirdilər! Onlar da mənə inanmırdılar. Mən onların xoşua gəlmirdim. Mən kasıb bir tələbə idim. Amma onlara qulaq asmadığım üçün, afərin sənə, Lüsya! Zənnimcə, indi buna görə peşman deyilsən.

ANA (*asta*). Yaxşı, nə təklif edirsən?

ATA.Özünüzü sənin valideynlərin kimi aparmayaq.

ANA. Mənim valideynlərimin mətləbə nə dəxli var? Onlar gözəl inanlardır!

ATA. Mübahisə etmirəm: gözəl insanlardırlar! Amma bizim həyatımızı məhv edə bilərdilər. Yaxşı ki, mən belə təkidli və cəsarətliyəm!

Səhnənin bu hissəsi qaranlıqlaşır və kürən Alloçkanın əyləşdiyi oturacaq işiqlanır.

Milis starşinası və eynəkli qadın onun qarşısında dayanıblar.

XANIM. Mən dərhal başa düşdüm ki, bu tip – yaramazdır. Bir görəydiniz ki, o, sizin uşağı necə yırğalayırdı. Baxanda adamın ürəyi ağrıyırdı.

STARŞİNA. Sizcə, o, uşağı oğurlayıb?

XANIM. Heç sübhə eləmirəm.

STARŞİNA. Nəyə görə?

XANIM. Yaqin gözləyir ki, ondan mərhəmət diləyəsiniz. Yaxud da sadəcə uşağı qaytarmaq üçün valideynlərindən pul tələb edəcək. Hə-hə, tələb edəcək... Özü də uşağı oynaya-oynaya verəcək.

STARŞİNA. Cəfənqiyyatdır, vətəndaş. Bizdə belə şeylər olmur.

Kostya görünür.

KOSTYA (*Alloçkaya*). Ay qız! Bu da mən! Həyacanlanmayın, mən buradayam.

ALLOÇKA. Oh, doğurdan da bu, sizsiniz. Bəs Veroçka hanı?

KOSTYA. Bizim evdə. İsti bir yerdə. Mən üzbəüz binada yaşayıram. Birdən leysan başladı... Nə edəydim?

ALLOÇKA. Veroçka sizdədir?

KOSTYA. Bəli, bizdə.

ALLOÇKA. Ağlamır ki?

KOSTYA. Narahat olmayın. Anamın yanındadır. Anam onun bələyini dəyişib, yedizdirib...

STARŞİNA (*xanıma*). Başa düşdün? Uşaq isti bir yerdədir, bələyi dəyişilib, yedizdirilib. Amma siz elə qorxunc şəkildə təsbir edirdiniz ki...

XANIM. Hə, mən... Mən, sadəcə, təsəvvür edirdim ... (tələsik gedir).

STARŞİNA. "Təsəvvür edirdin"? Deyirdi, o, tələbə deyil, yaramazdır, valideynlərindən pul tələb edəcək. Bəzi adamlar lap qəribədir! (*Alloçkaya*). Hə, görürəm ki, işləriniz qaydasındadır. Mən gedim. Cansağlığı arzulayırdım (əsgəri salam verib, gülümsəyir və gedir).

KOSTYA. Bağışlayın ki, belə alındı. Amma hər şeyə görə günahkar leysandır.

ALLOÇKA. Bunu başa düşürəm. Elə həyəcanlanmışdım ki...

KOSTYA. Gedək bizə, Veroçka orada sizi gözləyir. Gedək (*Alloçkanın bazarlıq çantasını götürür*). Sizin Veroçka isə bir aləmdir. Həqiqətən də o,siçan kimi sakitdir.

ALLOÇKA. Doğrudan? (*Kostyaya baxır*). Axı nə üçün biz insanlar barədə pis fikirləşirik. Vicdan haqqı, onların əksəriyyəti belə pis rəyə layiq deyil.

Kostya və Alloçka gedirlər, Sinitsinlərin yemək otağı işıqlandırır. Ana Veroçkanı yığalayır və layla çalır. Ata pijamasını dəyişib qırmızı köynək və şalvar geyinib. İndi qalstkunu bağlayır.

ANA (*nəğməsini kəsir*). Sən nahaq yerə sevincək oldun. Kostya evə heç kimi gətirməyəcək.

Qapının zəngi çalınır, ata qapını açır, Alloçka və Kostik daxil olurlar.

KOSTİK (*qürurla*). Xahiş edirəm, tanış olun. Mənim valideyinlərim. Bu isə...

ALLOÇKA. Zemlyanikina. Çox xoşdur. Belə alındığına görə min dəfə üzr istəyirəm... Fikri dalğın olduğum üçün çörək almağı unutmuşdum (Veroçkanı qucağına götürür).

ANA. Nə danışırsınız?! Boş şeylərdir. Veroçka aləm qızdır!

ALLOÇKA. Qorxudan bağrın yarılmışdı! (*Veroçkaya*). Sən isə gülümsəyir, qüssə nədir, bilmirsən!

ATA. Xahiş edirəm, əyləşin. Çox xahiş edirik. Bəlkə çay içəsiniz. Belə leysandan sonra yerinə düşər.

ANA. Çay niyə? Nahar a yeməyimiz də hazırdır.

ALLOÇKA. Zəhmət çəkməyin. Biz artıq çoxdan evdə olmalıyıq. İndi evdə aləm bir-birinə qarışıb.

ATA. Bəlkə zəng edəsiniz.

ALLOÇKA. Təəssüf ki, mümkün deyil. Təzə evə yaxınlarda köçmüşük. Telefonu da üçüncü rübdə çəkəcəklər.

ANA. Məgər siz Qazaxıstandan deyilsiniz?

ALLOÇKA. Yox, mən moskvalıyam.

ANA (*məyus*). Deməli, belə... Bağışlayın. Bəlkə də mənim sualım sizə qəribə gələcək: siz ərdəsiniz?

ALLOÇKA. Xeyr.

ANA. Yox? Hə, əlbəttə.

ALLOÇKA (*tələsik*). Hətta sizə necə təşəkkür edəcəyimi bilmirəm. Siz...

ATA (*kömək edir*). O – Kostikdir.

ALLOÇKA. ...sizə, əziz Kostik. Hamınıza minnətdaram.

ATA (*bir qədər fasilədən sonra*). Veroçka – qəşəng, qanışirin. Gələcəyin gözəllər gözəlidir.

ALLOÇKA. Hə, biz hamımız onu çox sevirik.

ATA. Qibtə edirəm. Ona çox qibtə edirəm. İyirmi birinci əsrin ortalarında yaşayan şəxsə qibtə etməmək olar?!

ALLOÇKA. Yaratdığım narahatçılığa görə bir daha üzr istəyirəm, çox sağ olun, getmək vaxtıdır.

ATA. Kostik sizi ötürər.

KOSTYA. Əlbəttə. Məmnuniyyətlə (*Alloçkanın bazarlıq zənbilini götürür*).

ATA. Tééésüf, çox təəsüf ki, tələsirsiniz. Sizinlə, Veroçka ilə tanış olmaq bizə son dərəcə xoşdur.

ALLOÇKA. Bu, qarşılıqlıdır.

ANA. Bizim tərəflərə yolumuz düşsə, xahiş edirəm, bizə baş çəkin. Veroçka ilə.

ATA.Allahımıza da minnətdar olacağıq ki, bizi tanış edib.

Alloçka və Kostya gedirlər.

Çox yaxşı, valehedici qadındır. İstiqanlı, məlahətli. Hələ gözlərini demirəm! Necə gözəl gözləri var!

ANA. Əlbəttə, hər şey diqqətimizi cəlb etdi, əsas məsələdən başqa.

ATA. Nədir o əsas məsələ?

ANA. O, ərdə deyil. Sən də Kostyanı göndərirsən ki, onu yola salsın.

ATA. Nə olsun.

ANA. Birdən Kostya ona vuruldu? Yani uşaqlı gəlin sənə çox lazımdır?

ATA. Bu uşaq sənin öz xoşuna daha çox gəldi.

ANA. İndi də o uşaqdan ötrü ürəyim gedir. Ümumiyyətlə. Özgə uşağı isə, bizə lazım deyil.

ATA. Bir dayan, Lüdmila. Hardan ağlına gəldi ki, Kostya ona aşiq ola bilər?

ANA. Mən onun üzünün ifadəsini gördüm. Yeri gəlmişkən, elə sənin özünün də.

ATA. Nə çərənləyirsən?!

ANA. Mən qadınam, qadın gözləri isə, kişilərin bütün daxili aləmini görə bilir.

ATA. Yaxşı, tutaq ki, Kostya o qıza aşıq aldu. Sənin dediyindən belə çıxır ki, uşaqlı qadının xoşbəxtlik hüququ yoxdur.

ANA. Leonid, boş-boş danışma! Birincisi, Kostik üçün evlənmək hələ tezdir. O, uşağı olmayan qadınla ailə qurmalıdır! Başa düşdün? Yani balalı olmayan birisi ilə.

Sinitsinlərin yemək otağı qaranlıqlaşır. Alloçka və Kostya çıxırlar. Elə dayanırlar ki, Veroçkanı yatızdırmaq Alloşka üçün rahat olsun. Kostya ağır bazar zənbilini yerə qoyub nəfəs alır.

ALLOÇKA. Məndən ötrü bu qədər vaxt itirdiyinizə görə xəcalət çəkirəm.

KOSTYA. Cəfəngiyyatdır. Veroçkanın sizə nə qədər çox oxşadığını heç bilirsiniz?

ALLOÇKA. Bunu hamı deyir. Axı bacımla biz bir-birimizə çox oxşayırıq.

KOSTYA. Hansı bacınızla?

ALLOÇKA. Böyük bacım Anyuta ilə...

KOSTYA. Bir dayan, sən Veroçkanın...

ALLOÇKA. Xalasıyam.

KOSTYA. Xalası?

ALLOÇKA. Əlbəttə. Veroçkanın atası bir il Kubada işləyib, bu gün Moskvaya qayıdır. Anyuta onu qarşılamağa gedib. Bu gün mən ikinci növbədə işləyirəm. O, Veroçkanı da, təsərrüfat işlərini də mənə tapşırıb...

KOSTYA. Bir gör ha! Sirr deyilsə, siz harada işləyirsiniz?

ALLOÇKA. Tikiş fabrikində. Mən toxucuyam. Axşam şöbəsində oxuyuram. Tikiş üzrə rəssam olacağam. Bəs sən, Kostya? Tələbəsən?

KOSTYA. Bəli. Dördüncü kursa keçirəm. Axırıncı məqlulum qalıb. Qulaq as, heç adını da bilmirəm.

ALLOÇKA. Alla.

KOSTYA. Mən isə – Kostya.

ALLOÇKA. Bilirəm.

KOSTYA. Sizin evə telefon yalnız üçüncü rübdə çəkiləcək.

ALLOÇKA. Söz veriblər.

KOSTYA. Elə isə, gəl belə şərtləşək. Sən sabah da ikinci növbədədsən?

ALLOÇKA. Bəli.

KOSTYA. Gəl səhər saat onda görüşək. Yaxşı?

ALLOÇKA. On tezdir. Saat 12-də.

KOSTYA. Harada?

ALLOÇKA. Bu oturacaqda.

KOSTYA. Doğrudur! Bu oturacaqda. O, uğurludur.

Jurnalımızda tərcüməçi debütü

İspan dilindən tərcümə
– Nigar Ədalət (Quluzadə)

Edson Qabriel QARSİYA

BİLOKANIN GÜNDƏLİYİ

26 Fevral

Artıq 10 gündür ki, dərslər başlayıb və (bunu dediyimə görə çox utanıram, amma bu, ən doğru həqiqətdir) mən artıq boğaza yığılmışam. Sinfim çox böyükdür, demək olar ki, 40 şagird var.

Giriş və fasilə saatları əyləncəli keçir. Çıxışda söhbət etmək üçün qruplarla toplaşırıq və bir az gəzişirik. Nə qədər hekayələr, zarafatlar deyilir, gülüşlər eşidilir. Amma dərs vaxtı hər şey qarışır. Mənim kimi "sinfin birincisi" olmayan və bütün günü ağlı göyün 7-ci qatında olan bir şagird üçün müəllimlərin izah etdiklərinə fikrini cəmləmək və diqqət yetirmək olduqca çətindir. Şayiələr havada uçuşur, heç zaman bitmək bilməyən pıçıltılar, mırıltılar eşidilir, yumrulanıb bükülmüş kağız toplar bir yerdən o birinə uçur, vaxt aparmaq üçün öskürəklər, saysız-hesabsız mübahisələr və müəllimlərə verilən yersiz suallar eşidilir. (Yeri gəlmişkən, bir müəllim ölərkən dübbədüz səmaya uçmalıdır, pilləkənsiz.) Sinfimiz bir nömrədir, amma sayımız çoxdur. Tam doldurulmuş yük maşınına oxşayır. Üstəlik, müəllimlər bir-birindən daha dözülməzdir və gör sənə nə deyirəm! İnanmayacaqsan, amma ötən gün fizika dərsində akustik dalğaötürən adlanan və səs, tezlik və səs sürəti ilə əlaqəli olan bir qurğu gördük. Bu nə axmaq söhbətlərdir! Hər zaman anamdan soruşuram ki, nəyə görə məktəbdə, həqiqətən də, həyatda faydalana biləcəyimiz şeylər öyrətmirlər. Nəyə yaradığını bilmədiyin bir şey haqda oxumaq çox cansıxıcıdır. Portuqal dili müəlliməmiz Qlorita bizə redaktə etməkdə kömək əli uzatmaq əvəzinə, oxu bacarıqlarımıza köklənir və maraqlı kitablar tövsiyə edir. Çox maraqlıdır ki, mənim sinfimin əksər hissəsi oxumağı və yazmağı sevir... Qrammatikadan danışmağa isə heç dəyməz! Uff! Axı kim kəşf edib bunu? Nəyə yarayır? Uff! Tanrı, məni xilas et. Müqəddəs Məryəm! Keçən gün divar qəzetində kimə aid olduğunu bilmədiyim maraqlı bir şeir oxudum. Vasitəsiz tamamlıqla qətlə yetirilmiş bir müəllim haqqında idi! İnana bilirsən? Əgər yenə həmin şeiri divar qəzetində görsəm, sənin üçün surətini çıxaracam. Yaxşı, yersiz söhbətləri kənara qoyaq. Sinfimdə yeni bir oğlan var. Tanımadığım məktəbdən gəlib. Artıq bütün siniflə dostlaşıb. Mariliya da gecikməyib ona yaxınlaşmaq istədi, amma o heç maraq belə göstərmədi. Ən maraqlısı isə odur ki, Mariliya indi məktəbə brend paltarlarla gəlir. Alfonso müəllim onun evinə xəbərdarlıq göndərib ki, növbəti dəfə

məktəbə formasız gəlsə, dərslərdə iştirak edə bilməyəcək. Yaxşı olur. Geyimin həyatda hər şey olduğunu düşünən insanlar var. Atalar demişkən, üstü bəzək, altı təzək. Artıq modelyerlərin dizayn etdiyi brend geyimlərə çox da diqqət ayırmıram, sadəcə bir az... Nəhayətində, heç birimiz daşdan deyilik, mən də gözəl, səliqəli və yaxşı seçilmiş paltar geyinməyi sevirəm. Söhbətin sonuna gəldik. Ro çox nəzakətlidir və əla rəsmlər çəkir. Mənə hələ hədiyyə etməyib, amma artıq birini xahiş etmişəm.

Öpürəm.

Biloka

Əziz Culiana:

Səni qısa müddətdir tanımağıma baxmayaraq, əsl dostunmuş kimi hiss edirəm və ümid edirəm ki, sən də mənim haqqımda eyni fikirdəsən. Həyatımızın gizli rəflərdə saxlanan sirlərini bölüşə bildiyimiz bir dosta sahib olmaq necə də gözəldir! "Görəsən, nə sirlərdir elə?" deyə düşünməyə çalışma. Vaxtından əvvəl heç nə düşünmə. Bir az gözlə və özüm sənə hər şeyi danışacam. Sadəcə istəyirəm ki, onları eşitmək üçün, yəni oxumaq üçün səbr edəsən. Yeri gəlmişkən! Əgər istəmirsənsə, cavab yazmaya bilərsən. Sadəcə məktubumu oxumağın belə kifayət edər ki, əhvalım yüksəlsin. Böyüklərin dediyi kimi: "Başını söykəyəcəyin bir çiynin olduğunu bilmək nə yaxşıdır." Mən isə, belə deyirəm: "Səni eşidən qulağın olduğunu bilmək nə yaxşıdır." Sadəcə ümid edirəm ki, ürəyini sıxmaram. Yaxşı... Həyatımızda nə qədər də maraqlı hadisə baş verir! İnana bilirsən ki, (ah, əlbəttə ki, inanırsan, yəqin sənin həyatında da baş verib) keçən ilə qədər oğlanlara qarşı göstərdiyim yeganə davranış onlarla mübahisə etmək idi? Kobud danışıq və yeriyiş tərzinə və bir sıra digər səbəblərə görə etdiyim mübahisələr... Amma bu il hər şey dəyişdi... və ya sadəcə mən dəyişdim, bir Allah bilir. Deməli, birdən-birə mənə daha əyləncəli, maraqlı və daha necə-necə görünməyə başladılar. İnana bilirsən? Və ən pisi də, (və ya ən yaxşısı...) bir sinif yoldaşım var ki, digərlərindən daha əyləncəli, daha maraqlıdır. Adı Rodriqodur. Onu görərkən və ya onunla söhbət edərkən fərqli hisslər keçirirəm. Ürəyim şiddətlə döyünür, bədənimdən isti, eyni zamanda, soyuq bir gizilti keçir və ağzımı nanəli saqqız dadı bürüyür. Görəsən, bu o dediklərdir...? Ola bilər? Nəyə görə ona qarşı? Həmişə başına qızlar toplaşır. Bu haqda nə düşünürsən, Culiana? Nə edim? Hər şeyi zamanın axarına buraxım? Əlbəttə, buradan başlamaq lazımdır. Ya belə, ya elə, nə isə baş verəcək. Əgər bir az səbr etsən, baş verənlərlə bağlı sənə məktub yazacam.

Fabiana, 26.02

28 Fevral

(ən qısa və ən gözəl ay, çünki insanların həyatında daha az sıxıcı hadisələr baş verir)

Atam mənə nə ked aldı, nə də pul verdi. Atama nifrət edirəm! Hər an qalmaqal çıxarıram ki, bütün qonşular xəbər tutsun. Atama nifrət edirəm. O eybəcər və dəhşətlidir. Xoşbəxtlikdən, bu ay çox qısadır və artıq bitdi.

Bu gün heç bir öpüş göndərmirəm, ola bilsin ki, zəhərli olsunlar.

Biloka

3 Mart

(bu ay isə ən uzunudur, qurtarmaq bilmir)

Sənin üçün müəllim və qətlə yetirildiyi vasitəsiz tamamlıq ilə bağlı şeirin surətini çıxardım. Əladır, elə deyil? Onu necə istəyirsənsə, elə də başa düş, bizimlə eyni əsrdə yaşamış braziliyalı bir şairə aiddir və çox önəmlidir. Gecikdirdiyimə görə bağışla, amma bu həftə çox məşğul idim.

Qatil notarius idi

Paulo Leminski

Mənim sintaktik təhlil müəllimim şəxssiz cümlə kimidir.

Həyatının məntiqi pleonazmdan ibarətdir.

Tabeli mürəkkəb cümlə və tərzi-hərəkət zərfi

Onun sevimliləri idi.

Heç zaman şübhə etməz, bu çətin qaydalarla

Bizi yaman yorardı.

Bir gün regentlə evləndi, amma xoşbəxt deyildi.

Özünü əvəzlik kimi ona mənsub hiss edirdi.

Amerikaya qaçış planı da heç bir bəhrə vermədi.

Çamadanında nə tapdılar?!

Qeyri-müəyyən artikl!

Onu qarabaqara izlədilər,

Başına vasitəsiz tamamlıq vurub

O dünyaya göndərdilər.

Bəzən mən də belə etmək istəyirəm!...

Biloka, bibibi

4 Mart

Önəmli bir qərar qəbul etdim: artıq sənə bütöv adımla imza atmayacam. Bu gündən etibarən sadəcə "Bi" yazacam. Belə daha qısa, gözəl və zərif görünür. Ro da məni belə çağırır. Və əgər Ro belə deyirsə, söhbət bağlandı.

Şəkərə yaxılmış öpüşlər,

Bi

Əziz Culiana:

Əgər səni unutduğumu və ya hisslərim barədə fikiləşməkdən imtina etdiyimi düşünürsənsə, yanılırsan. Yenidən, əvvəlkindən daha çox və əlbəttə ki, sabahkından daha az maraqla buradayam. Keçirdiyim hisslə bağlı artıq bir ad tapmısan? Eşqbazlıq? Aşiqlik? Həmrəylik? Münasibət? Necə adlanırsa, adlansın, Roya olan marağım daha da artıb. Və bilirsən niyə? Çox sadə bir səbəbi var: mənim olduğum tərəfə nə istədiyini bilməyən insanlar kimi bir neçə dəfə boş-boş baxdı. Neçə dəfə baxdığını hesablaya bilmədim, əgər hesablasaydım, yəqin ki, son nəticədə səhvə yol verərdim. Amma mənə baxdımı? Baxdı. Nəyə görə belə etdiyini də bilmirəm. Bəlkə ona maraqlı gəlirəm? Düzünü desəm, bəzən güzgüyə baxarkən yeniyetmə olmağım üçün məndə hələ bir çox şeyin çatışmadığını görürəm. Məndə nə görmüş ola bilər? Heç zaman təsəvvür etməzdim ki, eşqbazlıq etmək bu qədər çətin olar. Dondurma almaq və ya lövhədən çalışmaları köçürmək kimi asan ola bilərdi. Edirsən və bitdi. O gün dərsə gəlmədiyi üçün məni axtardı və Qloriya müəllimənin dərsindən götürdüyüm qeydləri istədi. Dedi ki, mən oxumaq və yazmaqdan yaxşı başı çıxan və çox ağıllı bir şagirdəm. Nə düşünürsən, Culiana? Bir oğlan sənə ağıllı olduğunu deyirsə, bu nə demək ola bilər? Yoxsa, torbada pişik var? Bəs onu əhatə edən digər qızlar? Heç zaman başından çəkilmirlər. Bəzən baxışlarımı onunla toqquşdurmaq üçün bütün akrobatik hərəkətləri etməli oluram! Nə düşünürsən? Gözləyim, yoxsa dırnaqlarımı itiləyim (boya çəkim, ya yox?) və müharibəyə atılım? Bilmirəm, oğlanlar qızların cəsarətli olmaqlarını daha çox bəyənirlər, yoxsa utancaq olmaqlarını. Görəsən, nə vaxtsa biləcəm? Bəs həmin vaxt artıq gec olmayacaq ki?

Fabiana, 04.03

6 Mart

Atama heyranam. Mənə yeni, çox gözəl bir cüt ked alıb. Anamın tez-tez dediyi kimi, əşyalardan sui-istifadə etmirəm, amma daşdan da deyiləm və mənə gözləmədiyim anda hədiyyə edilməyini sevirəm, xüsusilə, yeni paltarların.

Qardaşım Paulinyo axmaq və ərköyün şeytandır. Otağıma girərək əşyalarımı dağıdıb töküb. Şkafımı açmağa və 8 kağız qovluğuma burnunu soxmağa cəsarət edib. Karinyitos isə döşəmədə idi. Təsəvvür et, ağ oyuncaq ayımı döşəmədə qəmgin və üşümüş vəziyyətdə görəndə necə dəli oldum. Və hər şeyin ən pisi də odur ki, bunu anama xəbər verəndə, bilirsən, mənə nə dedi? Dedi ki, uşaqlar belə edir, yaşla əlaqəlidir! Ya səbr! Ya səbr! Ya səbr! Yaşla əlaqəli imiş! Amma söhbət məndən gedəndə danlağa məruz qalıram: "Sən artıq uşaq deyilsən, demək olar ki, yeniyetməsən!" Görəsən, məndə heç nə yaşla əlaqədar ola bilməz?

Sabah dərsdən sonra İsa bizə gələcək. Deyir ki, mənə söyləyəsi böyük bir sirri var. Nə ola bilər? Deyəsən, artıq bilirəm...

Öpürəm,

Biloka

Türkiyə türkcəsində

Nilufer UÇAR

ŞEİRLƏR

Nilufər Uçar Türkiyənin Malatya şəhərində dünyaya göz açıb. O, Malatya Qızlar Seminariyasınının məzunu olub və pedaqoji sahə üzrə elmi dərəcə alıb. Uzun illər müxtəlif ibtidai məktəblərdə çalışıb. Rəsm əsərləri qrup sərgilərində nümayiş olunub, şeirləri, hekayələri və məqalələri bir sıra dərgilərdə dərc edilib. Nilufər Uçarın müəllifi olduğu 'MƏN' şeiri 2019-cu ildə keçirilmiş Yunus Əmrə Poeziya müsabiqəsində ikinci yerə layiq görülüb.

Jurnalımızın redaksiyasına azərbaycanlı bir müəllifimiz tərəfindən dilimizə tərcümələri ilə birgə təqdim olunan Nilufər Uçarın şeirlərini, birinci şeir istisna olmaqla, Türkiyə türkcəsində olduğu kimi, çevirmələrsiz, çap eləməyə üstünlük verdik. Şeir parçalarının hansı səviyyədə qavranılması, müasir Türkiyə türkcəsindən Azərbaycan dilinə bədii tərcümə işinin (həm də digər üslublara aid yazı materiallarının) aktuallığına oxucu və mütəxəssis rəyini öyrənmək maraqlı olardı.

Jurnalın redaksiyasından

YORGUNUM

Solgun günün cılız ışıklarında
Kendime sakladığım melez gülüş
Yorgunum...
Yorgunum suyun yaladığı çakılların
bitkinliğinde,
Tökezleyen çakıl gibi her yanım kesik kesik
Kim der ki darbeli yürek kaygısız yatar
Yontulan yaşamın allı pullu acısında.

Yorgunum; rüzgarın kırdığı dal gücenikliğinde
Kapılmışım gövdemin kusurlu büyüsüne.
Zordayım, sınavdayım, savruğum
Bildiğin değilim!
Hepten çalıntı aşktayım
Çapraz huzursuzluğun hiç'iyim.

Sanma ki eskiyen duyguların esiriyim
Utangaç gecelerin karanlık noktasında
Bilinmeze düşen aynanın telaşındayım.
Çalıntı sevdaya direnen yüreğimin elindeyim
Ölüp giden zamanın ağlayanıyım
Ben mi?
Ben; tüm harflerin dudak sesiyim, rast
geleniyim,
Yorgunluğuma yama yapanım.

YORĞUNAM

Solğun günün cılız işıqlarında
Özümə saxladığım mələz gülüş
Yorğunam…
Yorğunam suyun yaladığı çaxılların
tükənmişliyində,
Tökəzləyən çaxıl kimi hər yanım kəsik-kəsik
Kim deyər ki, zərbəli ürək qayğısız yatar
Yonulan həyatın qızıl bəzəkli ağrısında.

Yorğunam; küləyin qırdığı budaq inciməsində
Qapılmışam gövdəmin qüsurlu sehirine.
Çətindəyəm, imtahandayam, sürüşmüşəm
Bildiyin deyiləm!
Hepten oğurlanmış eşqdəyəm
Çarpaz narahatlığın heçiyəm.

Sanma ki, köhnələn duyğuların əsiriyəm
Utancaq gecələrin qaranlıq nöqtəsində
Naməluma düşən aynanın tələşındayam.
Oğurlanmış sevdaya müqavimət göstərən
ürəyimin əlindəyəm
Ölüb gedən zamanın ağlayanıyam
Mənmi?
Mən; bütün hərflərin dodaq səsiyəm, rast
gələniyəm,
Yorğunluğuma yamaq edənəm.

Türkçe'den Azerice'ye çeviri:
Uğur Olgar

BÜYÜSÜNE KAPILDIĞIM SEVDA

Üşüyor haziran giysili duygular
Dokunuyor göğsümde büyüyen sancıya
Şafağın eliyle dokunan düşlerim durur
Anılarımın ışık çıngısında;
Ah hazalım / masal kuşum.

Vazgeç sözün hiç olduğu yerden
Dilin; sanatıma söz, şiirime duygusal öz
Kuşların gözyaşı, küçük düşlerime yağmur
Gönül dehlizinde sevdanın yedi iklimi
Ölümden öte tutkusun.

Yazgının aşk alfabesi alnının ak teninde
Ödüldür kokan meltemin
Oysa güz acılı üşümeler biriktirdim
Rengini yitiren gecenin mor dudaklarında
Yüzüme vuran kar beyazı rüzgâr ol
Batık kalbimin büyüsünde.

Hazzın güngörmüş otağındayım
Sönmemiş kokularımın kaygısındayım
Ateşle pişen ömrün büyü'lü kapısındayım
Aklımın ötesine düşen aşkım.

HAYAT BU

Yunus çiçeğinden dinledim suyun sesini
Kuma sızan damlanın boyun büküşünü
Çocukluk işte dünyanın gözünde sekmek
De neymiş bulutla denizin buluştuğu yatakta .

Ah! Düşüncesine yenik düşen
Yakamozun tacizinde kalan dalga
Bu ne hüsranı
Öyle an yaşadın, ayın şavkı yırtınca yüzünü
Mesele dağılman değil, toy suya kandın.

Bilindik sabahlara uyanan garip ömür
Belirsizlik neyse de soğudum yaşananlardan
Heveslere olmaz sözüm
Zaman izini kaybedince sarsıldım.

Çamurda hayallerini unutan tohum
Ezberinde tuttuğun yağmurun kanıydı
Hayata bu
Sevişmek için bahane arayan karınca bile
Toprağı eşeler tırnaklarıyla.

Ipıssız ovanın tarlakuşuyum
Nasıl yalnızlık çekiyorsa kınında kılıç,
İşte öyle bir boşluk durur içimin kırsalında
Aramayacağım hayatın boşluğunda yerimi
Şimdi aslımın esiriyim.

Tərcümə məsələləri

Təvəkkül ŞÜKÜRBƏYLİ
filologiya elmləri doktoru, professor,
Bakı Slavyan Universitetinin "Lüğət mərkəzi"
elmi-tədqiqat laboratoriyasının müdiri

BİR SAHƏNİN ÜÇ KİTABI
(Hüquq terminlərinin yeni lüğətləri)

2022-ci ildə ikidilli tərcümə lüğətlərinin sırası daha da genişləndi: bu günlərdə "Nurlar" Poliqrafiya-Nəşriyyat Mərkəzində iki yeni lüğət işıq üzü gördü. Bunlardan biri "Azərbaycanca-rusca izahlı hüquq lüğəti" (Bakı, 2022, 416 səh., tərtibçilər: Ramiz Rzayev, Rafiq Novruzov, Könül Əliyeva), digəri "Azərbaycanca-ingiliscə izahlı hüquq lüğəti"-dir (Bakı, 2022, 480 səh., tərtibçilər: Ramiz Rzayev, Rafiq Novruzov, Könül Əliyeva). Hər iki lüğət Azərbaycan Respublikasının Ali Məhkəməsinin təşəbbüsü və bilavasitə iştirakı ilə tərtib edilmişdir. Bu sıradan olan üçüncü kitab – "Rusca-azərbaycanca izahlı hüquq lüğəti" nəşriyyatdadır. Qeyd etmək lazımdır ki, lüğətin redaksiya heyyətinə, müəlliflər qrupuna və redaktorluğuna təcrübəli hüquqşünaslar və dilçi-alimlər daxildirlər. Bu isə həmin lüğətlərin mötəbərliliyini bir daha artırmış olur.

Lüğətlərin etibarlı mənbələrdən toplanmış sözlüyü (lüğətlərin tərtibində 90-dan artıq mənbədən istifadə edilmişdir) hüquq sahəsində işlənən18 minə qədər söz və terminoloji söz birləşmələrini əhatə edir. Sözlük kifayət qədər əhatəli və genişdir. Burada Azərbaycan dilində işlənən hüquq terminləri ilə yanaşı dünya hüquq sistemində istifadə edilən termin və ifadələr, hüquq ədəbiyyatında tez-tez rast gəlinən klassik məfhumlar və artıq dilimizə daxil olmuş *marketinq, menecer, xaker* kimi yeni alınma sözlər də öz əksini tapmışdır. Ümumiyyətlə, lüğətləri səciyyələndirən şərtlərdən biri onun dolğunluğudur, yəni sözlüyünün genişliyidir. Axtardığı sözü lüğətdə tapa bilməyən oxucu məyus olur.

Lüğətlərdə verilən hüquq terminlərinin mənaları rus və ingilis dillərində tam şəkildə açılır, belə ki tərcümə ilə yanaşı onların hər üç dildə – Azərbaycan, rus və ingilis dillərində izahı verilir, məsələn, "Azərbaycanca-rusca izahlı hüquq lüğətində":

Beylif *(şerifin köməkçisi, məhkəmə pristavı)* **бейлиф** *(помощник шерифа, судебный пристав)*

Bayram günləri *(qanunla müəyyən edilmiş günlər)* **праздничные дни** *(дни, установленные законом)*

və yaxud

"Azərbaycanca-ingiliscə izahlı hüquq lüğətində":

Çarter (*beynəlxalq dəniz ticarətində yükdaşıma müqaviləsi növü)* **charter** *(the agreement or contrakt regulating shipping)*

Kontrafaksiya *(ədəbi saxtakarlıq; başqasının əsərini icazəsiz çap etdirib yayma)* **counterfeiting** *(makinq an imitationof something*

genuine (literary work, work of art) with the intent to deceiveor defraut; forged)

İzahı verilən sözlər sırasına, əsasən, alınma və beynəlxalq terminlər daxildir: *bodmerey, bonus, dispaç, dispozitiv, emitent, eskarp, fidusiari, fiskal, fotorobot, hipotez, indigenat, klertofobiya, kolliziya, korrupsiya, nostrifikasiya, reversiya, subagent, vindikasiya* və s.

Lüğətlərdə baş (yəni izah olunan) söz qismində ayrı-ayrı terminlər (*Azadlıq, Bandit, Cəza, Çıxarış, Dalaşma, Edam, Ədliyyə, Fərarilik, Güllələnmə...*) və sabit birləşmələr (*Hal şahidi, Xəyanət etmək, İbtidai istintaq, Kosmos hüququ, Qətimkan tədbiri, Lizinq alan, Məhkəmə aidiyyatı...)* çıxış edir. Əsas terminlərlə bərabər törəmə terminlərə (*Daxil.., Daxili.., Sağlam.., Sağlamlıq.., Şahid.., Şahidlik...*) və baş sözlərin yuvasında terminoloji xarakter daşıyan söz birləşmələrinə də geniş yer verilir. Məsələn, **cinayət**, **hüquq, iddia, qanun, məhkəmə, müqavilə, sübut, şəxs** və digər lüğət məqalələrində baş sözlərlə bağlı onlarla, yüzlərlə birləşmə terminləri gətirilir və tərcümə olunur: **cəhd etmək** *покушаться,* **cinayət axtarışı** *уголовный розыск,* **cinayət məcəlləsi** *уголовный кодекс..;* **hüquq fəaliyyəti** *юридическая деятельность,* **hüquq normaları** *нормы права***, hüquq subyekti** *субъект права..;* **iddia ərizəsi** *исковое заявление,* **iddia qaldırmaq** *возбуждать иск..;* **qanun layihəsi** *проект закона***, qanuna görə** *по закону,* **qanunlar toplusu** *свод законов..;* **məhkəmə iclası** *судебное заседание,* **məhkəmə icraçısı** *судебный исполнитель***, məhkəmə qətnaməsi** *судебное постановление..;* **müqavilə bağlamaq** *заключить договор,* **müqaviləni ləğv etmək** *аннулировать договор..;* **sübut təqdim etmək** *представлять доказательство***, maddi sübut** *вещественное доказательство..;* **mülki şəxs** *гражданское лицо***, vəzifəli şəxs** *должностное лицо,* **şübhəli şəxs** *подозреваемое лицо…* Bu müsbət haldır, çünki terminologiyanın müəyyən hissəsini sabitləşmiş birləşmələr təşkil edir. Baş sözün yanındakı birləşmələr əlifba sırası ilə verlmişdir ki, bu da lazım olan termini (söz birləşməsini) asanlıqla tapmağa imkan verir.

Terminlərin mənalandırılmasında sinonimlərdən geniş istifadə edilir. Məsələn, lüğətdə **davranış** sözünün mənası *обращение, отношение, обхождение, поведение, поступок* sinonimlərinin köməyi ilə açılır. Bu, həmin sözün çoxmənalılığı ilə bağlıdır. Hər bir sinonim mətndən asılı olaraq **davranışın** bir mənasına uyğun gəlir. Eynilə **dayaq** – *опора, оплот, защита, помощь, поддержка;* **var-dövlət** – *богатство, имущество, состояние* və s.

Elm və texnikanın, müxtəlif bilik sahələrinin belə sürətlə inkişaf etdiyi, dövlətlər və xalqlar arasında iqtisadi-siyasi əlaqələrin genişləndiyi bir zamanda, dünyada baş verən qloballaşma və inteqrasiya dövründə ikidilli terminoloji lüğətlərin əhəmiyyəti, onların yaranma zərurəti də artır, həyati məsələyə çevrilir. Rəy verilən lüğətlər bu şəkildə (bu keyfiyyətdə, bu tərkibdə və bu həcmdə) Respublikamızda ilk dəfə olaraq yaradılır. Lüğət müasir leksikoqrafiyanın bütün tələblərinə cavab verir, elmi üslub gözlənilməklə dilçilik baxımından mükəmməldir, texniki tərtibatı gözəldir.

Azərbaycanca-rusca və Azərbaycanca-ingiliscə hüquq terminləri lüğətinin oxucu dairəsi kifayət qədər genişdir.O, ilk növbədə hüquqşünaslar və tərcüməçilər üçün nəzərdə tutulmuşdur, lakin ondan elmi işçilər, dissertantlar, hüquq sahəsində çalışan işçilər, hüququ öyrənən tələbələr, onu tədris edən müəllimlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar da faydalana bilərlər. Bundan əlavə lüğətdən işgüzar məktubların, sorğuların, şikayətlərin, etirazların, sövdələşmələrin, müqavilələrin, protokolların, ərizələrin və s-nin tərtib edilməsində də istifadə etmək olar.

Səlim BABULLAOĞLU

RUMIN ƏDƏBİYYATI VƏ MİHAY EMİNESKUNUN ŞEİRLƏRİ AZƏRBAYCAN DİLİNDƏ[1]

Bu yaxınlarda Səlim Babullaoğlunun tərcüməsində (Jalə İsmayılın sətri tərcümələri əsasında) dahi rumın şairi Mihay Emineskunun "Dan ulduzu" şeirlər toplusu "Mütərcim" nəşriyyatından işıq üzü görüb. Səlim Babullaoğlunun kitab üçün yazdığı "Son söz"ü jurnalın oxucularına təqdim edirik[1].

Rumındilli (Rumıniya və Moldova) ədəbiyyatın klassiki, görkəmli şair, "Avropanın sonuncu böyük romantiki" adlandırılan Mihay Emineskunun seçmə şeirlərinin toplandığı və məşhur "Dan ulduzu" poemasının da daxil edildiyi eyniadlı kitaba "soz söz"ün lap əvvəlində Emineskunun aid olduğu dövrdən bu yana rumın ədəbiyyatının tarixinə qısa nəzər salmağı və bu ədəbiyyatın dilimizə tərcüməsi ilə bağlı bəzi məlumatları verməyi bir əsas səbəbdən doğru hesab edirik. Şeiri, poeziyanı təmsil etmək hüququ olan şairlər çoxdur və dünya xalqlarının ədəbiyyat tarixləri belə şair adları ilə zəngindir. Amma dili və xalqı təmsil etmək hüququ olan şairlər azdır. Çünki bütün böyük şairlər özündən əvvəlki ənənələrin, mənsub olduğu xalqın folklorunun kamil qəbuledicisi olmaqla yanaşı, həm də özündən keçirdiyi, yenilədiyi irsin sonrakı ədəbi nəsillərə ən yaxşı ötürücüləridirlər. Elə Eminesku kimi. Ona görə düşünürük ki, Mihay Emineskunun seçmə şeirlərinin toplandığı bu kitabda bir az da onun bayraqdarı olduğu ədəbiyyatın tarixi və dilimizə tərcüməsi ilə bağlı bəzi tədqiqatlara əsaslanaraq ümumiləşdirdiyimiz məlumatları oxuculara təqdim edək.

Bütün Avropa ədəbiyyatında olduğu kimi, rumın ədəbiyyatında da XIX əsrin, bu əsrdə baş verən ictimai-siyasi proseslərin sonrakı dövrün, növbəti əsrin ədəbiyyatına təyinedici təsiri olub. Hətta, "XIX əsr olubsa, XX əsr nəyə gərəkdir?" kimi mübaliğə edənlər də tapılıb. Rumın ədəbiyyatında XIX əsrdə yazıb-yaratmış bir çox şair və yazıçılar XX yüzilliyin əvvəllərinə, bəziləri isə hətta əsrin ortalarına qədər yaradıcı fəaliyyətlərini davam etdiriblər. Əlbəttə, ədəbi qaydalar, tendensiyalar, inkişaf istiqamətləri məhz onların danılmaz təsiriylə müəyyənləşib, XX əsrdə isə fərqli növlər, üslublar, estetikalarla zənginləşib; bu ədəbiyyatın cəngavərləri sırasında G.Asaki, Momulyanu, V.Kırlova, E.Radulesku, G.Aleksandri, A.Mureşanu, D.Bolintinyanu, A.Pann, B-P.Haşdeu, N.Filimon, A.Doniç, K.Neqrussi, V.Aleksandri, İ.Slaviç, A.Vlaxuse, B.Delavrança, İ.Karacale, K.Sterenin, İ.Bratesku-Voyneşt, M.Sadovyanu, K.Xoqaş, J.Bart, İ.Minolesku, D.Bakoviya, D.Botez, Pillat, L. Rebryanu, T.Arqezi, D.Zamfiresku, İ. Barbu, L.Blaqa, E.Lovinesku, İ.Teodoryanu, K.Petresku, B.Fundoyanu, İ.Voronka, Ş.Roll, İ.Keluqeru, T.Saru, M.Yanku, E.Çoran, M.Vulkenesku, K.Noyka, D.Boteza, Q.Topırçanu, V.Eftimiu, M.Sorbula, A.Davila, K. Petresku, N.Stanesku, A.Blandiana, M.Dinesku, M.Soresku, D. Deşliu, Ş.A.Doynaş kimi yazıçı, şair, dramaturq, filosof və tənqidçilər, "milli şair və klassik" kimi xüsusi status almış Mihay Eminesku da var.

---

[1] *Yazının hazırlanmasında tarix elmləri doktoru G.Yoloğlunun "Mihay Eminesku: tarix və ədəbiyyatın güzgüsündə", filologiya elmləri namizədi N.Sadıqovanın "Mübarizədə keçən ömür", şairə, tərcüməçi F.Hacıyevanın "Ulduzlardan pay istərəm" kitabına yazdığı "Ön söz", tarix və filologiya üzrə fəlsəfə doktoru J.İsmayılın "Rumın ədəbiyyatı XIX-XX yüzilliklərdə: faktlar və mülahizələr" və "Azərbaycan-Rumıniya ədəbi əlaqələrinə bir nəzər", filologiya elmləri doktoru M. Metlyayevanın "Mihay Emineskunun "Dan ulduzu" poeması: tərcümə təcrübəsi üzərində avtorefleksiya", M.Lupaşkonun "Emineskunun sirri" məqalələrindən istifadə edilib.*

Bizim bu ədəbiyyatla fraqmentar tanışlığımız ötən əsrin ortalarından başlayıb; hərçənd tərsinə prosesin tarixi daha əvvələ gedib çıxır. Əsərləri dilimizə tərcümə edilən rumın ədiblərinin siyahısına həm xronologiya, həm də həcm nöqteyi-nəzərindən görkəmli rumın ədibi Mihay Sadovyanu başçılıq edib. Onun "Hekayələr" (1951,1964), "Mitrya Kokor" (1955) və "Möcüzəli palıdlıq" (1970) kitabları müxtəlif illərdə dilimizə çevrilərək nəşr edilib. Daha sonra İon Slaviçin "Dəfinə" kitabı (1959; İshaq İbrahimovun tərcüməsində), Barbu Delavrançanın "Hekayələr"i (1962), İon Kryangenin avtobioqrafik "Uşaqlıq xatirələri" (1964; İ.Yaqubovun tərcüməsində), Teodor Konstantinin "Gecəyarı ulduz axacaq" romanı (1968; A.Cəfərovun tərcüməsində), İon Beyeşu, Corce Beleitse, Nikolaye Velya, Aleku İvan Giliya, Ştefan Luka, Dumitru Radu Popesku, Marin Preda, Şetre Selkudeanu, Zaharia Stancu və Sorin Titel kimi yazıçıların hekayələrinin toplandığı "Antologiya" (1974; Ə.Qasımov, M.Mirkişiyev, C.Bağırov, A.Həsənov, N.Nağıyev və b. tərcüməsində), Vircil Teodereskunun "Ulduzlu torpaq" (1974; F.Məmmədovun tərcüməsində), Argezi, Bakovia, Lesnea, Beniuk, İsanos, Stanesku, Soresku və Blandiana kimi şairlərin şeirlərinin toplandığı "İnadkar sətirlər" antologiyası (1991), 33 rumın xalq nağılından ibarət "Pəhləvan Ageran" toplusu (S.Tahirova və H.Zeynalovanın tərcüməsində; 1988, 2001, 2005-ci və başqa illərdə bu topluya daxil edilmiş nağıllardan seçmələr fərqli nəşriyyatlar tərəfindən təkrar çap olunub), Anna Tudoraşın "Balaca noxudun nağılı" (1964), Anna və İojef Meliusun "Ağıllı Naye" (1972), Titel Konstantineskunun "Qız, günəş və leylək" (1972), O.Panku-Yaşanın "Dalğıc geyimi axtarıram" (1972), Yelena Behlerovanın "Şabalıdlar kölgəsində ev"(1977), Viktor Vantunun "Nitsu Penitse kimdir", Mirçya Sıntimbryanunun "Mənim dostlarım" kitabları nəşr olunub, qəzet və jurnallarımızda XX əsrin ortalarından bəri Mayoresku, Tiberiu, Bauryanu, Deşliu, Benyuk, Ovidiu, Karacale, Kor, Teodoresku, Utan, Blandiana, Velea kimi şair və yazıçıların əsərləri (N.Həsənzadə, A.Abdulla, R.Əliyev və b. tərcüməsində) dərc edilib. Eləcə də bir çox rumın yazıçı və şairlərinin müxtəlif qəzet və jurnallarda ("Ədəbiyyat və incəsənət", "Sovet kəndi", "Kommunist", "Azərbaycan pioneri" qəzetləri, "Ulduz", "Azərbaycan", "Gənclik" jurnalları və digər nəşrlərdə) çap olunmuş əsərləri var ki, ara-sıra görünən bu cür onlarla rumın ədəbiyyatı nümunəsi, təəssüf ki, toplu halına salınmayıb.

Yaşadığımız əsrin əvvəllərindən etibarən rumındilli ədəbiyyatın tərcüməsi və nəşri işi davam edib ki, bu sırada ilk olaraq Mihay Emineskunun "Ulduzlardan pay istərəm" şeirlər toplusu (2001; F.Hacıyevanın tərcüməsində), rumın yazıçılarının hekayələrindən ibarət "İlk məktub" antologiyası (2002; G.Yoloğlunun tərcüməsində: antologiyaya Mihay Eminesku, Ejen Urikaru, Aurel Draqoş Muntyanu, Akay, İon Ariyeşanu, Emin Atilla, Nevzat Yusif Sarıgöl və Vircil İyerunkanın əsərləri daxil edilib), Karolina İlikanın "Qızılgül sonetləri" (2010; E.İsgəndərzadə və A.Hüseynovanın tərcüməsində), Lananın "Gözəllik düşüncələri" (2011; yenə E.İsgəndərzadə və A.Hüseynovanın tərcüməsində) dərc edilib. Bu dövrdə də "Azərbaycan", "Ulduz" jurnalları, "Kaspi", "Ədəbiyyat qəzeti" və "525-ci qəzet"də müxtəlif rumın şairlərindən seçmələr dərc edilib.

Rumındilli ədəbiyyatın dilimizə tərcüməsi ilə bağlı son əsaslı işlər hələlik axırıncı beş ilə aiddir. Belə ki, Azərbaycan Yazıçılar Birliyinin tanınmış tərcüməçi və ədəbiyyatşünas Seyfəddin Hüseynlinin redaktorluğu ilə nəşr edilən "Dünya ədəbiyyatı" dərgisinin 2017-ci ildə Moldova ədəbiyyatına, 2022-ci ildə isə Rumıniya ədəbiyyatına həsr olunmuş xüsusi sayları hazırlanıb. Birincidə İqor Volnitski, Todur Zanet və Aleksandru Vakulovskinin romanlarından parçalar, Boris Marian, Nikolae Spetaru, Yulian Çokan, Nikolae Rusu, Miroslava Metlyayeva, Lukretsiya Birledyanu, Qriqore Kiper, Anatol Moraru, Andrey Burak, Mariya Pilkin, Klaudiya Partole, Nikolae Popa, Sergey Uzun, Yekaterina Burlak, Vladimir Lorçenkov, Emilian Qalayku-Paun, Vladimir Beşleaqa, Mixaela Perçun, Moni Stanila, Dumitru Krudu, Liliana Armaşu və Vlad Zbırçoqun hekayələri və esseləri, Arkadie Suçevyanu, İon Hadırke, Mariya Pilkin, İvan Pilkin, Raisa Sıbırne, Valeriu Matey, Kelina Trifan, Leo Butnaru, Vasile Romançuk, Teo Kiriak, İrina Nekit, Maria Slyahtitski, Radmila Popoviç, Mila Kurudimova, Liliana Armaşunun şeirləri yer alıb. Əsərlər Səlim Babullaoğlu, Azad Yaşar, Elçin Hüseynbəy-

li, Cavanşir Yusifli, Məqsəd Nur, Qismət, İlahə Əkbər, Həmid Piriyev, Pərviz Yusif, Şəfiqə Şəfa, Jalə İsmayıl, Rəbiqə Nazimqızı, Səbuhi Şahmursoy, Cavid, Pakizə Zakirova və Gülzar kimi tərcüməçilərin çevirisində (əsasən rus dilindən olmaqla, eyni zamanda qismən rumın dilindən) təqdim edilib.

İkincidə isə Mihay Eminesku, Ejen İonesko, Ana Blandiana, Nikolae Labiş, Qabriela Melinesku, Marin Soresku, Dan Soçiu, Nikita Stanesku, Ruksandra Novak, Nikita Danilov, Adi Kristi, Daniel Korbu, İoana Diakonesku, Matey Vişnek, Vasile Andru, Arnold Hauzer, Radu Kocasu, Tibor Balint, Ştefan Benulesku, Ejen Urikaru, Hans Liyebhardt, Nevzat Yusuf Sarıgöl, İsmail Ziyaəddin və Mircea Kartaresku kimi həm klassiklərin, həm də yeni yazarların maraqlı əsərləri (şeir, hekayə, pyes və esseləri), alim və tərcüməçilərimiz Jalə İsmayıl və Güllü Yoloğlunun çox dəyərli məqalələri yer alıb. Təqdim olunan materialları dilimizə rumın, rus və ingilis dillərindən Vaqif Əlixanlı, Həmid Priyev, Qismət Rüstəmov, Məqsəd Nur, Cavanşir Yusifli, Dürdanə İbrahimova-Hüseynbəyli, Güllü Yoloğlu, Jalə İsmayıl və Səlim Babullaoğlu çeviriblər.

Eyni zamanda bu illərdə ayrıca toplular şəklində Arkadi Suçevyanu (2018; "Qağayı ilə göndərilən məktub"), Leo Butnaru (2019; "Çətir götürməyi unutmayın") və Nikolae Spetarunun (2021; "Qiyamət təxirə salınır") şeirləri və İqor Volnitskinin romanı (2018; "Mənə ölməyi öyrət") Səlim Babullaoğlu, Qismət Rüstəmov və Azad Yaşarın tərcüməsində nəşr edilib.

Təəssüflə qeyd etməliyik ki, rumın ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi işinin 80 ilə yaxın tarixi ərzində birbaşa tərcümə problemi aradan qalxmayıb, tərcümələrin böyük hissəsi rus, ingilis, türk dillərindən edilib, rumın dilindən tərcümə yalnız qismən mümkün olub.

Elə bir azdan keşməkeşli həyat tarixçəsi ilə tanış olacağınız, Rumıniya və Moldovanın fəxr yeri olan, XIX əsr rumındilli ədəbiyyatda nasir, dramaturq, esseist, publisist, tərcüməçi kimi önəmli yer tutan, əlbəttə, ilk növbədə böyük şair, müasir rumın ədəbiyyatının və ədəbi dilinin banisi, eyni zamanda rumın milli-mədəni dirçəlişinin seçkin nümayəndəsi Mihay Emineskunun şeirləri də ilk dəfə Azərbaycan dilinə məhz rus dili vasitəsi ilə tərcümə edilib. "Dan ulduzu" adını verdiyimiz hazırkı kitaba tanınmış tərcüməçi, şair, rumın dili və ədəbiyyatı mütəxəssisi Jalə İsmayılın sətri tərcümələri əsasında Mihay Emineskudan çevirdiyimiz 21 şeir və bir poema (kitabın adını elə poemanın adından götürmüşük) ilə yanaşı, 2001-ci ildə "Səda" nəşriyyatında tanınmış şairə Fəridə Hacıyevanın tərcüməsində (rus dili vasitəsilə) çap olunan, minnətdarlıqla xatırladığımız "Ulduzlardan pay istərəm" toplusundan (topluda Emineskunun 39 şeiri və 2 poeması yer alıb) seçdiyimiz 6 şeiri də qismən redaktəylə (böyük rumın şairin yaradıcılığına ilk əsaslı müraciət olduğundan) daxil etməyi lazım bildik.

Bir neçə kəlmə də yeni, orijinaldan olunan tərcümələr barədə danışmaq yerinə düşərdi. Mihay Emineskunun poeziyası üstqatı, strukturu və metrikası ilə (bəzən süjeti ilə də) rumın folklorundan, xalq şeirindən qaynaqlanmış kimi görünür (əlbəttə, bu xeyli dərəcədə belədir), onun xüsusən bu kitaba daxil etdiyimiz və orijinaldan tərcümə olunmuş şeirləri bu mənada "sadə teksturalıdır", amma obrazlar sistemi, hissi bazası ilə bu mətnlər tamam başqa səciyyə daşıyır ki, bu başqalaşma daha çox şairin metrik improvizələr və əlavələr etdiyi anlarda özünü daha aydın büruzə verir. Deyək ki, "Dan ulduzu" poemasında (80-dən artıq dilə tərcümə edilmiş poema a-b-a-b qafiyə sistemi və 8-7-8-7 heca sxeminə malikdir), yaxud "Əlvida" şeirində (şeir a-b-a-b qafiyə sistemi, 8-7-8-3 heca sxeminə malikdir) olduğu kimi. Kitab üçün seçib tərcümə etdiyimiz 21 şeirdən yalnız üçündə ("Yalnız şair" və "Sisli gecələr" – orijinalda "Səssiz gecələr" – kimi qısa, həmçinin "Çiçəklər" – orijinalda "Cökə çiçəkləri" – kimi uzun şeirdə qismən improvizələr və əlavələr etdik. Tutalım, orijinalda "Çiçəklər" a-b-b-a qafiyə sistemi və 5-6-6-5 heca sxeminə malikdirsə, tərcümədə biz bunu 6-5-6-5 heca sxeminə keçirdik, üstəgəl, hər bəndin yalnız 2-ci və 4-cü misralarını qafiyələndirdik. Yaxud 8-6-8-6 heca sxeminə malik 14 misralıq "Yalnız şair" şeirini tərcümə edəndə heca sxemini gözləsək də (şeir sərbəst qafiyə sisteminə malikdir deyə burda çətinlik olmadı), məna itkisi olmasın deyə, misraların sayını 18-ə çatdırdıq. Eləcə də "Sisli gecələr" şeirində biz orijinal a-a-a-b-c-c-c-b + ç-ç-ç-d-e-e-e-f qafiyə sistemini birəbir saxlamağa müvəffəq olduqsa və hətta hər bəndin ilk

üç misrasındakı bütün sözləri qafiyələndirərək gücləndirdiksə də, heca sxemində yalnız beşlik hissəni saxladıq, daha doğrusu, bütün şeiri "beşlik"lə çevirdik; qismən də məna "dəyişikliyi" etdik. Qalan bütün şeirlərdə (onların arasında yeddilik, onüçlük, səkkizlik, onaltılıq, beşlik, onbirlik, onbeşlik və qarışıq) orijinal metrikanı saxladıq, qafiyə sistemini qoruduq.

Onu da söyləməyi lazım bilirik ki, Eminesku dəqiq qafiyələrlə yanaşı, zəif qafiyələrlə, qulaq qafiyələri ilə də işləyib və biz də bu "xətalardan" yan keçməmişik.

Və "Dan ulduzu" poeması ilə bağlı son məqam. Əvvəla onu deyək ki, poema təkcə Eminesku yaradıcılığının deyil, bütünlükdə rumın poeziyasının əlçatmaz zirvəsi sayılır. Şair bu poemanı fasilələrlə səkkiz ilə yazıb. Milli folklor əsasında yaranan poema ideyası və fəlsəfəsi baxımından çox dərin və zəngindir. Ruh etibarı ilə böyük rus şairi M.Y. Lermontovun "İblis"ini xatırladan poema, üstqatı ilə məhəbbət, altqatı ilə isə daha çox metafizik, mənəvi məsələlərdən, əbədi və ötərinin davamlı qarşıdurmasından bəhs edir. Müəllifin özü də bunu gizlətməyib, ""Dan ulduzu" Lermontovun "İblis"inə yad deyil" söyləyib.

Bir detal: poemanın iki əsas qəhrəmanından biri "krallar nəslindən bir qız"dır (din rude mari impărăteşti), kobud desək, şahzadədir. Məsələ də budur ki, əksər tərcümələrdə, xüsusən bizim də yaxından tanış olduğumuz rus dilinə olan 5 tərcümədə qızın məhz şahzadə olduğu bildirilir (və bu bircə söz tərcüməçinin işinə xeyli dərəcədə yarayır, onun işini asanlaşdırır), halbuki belə deyil, qız krallar nəslindəndir, amma şahzadə deyil, əsilzadədir; təəssüf ki, biz də poemanın əvvəlki əlyazma, daha doğrusu "qaralama" versiyasında bu yanlışa yol versək də, kitabı nəşrə hazırlayanda öz "səhvimizi" düzəltdik.

Bədii çeviri prosesində sətri tərcümələri hazırlayan Jalə İsmayılla yanaşı biz dostumuz, tanınmış rumın şairi, moldovalı Nikolae Spetaru ilə də tez-tez məsləhətləşirdik ki, hər iki dəyərli həmkarımıza minnətdarlıq etməyi özümüzə borc bilirik.

Biz bu kitabı hələ 2020-ci ildə (şairin yubiley ilində), ən geci, 2021-ci ilin yanvarında təqdim etməliydik, rumın ədəbiyyatından tərcümələrimizə həmişə olduğu kimi lütfkarlıqla dəstək verən əziz dostumuz Vüqar Novruzovla da belə düşünmüşdük. Amma məlumdur ki, pandemiya bütün yaradıcı planları alt-üst etdiyindən gecikmə oldu və araya digər cari işlər, problemlər girdi. Bir müddət sonra gözəl bir təsadüf nəticəsində Rumıniyanın ölkəmizdəki yeni təyin olunmuş səfiri,hörmətli Vasile Soare bu tərcümələrimizdən xəbər tutdu, təklif etdi ki (etiraz etmiriksə), səfirliyin hazırladığı illüstrasiyalı nəşr üçün tərcümələri ona təqdim edək. 2021-ci ilin noyabrında cənab Səfirin yaxından iştirakı və dəstəyi, eləcə də rumın ədəbiyyatçıları qatqısı ilə ərsəyə gələn, əsasən rumın rəssamlarının illüstrasiyaları ilə müşayiət olunan 20 şeirdən ibarət ikidilli nəfis poliqrafiyalı kitab işıq üzü gördü ki, həmin kitabı da Emineskunun orijinaldan dilimizə tərcümə edilərək çap olunan ilk kitabı saymaq olar.

Hazırkı kitaba isə həmin əvvəlki nəşrdəki şeirlərlə yanaşı daha bir şeir ("İlk məktub"un fraqmenti) və "Dan ulduzu" poeması əlavə olunub, üstəgəl, bütün mətnlər yenidən redaktə edilib. Tanınmış rəssam Ayxan Rəsulun maraqlı qrafik illüstrasiyaları isə nəşrə xüsusi bir mahiyyət qazandırıb.

Qalan sözləri oxucular söyləyəcək deyə, hələlik isə böyük şairin bioqrafiyası ilə tanış olaq.

Mihay Emineskunun doğum tarixi rumın dövlətinin yaranışı prosesini (1859-cu ildə birləşmiş milli rumın dövlətinin yaranmasının I mərhələsi başa çatdı – Valaxiya və Moldova knyazlıqları birləşdi) 9 il qabaqlamış, yaradıcılığının yetkin dövrü isə Rumıniyanın müstəqil dövlət olduğu tarixlə[1] üst-üstə düşmüşdü.

Emineskunun doğum tarixi 1850-ci il15 yanvar kimi qəbul edilsə də, bu tarixlə bağlı mübahisələr, başqa ehtimallar da var. Belə ki, bəzi sənədlərdə yazılır: "XIX əsrin ikinci yarısında yanvar ayının ortalarında İpoteştdan olan kiçik torpaq sahibi Georgi Eminoviç, Botaşarıda yerləşən Uspen kilsəsinə gələrək yeddinci oğlunu qeydə aldırmaq istədiyini bildirdi..." 3 nömrəli həmin qeyddə biz Emineskunun doğumu və xaç suyuna salınması haqqında məlumat əldə edirik. Şairin qardaşı Matey Eminesku isə onun doğum vaxtı kimi 20 dekabr 1849-cu il tarixini göstərir. Emineskunun həyat və yaradıcılığının yorulmaz

1 [2] 10 may 1877-ci il

tədqiqatçısı Oktava Minaha isə Mihay Emineskunun 21 dekabr 1850-ci ildə doğulduğunu iddia edir.

Şairin uşaqlığı barədə məlumat çox deyil. Haqqında yazılanlardan, müasirlərinin söylədiklərindən və bəzi bioqrafik yazılardan belə qənaətə gəlmək olar ki, uşaqlığını təbiətin qoynunda, kənd sakinləri ilə bərabər keçirən Mihay çox erkən yaşlarından dünyanı dərk etməyə, anlamağa meyilli olub. Ən yaxın dostu və hamisi olan anası onun üzərində dərin iz buraxıb. Atasının çox da zəngin olmayan kitabxanası ona dünyanı tanımağa, sadə və eyni zamanda böyük suallarına cavab tapmağa, əlbəttə, bunun üçün isə ilk növbədə mütaliə vərdişlərini formalaşdırmağa kömək edib. Bəzi tədqiqatçıların fikrincə, Eminesku təhsilinin ilk iki ilini ev şəraitində alıb. 1858-ci ildə Çernovtsıda (Ukraynada vilayət mərkəzi) yunan-şərq ibtidai məktəbinin birbaşa üçüncü sinfinə daxil olub, daha sonra isə təhsilini alman gimnaziyasında davam etdirib.

1866-cı ildə maddi çətinlik üzündən təhsilini yarımçıq qoyaraq işləmək məcburiyyətində qalıb, bir müddət müxtəlif teatrlarda suflyor, mehtər, yükdaşıyan kimi çalışıb.

Şairin yaradıcılığının ilkin təkan almasında və formalaşmasında çox sevdiyi ədəbiyyat müəllimi, 1848-ci il inqilabının iştirakçısı Aron Pumnulun təsiri böyük olub. Bir müddət müəlliminin evində məskunlaşan Mihay onun böyük kitabxanası ilə tanış olub, hətta sonradan bu kitabxananın səliqə-səhmana salınmasında yaxından iştirak edib. Bu iş ona kitabların, elmlərin təsnifləşdirilməsi kimi vacib bir işlə praktik şəkildə məşğul olmaq imkanı verməklə yanaşı, kitabxanadakı əksər kitabları, xüsusən dünya ədəbiyyatının qiymətli incilərini oxumaq, onları dərindən mənimsəmək üçün əvəzolunmaz şərait yaradıb. Müəllimi Aron Pumnulun ölümü Mihaya dərin sarsıntı yaşadıb, bu, həyatının, bəlkə də, ilk və ən ağır itkisi olub. Digər tərəfdən, poetik yaradıcılıq üçün, xüsusən sonradan Emineskunun bütün yaradıcılığı üçün səciyyəvi olan melanxolik-minor ovqatın başlanğıcını qoyub ki, elə o vaxtlar müəlliminə ithaf etdiyi ilk şeiri – poetik ağı bütün rumın ədəbiyyatında bilinən, xatırlanan elegiyaya çevrilib. Əlbəttə, Emineskunu müəllimi Aron Pumnulun varisi sayanlar yanılmırlar.

Mihay Emineskunun ilk şeirlərinin yazılması və mətbu nəşri XIX əsrin 60-ci illərinin birinci yarısına təsadüf edir. 1865-ci ildə şairin şeiri "Familiya" jurnalında işıq üzü görür. 1866-cı ildə əslən Transilvaniyadan olan publisist İosif Vulkanın redaktorluğu ilə çap olunan jurnalda şairin bütün yaradıcılığının lirik başlanğıcı sayıla biləcək "Kaş mən də" adlı növbəti şeiri dərc edilir ki, bu da gənc Emineskuya məhşurluq gətirir. Şairin adının "Eminoviç"dən "Eminesku"ya çevrilməsi də Vulkanın təşəbbüsü ilə elə o zaman baş verir. Sonradan Eminoviçlərin hamısı məhz bu soyadı daşıyacaqdılar.

Sonrakı üç ildə jurnalda Mihay Emineskunun "Yad ellərdən", "Bukovinaya", "Ümid", "Gecənin sirləri", "Eliadaya", "Aktrisaya", "Abidənin məhəbbəti", "F.İ. adlı dostuma" və bu kitaba da daxil etdiyimiz "Sənə mən nə deyim, gözəl Rumıniya" və başqa şeirləri də dərc edilib.

Emineskunun sonrakı təhsili dinləyicisi olduğu Vyana Universiteti ilə bağlıdır. Orta təhsili olmadığı üçün universitetə yalnız azad dinləyici kimi qəbul edilə bilərdi ki, bu da ona hərtərəfli və olmazın azadlıq, xüsusən təhsil fənlərini seçmək imkanı yaradıb. 1869-cu ildə professor Timmermanın rəhbərliyi ilə başlayan fəlsəfə təhsili boyunca Eminesku həm Qərbin, həm Şərqin böyük ədib və mütəfəkkirlərinin əsərləri ilə tanış olub, Hafizin, Hüqonun, Lamartinin ölməz əsərlərini oxuyub, icazəsiz yazıldığı saray kitabxanasında "Ramayana" və "Mahabharata"nı mükəmməl bildiyi alman dilində mütaliə edib.

Şairin həyatının "Vyana dövrü" barədə məlumatlar çoxdur. Müasirləri və dostları, xüsusən, T.V.Ştefanella və İ.Slaviçin xatirələri dolğun və maraqlıdır. "Ömrünün bu çağlarında həyatının bütün eniş-yoxuşunu, qəm-qüssəsini duyan 20 yaşlı bu gənc 40 yaşlı müdrik insan təəssüratı bağışlayırdı" – bu cümlə Slaviçin xatirələrindəndir.

Vyanadakı təhsil dövrü şairin həm də ciddi yaradıcılıq dövrü hesab olunur. Bu dövrdə Eminesku "Venera və Madonna" əsərini, fanilik duyğusu ilə oxucu qəlbinin dərinliklərinə işləyən lirik və fəlsəfi silsilə şeirləri, ilk nəsr əsəri, Dostoyevskinin "Alçaldılmış və təhqir olunmuşları"nı xatırladan "Vəhşiləşmiş ruh" (yaxud "İnamımı itirmiş ruh") romanını yazıb. Yeri gəlmişkən, sonuncu

əsər şairin ölümündən sonra, 1904-cü ildə işıq üzü görüb və ədəbi tənqidin əsərə münasibəti birmənalı olmayıb. Hətta bir çoxları əsərin çap olunmamasının daha doğru ola biləcəyini söyləyib, bəziləri isə "Eminesku böyük şair, lakin zəif romançıdır, amma İks və yaxud İqrekdən heç də zəif yazıçı deyil" (Q.İbrailyanu) kimi fikirlər səsləndiriblər.

Bəlkə, bu fikirlərə müəyyən qədər haqq qazandırmaq da olardı. Çünki Eminesku özü belə yaradıcılığının bu dövründəki ovqatı haqqında belə yazırdı: "… mənim düşüncələrim o dövrdə tamamilə romantik əhval-ruhiyyənin, mələklərin, iblislərin əhatəsində olub, qəhrəmanlarım zahirən Bayronun qəhrəmanlarına bənzəyirdilər..."

Bu dövrdə Eminesku ciddi nasir kimi "Bədbəxt Dionis", "Mənim kölgəm", böyüklərin də uşaqlar qədər sevdiyi "Hind nağılı", "…Fet Frumos" nağıllarını yazıb, şair kimi isə lirikası yeni, sonradan məhz onun üslubunu səciyyələndirən çalarlar qazanıb. Az əvvəl adını çəkdiyimiz "Venera və Madonna" şeiri təkcə onu tanıyanlar tərəfindən deyil, hətta tanımayanlar tərəfindən də çox hərarətlə qarşılanıb, rumın poeziyasına və poetikasına yeni nəfəsin gəlməsi əminliklə və hamılıqla təsdiqlənib.

Belə ki, "Bədbəxt Dionis" əsərində müəllif özünəqədərki ənənələri pozur, gerçəklikdə xəstə sayılacaq qədər əcaib təxəyyülün bir-birinə qarışdığı əsərdə Dionisin yaşadıqlarının yuxu və ya həqiqət olması oxucular üçün əvvəlcə qaranlıq qalır. Əsərin xoşbəxt sonluğu nə qədər sevindiricidirsə, sondakı müəllif "şərhləri" bundan daha böyük əhəmiyyət kəsb edir. Əsərlə tanış olan oxucular müəllifin dünya, tarix, kainatın idarə olunması, Tanrı barəsindəki təzadlı dünyagörüşü və fikirləri ilə az da olsa tanış olurlar.

Eminesku bu dövrdə təkcə şair və nasir kimi deyil, həm də ictimai-siyasi fəaliyyətilə diqqət çəkməyə başlayıb. "Timpul" qəzetində çalışdığı illərdə ardıcıl yazdığı məqalələrdə və 1848-ci il inqilabını təhlil edən "Epiqon" əsərində o, (bu əsərdə şair Eminesku artıq yetkin bir ədib və mütəfəkkir kimi Qərbdən ixrac edilən inqilabın yeni, yerli şərait üçün yad olduğundan bəhs edirdi) dövrün əhval-ruhiyyəsini dəqiqliklə göstərib, düzgün əqli nəticələr hasil edib ki, sonralar həmin yazıların fəlsəfəsi şairin "Mələk və İblis", "İmperator və proletar" kimi ciddi poetik əsərlərində, poemalarında bədii şəkildə yenidən işlənib.

Mihay Emineskunun şəxsiyyətinin (və əlbəttə ki, yaradıcılığının da) əsas cizgilərini göstərmək üçün onun həmkarlarına və həyatında xüsusi yeri olan (bəzən bu rol heç də pozitiv olmurdu) insanlara məktublarını xatırlamaq yerinə düşərdi. Məsələn, şairin Neqrutsiyə, Mayoreskuya yazdığı və günümüzə gəlib çatan bəzi məktubları bu mənada əhəmiyyətlidir. Eminesku çox zaman maddi ehtiyac məngənəsində sıxılmasına baxmayaraq öz millətinin istedadlı nümayəndələrinin üzə çıxarılmasında daim iştirak edib, onlara əməli dəstək olmağa çalışıb. Məktublarının birində o, "Junimya" cəmiyyətinin təsisçisi, dövrünün məşhur "Konverbir literare" jurnalının redaktoru Yakob Neqrutsiyə (1843-1932) bir xahişlə müraciət edir ki, Slaviç adlı gənc yazarın əsərlərini dərgidə yayınlasınlar; yaxud, Titus Mayoreskuya ünvanladığı başqa bir məktubunda gənc musiqiçi Tom Mikerin konserti üçün konservatoriyanın zalında yer ayrılması xahişini edir.

Çox təvazökar, həmçinin məsuliyyətli şəxsiyyət olan Eminesku məktublarının birində maddi sıxıntılarına rəğmən Mayoreskunun ona fəlsəfə professoru kimi dərs demək, mühazirə oxumaq təklifinə belə cavab verir: "Məşğələlərin dəqiq planı əlimdə olmadan, onu təfərrüatı ilə işləmədən və bu qədər gənckən mən heç belə bir işə cəsarət edə bilərəmmi? Dar çərçivədəki məsələlərdən danışmağa, məsələn, Kantın və ya Şopenhauerin müvafiq əsərlərinin şərhi ilə bağlı xüsusi kurs oxumağa, bəlkə də, cəsarət edərdim. Çünki bu zaman mətndən çox uzaqlaşmaq lazım gəlmir, səndən bütün sistemin geniş izahını deyil, yalnız məlum şeyin dəqiq və aydın təqdimatını gözləyirlər. Ancaq Şopenhauer fəlsəfəsinin tam kursunu həqiqi mənada oxumaq üçün xüsusi hazırlığın verdiyi biliklər, xüsusilə də təbiətşünaslıq və antropologiya sahəsində biliklər lazımdır. Mənə ən azı bir semestr anatomiyanı və fiziologiyanı öyrənmək lazımdır ki, heç olmasa, fəlsəfəyə girişi mənimsəyim. Doktorluq adı məni cəmiyyət və onun qayda-qanunları ilə barışdıra bilər, lakin özümlə yox. Hələ ki, mən daxilən özümdən çox narazıyam. Bu vəziyyət qarşımda duran vəzifənin bütün ciddiliyini hiss olunacaq dərəcədə vurğulayır. Məni açılan yolda gözləyən mənfəət barədə düşüncələr belə borc

haqqındakı fikirlərimə üstün gəlmək iqtidarında deyil...”

1874-cü ildə vətənə qayıdan Mihay Eminesku “Junimiya” cəmiyyətinin görkəmli təmsilçisi Vasile Proqorun təqdimatı ilə Yaş şəhəri mərkəzi kitabxanasının müdiri təyin edilib. Eminesku ömrünün ən xoşbəxt çağları hesab etdiyi bu dövrdə uzun illər həsrətində olduğu kitabların çevrəsində böyük güc və həvəslə çalışmağa başlayır ki, bu da ona qeyri-adi zövq verib. Amma xoşbəxtlik uzun çəkməyib, daxili çək-çevirlər, söz-söhbətlər nəticəsində o vəzifəsindən ayrılmalı olub, bir müddət məktəb inspektoru kimi çalışıb. 1876-cı ilin iyun ayında, siyasi dəyişikliklər zəminində şair bu vəzifəsindən də uzaqlaşıb. Daha sonra – 1877-ci ildən başçılıq etdiyi “Timpul” qəzetində maarifçi-publisistik məqalələrlə çıxış etməyə başlayıb.

Baş verən hadisələr şairə pis təsir edib. Maddi ehtiyac içində yaşayan Eminesku şəxsi hisslərini gizlətməyə çalışıb, hadisələrə münasibətini belə ifadə edib: “Siyasət bizim dövlətdə bütün bədbəxtliklərin səbəbidir. Xırda siyasi hisslərlə böyük siyasətçilərdən intiqam alırlar. Bu, çirkin intiqamdır...”

Yaş şəhərindəki qısamüddətli fəaliyyətindən sonra Eminesku onu “rumın xalqının Hiperionu” adlandıran Mayoreskunun dəvəti ilə Buxarestə gedib. Hərçənd ona təklif olunan işə də sevinə bilməyib, şair ictimai-siyasi çəkişmələr, əbədi insani antoqonizm və ona hakim kəsilən fanilik duyğusu səbəbindən dərin məyusluq və ümidsizliyə qapılıb.

Əslində birqatlı olmayan bu əbədi məyusluğun və ümidsizliyin bir başqa, şəxsi səbəbi də olub. Belə ki, şairin 1872-ci ildə tanış olduğu, əsərlərinin əsasını erotik motivlər təşkil edən rumın şairəsi Veronika Mikleyə (1850-1889) sevgisi onun həyatını büsbütün dəyişmişdi. Demək olar hər cümə axşamı gənc rumın şairlərinin iştirakı ilə evində ədəbiyyat və şeir gecələri keçirən Veronika ilə şair bu tədbirlərin birində tanış olub, ilk görüşdəcə qadına vurulub, sevgisini məktub vasitəsilə bildirib və qarşılıq alıb. Bu sevginin qarşılıqlı olması onu sevindirsə də, kasıblığı üzündən sevdiyi xanımla birgə yaşamaq arzusunu gizlədib, içində basdırmağa özünü məcbur edib. Və bu eşq ömrünün sonuna qədər onun üçün əlçatmaz xülyaya çevrilib.

Sonradan bütün rumın ədəbiyyatının şah nümunələri kimi tarixə düşəcək lirik şeirlərin (onların bir çoxu bu kitabda yer alıb) yazılmasına səbəb olan bu sevgi eyni zamanda şəxsi və dərin bədbəxtliyin də təməlini qoyub. Şairin Mikleyə sevgisi uzun illər platonik səciyyə daşıyıb, çox sevdiyi bu xanımla o, yalnız 1879-cu ildə, fasilələrlə görüşə bilib, amma Mayoreskunun müdaxiləsi nəticəsində bu birgəlik 1882-ci ildə həmişəlik pozulub. Emineskunun sevgilisi Veronika Mikleyə sonuncu məktubu 1888-ci ilin dekabr ayına təsadüf edir.

Botoşarıdan yazan şair sonunun yaxınlaşdığını və axırıncı dəfə Veronikanı görmək arzusunu bildirir. Veronikanın da Emineskuya məhəbbəti dərindi və bu sevgi, birgə yaşamamaqlarına rəğmən ağır ruhi sarsıntıları və xəstəliyi dövründə ona şairi tərk etməyə icazə verməmişdi. Doğrudan da ehtiyaclar içində çırpınan, faciəli və həqiqi şair ömrü yaşayan Mihay Eminesku bu məktubun üstündən cəmi bir ay keçəndən sonra, yəni 1889-cu ilin iyun ayının 15-də dünyadan köçüb və Belu məzarlığında torpağa tapşırılıb.

Hadisədən 48 gün sonra Veratek monastrında tənhalığa çəkilən və özünə qapanan Veronika zəhər içərək intihar edib.

Rumındilli poeziyanın klassiki Mihay Eminesku barədə çoxlu epitetlər söylənilir, dünyanın bir çox ölkələrində onun adını daşıyan küçələr, məktəblər var, onun xatirəsinə abidələr ucaldılıb, şairin heykəlləri qoyulub, 2000-ci dünyada “Eminesku ili” elan edilib, hətta Merkuridəki kraterlərdən biri onun şərəfinə adlandırılıb, amma “rumın ədəbiyyatının Dan ulduzu” təyini dünya ədəbiyyatı tarixində əsərin şairin taleyinə çevrilməsinin ən maraqlı faktı hesab oluna bilər.

Turan ƏKBƏRLİ
Bakı Slavyan Universiteti, doktorant, müəllim
turan.akbarli@gmail.com

V.SKOTUN "AYVƏNHƏU" ROMANINDA KÖHNƏLMİŞ SÖZLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ PROBLEMLƏRİ

Açar sözlər: *tarixi roman, köhnəlmiş sözlər, tərcümə, lakunar vahid, lakun, lakunların adaptasiyası*

Ключевые слова: *исторический повесть, устаревшие слова, перевод, лакунарная единица, лакун, адаптация лакун*

Key words: *historical novel, obsolete words, translation, lacunar unit, lacuna, adaptation af lacunas*

V.Skott XIX əsr Britaniya ədəbiyyatının ən məşhur nümayəndələrindən biridir. O, Şotland şairi və yazıçısı, tarixi roman janrının banisidir. V.Skottun əsərləri unikal, canlı və zəngin süjeti ilə bütün dünyada məşhurdur. O, yazdığı əsərləri vasitəsilə Şotland tarixi və mədəniyyətini dünyaya tanıtmışdır. V.Skottun yaradıcılığı müasirləri və davamçıları tərəfindən yüksək qiymətləndirilmişdir. O.de Balzak V.Skottun romanlarını bədii ustalığın zirvəsi hesab edirdi. Stendal V.Skottu müasir romanistlərin atası adlandırmışdır. V.Q.Belinski onun əsərlərində tarixi elmilik və bədii təxəyyülün vəhdətini yüksək qiymətləndirmişdir. [5]

V.Skott Edinburqda hüquqşünas ailəsində dünyaya gəlmişdi. Anadangəlmə sağ ayağında zədə olduğu üçün uşaq yaşlarından müalicə alsa da, xeyrini görməmiş və ömrü boyu axsamışdır. Çətinliklərə baxmayaraq, V.Skott Edinburq məktəbində təhsil almış, daima özünü inkişaf etdirmiş, xalq etnosu və folkloru, qədim yunan ədəbiyyatı ilə maraqlanmışdır. Şotlandiyanın tarixi ilə bağlı doğmalarından eşitdiyi hekayələr və xalq əfsanələri yazıçıya vətəninin tarixini sevdirmiş, onu bir-birindən maraqlı tarixi romanlar yazmağa ruhlandırmışdı. Hüquq sahəsi ilə maraqlanmasa da atasının təkidi ilə 1792-ci ildə Edinburq universitetində imtahan verir və uğur qazanır. [6] O, atasının hüquq bürosunda işləməklə hüquq sahəsində təcrübə toplamağa çalışır. İşi ilə bağlı olaraq fərqli ölkə və şəhərlərə səyahət edən yazıçı, müxtəlif xalqların mədəniyyəti, məişəti və yaşam tərzi ilə tanış olur. Skott əsasən xalq deyimləri və qəhrəmanlıq mifləri ilə maraqlanır. Öyrəndiyi biliklər və topladığı təcrübə onun yaradıcılığında dərin izlər buraxır, yazdığı əsərlərində əks olunur. V.Skott yazarlığı qazanc mənbəyi və şöhrət qazanmaq üçün bir vasitə deyil, həyatına rəngli çalarlar və emosiyalar qatan bir məşğuliyyət növü hesab edirdi. [7]

1790-ci illərin ortalarında yazıçı alman romantizmi və Şotland balladaları ilə yaxından maraqlanmağa başlayır. 1800-cü ildən etibarən bədii fəaliyyətə başlayan yazıçı 30 il müddətində 28 roman, 9 poema, çoxlu sayda povest və bədii-tənqidi məqalələr yazmışdır. [7] V.Skott yazdığı romanları ilə şöhrət qazansa da, bədii yaradıcılığa poeziya və alman dilindən tərcümələrlə başlamışdır. 1796-cı ildə alman şairi G.Bürgerin **"Lenora"** və **"Vəhşi ovçu"** balladalarını, 1799-cu ildə İ.V.Götenin **"Qets fon Berlixinqen"** adlı dram əsərini alman dilindən tərcümə etmişdir. [5]

1800-1801-ci illərdə Şotland balladalarını toplaması və redaktə etməsi yazıçının ədəbiyyatda ən böyük xidmətlərindən biri hesab olunur. Üç cilddən ibarət **"Şotlandiyanın sərhəd nəğmələri"** adlı kitabının iki cildini 1800-cü ildə, üçüncü cildini isə 1803-cü ildə çap etdirmişdir. [8] Topluya balladalar və əfsanələr daxil edilmişdir. 1805-1817-ci illərdə yazdığı **"The Lay of the Last Minstrel"** ("Sonuncu menestrelin nəğməsi"), **"Marmion"** ("Marmion"), **"The Lady of the Lake"** ("Göl qızı"), **"Rokeby"** ("Rokbi") adlı

romantik poemalar ona böyük şöhrət qazandırır. V.Skott 1814-1832-ci illər "Ueverli" adı altında çoxlu sayda dünya şöhrətli tarixi romanlar yazmışdır. **"The Waverley Novels"** ("Ueverli romanları") adlı 48 cilddən ibarət romanlar toplusuna **"Waverley"** ("Ueverli, yaxud altmış il əvvəl") (1814), **"Guy Mannering"** ("Qay Mannerinq") (1815), **"Rob Roy"** ("Rob Roy") (1817), **"The Heart of Midlothian"** ("Edinburq həbsxanası") (1818), "**Ivanhoe"** ("Ayvənhəu") (1819), "**Kenilworth"** ("Kenilvort") (1821), **"Quentin Durward"** ("Kventin Dorvard") (1823) və s. daxildir. [8] Yazdığı poemalar sayəsində böyük şöhrət qazanmış şair romanlarının oxucular tərəfindən eyni şəkildə bəyəniləcəyinə əmin deyildi. V.Skott qazandığı şöhrəti itirməkdən qorxduğu üçün uzun müddət romanlarının nəşrində məxfiliyi qoruyub saxlamış, yalnız 1827-ci ildən etibarən əsərlərin müəllifi olduğunu rəsmi şəkildə bəyan etmişdir. V.Skottun romanlarını məzmun baxımından üç qrupa bölmək mümkündür: Şotlandiyanın tarixi keçmişini, İngiltərənin tarixi keçmişini və qitədə yerləşən digər ölkələrdə baş verən tarixi hadisələri əks etdirən əsərlər. [5]

V.Skottun "Ayvənhəu" əsərindən öncə yazdığı romanlar Şotlandiya tarixinə aid materiallara istinad edirdi. "Ayvənhəu" İngiltərənin tarixi keçmişindən bəhs edən ilk roman hesab olunur. V.Skott "Ayvənhəu" romanını 1819 cu ildə yazmış, əsər elə həmin ildə "Ueverli" təxəllüsü altında nəşr olunmuşdur. [7] "Ayvənyəu" V.Skottun "Ueverli romanları" silsiləsinə daxil olan ən maraqlı əsər hesab olunur. Əsər eyni zamanda ingilis ədəbiyyatı tarixində yazılmış ilk tarixi roman və macəra ədəbiyyatının incilərindən biridir. Roman uzun illər öncə yazılsa da, hələ də geniş oxucu kütləsi tərəfindən böyük maraqla oxunur. Əsərdə hadisələr İngiltərədə XII əsrin sonu üçüncü səlib yürüşündən sonrakı dövrdə cərəyan edir. V.Skotun yazdığı roman tarixdə "Şirürək Riçard" kimi tanınan kral I Riçardın hakimiyyəti dövründə sakslar və normanlar arasında qatı düşmənçilik, feodal çəkişmələri, kasıb təbəqənin hüquqlarının pozulması kimi müxtəlif problemləri əks etdirir. Məlumdur ki, 1066-ci ildə Qastinq döyüşündə normanlar saksları məğlub etmiş və Britaniya adalarını ələ keçirmişdilər. Əsərdə hadisələr 1194-cü ildə baş verir. Bu zaman Qastinq döyüşündən artıq 130 il ötürdü və sakslar norman işğalından əziyyət çəkirdilər.

Əsərin baş qəhrəmanı Ayvənhəu varlı feodal Sedrikin oğludur. Ayvənhəu hüquqları pozulan yoxsul insanları müdafiə edən bir cəngavərdir. İngiltərədə kral hakimiyyətinin mərkəzləşdirilməsi və stabilliyin bərqərar olunması uğrunda gedən savaşlarda Ayvənhəu cəbhənin ön cərgələrində yer alır. Romanda Ayvənhəunun atası Rottervudlu Sedrik saksların gücünü artırmaq və norman qüvvələrini geri çəkilməyə vadar etmək niyyətindədir. Bu səbəbdən Sedrik himayəsinə götürdüyü Ledi Rovenanı kral nəslinə məxsus ser Atelstana ərə verməyi düşünür. Lakin Ledi Rovena lord Sedrikin oğlu Ayvənhəunu sevir. Lord Sedrik İngiltərənin azadlığı, oğlu Ayvənhəu isə İngilitərənin birliyi və kral hakimiyyətinin bərpa olunması uğrunda döyüşür. Lord Sedrik İngiltərə kralı I Riçardın tərəfini saxladığı üçün oğluna qəzəblənir. Digər tərəfdən Ayvənhəu və Rovenanın sevgisi Sedrikin planlarına əngəl törədə bilərdi. Bu səbəbdən Lord Sedrik Ayvənhəunu evdən qovur və mirasdan məhrum edir. Ayvənhəu lord Riçard ilə birgə bir neçə il Fələstində, müqəddəs torpaqlarda yoxsul və gücsüz insanları müdafiə edir, haqsızlığa qarşı mübarizə aparır. Bir müddətdən sonra Ayvənhuu doğma yurduna qayıdır. Ayvenhu Brayən de Buagilberin yəhudi İsaakı öldürmə planını eşidib onu əvvəlcədən xəbərdar edir. Yəhudilərə pis davranılan o dövrdə Ayvenhunun İsaaka köməyi onun xeyirxahlığı və zadəganlığından xəbər verirdi. Ayvenhu cəsarət və gücünü sərgiləmək üçün "mirasdan məhrum olunmuş" ləqəbi ilə turnirə qoşulur. Turnirdə Ayvənhəu daha əvvəl Fələstində keçirilən turnirdə məğlub etdiyi qəddar düşməni cəngavər Brayən de Buagilberin diz üstə çökdürür. O, turnirin sonunda ölümcül yaralansa da bütün rəqiblərini məğlub etməyi bacarır. Yəhudi İsaakın qızı ledi Rebekka turnirdə ağır yaralanmış Ayvənhəunun qeydinə qalır və otlardan hazırladığı məlhəmlə yaralarını sağaldır. Ayvənhəu Rebekkaya minnətdar olsa da, əslində ledi Rovennadan daha mərhəmətli və gözəl olan Rebekkanın sevgisinə qarşılıq vermir. Romanda Rebekka gözəl və zərif, eyni zamanda cəsarətli, dininə və əqidəsinə sadiq bir insan kimi

təsvir edilir. Qrossmeyster Bomanuar Rebekkanı cadu-piti etməklə günahlandırır, onu tövbə edib xristianlığı qəbul etməyə çağırır. Günbatımına kimi özünü yetirən cəsur Ayvənhəu Rebekkanın təmiz adı naminə döyüşdə Buagilberi məğlub edib öldürür. Bu şəkildə Ayvənhəu xilaskarı Rebekkanın qarşısında borcundan çıxmış olur. V.Skotun Ayvənhəu obrazı ideal romantik qəhrəmandır. O, sevdiyi yeganə qadın ledi Rovennaya sadiq qalır və əsərin sonunda sevdiyinə qovuşur.

V.Skott əsərdə milliyəti və maddi vəziyyətindən asılı olmayaraq çoxlu sayda cəsur və vicdanlı insan təsvir etmişdi. V.Skottun romanlarında qəhrəmanların bir çoxu real tarixi şəxsiyyət, bəziləri isə tarixdə mövcud olmayan, yazıçının yaratdığı, qeyri-real obrazlardır. "Ayvənhəu" romanında kral Riçard, Ayvənhəu və Loksli cəsarət və düzgünlüyü təcəssüm edən obrazlardır. Kral Riçard tarixi şəxsiyyətdir. Tarixdə qaniçən və xalqa ağır vergilər təyin edən adələtsiz kral Riçardın əsərdə ideal obrazı yaradılmışdır. Kral xalqla birgə separatçılıq yaratmaq istəyən feodallara qarşı mübarizə aparır. V.Skott hərc-mərcliyin aradan qaldırılması, güclü və mərkəzləşdirilmiş dövlətin formalaşması üçün yeganə çıxış yolunu ideal kral obrazının yaradılmasında görürdü. Əsərin baş qəhrəmanı Ayvənhəu V.Skottun təxəyyülünün məhsulu və arzularının təcəssümü olan xəyali obrazdır. Ayvənhəu cəsarət, düzgünlük və ədalətin simvoludur. O, qarşısına çıxan hər növ çətinliyi dəf edir və sonda həm atası onu bağışlayır, həm də sevdiyi qadınla evlənir. Romanda V.Skott ingilis folkloruna müraciət edərək bəzi maraqlı obrazlar yaratmışdır. Əsərdə insanları əyləndirən təlxək Vamba və fransız baronu Fron de Befin qəsrini yandıran cadugar Ulrika belə obrazlardandır. Digər bir xəyali obraz əsərdə Loksli adı ilə tanınan, orta əsrlər ingilis xalq balladalarının məşhur qəhrəmanı Robin Huddur. O, Notinqam yaxınlığındakı Şervud meşəsində varlıları qarət edib, əldə etdiklərini kasıblara verən xalq qəhrəmanıdır. Romanda Robin Hudd Ayvənhəu və Şirürək Riçardın tərəfində olan bir obrazdır. V.Skott cəngavər Ayvənhəu, norman kralı I Riçard (qara cəngavər) və quldur Robin Huddan (Loksli) ibarət, tarixi cəhətdən qeyri-mümkün bir üçlü formalaşdırmışdır.

V.Skottun "Ayvənhəu" əsəri uydurma və tarixi reallığın vəhdətidir. Roman tarixi faktlara əsaslansa da, V.Skottun fantaziyası, təxəyyülü və nəqletmə bacarığının məhsuludur desək daha doğru olar. Qəhrəmanların əksəriyyəti tarixilik və romantik idealizasiya anlayışlarını özündə ehtiva edir. Şirürək Riçardın ideal, müdrik və ədalətli kral, Ayvənhənun isə cəsur cəngavər olaraq verilməsi romantik əsərlərə xas olan tipik xüsusiyyətdir. Əsər maraqlı süjeti, təbiətin lirik təsviri, döyüş səhnələri, Ayvənhəu və digər obrazların göstərdiyi şücaət ilə oxucuların böyük rəğbətini qazanmışdır. Romanı oxumaqla sanki zaman və məkan baxımından İngiltərənin orta əsrlər tarixinə səyahət etmək mümkündür. V.Skottun dünyaşöhrətli "Ayvənhəu" romanı geniş oxucu kütləsi tərəfindən həm orijinaldan, həm də tərcümədən böyük maraqla oxunur. Roman ingilis dilindən Azərbaycan dilinə görkəmli mütərcim, pedaqoq-alim, professor Q.Bayramov tərəfindən tərcümə olunmuşdur. Əsərin tərcümə mətni 2013-cü ildə "Şərq-Qərb" nəşriyyatında dərc edilmişdir.

"Ayvənhəu" əfsanə, milli folklor, tarixi xronika və psixoloji roman kimi janrlara xas xüsusiyyətləri özündə cəmləyən möhtəşəm bir əsərdir. Romanda V.Skott sıx meşələr, kəndlər, əzəmətli qəsrlərin təsvirini vermiş, əsərin qəhrəmanlarının geyimləri, davranış tərzləri, düşüncə və hədəflərini əks etdirmişdi. Əsərin orijinal mətnində çoxlu sayda reali, tarixizm, varvarizm, ekzotizm kimi ekvivalentsiz leksik vahidlərə, eyni zamanda idiom və atalar sözlərinə rast gəlirik. Q.Bayramov çətinliklərlə üzləşsə belə, əsəri Azərbaycan dilinə böyük ustalıqla tərcümə etmişdir.

Bədii tərcümə iki fərqli dilin leksik, qrammatik, sintaktik quruluşunun, eyni zamanda bu dildə danışan xalqın mədəniyyəti, tarixi, məişəti, adət-ənənə və inanclarının qarşılıqlı müqayisə olunmasıdır. Belə bir müqayisə zamanı orijinal və tərcümə mətnlərində boşluq, probel, yəni lakunların yaranması olduqca təbiidir. İstənilən bədii əsəri tərcümə edərkən lakunlarla işin alqoritmini qurmaq və onların tərcümə mətnində adaptasiyasını təmin etmək vacibdir.

"Ayvənhəu" tarixi roman olduğu üçün əsərdə tarixizmlərə tez-tez rast gəlirik. Dilin lüğət tərkibi xalqın tarixi inkişafı və mədəniyyətini əks etdirir. Sözlər ölkə tarixində baş verən müaharibələr və onun fəsadları, siyasi hadisələr, eyni zamanda elmi, texniki və mədəni inkişafın canlı şahididir. Məlumdur ki, dildə ümumişlək olmayan sözlərin bir növü də köhnəlmiş sözlərdir. Köhnəlmiş sözlər tarixizm və arxaizmlər olmaqla iki qrupa bölünürlər. Zaman keçdikçə dildə bəzi anlayışlar qalır, lakin onları ifadə edən sözlər köhnələrək müasir dövrdə yeni sözlərlə əvəz olunur. Bu tip sözlər **arxaizmlər** adlanır. Tarixdə mövcüd olan bəzi anlayışlar və onları ifadə edən sözlər isə zaman keçdikçə ümumişləklik xüsusiyyətini itirərək təmamilə yox olur. Belə sözlər **tarixizmlər** adlanır. Tarixizmlər müasir dövrdə artıq istifadə olunmayan predmet, anlayış və realiləri ifadə edən sözlər və sabit söz birləşmələridir. Tarixizmlərin aşağıdakı tematik qrupları fərqləndirilir: geyim adları, pul vahidləri, məişət və əmək əşyaları, ölçü və çəki vahidləri, titullar, peşə və vəzifə adları, nəqliyyat növləri, yemək və içki adları, xəstəlik adları və s. bildirən sözlər. (12) Hər ikisi passiv leksikaya daxil olsa da, arxaizmlərdən fərqli olaraq, tarixizmlərin müasir dilin aktiv leksikasında qarşılığını tapmaq qeyri-mümkündür. Bu faktor öz növbəsində tarixizmlərin digər dillərə tərcüməsi prosesini çətinləşdirir. Köhnəlmiş sözlər ekvivalentsiz leksik vahidlər hesab olunur və hədəf mətndə boşluq, yəni lakun formalaşdırırlar. Arxaizm və tarixizmlərin tərcüməsi zamanı transliterasiya, kalka, təxmini və təsviri tərcümə üsullarının istifadə olunur. Bəzən tərcümədə köhnəlmiş söz buraxılır və tərcümə mətninin oxucusu bunun fərqinə varmır. "Ayvənhəu" tarixi romanında istifadə olunan **"haughtily"** (təkəbbürlə), **"jousting"** (cəngavər turniri), **"Hospitaller"** (ioahançı cəngavər), **"thrice"** (üç dəfə), **"Templar"** (monax cəngavər), **"groom"** (xidmətçi), **"lance"** (nizə), **"ensuing day"** (səhəri gün), **"truncheon"** (toppuz), **"talent"** (talent – qızıl yaxud gümüş sikkə), **"zecchin"** (zekin – qızıl sikkə), **"cardecu"** (kardeku – metal sikkə), **"asper"** (asper – gümüş sikkə), **"thane"** (tan – zadəgan titulu) kimi sözlər XII əsr ingilislərin məişəti, adət-ənənələri və maraqlarını əks etdirir. Əsərdə köhnəlmiş sözlərin istifadəsi o dövrün təsvirini vermək, milli və realistik kolorit yaratmaq funksiyası daşıyır. Q.Bayramov köhnəlmiş sözlərin daşıdığı məna yükünü, emosional-ekspressiv çalarları hədəf mətndə olduğu kimi qoruyub saxlamağa çalışmışdır. Orijinal mətndə verilmiş, tərcümə mətnində lakun formalaşdıran köhnəlmiş sözlərdən bir neçəsinin təhlilinə nəzər salaq:

Nümunə № 1

1. Orijinal mətn: A second squire held aloft his master's **lance**, from the extremity of which fluttered a small banderole, or streamer, bearing a cross of the same form with that embroidered upon his cloak. [4, s. 36]

Tərcümə mətni: O biri silahdaşıyan ağasının irəliyə doğru tuşlanmış **nizəsini** ikiəlli tutaraq addımlayırdı: nizənin ucuna kiçik bir bayraq keçirilmiş, bayrağın üzərində mantiyanın üstündəki kimi xaç şəkli vardı. [2, s. 23]

Məxəz mətndə istifadə olunan **"lance"** sözü tarixizmdir. Ekvivalentsiz leksik vahid olduğu üçün **"lance"** sözü hədəf mətndə lakun formalaşdırmışdır. Yaranmış lakun Azərbaycan dilində "nizə" sözü ilə kompensasiya olunmuşdur.

2. Lakunar vahid (ekvivalentsiz leksik vahid): "lance"; lakun: "nizə"

3. Ekvivalentsiz leksik vahidin mənşəyi və ifadə etdiyi mənalar: nizə (ing.d. spear; rus d. копьё) – qədimdə atıcı, deşici, kəsici alət olub həm ovçuluq və balıqçılıq, həm də döyüşlərdə geniş istifadə olunmuşdur. Nizələrin fərqli növləri mövcuddur. Orta əsrlər Avropa, Asiya, Orta Şərq, Şimalı Afrikada cəngavər turnirlərində soyuq silah qismində istifadə olunan cəngavər nizəsi ingilis dilində "lance" adlanırdı. "Lance" XI əsrin sonlarından etibarən məşhurlaşan cəngavər turnirlərində cəsarət və gücünü nümayiş etdirən cəngavərin aparıcı silah növü hesab olunurdu. Orta ingilis dilində "lance" sözü latın dilində **"lancea"**, qədim fransız dilində **"lance"** (isim) və **"lancier"** (fel) sözlərindən yaranmışdır. [14] Süvari döyüşçülər və cəngavərlər tərəfindən işlədilən silah, dəmir yaxud polad ucluğa malik olub taxtadan düzəldilirdi. Nizə, mizraq və ya cida kimi

oxşar soyuq silah növlərindən fərqli olaraq, cəngavər nizəsi daha təhlükəsiz idi və atmaq, deşmək, kəsmək üçün yararlı hesab olunmurdu. Orta əsrlər cəngavər turnirlərində istifadə olunan cəngavər nizəsi, qılınc və balta kimi soyuq silahlar iti ola bilməzdi. Ölümcül zərbələr endirən silahlar əsl döyüşlərə saxlanılırdı.

«Универсальная энциклопедия Кирилла и Мефодия» adlı ensiklopediyada "lance" sözü qoruyucu əl diski, məhdudlaşdırıcı çarx və nazik ucluğa sahib soyuq silah, cəngavər nizəsi olaraq şərh edilmişdir. Ensiklopediyada qeyd olunur: "Cəngavər turnirlərində lensin sərt ucluğu daha təhlükəsiz ucluqla, əli qoruyan disk isə yumru konusla əvəz olunurdu. Bəzi variantlarda kiçik qalxan ölçülərində olan konuslara rast gəlinirdi. Hücum zamanı lens əldə şaquli vəziyyətdə tutulurdu. Bəzi hallarda zərbənin daha dəqiq alınması üçün lensi döyüşçünün zirehində olan qarmağa yaxud qalxanın sağ tərəfində yerləşən xüsusi kəsiyə keçirirdilər. Lenslər uzunluq və çəkilərinə görə fərqlənirdilər. Cəngavər lensləri uzun olurdu (5 m qədər). Bəzən lensin milinə üzərində fərqli təsvirlər olan bayraqlar keçirilirdi..." [11]

Sözün "Oksford lüğətində" verilmiş izahı: lance (n.) – a weapon with a long wooden handle and a pointed metal end that was used by people fighting on horses in the past; lancer (n.) – in the past a member of regiment that used lances. [3, s. 860]; sözün "İngiliscə-Azərbaycanca lüğət"də verilmiş tərcüməsi: lance (n.) – 1. nizə; 2. nizə kimi batan alət/şey; to lance (v.) – nizə batırmaq; 2. lansetlə kəsib atmaq; lancer (n.) – nizə ilə silahlanmış saray əsgəri [1, s. 662].

4. Lakunun müxtəlif təsnifatlar üzrə təhlili: "lance" sözünün Azərbaycan dilində yaratdığı lakun konkret isim olduğu üçün **maddi lakun,** xüsusi bir predmeti adlandıran sözün yoxluğunu əks etdirdiyi üçün **xüsusi lakun,** ingilis və Azərbaycan dillərinin müqayisəsi zamanı formalaşdığı üçün **dillərarası lakun** hesab olunur. Cəngavər obrazı, onun geyimi və silahı orta əsrlər ingilis tarixini xarakterizə edir. Bu səbəbdən "lance" sözü ingilis dilinə xas reali və sözün tərcümə dilində yaratdığı lakun **motivləşən lakundur.** Lakunun yaranması ekstralinqvistik amillərlə əlaqəli olduğu üçün **mütləq etnoqrafik və kulturoloji lakun** (etnoqrafik lakun) hesab olunur.

5. Lakunun eliminasiyası üsulu: "Lance" sözü tərcümə mətnində "nizə" olaraq verilmişdir. Maraqlıdır ki, bu söz rus dilinə bəzən "копьё", bəzən isə transkripsiya üsulu ilə «ланс/лэнс» şəklində tərcümə olunur. "Spear" və "lance" sözlərinin hər ikisi dilimizə "nizə" şəklində tərcümə olunsa da, onların döyüş meydancasında rolu və istifadəsi fərqlidir. Əsərin orijinal mətnində tez-tez rast gəldiyimiz "lance" sözü əslində, nizənin bir növü, konkret olaraq "cəngavər nizəsini" ifadə edir. Demək Q.Bayramov sözü hədəf dilə ümumiləşdirmə üsulu ilə tərcümə etmişdir. Bu zaman xüsusi anlayışı ifadə edən predmet daha ümumi anlayışı ifadə edən predmetlə əvəz olunmuşdur.

Nümunə № 2

1. Orijinal mətn: The poor **Hospitaller** was hurled from his saddle like a stone from a sling. [4, s. 116]

Tərcümə mətni: Yazıq **iohançı** daş kimi sapanddan çıxdı. [2, s. 99]

Orijinal mətndə istifadə olunmuş "hospitaller" sözü hədəf mətndə lakun formalaşdırmışdır. Bu söz tərcümə mətnində "iohançı" olaraq verilmişdir.

2. Lakunar vahid (ekvivalentsiz leksik vahid): "hospitaller"; lakun: "iohançı"

3. Ekvivalentsiz leksik vahidin mənşəyi və ifadə etdiyi mənalar: "Hospitaller" – orta əsrlərdə katolik hərbi ordenin üzvüdür. Orta əsrlər boyu mövcud olmuş dini ordenlərdən ən məşhurları **"Hospitallers"** (iohançı cəngavərlər) və **"Templars"** (monax cəngavərlər) hesab olunur. "Hospitallers" ordeni XI əsrin sonu-XII əsrin əvvəllərində Yerusəlim krallığında Birinci səlib yürüşündə (1096-1099) qazanılan qələbənin nəticəsində təsis edilmişdir. Bu orden Müqəddəs Vəftizçi İohannın (Yəhya peyğəmbər) adı ilə əlaqəli şəkildə yaranmışdır. "İohançılar" (hospitallers) müqəddəs torpaqlara yollanan zəvvarların qayğısına qalır, xəstələri müalicə edirdilər. Ordenin üzvləri Yerusəlim krallığının süqutundan sonra Rodos adasında, daha sonra 1798-ci ilə qədər Maltada fəaliyyət göstərmişdilər. Or-

Сегодня в республике сложилась ситуация, когда средством обучения для определённой части учащейся молодёжи выступают иностранные языки. Это требует достаточно глубокого знания языка, истории, литературы и культуры народа, на языке которого полностью или частично осуществляется процесс обучения. В подобной учебной ситуации особенно необходимо бережное отношение как к языку обучения, так и к культурным и прочим ценностям народа или страны – носителя этого языка, так как обучение на любом языке на современном этапе обучение должно опираться на лингвокультурологическую основу. Этот факт влияет на содержание и качество тех школьных и вузовских программ, на основе которых обучается подрастающее поколение.

Несмотря на часто изменчивые исторические и политические акценты, в данном случае необоснованные и противоречивые мнения при преподнесении учебного материала просто неприемлемы. Это требует от составителей и создателей учебных ресурсов, от преподавателей умелого подхода в процессе приобщения учащихся к ним, мотивирования интересов, поисков и стремлений молодёжи. К сожалению, порой созданные и методически апробированные десятилетиями учебные пособия отступают на второй план по причине необходимости создания национальных учебников с учётом государственных интересов страны и реалий времени, что не всегда положительно сказывается на результатах обучения. Мы за то, чтобы ресурсы, предлагаемые в качестве учебных, были созданы с учётом опыта и традиций предыдущих поколений, мотивации учебной деятельности обучающихся, интересов страны и народа, глубокого понимания общечеловеческих цен-

ностей, обеспечения качества на любой ступени и уровне образования.

В настоящее время довольно остро стоит проблема рецепции и трансформации учебных материалов в иноязычной аудитории.

Она одна из часто обсуждаемых проблем не только в культурологии, сравнительном языкознании, литературоведении и переводоведении, но и в методике. Примечателен тот факт, что сейчас во многих странах предпочтение отдаётся билингвальной и полилингвальной модели обучения, что предполагает изучение второго, третьего и большего количества языков путём введения определённых учебных дисциплин. На наш взгляд, процесс изучения любого иностранного языка необходимо рассмотреть как средство и способ приобщения к иной культуре и литературе, т.е., как условие их восприятия на инонациональной почве. В этом случае вопросы восприятия и рецепции языка и литературы из лингвистической и литературоведческой плоскости переносится в методическую. Учитывая, что учебно-воспитательный процесс, интеллектуальное развитие учащихся при подборе учебного материала требует как коммуникативной и информативной, так и этнокультурной наполненности, данный факт актуализирует основные принципы культурологического подхода к усвоению языка и культуры (антропологический, деятельностный и семиотический). Исходя из практики и жизненного опыта, мы наблюдаем возможность успешной реализации учебных стандартов в определённом контексте, каковым и являются также литературные тексты, заключающие в себе информацию об истории, фольклоре, образе жизни, нравах народа – носителя изучаемого языка, о его материальных и духовных ценностях.

Литературные тексты создают возможность для организации интегрированных уроков. На них больше возможностей взаимодействия с языком, историей, географией, музыкой, изобразительным искусством, кино и архитектурой и т. д., нежели на других уроках. Конечно, от авторов-составителей учебников зависит умение подобрать информационно насыщенные произведения, которые смогут заинтересовать учащихся, дать возможность раскрыться их таланту и способностям. Создание условий для реализации конкретных целей урока, для творческого применения усвоенного учащимися, организации дискуссий и дебатов, высказывания собственного мнения, составление устного или письменного отзыва о проделанной на уроке работе, – это задача учителя языка и литературы, который должен умело использовать соответствующие учебные комплексы и дополнительную литературу.

Будучи соавтором школьных программ и учебников по литературе с 2005 года и имея опыт работы над их составлением (речь идёт о классах и школах с русским языком обучения), мы постарались создать учебные ресурсы, включающие лучшие образцы русской, азербайджанской и зарубежной литературы. У учащихся навыки чтения, анализа, творческого письма и устной речи, вырабатываются в процессе приобщения к общечеловеческим духовным ценностям, присущим культуре, образам жизни и мышления, миропониманию народов мира.

Говоря об учебных ресурсах для школ и вузов нашей республики, включающих произведения русской литературы, приходим к выводу, что вопрос рецепции и трансформации русской литературы тесно связан с исторической ролью и миссией России в Европе и Евразии, в судьбе нашего народа. Любовь и интерес к любой литературе, её востребованность в иноязычной среде продиктованы её объективным отношением, духовной близостью к языку и культуре воспринимающей стороны. В то же время немаловажное значение имеет мотивация обучения на русском языке, востребованность получения образования на этом языке. В этом плане следует рассматривать отношение Азербайджана к русскому языку и литературе, другим ценностям русского мира.

Обновление содержания учебников по языку и литературе с включением медиатекстов, соблюдением лингвокультурологического принципа введения материала предусматривает дальнейшее усовершенствование учебных

стандартов (программ), каковыми являются предметные куррикулумы по русскому языку и литературе, а также изменение требований «Рамок национальной квалификации» для ступеней и уровней образования.

Литература

1. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi // https://e-qanun.az/framework/39622 (Национальные рамки квалификаций по пожизненнему обучению в Азербайджанской республике).
2. Образовательная программа (куррикулум) по литературе (с русским языком обучения) для общеобразовательных школ азербайджанской республики (V-XI классы) // https://www.arti.edu.az/noduplоad/editor/files/13_%20%C6%8Fd%C9%99biyyat-Rus-kurikulum.pdf
3. Джафаров Т.Г. О необходимости широкого применения билингвальной модели обучения в Азербайджане // Материалы V Международной научно-практической конференции под эгидой МАПРЯЛ, с.54-59. https://www.elibrary.ru/item.asp?id=44116067.
4. Ядровская Е.Р. Методика преподавания литературы — методике преподавания РКИ: теория, практика, синергия // Программа XV Конгресса МАПРЯЛ, СПб, 2023, 12-16 окт.

Telman VƏLİXANLI (CƏFƏROV)

TƏHSİL VƏ ƏDƏBİYYAT

Son zamanlar müxtəlif təhsil pillə və səviyyələrində ədəbi mətnlərdən istifadə, mətn üzərində iş, tədris proqramlarında ədəbiyyatın təmsil olunması, dil və ədəbiyyat dərsliklərində təqdim edilən uşaq ədəbiyyatı nümunələri kimi məsələlər mətbuatda və sosial şəbəkələrdə tez-tez səsləndirilir. Xüsusilə də respublikamızda orta ümumi təhsil pilləsində tətbiq olunan "Ədəbiyyat" fənn kurikulumları (təlim Azərbaycan və rus dillərində aparılan məktəblər üçün) və onların əsasında tərtib edilən "Ədəbiyyat" dərslikləri həm ideya-mövzu, həm elmi-metodiki, həm də yetişməkdə olan gənc nəsillərin ədəbi təhsili, ədəbiyyata marağı, şəxsiyyət və vətəndaş kimi formalaşması, müvafiq eşidib-anlama, şifahi və yazılı nitq vərdişləri, təhlil və müqayisəetmə bacarıqları, mövzu və problemlərin təqdimatı, onlara şəxsi münasibətin, rəyin bildirilməsi nöqteyi-nəzərindən kompetensiyaların əldə olunması planında müzakirə edilir.

30 ildən artıq keçid mərhələsi ən yeni dövr üçün Azərbaycanda təhsilin inkişaf konsepsiyasının və strategiyasının hazırlanması və həyata keçirilməsi baxımından bitməmiş bir proses təsiri bağışlamaqdadır. Bu isə özünü həm də dövlət dilinin öyrənilməsi, tədrisi, təbliği, fəaliyyət dairəsinin genişlənməsi, bu istiqamətdə müvafiq bilinqval və polilinqval lüğətlərin, tədris resursları bazasının (o cümlədən, elektron) yaradılmasında, müxtəlif təhsil pillə və səviyyələrində əcnəbi dillərin tədrisi, mənimsədilməsi standartlarında, metodikası və metodologiyasında, ali məktəblərdə müvafiq təhsil, humanitar və sosial ixtisaslar üzrə dillərin tədrisi strategiyası və proqramlarında, bütövlükdə mütəxəssis hazırlığında büruzə verir. Bircə o faktı vurğulamağa dəyər ki, yenidən müstəqillik əldə etdiyimiz bu 30 ildən artıq zaman kəsiyində dövlət dilimizin respublikamızda və dünyada xarici dil kimi öyrədilməsi ilə bağlı universitetlərimizdə mütəxəssis hazırlığı ixtisası olmadığından buna müvafiq tədris resurslarımız, o cümlədən, uyğunlaşdırılmış bədii mətnlərimiz yoxdur. Müstəqil dövlətə, geniş yayılma arealına, böyük diaspora və 40-50 milyon əhaliyə malik bir

xalqın dilinin, ən nəhayət, əcnəbilər üçün cəlbedici əmək bazarı olan bir ölkənin dövlət dilinin səmərəli şəkildə öyrədilməsi üçün təhsilin bütün səviyyələrində uyğun ixtisas və ixtisaslaşmalar təklif olunub, əvvəlcə "Azərbaycan dili (xarici dil kimi)" ixtisası bakalavriat səviyyəsində ixtisasların təsnifat cədvəlinə daxil edilməlidir. Nə qədər ki, bu, yoxdur, biz nə adekvat tədris resursları yarada biləcək, nə ölkədə, nə də ölkədən kənarda müasir standartlara əsaslanan metodika ilə dilimizi tədris və təbliğ edə biləcəyik.

Ədəbiyyat fənni üzrə proqramların (fənn kurikulumlarının) və dərsliklərin yaradılması problemi həmişə aktual olub. Son bir neçə ay ərzində iştirak etdiyimiz tədbirlərdə bu istiqamətdə səslənən fikirlər, məsələn, Yazıçılar Birliyində Xalq şairi Sabir Rüstəmxanlının "Vətəndaşlığın əlifbası" kitabının təqdimatında, dərslik müəllifi kimi Birliyin sədri, Xalq yazıçısı Anarla göstərilən mövzuda görüşümüzdə, "Ədəbiyyat" dərsliklərinin Elm və Təhsil Nazirliyi (ETN), Dövlət İmtahan Mərkəzi ekspertləri ilə müzakirələrində, həm də ictimai rəydə səslənən fikirlər, filologiya üzrə elmlər doktoru Elnarə Akimovanın "Ədəbiyyat qəzeti"nin 27 may 2023-cü il tarixli sayında çap olunmuş "Dərsliklərdə yer alan uşaq ədəbiyyatının vəziyyəti" adlı təhlil xarakterli məqaləsində dərslik müəllifləri üçün verilən konkret reseptlər bizi də bu istiqamətdə digər vacib məqamlar üzərində dayanmağa sövq etdi. Sadalanan faktlara, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Fəxrəddin Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" kitabının bu tədris ilində açıq internet resursu kimi istifadəyə verilməsini də əlavə etmək olar. Göstərilən məqamlar və faktlar, ümumiyyətlə, son dövrlərdə bəzən açıq, çox vaxt isə pərdəarxası diskursda səsləndirilən "*Orta məktəbin tədris proqramında ədəbiyyatın tədrisinə lüzum varmı?*" sualı ilə ortaya çıxarılan problemə də aydınlıq gətirməsinə imkan verəcək.

Məqalənin bu yerində bizə çox ciddi görünən bir neçə elmi-metodiki və təşkilati məsələyə münasibət bildirməyin yerinə düşdüyü qənaətindəyik:

1) Ölkədə Prezident sərəncamı ilə təsdiq olunmuş təhsilin inkişafı üzrə "Strategiya"nın konkret "Fəaliyyət planı" üzrə icrası, orta təhsildə kurrikulum islahatı, interaktiv və inteqrativ təlimin, bunlara uyğun ümumi təhsilin tədris standartlarının və planlarının, resurslarının yenilənməsinə ehtiyac duyulduğu, məktəb şagirdləri üçün olduqca mürəkkəb və səmərəsiz qiymətləndirmə qaydalarının və meyarlarının tətbiqi, müəllimlərin sertifikasiyası, ali məktəblərin bakalavriat və magistratura səviyyələri üçün tədris standartlarının təzələndiyi, bütün təhsil pillə və səviyyələri üçün Milli Kvalifikasiya Çərçivəsi tələblərinin aktuallaşdırılmalı olduğu bir şəraitdə tədris fənləri üzrə elmi-metodiki jurnalların, o cümlədən, "Azərbaycan dili və ədəbiyyatı" məcmuəsinin nəşrinin dayandırılması təəccüb doğurur.

2) Orta və ali məktəblər üçün bütün fənn və kurslar üzrə tədris resurslarının, həmçinin ədəbiyyat üzrə proqramların, dərsliklərin, müntəxəbatların və metodiki vəsaitlərin müzakirə və təsdiqi mexanizmi də aydın deyil. Əvvəllər bu sahəyə cavabdeh olan Təhsil İnstitutunun fəaliyyəti indi daha çox inzibati-təşkilati işlərə, Elm və Təhsil Nazirliyinin xüsusi layihələrinin icrasına yönəldilib ki, bu da hazırda tədrisin metodikası, ayrı-ayrı fənlər, bütövlükdə şagird fəaliyyətinin qiymətləndirilməsi məsələləri üzrə meyar və mexanizmlərin elmi-metodiki əsaslarının müəyyən edilib tədris müəssisələrə ünvanlanmasına imkan vermir.

3) Ölkədəki təhsil proqramları və planları, ilk növbədə, sosial sifarişə, mənəvi tələbata və əmək bazarının tələbinə uyğunlaşdırılmalıdır. Əgər uşaq bağçasında və məktəbdə insanlar övladları üçün təlim dili kimi dövlət dili əvəzinə əcnəbi dillərdən birini seçirlərsə, bunu özləri və övladlarının gələcəyi üçün daha əlverişli və perspektivli hesab edirlərsə, deməli, ölkənin təhsil siyasətinə cavabdeh icra strukturları müvafiq elmi-metodiki yanaşmaların tətbiqi və intellektualların cəlbi ilə mövcud qanunvericilik aktlarına söykənərək, istifadə olunan tədris proqramlarına və resurslarına milli-mədəni məzmun gətirməli, məktəbəhazırlıqdan və ibtidai təhsildən başlanılmaqla bütün tədris müəssisələrində dövlət dilinin iştirakı ilə bilinqval təlim modelinin tətbiqinə (yəni əcnəbi dillə yanaşı təlimdə dövlət dilinin eyni həcmdə təmsil olunmasına) şərait yaratmalıdır. Azərbaycan Respublikası Konstitusiyasının, "Təhsil" və "Ümumi təhsil" haqqında qanunların tələbinə, Milli Kvali-

fikasiya Çərçivəsinin orta məktəb məzunları üçün müəyyən etdiyi bacarıq və kompetensiyalara uyğun olaraq, təlim qeyri-dövlət dilində aparılan məktəb və siniflərdə Azərbaycan dilinin tədrisi genişləndirilməklə yanaşı, ölkə tarixinin, mədəniyyətinin, coğrafiyasının öyrədilməsi şərti ilə bərabər, ədəbiyyatımızın öyrədilməsi məsələsi də vurğulanır. Bu isə həm də ədəbiyyatın təlim dilində (rus, ingilis, fransız) tədrisi kimi anlaşılır. Təəssüf ki, 2019-cu ildə təsdiq olunmuş "Ümumi təhsil haqqında qanun"un bütün oxunuşlarından keçmiş layihəsindən dil, ədəbiyyat, mədəniyyət və tariximizlə əlaqədar azərbaycanşünaslıq tədris materiallarının dövlət dilində təqdim edilməsi tələbi çıxarıldığından bu gün bu istiqamətdə bizi qane edən müvafiq tədris resurslarının yaradılması problemi ilə üz-üzə qalmışıq. Konkret olaraq, Azərbaycan ədəbiyyatı mətnlərinin orijinalın dilində öyrədilməsinin vacibliyi ortaya çıxıb. Digər tərəfdən, bu gün təlim dili adlandırdığımız əcnəbi dillərlə paralel olaraq ədəbiyyatımızın dövlət dilində təqdimatı təcrübəsi və metodologiyası (hazırda şagirdlər Azərbaycan ədəbiyyatı mətnləri ilə yalnız tərcümədə tanış olurlar) məsələnin başqa bir aspekti kimi nəzərdən keçirilməlidir. Vəziyyətdən çıxış məqsədilə təlim əcnəbi dillərdə aparılan ümumi orta təhsil müəssisələri üçün Elm və Təhsil Nazirliyinə təklif etdiyimiz bilinqval təhsil modelinin elmi-metodiki, linqvodidaktik əsasları, tədris standartları və planları, müvafiq tədris resurslarının yaradılması meyarları və metodikası, eləcə də təlim dövlət dilində aparılan tədris müəssisələrimizdə xarici dillərin öyrədilməsi üçün əlverişli yaş dövrünün (2-12 yaş), tədris proqramlarının və planlarının təklif olunması barədə əsaslandırılmış fikirlərimizi 2015-ci ildən başlayaraq, davamlı olaraq mətbuatda səsləndirmiş və aidiyyəti üzrə müvafiq instansiyalara ünvanlamışıq...

Yuxarıda toxunduğumuz məsələlər, bəlkə də kiməsə dilə və ədəbiyyata aid olmayan məsələ kimi görünə bilər. Lakin dövlət dili və ədəbiyyatımızın öyrədilməsi, xüsusən də əcnəbi dillərdə aparılan təlimdə azərbaycanşünaslıq materiallarının sistemsiz, müvafiq tədris standartları müəyyən olunmadan təmsil edilməsi tələbi mövcud qanunvericilik bazası ilə real tədris situasiyası arasında böyük bir uçurumu üzə çıxarır. Eyni zamanda, orta məktəbdə ədəbiyyat fənn kurikulumunda, dərsliklərin tərtibatında elə məsələlər var ki, onlar həm təlim dövlət dilində olan, həm də qeyri-dövlət dilində aparılan siniflər üçün səciyyəvidir. E.Akimova öz məqaləsində "Ədəbiyyat" dərsliklərinə daxil edilmiş mətnlərin ideya-məzmun və bədii məziyyətlərinə toxunur. Bəs həmən o aspektlərdə təlimi dövlət və qeyri-dövlət dillərində aparan məktəblər üçün hazırlanmış "Azərbaycan dili" dərsliklərində təmsil olunmuş bədii mətnlərin tərbiyəvi və linqvokulturoloji material kimi seçimi bizi qane edirmi? Mətnlər müvafiq qrammatik və orfoqrafik qaydaların mənimsədilməsi, məzmun xətlərinin, standart və altstandartların tələbinə uyğun bilik, bacarıq, vərdiş, səriştə və kompetensiyalar əldə olunması üçün tapşırıqların yerinə yetirilməsinə şərait yaradırmı? Şagirdlərin yaş səviyyəsinə uyğundurmu? İnsaf naminə söyləmək lazımdır ki, təlimi dövlət dilində aparan məktəblərimiz üçün yazılan son nəsil "Azərbaycan dili" dərslikləri (*Rafiq İsmayılovun rəhbərliyi ilə müəllif kollektivi*) qrammatik biliklərin, düzgün oxu, yazı və nitq vərdişlərinin bədii mətnlər əsasında mənimsədilməsi, dil və ədəbiyyatın sıx inteqrasiyası üzərində hazırlanır. Bu müasir yanaşma və tərtibat prinsipinin məktəblərimizə yol tapmasını mütərəqqi hal hesab etməklə yanaşı, a) onun Azərbaycan dilinin dövlət dili kimi tədris olunduğu siniflərdə, eləcə də bütün tiplərdən olan məktəblərimiz üçün əcnəbi dillər üzrə hazırlanan dərsliklərin hamısında tətbiqini; b) eyni zamanda şagirdlərin yaş xüsusiyyətinə və idrak səviyyəsinə uyğun yığcam folklor və yazılı ədəbiyyat nümunələrinin seçilməsini və ya uyğunlaşdırdılmış bədii mətnlərin istifadəsini daha səmərəli hesab edirik. Deyək ki, V sinif üçün "Azərbaycan dili" dərsliyində müəlliflərin özləri tərəfindən hazırlanan mətnlərin əksəriyyəti ətraf mühitlə, respublikamızın tarixi, coğrafi və turistik ünvanları, milli-mədəni dəyərlərimiz ilə tanışlıq, ensiklopedik biliklər əldə etmək, hətta ilk yardım göstərmək, şagirdlərin şifahi və yazılı nitqininin zənginləşməsi, səlisliyinin və ifadəliliyinin güclənməsi nöqteyi-nəzərindən əhəmiyyət kəsb etməsi şübhə doğurmur. Lakin bu dərslikdə qrammatik tapşırıqların yunan miflərinin süjetləri, M.Şəhriyarın "Heydərbabaya salam"ı, M.Arazın

"Göygöl"ü və s. ədəbi nümunələr əsasında verilməsini daha faydalı hesab edirik. Əsas məsələ həm də ondan ibarətdir ki, bu tipli dərsliklər dil və ədəbiyyat dərslərinə qoyulan əsas tələblərdən biri – dərsin 40 faizdən az olmayan vaxtının bədii mətn üzərində qurulmasına (*hermenevtik yanaşma*), məktəblilərdə və gənclərdə ədəbiyyata marağın artırmasına xidmət etsin.

4) Qeyri-dövlət dillərində təlim dedikdə, ilk növbədə, təlimin rus dilində aparıldığı siniflər göz önünə gəlir. Məsələ ondadır ki, bu sahədə məktəblərimizin, fənn müəllimlərinin, tədrisin metodikası ilə məşğul olan alimlərimizin və ETN-nin müvafiq şöbələrində çalışan mütəxəssislərin kifayət qədər təcrübəsi var. Bu istiqamətdə tədrisin böyük ənənəsi olmaqla yanaşı, həm də ictimai nəzarət, mətbuat da öz işini görür. Araşdırmalarımız göstərir ki, tədrisi ingilis dilində, müxtəlif tədris proqramları adı altında aparan özəl məktəblərimizdə əksər hallarda Azərbaycan dili həftədə 2 saat dövlət dili kimi tədris edilməkdən savayı heç bir azərbaycanşünaslıq tədris materialı yer almır. Bu məktəblərdə yalnız dünya ədəbiyyatı kursu ingiliscə tədris olunur və milli ədəbiyyatımız nəinki dövlət dilində, heç ingiliscə də tədris edilmir. Son zamanlar bəzi müəlliflərin eyni əsərin bilinqval və polilinqval mətnlərini yaratma cəhdi (*Kamran Nəzirli*), Yazıçılar Birliyinin və xüsusilə *Səlim Babullaoğlu*nun təşəbbüsü ilə ədəbiyyat nümunələrimizin xaricdə ingiliscə nəşri təlim ingilis dilində aparılan məktəblər üçün ikidilli (Azərbaycan və ingilis dillərində) tədris resursu yaratmağa imkan verir. Bu məqalədə göstərilən məsələnin digər tədris-təşkilati, pedaqoji və tərbiyəvi aspektlərinə toxunmasaq da, aidiyyəti instansiyaların məsələyə münasibət bildirməsini və reaksiya göstərməsini vacib sayırıq.

Geniş mənada götürsək, "Ədəbiyyat" fənn kurikulumu uşaqlarda şifahi və yazılı nitq vərdişlərinin formalaşdırılması, bədii mətnlərin ifadəli və məqsədli oxunuşu, onlarda qoyulan mövzu, ideya, problemlərə, hadisə və xarakterlərə şagirdlərin obyektiv münasibət bildirilməsi, bu zaman yoldaşları ilə dialoq qurma, digərlərinin fikrinə qarşı dözümlülük nümayiş etdirmə, yaradıcı münasibəti yazılı rəy, inşa, esse şəklində ifadə etmə, mətnin bədii xüsusiyyətləri barədə təsəvvürə malik olma kimi vərdiş və bacarıqların aşılanmasına, ədəbiyyat nəzəriyyəsi üzrə minimum biliklərin mənimsədilməsinə istiqamətlənib. Altstandartlar folklor nümunələrində, müxtəlif janrlara aid ədəbi mətnlərdə bədii ifadə vasitələrinin və onların funksiyasının müəyyən olunması, monoloqlarda və dialoqlarda, təsvir və xarakterlərin təhlili zamanı və yazı işlərində həm yeni sözlərin, həm də metaforik ifadələrin işlədilməsi ilə nitqin ifadəliliyinə, səlisliyinə, axıcılığına və məntiqliyinə nail olunması üçündür. V-IX siniflər üçün "Ədəbiyyat" fənn kurikulumunu təhlil edərkən, təbii ki, interaktiv dərsin xüsusən motivasiya, tədqiqat sualları, yaradıcı tətbiqetmə və refleksiya mərhələlərinin məhz bədii mətnlər üzərində iş üçün, gənc nəsildə ədəbiyyata marağın oyadılması, onların kreativ, düşünən, təəssübkeş, vətənpərvər, doğma yurda, elə bağlı, adət-ənənələrə tanış və sayğılı, ətrafındakılara, canlı aləmə, ekologiyaya diqqətcil, gəldiyi rəy və qərarlarda qətiyyətli olmaları kimi cəhətlər formalaşdırılması diqqəti cəlb edir. Ədəbiyyat fənn kurikulumu, dərslik və müəllim üçün metodiki vəsait fəndaxili və fənlərarası inteqrasiyaya geniş yol açdığı üçün bədiilik və informativlik cəhətdən uğurlu və uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilən nəsr mətnləri, ifadəli şeir parçaları, portret və xarakterlər, mövzu və münaqişə barədə dolğun təsəvvür yarada bilən monoloq və dialoqlardan ibarət dramatik əsərlər dərsləri əsl polemika meydanına çevirə bilir. Əslində əsərin müəllifi moderator funksiyasını üzərinə götürmüş ədəbiyyat müəllimi ilə birgə dərsin virtual qurucusuna çevrilir. Yəni müəllif öz mətnyaratma missiyası, bacarığı və istəyi ilə böyük iş görür, tədris prosesinin "iştirakçısı"na çevrilir.

Burada iki məqam üzərində dayanaq. *Birincisi*, yuxarıda göstərilən məzmun xətlərinə uyğun müəyyən olunan standartlar və altstandartlar üzrə sinifdə iş aparmaq məqsədilə bədii mətn seçmək üçün imkanımız, müəlliflərimiz varmı? Təbii ki, müəllif, mövzu və əsər axtarışı da tədris proqramının tələbindən irəli gəlir. Burada əsasən klassik ədəbiyyatımız, məktəb proqramında oturuşmuş, tədris ənənəsi olan müəllif və əsərlər köməyə gəlir. Sovet dövrünə təsadüf edən, sosialist realizmi metodunun məhsulu olan, lakin hələ də milli-mədəni əhəmiyyətini saxlayan

əsərlər arasından müəyyən nümunələr seçmək də mümkündür. Məsələn, 2022-ci ildə işıq üzü görmüş VII sinif üçün "Literatura" dərsliyində yer alan Sabir Əhmədlinin "Pered vzlyotom" hekayəsi əsl pedaqoqun (*müəllifin məktəb müəllimi və direktoru kimi fəaliyyəti mövzuya və obrazların davranış, düşüncə tərzinə yanaşmasında özünü göstərir*) müəllim və şagird münasibətləri, hamımıza ən xoş və unudulmaz həyat təcrübəsi qazandıran məktəb mühitinin canlandırılması, tərbiyəvi-psixoloji problemlərin ciddi şəkildə qoyulması və həlli mexanizminin göstərilməsi baxımından əhəmiyyətli mətndir. Bəs ən yeni ədəbiyyatımız? *Dərsliklər üzərində 15-20 illik iş təcrübəmiz göstərir ki, hazırda gündəmdə olan, şagirdlərin müasiri hesab edilən və bu günün məsələlərini işıqlandırmaqla, çağdaş dünya ədəbiyyatı üçün xarakterik mövzulara müraciət etməli və uşaq təxəyyülünü canlandıra bilən, onu düşündürücü və təəccübləndirici aləmlərə gətirən müasir bədii mətnlər tapmaq çox çətindir.* Ümumiyyətlə, məhsuldar yaradıcılığı ilə gündəmdə olan, 5, 10, 15 cildlik əsərlər çap etdirən əksər müəlliflərimizin – müasirlərimizin əsərləri içərisindən bəzən məktəb üçün mətn seçmək problemi var. Dərslik müəllifi olaraq, bunu etifar etməkdən çəkinmirik. Fikrimizcə, hansısa müasirimizin 50-100 ildən sonra kiminsə onu başa düşəcəyinə ümid etmə haqqı və ya "mən yazıram, oxucu məni başa düşmürsə, bu, onun problemidir" rəyi yersizdi, o, ilk növbədə, öz dövrü üçün üzərinə yazıçı məsuliyyətini götürüb. Burada xatırlatmaq istəyirəm ki, müasir interaktiv dərsin ən azı üç mərhələsi (*motivasiya, yaradıcı tətbiqetmə, relaksiya*) əsər və müəllif seçimi zamanı bu meyarı ortaya qoyur.

İkinci məqam fənn proqramlarında hər hansı əsərdən, o cümlədən şeirlərdən parçaların əzbərlənməsinin tövsiyə olunmaması problemidir. Müəlliflərin doğum və ölüm, əsərlərin yazılma tarixləri ilə bağlı məlumatların dərsliklərə salınması da arzu olunmur. Yəni fənn kurikulumlarında belə bir tələb yoxdur. Bu məqamların test tapşırıqlarının bilərəkdən çətinləşdirilməsinə, uşaqların hafizəsinin yersiz yüklənməsinə yol açdığı fikri ilə müəyyən qədər razılaşsaq da, *uşaqların şeir parçalarını, folklor nümunələri və əsərlərdən müəyyən təsvirləri yadda saxlamaq tələbinin aradan qaldırılması bizə mübahisəli və məntiqsiz görünür. Bu gün istənilən az-çox tanınan ziyalımız klassik və müasir poeziyamızdan əzbər söyləyə bilirsə, bu, təbii ki, ilk növbədə, uşaqlıq, məktəb illərində qazanılan uğur və şəxsiyyətə başucalığı gətirən məqamdır.* Əgər kurikulum islahatı başlanandan insanlar bu qabiliyyətdən məhrum edilibsə, gələcəyimizin şəxsiyyətləri kimlər olacaq, onlar müxtəlif mövzulu məclislərdə nə danışacaqlar, faktlara necə istinad edəcəklər? Axı, şeir əzbərləmək istənilən yaş dövründə həm də yaddaşın məşqidir. Deyə bilərlər ki, əl telefonu və kompyuter bunların hamısını özü edəcək. Bəs ədəbiyyat dərslərində bilik, vərdiş, bacarıq və sərişdə qazanmaq anlayışlarını necə başa düşək? Fikrimizcə, şeir parçalarının əzbərlənməsini, istinad üçün bədii mətnlərdən parçaların yadda saxlanılmasını əzbərçiliq hesab etmək yanlış təsəvvürdür. "Ədəbiyyat" fənn kurikulumlarındakı bu boşluq aradan qaldırılmalıdır.

Yeri gəlmişkən, fənn kurikulumu deyəndə, tədris proqramı və standartları anlamı ağlımıza gəlir. Tədris proqramının isə hər beş ildənbir təzələnmə ənənəsi var (sonuncu "Təhsil qanunu"nda bu müddət "5 ildən az olmayaraq" kimi müəyyənləşdirilsə də, *2008-ci ildən istifadə olan hazırki fənn kurrikulumları, o cümlədən, ədəbiyyat proqramı ciddi suallar doğurduğu, mövcud tədris-təlim situasiyası ilə uyğunsuzluq təşkil etdiyi üçün təzələnməli, yeni məzmunlu dərsliklərin yazılmasına şərait yaradılmalıdır*).

Mövcud boşluqlardan biri də siniflər üzrə *janr məhdudiyyəti*dir. Təsəvvür edin ki, poema, dram, povest janrlarına müraciət yalnız səkkizinci sinifdən başlayaraq mümkündür. Bu məhdudiyyət bəzən göstərilən janrlarda yazılan əsərlərdən parçaların belə istifadəsini istisna edir.

Yenilənəcək ədəbiyyat proqramı üçün təkliflərimizdən biri də tərcümə ilə yanaşı, qeyri-dövlət dilində tədris aparılan siniflər üçün yazılan dərsliklərdə folklor və yazılı ədəbiyyat nümunələrinin orijinalın dilində verilməsidir. Bunun şagirdlərin dövlət dilini mənimsəməsinə, onlarda tərcüməçilik vərdişlərinin və bədii mətnlərə yaradıcı münasibətin formalaşmasına səbəb olacağı qənaətindəyik (*bu halda dərslərdə həm də yaradıcı tətbiqetmə imkanları genişlənəcək*).

Yuxarıda göstərilən boşluqlar, ədəbiyyat fənninin məktəbdəki funksiyasına, hər bir şagirdi, həm də gələcəyin böyük şəxsiyyətlərini formalaşdıran fənnin müvafiq standart və altstandartlarına hərfi yanaşma onun uşaq təfəkkürünün, dünyagörüşünün və təxəyyülünün inkişafındakı rolunu azaltmış olur. Bir anlıq təsəvvür edək ki, Qədim yunan miflərisiz, Homerin "İliada" və "Odisseya"sısız antik mədəniyyəti, Nizaminin "Xəmsə"sisiz, Firdovsinin "Şahnamə"sisiz Şərq Penessansı, Servantesin "Don Kixot"u, Dantenin "İlahi komediya"sı, Şekspirin "Hamlet"isiz Orta əsrlər tarixi, H.Cavidin "Topal Teymur", "Siyavuş" faciələrisiz türk tarixi, M.Şoloxovun "Sakit Don" və "İnsanın taleyi" əsərlərisiz birinci və ikinci dünya müharibələrinin, inqilab və vətəndaş müharibələrinin dəhşətləri barədə necə məlumatlı olmaq mümkündü?

Nə quru tarixi faktlar, nə arxiv materialları M.Şəhriyarın "Heydərbabaya salam"ı, B.Vahabzadənin "Gülüstan"ı, S.Rüstəmxanlının "Ölüm zirvəsi" və Elçinin "Baş" romanları kimi bizə Cənubi Azərbaycan sevgisini, parçalanmış Azərbaycan dərdini və azadlıq eşqimizin ifadəsini təlqin edə, o dövrün tarixi-siyasi mühitini dolğun şəkildə canlandıra bilməz, heç bir siyasi proqnoz Anarın "Ağ qoç, qara qoçu" kimi qəlbimizdə, ümidlərimizdə və perspektiv planlarımızda birləşmiş Vətən sevdasını təsəvvürə gətirə bilməz. Yəni ədəbiyyat sadəcə bir tədris fənni deyil. O, dünya tarixinin, mədəniyyət və incəsənət salnaməsinin yaradılmasına stimul verən, insanı öyrənən, insana və təbiətə sevgi aşılayan universal məzmunlu tədris fənni kimi qəbul olunmalıdır. Azərbaycan məktəblisi üçün ədəbiyyat dərsləri "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarının, C.Məmmədquluzadənin "Anamın kitabı" pyesinin, Sabirin "Hop-hopnaməsi"nin, C.Cabbarlının "Ölkəm", Ə.Cavadın "Göy-Göl", M.Müşfiqin "Həyat sevgisi", S.Vurğunun "Azərbaycan", və M.Arazın "Azərbaycan – dünyam mənim" şeirlərinin, R.Rzanın "Yenə o bağ olaydı" poemasının və neçə-neçə əsərlərimizin yaşatdığı fərəh, acı və düşündürücü hisslərdir. *Ən müasir texnologiyalar, robotlaşma, intensiv kompyuterləşmə dövründə bu fənnin təkcə ümumi orta təhsil proqramlarında deyil, həm də ali təhsil səviyyələrində təmsil olunması, şübhəsiz ki, məqsədəuyğundur.*

Ədəbiyyat fənn kurikulumu orta təhsilin səviyyələri və hər bir sinif üzrə məlum məzmun xətləri əsasında şagirdlərdə bilik, bacarıq və sərişdə formalaşdırmağı qarşıya məqsəd qoyur. Eyni zamanda ümumi və tam orta təhsil səviyyələrini bitirən məzunlar konkret kompetensiyalara malik olduqlarını göstərməyi bacarmalıdırlar. Bu tələblər öz yerində, amma istər milli ədəbiyyat olsun, istərsə də xarici, ədəbiyyat tarixi, şifahi və yazılı ədəbiyyatın janrları, ədəbi cərəyanlar, yaradıcılıq metodları, ədəbi anlayışlar, ədəbiyyat nəzəriyyəsi üzrə terminlər, ədəbi portretlər – bütün bunlar tarixi-xronoloji planda, ardıcıllıqla və sistemli şəkildə, sadədən mürəkkəbə doğru təqdim olunmalıdır. Bu, o demək deyil ki, biz tam orta təhsil səviyyəsində ədəbiyyat kursunu tarixi-xronoloji ardıcıllıqla verməklə altstandartlarla tələb olunan bilik, bacarıq və vərdişlərin qazanılması tələbini arxa plana keçiririk.

Uşaqlarda bədii oxuya həvəsin oyadılması və artırılması, onlarda ifadəli, ardıcıl, məqsədli oxu vərdişlərinin formalaşdırılması, uşaq və gənclərin müxtəlif yaş dövlərində hansı əsərləri oxuması, dil dərslərində qrammatikanın, orfoqrafiya və orfoepiyanın, leksika və frazeologiyanın mənimsədilməsi üçün seçilən və ya adaptə olunan bədii mətnlərin istifadəsi, onlara təhlil etmə və mühakimə yürütmə, hadisə və faktlara rəy bildirmə, təqdimat eləmə, dialoqa girmə bacarıqlarını aşılamaqla, ədəbi təhsilin verilməsi dil və ədəbiyyat üzrə fənn kurrikulumlarında məqsəd kimi qarşıya qoyulur. Ədəbiyyat fənninə münasibətdə ədəbi anlayış və terminlərin öyrədilməsini də bura əlavə etsək, şagirdlərin ədəbiyyat nəzəriyyəsi üzrə biliklər qazanması ilə bərabər, həm də yaradıcılıq potensialı olan gənclərin istiqamətləndirilməsinə şərait yaranar.

Hazırda Azərbaycan məktəblərinin təlim dövlət və qeyri-dövlət dillərində aparılan siniflərində istifadədə olan ədəbiyyat fənn kurikulumları və dərslikləri arasında müəyyən məzmun və yanaşma fərqlərinin mövcudluğu da nəzərdən qaçmır. Azərbaycan məktəblərində iki ayrı-ayrı ədəbiyyat fənn kurikulumunun istifadədə olması, təbii ki, ilk növbədə, təlim dövlət və qeyri-

dövlət dillərində aparılan siniflər üçün hazırlanan dərsliklərin yazılma metodikası və məzmununda özünü göstərir. İstər əvvəlki illər, istərsə də son 4 il üçün (*dərsliklər hər dörd ildənbir yenilənir*) ədəbiyyat fənni üzrə tədris resurslarının müqayisəsi ciddi fərqlər aşkar etməyə imkan verir:

1. Təlimi dövlət dilində aparan məktəblər üçün yazılmış dərsliklər "Ədəbiyyat" adlandırılsa da, burada 90-95 faiz milli, 5 faiz həcmində isə dünya ədəbiyyatı (daha çox təkrar-təkrar verilən bir xarici müəllif) təmsil olunub. Deməli, fənn proqramının və dərsliyin adı ilə məzmunu arasında fərq yaranır. Elə isə Azərbaycan dilində 150 cildlik "Dünya ədəbiyyatı kitabxana"sının yaradılmasına, məktəb kitabxanalarına hədiyyə olunmasına nə ehtiyac vardı? Təlim qeyri-dövlət dilində (rus dili) aparılan siniflərdə istifadə olunan dərsliklərdə Azərbaycan ədəbiyyatı 50 faizdən çox, rus və dünya ədəbiyyatı nümunələri isə təxminən 40-45 faiz təmsil edilib ki, bu da fənnin məqsəd və vəzifələrinə tam uyğundur. Digər qeyri-dövlət dillərində təlim aparan məktəblərimizdə ədəbiyyatın tədrisi mənzərəsini vermişdik. Müvafiq icra orqanları "Təhsil haqqında qanun"un 6-ci maddəsini rəhbər tutaraq (*6.2 – tədris proqramlarında "milli və ümumbəşəri dəyərlər"in nəzərə alınması tələbi*), ölkəmizin ərazisində fəaliyyət göstərən, Azərbaycan vətəndaşlarını təhsilə cəlb edən məktəblərin nəinki ədəbiyyat, həm də digər fənn proqramlarında azərbaycanşünaslıq materiallarının təmsil olunması problemini təcili həll etməlidir.

2. Təlimi dövlət dilində aparan məktəblər üçün yazılmış IX-XI sinif dərslikləri fənn kurikulumu ilə müəyyən olunan məzmun xətləri, standart və altstandartlar üzrə hazırlanmaqla bərabər, tarixi-xronoloji prinsip əsasında yazılıb. Bu tədris resursları milli ədəbiyyatı sistemli şəkildə, əvvəlki dövlərin ənənəsi ilə təqdim etməyi bacarır. Bu fikri təlim qeyri-dövlət dilində aparılan yuxarı siniflər üçün yazılmış son nəsil dərsliklər (2019-2022-ci illər) barədə söyləmək çətindir. Burada bir sistemsizlik var. 2011-2017-ci illər ərzində hazırlanmış "Literatura" dərsliklərinin əksəriyyəti alternativsiz tədris resursu kimi həm bu cəhətdən, həm milli ədəbiyyatın təqdim olunması, həm də digər elmi-metodiki aspektlərdə tələsik, ciddi ekspertiza rəyindən kənar hazırlanmış tədris vəsaitləri təəssüratı yaradır.

Keçən il istifadəyə verilmiş X sinfin "Literatura" dərsliyi (2022, *müəllif Sevinc Hüseynova*) daha çox təəccüb doğurur: tarixi-xronoloji prinsip bir yana, hətta mövzular üzrə fəsillərə yerləşdirilmiş müəlliflərin və əsərlərin ardıcıllığı məntiqsiz görünür. 2-ci fəsildə U.Şekspirin "Hamlet"i N.Gəncəvinin "İskəndərnamə"sini, F.Dostoyevskinin "Cinayət və cəza"sı A.Puşkinin "Elegiya"sını qabaqlayır. 3-cü fəsildə A.Çexovun "İonıç"ını, M.F.Axundzadənin "Aldanmış kəvakib"ini, A.Ostrovskinin "Cehizsiz gəlin"ini, E.Ponun "Kütlə adam"ını janr, ideya-mövzu və ədəbi tip cəhətdən birləşdirən nə var? Təəssüf ki, göstərilən müəllif tərəfindən bu il çapa hazırlanmış 11-ci sinif üçün "Literatura" dərsliyi də eyni təəssürat bağışlayır. Bu iki dərslik nə Azərbaycan, nə rus, nə də dünya ədəbiyyatının inkişaf mərhələləri barədə şagirddə fikir formalaşdırmır. Təlim dövlət dilində aparılan məktəblərimiz üçün X-XI sinflərin "Ədəbiyyat" dərsliklərini (2019-2022, *müəlliflər İsa Həbibbəyli, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva*) bu mənada uğurlu hesab etmək olar. Burada Qədim, İntibah, Orta əsrlər, Yeni dövr ədəbiyyatı, Maarifçi realizm, Tənqidi realizm və romantizm, Sovet dövrü, Milli özünəqayıdış mərhələsi üzrə müəllif və əsərlərin seçimi ədəbiyyatımızın ardıcıl inkişaf və təkamül mərhələlərinə uyğundur. Bu isə şagirdlərdə ən azı milli ədəbiyyatın inkişaf mərhələləri barədə dolğun və sistemli təsəvvür yaratmağa xidmət edir.

3. Təlim dövlət dilində aparılan məktəblər üçün dərsliklərdə təmsil olunan müəllif və əsərlərin seçimində konkret yanaşma nəzərdən qaçmır. Burada müəllif və əsər seçimi prinsipinə professor Bəşir Əhmədovun "Ana sözü" jurnalına (1991, № 9-10) verdiyi müsahibədən bir fikirlə istinad etmək istərdik: "Ən kamil sənətkarların ən kamil əsərlərini seçib tədris etmək, yerdə qalanları müstəqil öyrənməyi tapşırmaq lazımdır". Bu mənada qeyri-dövlət dilində tədrisi aparan siniflər üçün dərsliklərin müəyyən bir qismində müəllif və əsər seçimi meyarları gözlənilməyib. Bu, fənn kurikulumu tətbiq olunandan sonra yazılan dərsliklərdə daha çox müşahidə olunur. Yəni şagirdə bilik,

bacarıq, vərdiş qazandırmaq adı ilə mövzu-ideya, tərbiyə məsələləri arxa plana keçirilir. Məktəbdə "Ədəbiyyat" fənninə təlim-tərbiyə prosesinin tərkib hissəsi kimi baxmaq lazımdır. Əhməd Ağaoğlunun "Mən kiməm?" başlıqlı yazısında demokratik cəmiyyətlərin formalaşmasında, müstəqil düşüncəli şəxsiyyətlərin yetişdirilməsində ədəbiyyatın da roluna toxunulur. Burada belə bir fikir diqqəti cəlb edir: "Tərbiyədən danışarkən bu məfhumu çox geniş mənada anlamaq lazımdır. İnsan ruhuna təsir göstərən bütün amillər nəzərə alınmalıdır. Ailə, məktəb, ədəbiyyat, sənət, fikri və hissi cərəyanlar – bir sözlə, sadalanan hamısı tərbiyəyə daxildir." (Mən kiməm?, Bakı, 2019, s.48)

4. Təlim dövlət dilində aparılan məktəblər üçün dərsliklərin çatışmayan cəhəti bədii mətnlərə az yer verilməsindədir. Məntlər çox yığcam, ixtisarla verilir, bu kitablar daha çox metodiki vəsait rolunu oynayır, halbuki, paralel olaraq, həm də "Müəllim üçün metodiki vəsait" yazılır. Siniflər üzrə müntəxabatların olmadığı bir halda dərslikləri metodiki göstərişlərlə, sxem və cədvəllərlə doldurmağa lüzum görmürük. Təlim qeyri-dövlət dilində aparılan siniflərin dərsliklərinin daha çox şəkilli, reklam xarakterli jurnalları xatırlatması da gözdən yayınmır.

5. O fikirdəyik ki, bütün ədəbiyyat dərsliklərində müəllif və əsər sayı ilə illik tədris materiallarına ayrılan dərs saatları arasında tərs mütənasiblik müşahidə olunur. Verilən sual və tapşırıqların sıxlığı nəzərdən qaçmır. Mövzuların, mətnlərin qaçaraq öyrədilməsi (*əsasən 1 dərs saatı ayrılmaqla*) dərsdə qoyulan məqsədlərə nail olmağa imkan vermir.

6. Burada bir məqamı da vurğulamaq vacibdir. İcbari təhsil umumi orta təhsillə yekunlaşdığı üçün biz IX sinfi bitirənlərə də attestat veririk deyə, fikrimizcə, VIII və IX siniflərin "Ədəbiyyat" dərsliklərinin tərtibində də tam orta təhsilin (X-XI sinif) dərsliklərində olduğu kimi, tarixi-xronoloji prinsip gözlənilməlidir. Yəni müvafiq bilik, bacarıq və sərişdə öz yerində, ümumi təhsil üzrə məzun həm də ədəbiyyat barədə sistemli biliyə malik olmalıdır. Təbii ki, bu iki təhsil pilləsində verilən tədris materialları bir-birini təkrar etməməlidir. Dərsliklərin bir seriya olaraq oturuşmuş müəllif kollektivləri tərəfindən, konkret konsepsiya əsasında hazırlanmasını düzgün yanaşma hesab edirik. Bu mənada təlim dövlət dilində aparılan məktəblər üçün "Ədəbiyyat" dərsliklərini təkmil hesab etmək olar, çünki VIII-IX siniflərin dərslikləri də fənn kurikulumunda vurğulanan məzmun xətləri, satndartlar və altstandartlar, interaktivlik, fəndaxili və fənlərarası inteqrasiya və s. tələblər gözlənilməklə milli ədəbiyyatın inkişaf mərhələlərinə uyğun tarixi-xronoloji prinsip əsasında hazırlanmışdır. Umumi orta və tam orta təhsilin son siniflərinin "Ədəbiyyat" dərsliklərində təmsil olunan ədəbi janrların seçimi sual doğursa da (fikrimizcə, kurikulumun tələbinə uyğun, VIII və IX siniflərdə irihəcmli janrlarda əsərlərin verilməsinə məhdudiyyət qoyulmamalıdır), bütövlükdə bu dərsliklər təhsil pillələri üzrə məzunlar üçün müəyyən edilən kompetensiyaların qazanılmasına imkan verir.

Layihə rəhbəri və həmmüəllif olaraq, təlim qeyri-dövlət dilində (rus dilində) aparılan siniflərlər üçün hazırladığımız "Literatura" dərsliklərində (*2019-2023-cü illərdə, V-VIII siniflər üçün, həmmüəlliflər İlahə Carçıyeva, Bahar Bağırlı, Tatyana Biriç*) yuxarıdakı müqayisədə üzə çıxan çatışmazlıqlardan qaçmağa çalışmışıq. Çünki əvvəlki illərdə ənənvi tədris proqramları əsasında 7, 8, 11-ci siniflər üçün yazdığımız və təkrar istifadə üçün təkmilləşdirdiyimiz "Literatura" dərsliklərində (2006-2017) milli ədəbiyyatımızın dünya ədəbiyyatı kontekstində təqdim olunması təcrübəsi uğurlu aprobasiyadan keçmiş, şagirdlər və fənn müəllimləri tərəfindən bəyənilmişdi.

Göstərilən məqamların nəzərə alınması təkcə bir fənn kimi "Ədəbiyyat"ın tədrisinin yaxşılaşdırılması ilə bağlı deyil. Biz dil və ədəbiyyat dərsliklərimizdə şifahi və yazılı ədəbiyyat nümunələrimizin təmsil və təqdim olunması, onların ideya-mövzu, bədii, həm də tərbiyəvi funksiyası barədə əhatəli şəkildə düşünməliyik.

"MÜTƏRCİM" NƏŞRİYYATIN KİTAB ÇƏLƏNGİ



Erix Mariya Remark
Lissabonda bir gecə

Эльхан Зал Карахан
Хазарский простор
очерки истории хазар

Dr. Raşad İlyasov
OSMANLI ELM VƏ MƏDƏNİYYƏTİNƏ AZƏRBAYCAN TÖHFƏSİ
Şirvanlı, Naxçıvanlı, Qarabağlı alimlər və mütəfəkkirlər


Рафаил Миркин
ДАНЬ ПАМЯТНОМУ


MƏHƏRRƏM ZÜLFÜQARLI
ÜMUMDÜNYA TARİXİ
maraqlı faktlar, müqavilələr, qanunlar
(dərsliklərə əlavə)

Bernhard Şlink
Vida rəngləri
Diogenes

ТАТЬЯНА АРТЕМКИНА (АВАНД)
ЛАБИРИНТЫ ЖИЗНИ


Zuzanna Kawa
Anya Vud tapmacalar şəbəkəsində
Zuzanna Kawa
Ania Wood w sieci zagadek


GUNAY BAGHIROVA
AYDAN GULIYEVA
ENGLISH THROUGH FUNCTIONAL STYLES
TEXTBOOK

NƏZƏROV VÜQAR
MUSTAFAYEV ŞAHİN
MALİYYƏ MENECMENTİ
DƏRSLİK
MALİYYƏ MENECMENTİ
NƏZƏROV VÜQAR
MUSTAFAYEV ŞAHİN

ATD
BAŞINI UCA TUT,
ŞƏHİD ANASI

Fəxrəddin Veysəlli
SOSİODİLÇİLİK
dərs vəsaiti


Лидия Грановская
Лейла Алиева
РУССКАЯ ЭМИГРАЦИЯ
ПЕРВОЙ ВОЛНЫ
НА БЕРЕГАХ БОСФОРА
Lidiya Granovskaya
Leyla Aliyeva
BOĞAZ KIYILARINDA
RUS GÖÇÜNÜN
İLK DALGASI

Şirvan şəhərinin 60 illiyinə həsr edilir
AKİF ABBASOV
ZOĞAL MÜRƏBBƏSİ
VƏ
BAŞQA HEKAYƏLƏR

baki sağlamlıq
100
TEZİSLƏRİ
ТЕЗИСЫ
ABSTRACTS

ÜLFƏT İBRAHİM
ROMAN
DİLÇİLİYİNƏ
GİRİŞ
Dərs vəsaiti


TARİXİ DRAMLAR
XAQANİ ƏLİYEV
PƏNAHİ XAN
İRƏVAN 1804
ÇƏLƏBİ XAN
EHSAN XAN XƏNGƏRLİ
GƏNCƏ XANLIĞI
QARABAĞ XANLIĞI
NAXÇIVAN XANLIĞI
ŞƏKİ XANLIĞI


Xan Abdulla
DİLBAZİ XAN

AYKUT ƏRTOĞRUL
DAĞIN İÇİNDƏ NƏ VAR?
hekayələr toplusu


CAĞDAŞ ŞEİR
DAMƏT SALMANOĞLU
Nəğmə dinsin dodaqlarda
SEÇİLMİŞ ŞEİRLƏR


ATD
YARIMÇIQ QALMIŞ ARZULAR
Şəhid xanımlarının ömür-gün yoldaşları ilə bağlı xatirələri


100
TURİZM VƏ REKREASİYA XXI ƏSRDƏ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR
MATERİALLARI
5-6 may 2023-cü il
Azərbaycan – Bakı
TOURISM AND RECREATION IN THE 21st CENTURY: PROBLEMS AND PERSPECTIVES
MATERIALS
5-6 may 2023
Azerbaijan – Baku

IF20
ON THE OCCASION OF THE INTERNATIONAL DAY TO COMBAT
ISLAMOPHOBIA
CONFERENCE PROCEEDINGS
OF THE INTERNATIONAL CONFERENCE ON ISLAMOPHOBIA AS A SPECIFIC FORM OF RACISM AND DISCRIMINATION: NEW GLOBAL AND TRANSNATIONAL CHALLENGES
March 15-16, 2023
Baku, Azerbaijan

AİDA YUSİFZADƏ
ABŞ-ın ŞƏRQİ AVROPA DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ
Monoqrafiya

TƏRANƏ HACIYEVA
BƏDİİ MƏTNİN LİNQVİSTİK TƏHLİLİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ


Həcər Babayeva
Elxan Babayev
Seçilmiş məqalələr


NAİBƏ CAMALZADƏ
DEUTSCHE GRAMMATIK
(ein theoretisch-praktisches Übungsbuch)
ALMAN DİLİNİN QRAMMATİKASI
(nəzəri-praktik tapşırıq kitabı)